# ÖN SÖZ

## Kitab Azərbaycan və Kürd

## xalqlarının tarixi dostluğuna ithaf olunur

Kürdlər Yaxın və Orta Şərq regionunun ən qədim aborigen (yerli) xalqlardan biri olduğu kimi, Azərbaycan kürdləri də bu ölkənin ən qədim xalqlardandır. Azərbaycanda kürdlərhərhalda az saylı xalqlardan olsa da Yaxın və Orta Şərqdə ərəblərdən və türklərdən sonra sayına (50 milyona yaxın) görə üçüncü yeri tutur.

Azərbaycan Respublikası müstəqilliyini bərpa edən gündən *(180 oktyabr 1991-ci il)*, xüsusilə, Azərbaycan xalqının dahi öndəri, ümumilli lideri **H.Əliyev** hakimiyyətə yenidən qayıdan dövrdən *(15 iyun 1993-cü ildən)* bu ölkənin digər xaqları kürdlər də milli-mədəni muxtariyyət əldə etdi. Halbuki Azərbaycanın "iri addımlarla" "kommunizmə" doğru irəlilədiyi 1979-cu ilin rəsmi əhali siyahıya alınmasının məlumatlarına görə, guya, bu respublikada bir nəfər də olsun kürd yaşamırdı *(?!)*.

Bəli, 70 ildən artıq bir dövrdə "vahid sovet xalqının (?!) yaradılması pərdəsi altında "qırmızı imperiya" (SSRİ) ərazisində yaşayan xalqların, o cümlədən, azərbaycanlıların ruslaşdırılması, kürdlərin isə azərbaycanlaşdırılması prosesinin nəticəsidir ki, 1926 –cı ildə Azərbaycanda yaşayan kürdlərin rəsmi sayı 40,9 min nəfər olduğu halda, 1979-cu ildə bu göstərici 0 (sıfır)-a enmişdir (1,55).

1991-ci ildə Azərbaycan Respublikası Prezident Aparatının göstərişi və köməyi nəticəsində Azərbaycan kürdlərinin ilk rəsmi mədəni-muxtaroyyət qurumu olan "Ronayi" ("Ziya") Kürd mədəniyyət mərkəzi yaradıldı. 1992-ci ildən həmin mərkəzin orqanı olan "Dənge kurd" ("Kürdün səsi") qəzetinin nəşrinə başlanıldı. 1992-ci ilin 16 sentyabrında "Azərbaycan Respublikasında yaşayan milli azlıq, az saylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətlərinin inkişafı üçün dövlət yardımı haqqında" prezidentin fərmanı dərc olundu (Bax: "Xalq" qəzeti, 20 sentyabr 1992-ci il).

Qeyd olunan fərmandan dərhal sonra Azərbaycan Respublikası Təhsil nazirliyi ümumtəhsil məkəblərinin ibtidai sinifləri üçün tədris planlarına az saylı xalqların, o cümlədən, kürdlərin ana dillərinin öyrədilməsi üçün həftədə 2 saat dərs daxil edildi, müvafiq tədris proqramları, dərslik və dərsvəsaitlərinin hazırlanmasına başlanıldı. 1993-cü ildən başlayaraq Azərbaycan radiosunun "Araz" proqramında həftədə iki dəfə kürd dilində verilişlər təşkil olundu. Qısa vaxt ərzində kürdcə "Əlifba" dərsliyi, danışıq kitabçası və lüğətlər,, xeyli sayda bədii əsərlər işıq üzü gördü. Halbuki, "Sovet Azərbaycanı"nın 70 illik tarixində kürd dilində bircə dənə də olsun kitab çap olunmamışdı.

Bütün qeyd olunanları gözü götürməyən bədnam müxalifətçilər H.Əliyevin uzaqgörən, müdrik siyasəti nəticəsində müstəqil, demokratik və hüquqi dövlət quruculuğu yolunda inamla irəliləyən Azərbaycanda az saylı xalqların milli-mədəni inkişafının qarşısını almaq, ölkədə hərcmərclik yaratmaq məqsədi ilə xalqlara, xüsusilə kürdlərə, qara yaxmağa başladılar. Erməni dəyirmanına su tökən, xaricdəki ağalarının ayırdığı "qrantlar" hesabına yaşayan üzdəniraq "jurnalistlər" müxalifət mətbuatının səhifələrində Azərbaycanda yaşayan kürdlərə qara ləkə yaxır, onların görkəmli şəxsiyyətlərinə "PKK" – çı damğası vurmağa çalışır, hətta həyasızlıq və gədəlik edib 50 milyonluq bir xalqı təhqir etməkdən çəkinmirdilər.

Bu savadsız quyruqbulayanlar bilmirlər *(və ya bilmək istəmirlər)* ki, Azərbaycan və kürd xalqları qafqazın eləcə də Yaxın və Orta Şərqin **yeganə iki qonşu xalqıdır ki,** min illiklər boyu yadelli işğalçılara qarşı çiyin –çiyinə vuruşmuş, **aralarında heç bir zaman ciddi ixtilaf, münaqişə və ya müharibə olmamışdır.** Bu tarixi həqiqəti Qarabağ uğrunda gedən döyüşlərdə kürd xalqının mərd və igid oğlulları bir daha sübut etdi. 1988-ci ildən bəri başlayan bu müharibədə işğalçı ermənilərə qarşı döyüşlərdə kürd xalqının yüzlərlə igid oğlu qəhramancasına şəhid olmuş, onlarla döyüşçüsü "Azərbaycanın Milli Qəhramanı adına laiq görülmüş, "Azərbaycan bayrağı" ordeni və digər medallarla təltif olunmuşdur.

Azərbaycan kürdlərinin ağsaqqalı, görkəmli kürdşünas, etnoqraf, şair və ictimai xadim mərhum Şamil Əskərov qədim kürd xalqının adına kölgə salmaq istəyən qaragüruhçulara kəskin etirazını poyeziya dilinə çevirərək yazırdı.

Bilsin hamı, bilsin aləm,
Qəlb deyəni yazır qələm,
Od oğluyla çəkicimi,
Bir zindana vuran Kürdəm!

***

Vicdan satan, ara qatan,
Danışanda hələm, qələm,
Gecə gündüz Od yurdunun
Keşiyində duran kürdəm!
Od oğluyla çəkicimi
Bir zindana vuran kürdəm!

Azərbaycan Kürdlərinin tarixi və etnoqrafiyası haqqında XX əsrin 20-30 cu və Ç.X.Bakayevin həmin kürdəlin dilinə həsr olunmuş əsərindən başqa (2;3;4;5;6) indiyədək

heç bir kitab və kitabça işıq üzü görməmişdir. Doğrudur, Zaqafqaziya  Kürdlərinə həsr olunmuş bəzi kitablarda (7;8;9) Azərbaycan kürdlərinə də müəyyən yer verilmişdir, lakin bu əsərlərdə də sözü gedən kürdlər haqqında geniş və hərtərəfli məlumatlar təbii ki, əks olunmamışdır. Azərbaycanın qaragüruhçu müxalifətinə cavab olaraq yazılmış və **iki xalqın tarixi dostluğuna itfah olunmuş** bu kitab Azərbaycan kürdləri haqqında tarixi faktlara əsaslanan, hərtərəfli və geniş məlumatları özündə əks etdirən ilk monoqrafiyadır. Monoqrafiyanın yazılmasında Azərbaycan, kürd, rus, türk, erməni, inglis və fransız dillərində olan mənbələrdən istifadə olunmuşdur. Bu zaman tərcümə ədəbiyyatına deyil, ilkin mənbələrə daha çox üstünlük verilmişdir.

# BIRINCI HİSSƏ

## Kürdlər və Kürdüstan haqqında ümumi məlumat

## I.I. KÜRDLƏRIN MƏNŞƏYINƏ VƏ FORMALAŞMASI TARIXI

Kürdlər haqqında yazılmış əsərlərin demək olar ki hamısı təxminən belə bir cümlə ilə başlanır: **kürdlər** Yaxın Şərqin (*Ön Asiyanın)* **ən qədim xalqlarından** biridir. Kürdlərin mənşəyinə gəldikdə isə, bu barədə indiyədək yekdil fikir yoxdur. Kürdlərin bir etnos kimi meydana gəlməsi haqqında əfsanələr və elmi mülahizələr müxtəlif olsada onların hamısının orta "məxrəci" eynidir: bu xalq ən azı **səkkiz min il** əvvəl Mesopotomiya-nın Şimalı və Zaqros dağlarının ətəklərində, Van və Urmiya gölləri hövzəsində meydana gəlmiş və bu günə qədər öz tarixi vətənini qoruyub saxlamış aborigen xalqlardan biridir. Yeri gəlmişkən qeyd edək ki, Zaqros kürd sözü olub mənası "gün (günəş) doğan" deməkdir. *(Başqa fikrə görə bu dağ silsiləsi qədim kürd tayfası olan Zakurtilərin (Zakruti) adını daşıyır).*

Kürdlərin yaranması haqqında ən geniş yayılmış əfsanə öz başlanğıcını Firdovsinin "Şahnamə" əsərindən təsvir olunan əsatirdən almışdır. Əfsanədən deyilir ki, Cəmşiddən sonra İran və Turan taxtına əyləşən və pişdadilərin beşinci şahı olan Zöhhak taun xəstəliyinə tutulur. Onun dərdinə əlac edə bilməyən həkimlər yeganə müalicə vasitəsi kimi hər gün ona iki gəncin beynindən hazırlanan yeməyi təklif edirlər.

Bu işin icrası şahın Ərmail və Kərmail adlı iki vəzirinə tapşırılır. Vəzirlər insanpərvərlik göstərib bir gəncin beyninə bir quzunun beynini əlavə edib şaha yemək hazırlayır və beləliklə, hər gün bir gənci vətəni tərk etmək ilə ölümdən xilas edirlər. Azada olunan gənclər dağlarda məskən salıb yaşayır, ailə qurur və öz nəsillərini artırmağa başlayırlar. Həmin azda olunan gənclərin törəmələri sonralar **kürd** adlandırılır. Firdovsi özü "Şahnamə"də belə yazır:

Bu minval ilə o iki xeyirxah

Otuz gəncə hər ay olardı pənah.

Yığıldı bu yolla iki yüz nəfər,

Pənahgah tapıb, orda gizləndilər.

Verib hər birinə neçə baş qoyun,

Dedilər: - Alın çöllərə üz qoyun

Gedib tutdular dağda onlar qərar,

Şəhərdən uzaqda məkan saldılar.

Bu kürdlərki var, onların nəslidir,

Bütün ömrü dağda keçir, bəllidir. (10,41)

Kürd xalqının böyük tarixçisi Ş.X.Bidlisi özünün tarixi "Şərəfnamə" əsərində kürdlərin mənşəyi haqqında bu əfsanəni daha çox ağlabatan hesab etmişdir.(11)

Kürdlərin mənşəyi haqqında digər əfsanə Süleyman peyğəmbərin adı ilə bağlıdır. Həmin əfsanəyə görə Süleyman peyğəmbər birgün 500 gənc cini çağırıb onlara tapşırır ki, günbatan yerə qədər uçub uzaq Avropadan 500 gözəl qız tapıb gətirsinlər. Cinlər xeyli axtarıb 500 ay üzlü gözəl qızları tapana qədər Süleyman peyğəmbər vəfat edir. Bunu eşidən cinlər həmin qızlarla evlənir, onların çoxlu uşaqları olur. Beləliklə, yaranan yeni nəslə kürd adı verilir. (12,6).

Kürdlərin mənşəyi barədə elmi mülahizələrə gəldikdə, burada da yekdil fikir mövcud deyildir. Bu barədə irəli sürülən müxtəlif fikirlərə görə tətqiqatçıları bir neçə qrupa bölmək olar. Birinci qrup alimlərin fikrinə görə kürdlər yunan tarixçisi Ksenofonun e.ə. 441-cildə **"Anabazis"** əsərin-də təsvir etdiyi **kardu** *(kardux)* xalqı ilə eyni mənşəyə malikdir. *(13,93)*

Ksenofon qeyd olunan əsərində karduxların indiki Şimali Kürdüstan ərazisindəki dağlıq bölgədə yaşadıqlarını, çox döyüşkən olduqlarını, on minlik yunan qoşununa ciddi müqavimət göstərdiklərini, ətraf dillərdən fərqlənən yerli dildə danışdıqlarını yazır. Şərqşünas alim P.Şehtman **"Karduxlar-kürdlərin qədim əcdadlarıdır"** adlı əsərində göstərir ki, indiki Şimali kürdüstan ərazisində yaşayan karduxlar iran dillərinə aid olmayan öz dillərində danışmış, lakin sonrakı dövrlərdə irandilli tayfalarla qanaynayıb-qarışmış və kürd xalqlarının etnogenezində mühüm rol oynamışlar. (12,9) .

Kürdlərin etnogenezində Karduxların mühüm rol oynadığını görkəmli şərqşünaslardan akademik N.Y. Movir, akademik O. Vilçeviskiy, kürd alimi M.İ. Şəmsi, İhsan Nuri Paşa və başqaları da öz əsərlərində qeyd edirlər. (14;15,81). O. Vilçeviski kürdlərin bir xalq kimi formalaşması məsələlərinə həsr etdiyi sanballı monoqrafiyasında (14) arxeoloji, tarixi etnoqrafik coğrafi, iqtisadi? Leksik *(dil)* materialların təhlili əsasında belə qənaətə gəlmişdir ki, kürdlərin bir etnos kimi meydana gəldiyi tarixi Kürdüstan ərazisində, yəni Kiçik Asiya yaylası ilə İran yaylasının Şimal-qərb hissələrinin qovuşduğu ərazilərdə *(Şimali Mesopotomiya və Zaqros dağlarının ətəklərində, Urmiya gölü hövzəsində)* hələ e.ə. VI minillikdə məskunlaşmış qədim qədim tayfa birləşmələrindən **hürrilər,kutilər, lullubeylər kassitlər,** həmçinin karduxlar bu xalqın etnogenezində bu və ya digər dərəcədə iştirak etmişlər. Müəllif burada onu da qeyd edir ki, həmin tayfa birlikləri təkcə kürdlərin deyil, qonşu xalqların da etnogenezində müəyyən rol oynamışlar. Həmin tayfalar aborigen olub öz dillərində danışmırlar.Minnillər ərzində şərqdən Iran imperiyası ərazisindən gələn irandilli tayfalarla yerli etnosun qaynayıb-qarışması nəticəsində kür xalqı formalaşmışdır. Müəllifin fikrinə görə midiyalılara məxsus "Kara" termini iə sasanilərə aid **"kürd"** sözü arasında sıx əlaqə mövcuddur və mənası "döyüşçü xalq " deməkdir. (14,113).

M.İ.Şəmsi və bir çox kürdşünaslar isə belə hesab edir ki, kürd sözü "kardu" sözündən yaranıb, mənası **"pəhlivan"** deməkdir. (15,48). Göründüyü kimi, kürd sözünün mənası haqqındakı bu iki fikirdə bir oxşarlıq mövcuddur.

Məlum olduğu kimi, Azərbaycan alimlərinin də böyük bir qismi azərbaycanlıların etnogenezində O.Vilçeviskinin qeyd etdiyi qədim tayfaların iştirak etdiyini sübut etməyə çalışırlar. Məsələn, A.S.Sumbatzadə Azərbaycan xalqının etnogenezinə və bir xalq kimi formalaşması tarixinə həsr etdiyi monoqrafiyasında qeyd edir ki, "Azərbaycan xalqı öz mənbəyini **kuti-lulubey,** manna, atropatena və alban tayfalarından olan ölkənin avtoxton əhalisi ilə miqrantların, əsasən türkdilli tayfaların qaynayıb-qarışması prosesində yaranmışdır". (16,10). Bu isə o deməkdir k, azərbaycanlılarla kürdlərin ulu əcdadları eyni olmuş, sonralar birincilərin xalq kimi formalaşmasında türkdilli, ikincilərinkində isə irandilli tayfalar üstünlük təşkil etdiyi üçün onların onların dillərində fərq yaranmışdır. Belə ki, indiki Azərbaycan dili Altay dillər ailəsinin türk qrupuna, kürddilli isə Hind-Avropa dillər ailəsinin İran qrupuna daxildir.

Akademik O.Velevski sözügedən monoqrafiyasının sonunda belə bir nəticəyə gəlir ki, kürdlərin ayrıca bir xalq kimi formalaşması prosesi ən geci II əsrdə başlamıs və VI-VIII əsrlərdə başa çatmışdır. (14,115,116).

Ikinci qrup alimlər kürdlərin karduxlarla əlaqəsini inkar edirlər. Həmin alimlərdən T.H.eldeke, M. Hartman, Veysbax və başqaları karduxların və kürdlərin dil müxtəlifliyini əsas gətirərək belə hesab edirlər ki, kürdlərin qədim əcdadları karduxlar deyil, Strabonun və digər antik müəlliflərin qeyd etdikləri **kurtilərdir.** Azərbaycan alimlərindən akademik İ.Əliyev, Mənsur Əlisoy, R.Ş.Məlikov və başqaları da kürdlərin ulu əcdadlarının kurtilər (qutilər, kirtilər) olduğunu təsdiqləyirlər (17; 18; 19). Məsələn, akademik Əliyev "Midya Tarixi" adlı əsərində qeyd edir ki, "karduxları kürdlərin əcdadları olan kirtilərlə qarışdırmaq olmaz" (17,105)

R.Məlikov **"Kirtilər"** adlı məqaləsində bu qədim xalq haqqında geniş məlumat verərək özündən əvvəlki tətqiqatçıların fikirlərini təhlil edir və belə qənaətə gəlir ki, kürdlərin ulu əcdadlarının kirtilər olduğuna şübhə ola bilməz (19,1). Mənsur Əlisoy **"Kürdlər haqqında nə bilirik"** adlı məqaləsində kürdlərin mənşəyində qədim kutilərin *(qutilərin)* mühüm rol oynadığını təsdiqləməklə yanaşı, qeyd edir ki, onlar e.ə. 2500 –cü ildə mesopotomiyada hökmranlıq etmişlər(18,6). Qeyd etmək lazımdır ki, kutilərin Mesopotomiyada hökmranlığı e.ə. 2500-cü ildə deyil, O. Vilçevskinin yuxarıda göstərilən əsərində yazdığı kimi, e.ə. 2200-cü ildə başlamış və 60 ildən çox davam etmişdir (14,19). Digər mənbələrə görə Qutilər *(kirtilər)* burada 120 il hökmranlıq etmişdir (81,21).

Kürdüstanın şimalında *(Türkiyə ərazisində)* "Qutu dərəsi" nin indiyədək öz adını saxlaması və bu yerlər hal-hazırda da (4200 il əvvəl olduğu kimi) kürdlərin yaşaması adı

çəkilən alimlərin elim qənaətinin doğruluğuna dəlalət edən faktlardan biridir. Kürdlərin mənşəyinin kirtilər *(Qutilər)* ilə bağlılığını E.A.spayzr, B. Nikitin və başqaları da təsdiqləyir. (82,31).

"Ön Asiyanın İran tayfalarının erkən tarixi" adlı monoqrafiyasında E.A.Qrantovskiy göstərir ki, kürdlərin etnogenezində kirtilərlə yanaşı irandilli **mard** tayfaları da iştirak etmişdir.(20,373).

Akademik V.F.Minorskinin və bir çox kürd aliminin fikrinə görə kürdlərin ucu əcdadları irandilli midiyalılar *(medlər, mitanlar, madlar, marlar, mannalılar)* olmuşdur (21). V.F. Minovski "Kürdlər" adlı əsərində qeyd edir ki, Dəclə çayının sol sahilində kürdlərin yaşadığı **Cudi** dağı yüksəlir və Şərq əsatirlərinə **Nuh** peyğəmbərin gəmisi məhz bu dağı zirvəsində dayanmışdır. Buradaca qeyd etmək lazımdır ki, Nuh sözü kürdcə "yeni", Cudi isə "görünən yer" mənasındadır.

Milliyəti kürd olmayan Fəhmi Şirvani "Kürdlər adlı kitabçasında Yaxın şərqin ən qədim xalqlarından olduğunu qeyd edərək yazır ki, **Kürdlər bəşəriyyətin ən eski kavmidirlər.** Kurani – Kərimin də zikr etdiği gibi Hz. Nuhun tufandan sonra ilk konakladığı yer Cudidir. **Cudi dağı isə Kürdlərin dağıdır".** (22,19). Həmin müəllif daha sonra yazır: "Nuhun gəmisi Kürdüstandakı cudi dağına oturduktan sonra və Cudi dağına Nuh lierliğindən beşeriyyetin kahraman öncüləri indiğindən bu yana bu kahraman evlatlar Cudiyi terk etmemişlərdir". (22,72).

Göründüyü kimi akad V.F.minovskiy ilə dr. F.Şirnavinin kürdlərin qədim mənşəyə mailk olmaları barədəki fikirləri üst-üstə düşür. Birinci müəllif qeyd olunan əsərində daha sonra göstərir ki, Fəratın yuxarı lövhəsi və Van gölünün ətrafları həm də kürdlərin *(yəni digər xalqlarla yanaşı)* ən qədsim zamanlardan məskunlaşdığı ərazi olduğu halda, Tavr dağlarının bütün cənub yamacları və Dəclənin sol sahilindəki dağlıq ölkə *(Bohtan, Habur, böyük Zab çaylarının hövzəsi)* kürdlərin başlıca tarixi **ocağı** olmuşdur. V.F.Minorskiy qeyd olunan əsərində kürdlərin mənşəyinə bir daha toxunaraq yazır: "Əgər **mardlar mannalıların** nəslindəndirsə, bu hipoteza yəqin ki, Məsudinin X əsrdə qeyd etdiyi kürd eponiminin genelogiyasında öz təsdiqini tapar: Kürd-bin-Mard-bin-Sasad-bin-Qarb-bin-Havazin. Tarixi və coğrafi göstəricilər nəzərə alınsa, **küdr millətinin Midiyalıların** çox yaxın dialektlərində danışan iki qohum tayfaların- **mardların və kirtilərin** qaynayıb qarışması nəticəsində formalaşdığı çox qanunauyğun görünər" (21,98).

Kürdlərin dili ilə midiyalıların dili arasında yaxın əlaqənin olduğunu dr. F.Şinnavi də təsdiqləyir və qeyd edir ki, ".... tarihi kaynaklar" zerdeştin aslının kürt olduğunu, sonralardan İrana intikal etdiğini və Sasasin devletini iranlılarla kurduğunu söyləməkdədir" (22,8).

V.F,Minorski yazır: “Kürdlərin gerçək ataları....... Medlərdir” (84,41). İnglis alimi B. Son da kürdlərin kökünün Med// Madlarla bağlı olduğuna inanır (110,2-3).

Kürdlərin mənşəyi və bir xalq kimi formalaşması tarixi haqqında görkəmli alim Salavat Qallyamovun tətqiqatları arxeoloji, antropoloji, etnoqrafik, leksik və tarixi faktların zənginliyi, dərin elmi məntiqə əsaslanan təhlilləri və ümumiləşdirmələri,ağlabatan əqli nəticələri ilə diqqəti cəlb edir.Müəllifin elmi qənaətinə görə kürdlər **Şimali Mesopotomiyanın və Zaqros** dağlarının **ənqədim** sakinlərindəndir.

S.Qalyamov **“Qədim arilər və əbədi Kürdüstan”** adllı əsərində arxeoloji materialların təhlili əsasında bu nəticəyə gəlir ki, Kərkük şəhəri yaxınlığında yerləşən və qədim zamanlardan kürdlərin məskunlaşdığı **Cermo** məntəqəsində tapılan arxeoloji qazıntılar sübut edir ki, Kürdüstanın mərkəzi hissəsini təşkil edən bu yerlərdə **e.ə. VII minillikdə əkinçilik mövcud olmuşdur** (23,33). Müəllif daha sonra göstərir ki, Zaqros dağlarının qədim sakinləri olan kutilər-kürdlər ən azı iki min il *(e.ə.VIII-II min illiklər)* oturaq həyat tərzi sürən əkinçilər olmuşlar.

E.ə. V minillikdə Zaqros sakinləri olan kutilər (kürdlər) Mesopotomiya ovalığının məhsuldar torpaqlarını mənimsəməyə və öz məskunlaşma arealını cənuba doğru genişləndirməyə başlamışlar. E.ə.IV minillikdə **Kuti çarlığı** yaranmış və öz ərazisini şimal –qərbdə Suriya, cənubda İran *(Fars)* körfəzinədək genişləndirmişdir.

E.ə. III minillikdə kutilərin məhsuldarlıq allahı olan Inananın məbədi yaxınlığında şumerlərin qədim şəhəri olan Yrk meydana gəlmişdir. Eləhəmin dövrdə şumerlərin yazısı yaranmışdır. Beləliklə, **kutilər** *(kürdlər)* **mesopotomiyanın ilk yazısının müəllifləri hesab olunmalıdır.** Tətqiqatlar göstərir ki, Şumer yazılarındakı kənd təsərrüfatı məhsullarının və allahların əksəriyyətinin adı kürd dilinə aiddir. Müəllifin bu fikrini şumerlərin “Bilqamış” eposu da təsdiq edir. (83).

S.Qallyamovun fikrincə, Şumerlərin kürdlərlə bağlılığını sübut edən dəlillərdən biri onların dinində qadın ilahələrinin mühüm rol oynamasıdır ki, bu da müasir kürd cəmiyyəti üçün səciyyəvi cəhətlərdən biridir. Belə ki, ərəblərdən və digər qonşu xalqlardan fərqli olaraq kürd cəmiyyətində qadın yüksək mövqeyə, kişilərə bərabər hüquqa malikdir. (23,52). Şumerlərlə kürdlərin sıx əlaqəsinə dəlalət edən digər fakt-onların geyimlərindəki oxşarlıqdır ki, bu cəhəti bir çox şərqşünaslar təsdiqləmişdir. Və, nəhayət, başqa bir oxşarlıq: kutilərdə *(şumerlərdə)* çar olmamışdır. S.Qolyamov yazır: “kutilər-kürdlər Akkad ilə müharibələr zamanı hərbi demokratiya qanunları ilə yaşamışlar, bu vaxt hərbi əməliyyatlar zamanı tayfa şurası tərəfindən vahid hərbi rəhbər seçilir ki, bütün tayfaların başçıları ona tabe olur. Bu prinsip kutilərin törəmələri olan kürdlərdə bu günə qədər davam edir” (23,85).

Müəllifin qənaətinə görə **Şumer** sözü özü qədim kürdlərin ilan-allahı **Şamarın** adı ilə bağlıdır. Ezidi kürdlərin inancında bu gün də Şahmar mühüm yer tutur. *("Mar" kürd dilində "ilan" deməkdir).* Şumer ölkəsinin adına qədim hind yazılı abidələrində Meru ətrafındakı **"Şı"** müqəddəs yerinin adı kimi rast gəlinir. S.Qallyamov belə hesab edir ki, buradakı Meru dağı ilə "Avesta" dakı Xara Berezanti, yəni Zaqros dağlarındakı **Barzan** (İraq Kürdüstanında yerləşir) rayonu eyniyyət təşkil edir. Məhz burada qədim Kürdlərin-Kutilərin **Mehri** adlı dövləti yerləşirdi. Prof. E.A. Spayzer də yazır ki, Şumer şəxs adları kutilərin burada çox qədim zamanlardan yaşadığını sübut edir. (81,19).

S.Qalyamov tarixi-etnoqrafik, coğrafi materiallarla yanaş, başqırd (başkürd), kürd və qədim hind-sanskrit dillərinin müqayisəli təhlili əsasında belə nəticəyə gəlmişdir ki, kürdlər və başqırdlar (başkürdlər-şimal kürdləri) eyni mənşəli olub qədim hind ədəbi abidələri olan vedalarda *("Rikveda", "Axtarveda" və s.)* adı çəkilən **Kuru** tayfalarının törəmələridir. (24,5-11). Müəllifin fikrinə görə bu tayfaların ilk vətəni Orta Asiya, Qərbi Sibir və Cənubi Ural (indiki Başkordıstan-Başqırdıstan) olmuşdur. Və onlar e.ə. III minilliyin sonunda Ön Asiya və Mesopotomyaya *(tarixi kürdüstan ərazilərinə),* Hindistanın şimalına qədər yayılmışlar. Bu fikri şərqşünaslardan M.Mayrxofer, İ.M.Dyakonov, İ. Qreşeviç, T. Barrou, İ.İ.Steblin-Kamenskiy və başqaları da təsdiqləmişlər.

Bununla belə, T.V.Qamkrelidze və V.V.İvanov yeni hipoteza irəli sürərək qeyd edirlər ki, hind-ari tayfaları olan **Kuru-** Baharatların ilkin vətəni **Şərqi Anadolu** *(Türkiyə Kürdüstanı),* Şimali Mesopotomiya *(İraq Kürdüstanı)* və Cənubi Qaqaz olmuş və onlar bu regiondan şərqə doğru e.ə.II minilliyin əvvəllərində hərəkət etmişlər (24,6).

Kürd və başqırd (başkürd-başkord) dillərinin eyni mənşəli olduğunu sübut edən S-Qollyamov göstərir ki, bu iki xalqın eyniləşməli olduğunu onlara məxsus çoxsaylı tayfa adlarının oxşar olması da sübut edir. Məsələn, elə hər iki xalqın adı kürd *(kord)* və başkord *(başkürd)* eyni sözdən **Kuru** *("d"cəm şəkilçisidir)* etnonimindən yaranmışdır. Yaxud, qədim midyalılarıntayfalarından biri aryazantu *(kürd dilində "ari tayfası")* adlanırdı. "Ari" sözünün mənası *(kürd dilində "ar"-"aqır")* "odla", "oddan yaranmış" deməkdir.

Başqa misal. Tarixdən yaxşı məlumdur ki, Şimali mesopotomiyada yaşayan midyalılar *(yəni qədim kürdlər)* Cənubi Uralda yaşayan və başqırdların *(başkürdlərin)* əcdadları hesab olunan saklar-massaqetlərlə *(skif-sarmatlar)* sıx qohumluq əlaqələrində olmuşlar. "Masaqet"-kürd dilində "balıq ovlayanlar", "sarmat"-"baş matlar" *(mateinlər-madlar-midyalılar)* deməkdir. "Tarixin atası" Heradotun "Tarix" əsərində qeyd etdiyi "Savromatların adı kürd dilində olub mənası "atlı-cəngavər" mənasındadır" (24,7).

S.Qallyamov buradaca qeyd edir ki, tarixi mənbələrdən məlum olduğu kimi, başqırdların *(başkürdlərin)* qədim şəhərlərindən biri Suvar olmuşdur. İrandilli orta əsrlərin

xronikalarında İdel *(Volqa)* və Yaik *(Ural)* çayları arasındakı bütün ərazi birbaşa kürd dilində **"Dəşte Savaran"** *("Suvarlar səhrası, çölü")* adlandırılmışdır.

Kürdlərlə başqırdların etnogenezində eyni tayfaların iştirak etdiyini sübut edən dəlillərdən biri də kürdlərin geniş yayılmış tayfalarından biri olan **alanların** adı ilə bağlıdır. Belə ki, başqırdların əcdadı sayılan masaqetlər özlərini "arilər"-"alanlar" adlandırmışlar *("al"/ar+ "an"-cəm şəkilçisi)* (24,8). Bu fikri təsdiq etmək üçün S. Qallyamov ərəb tarixçisi İbn-əl-Əsirdən və İran tarixçisi Rəşiddədindən iqtibaslar gətirir. Birinci müəllif yazır: "1223-cü ildə Çingizxan Dəşte-Qıpçakda *(Dəşte-Savara)* qıpçaklarla və alanlarla qarşılaşdı. Monqollar qıpçaklara dedilər: "Biz sizinlə eyni qandan, alanlar isə bizə və sizə yad xalqlardır". Rəşiddədin bu hadisəni belə təsvir edir: "Biz və siz eyni xalq sayılırıq, alanlar isə bizə yaddır, bizimlə birləşin" (24,8-9).

Müasir dövrdə alanlar Van gölü hövzəsində, Tatvan əyalətində-öz adları ilə bağlı olan-Kürdalan (Kurd alan) şəhərində yaşayır. Başqırdıstanda *(Başkordıstanda)* da ən böyük yerli tayfalardan olan Elan tayfası yaşayır. Müəllif daha sonra Başqırdıstandakı **Tanqaur** *("tan" qədim hind dilində "bədən", "qa"-kürdcə "öküz" deməkdir)* tayfası ilə kürdlərə məxsus **Qoran** tayfasının eyni mənşəyə malik olmasını misal göstərir.

Kürdlərin mənşəyi haqqında başqa bir fikir də P.Lerxə və bəzi kürd alimlərinə aiddir. XIX əsrin ortalarında Rusiyanın İranda səfiri olmuş P.Lerx "İran kürdləri və onların əcdadları **Şimali Xaldeylər** haqqında tətqiqat" adlı əsərində (25) sübut etməyə çalışır ki, kürdlərin ulu əcdadları qədim xaldeylər olmuşdur. Dr. M.Nuri Dersimi onun bu fikrini təsdiqləyərək qeyd olunan əsərdən sitat gətirir: **"Kürdlər iranlı bir irq olan bu xaldeyalılardan önəmli dərəcədə irqi miras almış olan millətdir.** Xaldeyalılar Miladdan 3 min il əvvəl öncə Babilistanı istila və iraqa hakim olduqları üçün, Assuriya dövlətinin inkişafında böyük rol oynamışlar. Yeni araşdırmalar **Kürd tayfaları** arasında rast gəlinən **gözəl va cazibəli** tiplərin **həmin qədim xalqların** məhsulu olduğunu sübut edir "(26,70-71).

Tarixdən yaxşı məlumdur ki, xaldeylər *(xaldilər)* e.ə. I minilliyin əvvəllərində assuriyalıların **Yrarta** adlandırdığı və Ön Asiyada üç yüz il ömür sürmüş qədim dövlət qurmuş bir xalqdır. Bu qədim xalq özünə xaldey *(xaldi)* demiş, assuriyalılar isə onları urartalar adlandırmışlar. Əsasən van gölü hövzəsində yerləşən Urartu çarlığının sərhədləri özünün qüdrətli dövründə şimalda sevan gölünə, şərqdə Urmiya gölünə, cənub-qərbdə Dəclə çayı və Fərat çayının yuxarı axarına qədər azlalırdı.

Dr. Raysk yazır: "Xaldi *(Khaldi),* Kurti, əl-Kurdi adları Kürdlərin adıyla eyniyyət təşkil edir" (81,143).

Bildiyimiz kim Ermənilər qədim urartuları özlərinə "calamaq" üçün dəridən-qabıqdan çıxmış və hər cür saxtakarlığa əl ataraq çoxlu "elmi əsərləri", "tarixi faktlar"

uydurmuşlar. Halbuki, özlərini xaldey *(xaldi)* adlandırmış urartuların ermənilərlə heç bir əlaqəsi yoxdur. Belə ki, tətqiqatçılar arxeoloji qazıntılar zamanı müəyyən etmişlər ki, "hay"lar *(ermənilər)* Kürdüstan *(Urartu)* ərazisinə e.ə. 600-cü ildə yunalarla birgə Trakiyadan gəlmişlər. Bu zaman Urartu çarlığı artıq sübut etmişdi.

Bəzi alimlər Urartu sözünün üç kürd kəlməsindən *("Ur"+ "ard"+"tə")* yarandığını və mənasının "Ur-sənin torpağında" olduğu fikrini irəli sürürlər. Həmin müəlliflərə görə "Ur" –qədim Uruk şəhərinin qısaldılmış formasıdır. Uruk isə 2500 –ci ildə kürdlərin etnogenezində mühüm rol oynamış **hürrilərin** tikdirdiyi və öz adları ilə adlandırdıqları Xurik *(Hurik)* şəhərinin adı ilə bağlıdır. Onu da qeyd edək ki, "huri" sözünün kürd dilində mənası "gözəl" deməkdir.

Fərat *(kürd dilində Fırat-"enli çay")* çayının qədim məcrasının sahilində yerləşən Uruk şəhərinin ərazisində alman alimləri qədim **Şumer** sivilizasiyasının mərkəzlərindən birini aşkar etmişlər. Məhz bu mərkəz bəşəriyyətə qədim yazı nümunələrini, coğrafi xəritələri zodiak işarələrinə malik təqvimi və s. bəxş etmişdir. E.ə. 883-cü ildə xaldeylərin bir qismi assuriyalıların zülmündən xilas olmaq üçün şimala doğru hərəkət etmiş, Merivan *(Van)* gölünün hövzəsində və Kapavta gölünün cənub-qərb sahillərində məskunlaşmışlar.

Urartu dövlətini quran xaldeylər Kapavta gölünün adını dəyişərək Urmiya qoymuşlar. Urmiya sözünün mənası isə kürd dilində "Mənim Urum" deməkdir.

E.ə. II minillikdə **Manna** dövləti öz ərazisini Van gölünün hövzəsinədək genişləndirmiş və həmn dövrdən başlayaraq Ararat yaylası "Arimana", yəni "Manna ariləri" adlandırılmışdır. E.ə. V əsrdə yunanlar Ararat yaylasını "Arimana" *("Armenaya")* yaylası adlandırmışlar. Eradan əvvəl IV-III əsrlərdə Frigiya və Lidiyadan bu yerlərə köçüb gələn "hay"-lar *(sonralar ermənilər)* özlərini Arimananın sakinləri kimi qələmə verməyə başladılar. Beləliklə, **erməni,** yəni "Arimananın sakinləri" termini yaranmışdır. Bu isə o deməkdir ki, "hay"-ların *(ermənilərin)* vətəni heç də onların uydurduğu kimi Armeniya *(Armanna)* deyildir.

Onu da qeyd edək ki, bir çox tətqiqatçılar *(S.Qallyamov, N.Dersme və.b)* belə hesab edirlər ki, kürdlərin özləriə verdikləri ad-**Kur manc** məhz Manna sözü ilə bağlıdır və mənası "Mannanın oğlu" *("Kur" kürdcə "oğul")* deməkdir. Manna isə bəşəriyyatın atası sayılan, qədim hind ədəbi abidələrində (vedolarda) və "Avesta"da adı çəkilən **Mamı** *(german tayfaları öz əcdadlarını Mann hesab edirlər)* ilə bağlıdır.

S.Qallyamov kürdlərin Manna ilə bağlılığını sübut etmək üçün çoxsaylı dəlillər gətirərək yazır: **"Armeni,** daha doğrusu, **ari-manna** –Manna ariləri, manna-midiya tayfa ittifaqına aid olan tayfalardan birinin adını əks etdirən tipik qədim **kürd etnonimidir.** Belə mürəkkəb tərkibli adlar kürd və qədim fars dilləri üçün xarakterikdir; Belə adları müqayisə edin: Ariaramna, Ariabarran, Ariomard, Ariabiqn, Arimena-Manna ariləri etnoniminin

kürd mənşəli olması onun senefontun *(e.ə.V əsr)* qeyd etdiyi hürri-mitani etnonimi Arisennadan daha qədimliyini təsdiqləyir... Qədim Arimen, “Manna ariləri” etnonimi kürdlərin armeni-varta-“Manna arilərinin yurdu” *(“var, var-kürdcə “yurd”deməkdir)*-tayfasının adında bugünədək qorunub saxlanmışdır... Mürəkkəb tərkibli armena varto öz davamını digər kürd tayfaların-avroman və saurman-adında tapır. “Sauroman”-kürd dilində “Manna suvariləri” deməkdir. Beləliklə, üç kürd etnonimi-kurmanc *(“Manna oğulları”),* Sauroman *(“Manna suvariləri”)* və arimen *(“Manna ariləri”)* bir biri ilə birbaşa qohumluq əlaqələrinə malikdir (23,289-290).

Bu fukrə onu da əlavə edək ki, kürd tayfalarından biri bu gün də **Manki** adlanır. Bu sətrlərin müəllifi bu tayfadandır.

Kürdlərin mannalılarla sıx əlaqəsini sübut edən faktlardan biri də manna çarlarının adlarıdır. Həmin çarların ən məşhurları Artsari, İranzo, Ara, Losan və Deyok olmuşdur. Deyoka **Key Qubada Kürdi** adı verilmişdir.

Beləliklə, kürdlərin mənşəyi və formalaşması tarixi haqqında elmi mənbələrin tətqiqi və bu barədə alimlərin müxtəlif fikirlərinin təhlili göstərir ki, bu xalq, Ön Asiyanın və Şimali Mesopotomiyanın ən qədim-ən azı 8 min illik tarixə malik olan aborigen (yerli) etnoslarından biridir. Qədim kürd tayfa birləşmələrinin tərkibində fəal iştirak edən hürrilər, lallabeylər, kutilər, kassitlər, karduxlar, xaldeylər *(urartalar),* mannalılar, midyalılar (medlər, marlar) bu xalqın etnogenezində mühüm rol oynamışlar. Həmin tayfa birləşmələri e.ə. III-I minilliklər ərzində bir neçə qüdrətli dövlət *(Kuti imperatorluğu, Urarta çarlığı, Manna çarlığı, Midiya imperiyası və.s.)* yaratmağa və regionda dərini tarixi izlər (ilk yazı nümunələri-şumer yazıları, zodiak təqvimləri, qədim şəhərsalma mədəniyyəti, tarixi abidələr, dini-mənəvi dəyərlər-“Avesta”, Zərdüşt dini və s.) salmağa nail olmuşdur.

Bizim eranın II-VI əsrlərndə qeyd olunan tayfa birləşmələrinin vahid kürd xalqı kimi formalaşması prosesi getmiş və bu proses ən geci VII əsrdə başa çatmışdır. Artıq VII əsrdə bu xalqın yazılı ədəbiyyat nümunələri meydana gəlmişdir.(14,15)

# I.II. KÜRDLƏRIN VƏ KÜRDÜSTANIN QISA TARIXI.

“Kürdlərin yaşadığı yer mənasında olan Kürdüstan termininin yaranması tarixinə nəzər salaq. Yuxarıda qeyd etdiyimiz kimi qədim kürdlər bir sıra qüdrətli dövlətlər yaratdıqlarına baxmayaraq, onların heç birinə onu yaradan xalqın adı verilməmişdir. Necə ki, ABŞ-ı yaradan xalqın (inglislərin) adı bu ölkəyə verilməyib. Rəsmi sənədlərdə və elmi mənbələrdə Kürdüstan sözünə ilk dəfə XII əsrə aid materiallarda rast gəlirik. Belə ki, ***“XII əsrin ortalarında*** səlcuqlar sülaləsinin görkəmli hökmdarlarından olan Sultan Səncər Luristan (kürdlərə aid lan lurların vətəni) ilə Azərbaycan *(Cənubi Azərbaycan)* arasındakı vilayətləri, o cümlədən Həmədan, Dinəvər və Kermanşah sərhəddini müəyyənləşdirmək və qərb hissələri Kermanşaha tabe etmək məqsədilə Kürdüstanın bir qismini müstəqil elan edərək, onu həmin ərazidə yaşayan xalqın adı ilə adlandırdı. Bunda sonra Səlcuq dövlətinin rəsmi sənədlərində **Kürdüstan** adı yazıldı və paytaxtı **Bahar** şəhəri olmaqla, Sultan Səncərin qardaşı oğlu Sultan Süleyman 1159-1161-ci illərdə Kürdüstan padşahı oldu” (29,49).

Həmin dövrdə *(XII əsrdə)* Kürdüstan əyalətinin tərkibinə beş iri vilayət-Həmədan, Dinavər, Kermanşah, Şəhrizur, Səncər-daxili idi. Kürdüstan əyalətinin tabeliyindəki dairələrin sayı 16 idi: 1) Alanı; 2) Alişter; 3) Bahar; 4) Huftian *(Həftian)*; 5) Dərbənde Tac Xatun; 6) Dərbənde **Zənqe;** 7) Dəzbil; 8) Dinavər; 9) Sultanabade Çəm-Cəmal; 10) Şəhrizur; 11) Kermanşah; 12) Kərənd və Xoşan; 13) Kənqavər; 14) Mahidəşt; 15) Hərsin; 16) Vəstam.

XIII əsrədək Luristan vilayəti də Kürdüstanın tərkibinə daxil idi. (51,73).

Yuxarıda qeyd olunan vilayətlərin və dairələrin adından göründüyü kimi Sultan Səncər Kürdüstan əyalətinə kürdlərin qədim məskunlaşma ərazilərinin təxminən 40%-ni daxil etmişdi.

M.İ.Şəmsi yazır ki, Kürdüstan adını ilk dəfə İran tarixçisi Həmdulla Qəvzini 1339/40-ci ildə yazdığı əsərində qeyd etmişdir (29,49). Əlbəttə, bu fikirlə razılaşmaq olmaz. Çünki Kürdüstan sözünə H.Qəzvinidən xeyli əvvəl *(XII əsrin axırlarından)* bir sıra ərəb mənbələrində rast gəlirik. Digər tərəfdən Strabonun Kordienası elə Kürdüstan deməkdir. Kürdüstan Vilayəti zaman keçdikcə öz sərhədlərini genişləndirmiş və proto kürd tayfalarının kompakt yaşadığı qədim məskunlaşma ərazilərini əhatə etmişdir.

XII əsrin görkəmli kürd tarixçisi Şərəfxan Bidlisi özünün məşhur “Şərəfnamə” əsərində göstərir ki, Kürdüstan ölkəsi Hind dənizi sahilində olan Hormuzdən başlayaraq düz xətlə Mərəş və Malatiya vilayətlərinə qədər uzanır. O, şimalda fars, İraq-Əcəm, Azərbaycan və Ermənistanla, cənubda isə Diyarbəkir, Mosal və İraq-Ərəblə sərhədlənir. Övliya Çələbi isə 1646-cı ildə yazdığı əsərində Kürdüstanın Şimalda Ərzrum, cənubda isə Bəsrə *(İran)* körfəzinədək uzandığını qeyd etmişdir. (81,121-122). O,öz

"Səyahətnamə"sində göstərir ki, Ərzurumdan şimal-qərbdə yerləşən Baybort şəhəri əhaləsinin yarısı kürdlərdən ibarət olub (85,286).

**1514**-cü ildə baş vermiş Çaldıran döyüşünədək vahid ərazinin adı olan Kürdüstan həmin ildə Osmanlı və İran imperiyaları arasında iki yerə parçalandı. **1923-cü** ildə bağlanan lozanna müqaviləsindən sonra Kürdüstanın ərazisi dörd dövlət (Türkiyə, İran, İraq və Suriya) arasında bölüşdürüldü. Elə həmin ildə Azərbaycan SSR ərazisində kürdlərin adı ilə bağlı Kürdüstanın beşinci parçası-"Sovet Kürdüstanı", "Qızıl Kürdüstan" *(rusca "Krasnıy Kürdüstan"ın)* deyilən Kürdüstan qəzası yarandı. Beləliklə, elmi mənbələrdə vahid Kürdüstan əvəzinə Türkiyə Kürdüstanı, İran Kürdüstanı, İraq Kürdüstanı, Suriya Kürdüstanı və "Sovet Kürdüstanı" ifadələri içlədildi və içlədilməkdədir.

Elmi mənbələrin verdiyi məlumata görə tarixi Kürdüstanın sahəsi 530 min kv. km-dən çoxdur ki, bu da Fransanın sahəsinə yaxındır (8,45). Kürdlərin tarixən məskunlaşdığı və bu günədək yaşayıb öz azadlığı uğrunda mübarizə apardığı ərazi (vahid Kürdüstan) şimalda Kars-Ərzurum paralelindən başlayıb cənubda İran körfəzi sahillərinədək, qərbdə vəşimal-qərbdə Suriyanın Hələb şəhərinədək, şərqdə və cənub-şərqdə Maka-Xoy-Salmas-Mehabad-Sənəndəc-Kirmanşah-Hürrəmabad-Şəhre-Kord *(Kürd şəhəri)* xəttinədək, başqa sözlə Zaqros dağlarının şərq ətəklərinədək uzanır.

Qeyd olunan ərazilər hal-hazırda Türkiyənin cənub-şərq, İranın şimal-qərb, İraqın şimal, Suriyanın şimal-şərq hissələrini təşkil edir. Göründüyü kimi, bu ərazi Yaxın və Orta Şərq regionunun mərkəzi olub olduqca mühüm geostrateji mövqeyə malikdir. Qədim "İpək yolu", regionun ən iri şəhərləri olan İstanbul, Ankara, Təbriz, Tehran, Dəməşq, İsfan, Bağdad, Bəsrə və s. Şəhərləri bir-biri ilə birləşdirən beynəlxalq əhəmiyyətli magistrallar (avtomobil və dəmir yolları, boru- kəmər nəqliyatı) Kürdüstan ərazisindən keçir.

Kürdüstan ərazisi həm də təbii şəraitinin gözəliyi və zənginliyi ilə diqqəti cəlb edir. Belə ki, Kiçik Asiya yaylasını və Zaqros silsiləsini *(Kürdüstan dağlarını)* yaradan dağlar, dağlararası dərələr, Mesopotomiya ovalığının şimal hissələri təbii sərvətlərlə-qiymətli ağac növlərinə mail sıx meşələr, yay otlaqları olan güllü-çiçəkli *(Bingöl kürd dilində "çiçək qoxulu" yaylaq deməkdir)* yaylaqlar, neft, dəmir, əlvan metal filizləri, mineral sular, məhsuldar torpaqlar və s. olduqca zəngindir. Təsadüfü deyil ki üç qədim peyğəmbərin (Nuh, Zərdüşt, Ibrahim) vətəni məhz kürdüstan ərazisində yerləşir.

Kürdüstanın bu gözəlliyi və zənginliyi, beynəlxalq əhəmiyyətli geostrateji mövqeyi tarix boyu kürd xalqına xeyirdən çox zərər gətirmiş, hətta bu qədim etnosun faciəsinə səbəb olmuşdur.

Yuxarıda qeyd etdiyimiz kimi, II-VI əsrlərdə qədim kürd tayfa birləşmələrinin vahid

xalq kimi formalaşması prosesi getmişdir. Çox təəsüflə acı bir həqiqəti qeyd etmək lazımdır ki, qədim kürd tayfa birləşmələrinin yaratdığı qədim imperiya və çarlıqlar kimi, vahid kürd xalqının, yaradılması və qorunması uğrunda canını və qanını qurban verdiyi sonrakı dövlətlər *(Parfiyalılar, Sasanilər Rəvvadilər, Şəddadilər, Mərvanilər, Əyyabilər və s.)* də onların adını daşımamışdır.

Kürdlərin vahid xalq kimi formalaşdığı ilk əsrlərdən *(II-VI əsrlər)* bu günədək onların tarixi yadelli işğalçılara-böyük imperiyalara *(İran, Roma, Bizans, Ərəb xilafəti, Monqol-tatarlar, Osmanlı imperiyası və s.)* qarşı mübarizə tarixi olmuşdur. Məhz həmin mübarizə nəticəsində qəhraman kürd xalqı öz milli kimliyini, dilini, dinini, hətta öz milli geyimini, ən başlıcası doğma vətənini-yarandıqları torpaqları bugünədək qoruyub saxlaya bilmişdir. Həmin mübarizə tarixinin ən mühüm məqamlarına qısa nəzər yetirək.

Hələ e.ə.V əsrdə yunanlar Ksenofontun *("Anabazis" əsərinin, karduxlar haqqında ilk yazılı məlumatın müəllifi)* rəhbərliyi ilə *(on mindən ibarət qoşun ilə)* kürdlərlə üz-üzə gəldikdə axırıncıların ciddi müqavimətinə rast gəlmişdi. Ona görədə yunan sərkərdəsi və tarixçisi Ksenofont kürdlər haqqında yazırdı: "Karduxlar əla oxatan idilər. Onların yaylalarının böyüklüyü təxminən 2 dirsəkdən *(bir dirsək-44,4 sm-ə bərabərdir)* çox idi... Onların oxları qalxanları olub zirehləri deşib keçirdi"(30,198-200). Ksenofont daha sonra "Anabazis"də kürdlərin heçkimə baş əymədiklərini, qorxmaz olduqlarını və azad yaşamağa üstünlük verdiklərini qeyd edir.

E.ə. 550-ci ildə Midyanı *(Kürdlərin etnogenezində mühüm rol oynamış medlərin vətəni)* işğal edən Əhəmənilər kürdlərin məskunlaşdığı digər əraziləri də zəbt edtməyə başladılar. Beləliklə, 330 il hökmranlıq edən əhəmənilərlə kürdlər arasında zaman-zaman müharibələr baş verdi. E.ə. 529-cu ildə əhəməni çarı Kir öz qoşunlarını Araz çayı sahillərində yaşayan və Heredotun qəhrəman tayfa kimi qələmə aldığı Masagetlərin *(kürdcə: "balıqçıların")* üzərinə yeritdi. Bu zaman masagetlərin çarı Tomris adlanan cəsur və qorxmaz bir qadın idi. Kir ilə Tomris qoşunları arasındakı döyüşü Herodot "ən dəhşətli döyüş" adlandırmışdır. Döyüşdə əhəmənilər məğlub oldu və onların şahı Kir öldürüldü.

E.ə. 331-ci il oktyabr ayının 1-də Əhəməni III Dara ilə Makedoniyalı İsgəndərin qoşunları indiki Iraq Kürdüstanın paytaxtı olan Ərdəbil *(Hewler)* şəhərinin yaxınlığında yerləşən Qavqamela kəndinin ərazisində üz-üzə gəldi. III Dara döyüşdən qaçdı və Əhəməni qoşunları darmadağın edildi. Beləliklə, Əhəməni sülaləsinə son qoyuldu.

Makedoniyalı Isgəndər Midya *(Kürdüstan)* ərazisini işğal etdikdən sonra burada zərdüştlərin bütün dini və yazılı abidələrini dağıtdı, o cümlədən, "Avesta"nın nüsxələrini yandırtdı. Bu dövrdə *(e.ə.312-64)* Kürdüstan ərazisinin böyük hissəsi yananların-Makedoniyalı İsgəndərin sərkərdələrindən biri olmuş Selevk I Nikatorun adını daşıyan selevkilər sülaləsinin hakimiyyəti altına keçdi.

E.ə. 250-ci və eramızın 224-cü illərində Kürdüstan ərazisinin xeyli hissəsi **Parfiya** padşahlığının tərkibindən olmuşdur. Əvvəlcə Tehran və Gürgan şəhərləri arasındakı ərazidə *(Təbəristan vilayəti)* yaranmış Parfiyanın sərhədləri sonralar Mesopotomiyadan Hindistanadək genişlənmişdi. Bəzi tətqiqatçıların fikrinə görə Parfiya sözü Partan sözündən, bu isə "bər *(kürcə "ittifaq", "birlik*") Təbəristan" yəni Təbəristan birliyi *(İttifaqı, tayfası)* ifadəsinin qısaldılmış formasıdır. Selevkilərə qarşı üsyan qaldıran Parfiya satrapı *(Knyazı)* Aşek *(Kürdcə Aşıq, yəni aşiq)* bu imperiyanın və onu idarə edən Arşakilər *(yunanlar Aşeki-Arşak kimi qeyd etmişlər)* sülaləsinin banisi hesab olunur. Azərbaycan alimi M. Vəlili *(Baharlı)* yazır: "Bəzi alimlərin rəyinə görə, kürdlər-parfiyalılardandır *(partiyalılardandır")* (219,62). Əslində isə parfiyalılar kürdlərdəndir, yəni kürd tayfa birləşmələrindən biridir.

Şərqşünas alimlərin və tarixçilərin qeyd etdiyi kimi parfiya dili İran dillərinin şimal qərb qrupuna aiddir (31,477). Yəni bu dil kürd dilinə ən yaxın dillərdən biridir. Parfiyalıların kürdlərlə sıx əlaqəsini ingilis alimi S.J.Malxin də təsdiqləyir.Buna baxmayaraq, saxtakarlıqda və cəfəngiyat uydurmaqda mahir olan ermənilər *(əslində "hay"lar)* parfiyalıları və onların dilini də özlərinə aid etməyə çalışmışlar.

E.ə.132-ci ildə parfiyalıların çarı II Fərhad Pont əyalətində yunanları məğlub edib erməni Arşakı bura satrap (başçı) təyin edir. Arşakın ölümündən sonra (e.ə. 114-cü il) onun yerinə, oğlu Ardaşes keçir. Kürdlərin avropalılarla apardığı müharibədən və yunanların köməyindən istifadə edən Ardaşes özünü ermənilərin çarı elan edərək, kürdlərin yaşadığı Nisebin, Omed *(indiki Diyarbəkir)* və Urfa vilayətlərini işğal edir. E.ə. 89-cu ildən ölən Ardaşesin yerinə onun oğlu Tiqran *(hayların "Böyük Tiqran"ı)* keçir. Tiqranın başçılıq etdiyi erməni qoşunları e.ə. 71-ci ildə Pompeyin başçılıq etdiyi romalılar tərəfindən dağıdılır və yandırılır. Beləliklə, Kürdüstan ərazisində qısa zaman kəsiyində mövcud olmuş erməni çarlığına bir dəfəlik son qoyulur. Bu faktı şişirdib filə döndərən ermənilər öz cızma-qaralarında "dənizdən-dənizə" uzanan "Böyük Ermənistan" dan dəm vurur, qonşu xalqlara *(kürdlər, türklər, Azərbaycanlılar, gürcülər)* məxsus olan torpaqlara göz dikib və bu günədək işğalçılıq niyyətlərindən əl çəkmirlər.

Kürdüstanın qərb torpaqlarını işğal edən romalılar kürdlərin bütün ərazisini zəbt etmək məqsədilə Mesopotomiyaya doğru hərəkət edir. Kürdlərin ciddi müqavimətinə baxmayaraq, Kürdüstan ərazisinin yarıdan çoxu Roma imperiyası tərəfindən zəbt edilir.

Romalılardan sonra Kürdüstan ərazisi Sasanilər sülaləsinin hakimiyyəti altına düşür. Tarixdən məlum olduğu kimi, Sasanilərdövləti III-IV əsrlərdə Yaxın və Orta Şərqdə ən böyük imperiyalardan biri olmuşdur. Sülalə bu dövlətin banisi I Ərdəşirin babası Sasanın adını daşıyır. 224-cü ildə Parfiya hökmdarı V Artabanı məğlub edib bu dölətin varlığına son qoyan I Ərdəşir 226-cı ildə Ktesifon *(Mədain Ekbatan-indiki Həmədan-kürdcə "Midyalılar" deməkdir)* şəhərində hökmdar elan etdi. Beləkilə, öz sərhədlərini tədricən

qərbdə Mesopotomiyaya , şimalda Cənub Qafqaza *(indiki Gürcüstan, Ermənistan və Azərbaycan əraziləri,)* şərqdə Əfqanıstan və Orta Asiyaya, cənub isə Yəmənədək genişləndirən Sasanilər 400 ildən çox regionda hökmranlıq etdilər

Bəzi tətqiqatçılar *(xüsusilə, görkəmli şərşünas alim S.Qalyamov)* bir çox faktlar əsasında iddia edirlər ki, Sasanilərin sülaləsinin banisi I Ərdəşir milliyətcə kürd olmuşdur. I Ərdəşirin babası Sasan Kürdüstandakı Avroman *(Həmroman)* əyalətinin, onun *(Sasanın)* atası **Bəhman Kürdi** isə Avroman və Pəhlə vilayətlərinin hakimi olmuşdur. Ərdəşir sözünün mənası kürdcə "Yer üzünün aslanı" deməkdir.

Sasani imperiyasının dövlət dili məlum olduğu kimi, *(fəhlə vilayətinin adından götürülmüşdür)* dili olmuşdur. Sasanilərin kürd mənşəli olduğunu iddia edən alimlər pəhləvi dilinin müasir kürd dilinin dialektlərindən biri etdiyini söyləyirlər. İ. Nuri paşa özəsərində Sasanilərin kürd mənşəli olduqlarını əsaslandırmaq üçün Kürdüstanın Kəlhur vilayətinin hakiminin arvadı olan Şəhrabanu Xatunun öz atasına-sasanilərin axırıncı şahı **Yezdi Kürdə** qoran dialektində *(pəhləvi dilində)* yazdığı məktubu misal göstərir. Onu da qeyd edir ki, bu faktı ört-basdır etmək istəyənlər Yezdi Kürd sözünü Yezdəgird kimi yazmışlar (81,122-123).

Milliyətlə başqırd olan S. Qallyamov bir sıra faktlar əsasında Sasani sülaləsinin kürd mənşəli olduğuna təsdiqləyərək, yazır: "Sasani çarlarının etnik cəhətdən kürdlərə məxsus olduğunu süləl予nin *(sasanilərin)* İranda bütün hakimiyyəti dövründə ali kahinlər vəzifəsinin kürdlərin konfessional-troktatik nəsli olan **Barzanlarda** *(Barzanilər bu gün də Iraq Kürdüstanına başçılıq edir saxlanılması faktı izah edir)*" (24,314).

Barzanların *(Barzanilərin)* Sasani sülaləsində mühüm rol oynadığını Firdovsinin tarixi "Şahnamə" əsərindən də görmək olur. Həmin əsərdə Firdovsi dəfəlrlə kahin *(möbid)* *(Xərrad Bərzinin)* *(Bərzanın)* adını çəkir onun Virantiya imperatoruna zərdüştlük dininin əsaslarını izah etməsini təsvir edir. Tarixdən yaxşı məlumdur ki, Sasani dövlətində hakim din məhz Zərdüştlük dininin əsaslarını izah etməsini təsvir edir. Tarixdən yaxşı məlumdur ki, Sasani dövlətində hakim din məhz zərdüştlük idi. Zərdüşt peyğəmbərlər isə "yuxarıda qeyd etdiyimi kimi, kürdlərin ulu əcdadlarının *(melərin, madların, midyalıların)* əsas peyğəmbəri olmuşdur". Sasanilər V-VI əsrlərdə şimaldan gələn hunların və xəzərlərin *(hər ikisi türk tayfa birləşmələridir)* qarşısını almaq məqsədi ilə Xəzərin sahilində Dərbənd şəhərini və qalasını tikmişlər. Dərbənd-Kürd dilində "Bağlı qapı" deməkdir.

Əlbəttə, sasanilərin kürd mənşəli olduğunu sübut etmək üçün çoxlu sayda digər faktlar *(şahların adları, coğrafi adlar, etnik-dini xüsusiyyətlər və s.)İ*da tapmaq olar. Lakin faktsız-sübutsuz bir acı həqiqət gün kimi aydındır ki, Sasani dövləti də kürdlərin yaratdığı və ya qurulmasına kömək etdiyi digər dövlətlər kimi tarixə bir kürd dövləti kimi deyil, fars-İran dövləti kimi düşmüşdür. Daha acınacaqlısı odur ki, bu sülalənin hökmranlıq

etdiyi 400 ildən artıq bir dövrdə Kürdlər xeyirdən çox zərər görmüşlər. Təkcə onu qeyd etmək kifayətdir ki, sasanilərin Vizatiya, Roma və Bizans imperiyalarına qarşı apardığı müharibələr zamanı Kürdüstan ərazisi başlıca döyüş meydanı olduğu üçün burada saysız-hesabsız miqdarda kürd məhv olmuş,onların yüzlərlə şəhəri, tarixi və mədəniyyət abidələri dağıdılmış və yandırılmışdır.

VII əsrdən-Sasanilər imperiyasının süquta uğradığı dövrdən başlayaraq 300 ildən yuxarı kürdlər ərəb işğalçılarına qarşı mübarizə aparmış, onlara ciddi müqavimət göstərmiş, hətta bəzi kürd əyalətləri ərəblərə boyun əyməmiş, müstəqil hakimiyyətlərini davam etdirmişlər.

633-cü ilin aprel ayında Xəlifə Əbu Bəkrin əmri ilə ərəb sərkərdəsi Xalid ibn əl-Valid öz qoşunlarını İraq üzərinə yeritdi. Hirə şəhərini və Cənubi Kürdüstanın bir neçə yaşayış məntəqəsini işğal edən ərəblər 637-ci ildə kürdlərin ən qədim yaşayış məntəqələrindən biri olan Kadisi *(indiki Cəzirə, kürdcə "Cızira Botan"),* elə həmin ildə Hulvan *(İran Kürdüstanında yerləşən indiki Zohab)* şəhərini ələ keçirtdilər. Ərəb alimlərindən əl-əl-Bəla-Zuri  Hulvanın sülh müqaviləsi əsasında, Xəlifə ibn Həyat isə zorla ələ keçirildiyini yazmışlar (32,17). Bundan bir az sonra ərəblər Karmasin *(İran Kürdüstanındakı Kirmanşah)* şəhərini işğal edib, kürdləri ən qədim yaşayış məntəqələrindən biri olan **Mosal** üzərinə qoşun yeritdi. 640-cı ildə Mosul şəhərini və bu vilayətdəki bütün kürd kəndlərini zəbt etdikdən sonra bu yerlərə bir sıra ərəb tayfalarını köçürüb məskunlaşdırmağa və yerli əhalini ərəbləşdirməyə başladılar (32,18). Tətqiqatçılaeın yazdığına görə Xəlifə Ömərin göstərişinə əsasən kürd dilində danışan hər bir kəsin dili dərhal kəsilirdi.

642-ci ildə kürdlərin qədim şəhərlərindən olan  Şəhruzur üzərinə sərkərdə Utba ibn Fərkadın rəhbərliyi ilə hücuma keçən ərəblər burda çox ciddi müqavimətlə rastlaşdı və hətta, bir neçə dəfə geriyə çəkilməyə məcbur oldular. Nəhayət şəhəri ələ keçirdikdən sonra Utba ibn Farkad Xəlifə Ömərə yazırdı ki,  **kürdlərə**  qarşı döyüşüb torpaqlarını ələ keçirtdik, indi Azərbaycana doğru hərəkət edirik (33,20).

644-cü ildə Ərdəbil şəhərinə hücum edən ərəblər burada da ciddi müqavimətə rast gəldiklərini görüb, sülh müqaviləsi bağlamağa məcbur oldular. Həmin müqavilənin şərtlərinə görə əhali adından müqaviləni imralagen Azərbaycan mərzbanı hər il xilafətə 800 min dirhəm verməli, ərəblər isə bu ölkənin əhalisini öldürməməli, əsir almamalı, həmçinin burada yaşayan kürd tayfalarının *(balasacan, sabalan,satruzan)* üzərinə hücuma keçməməli idilər (33,21).

650-653-cü illərdə Bəsrə vilayətində, Xulvan və Dinavər rayonlarında kürdlərin ərəblərə qarşı üsyanları güclü qoşun sayəsində yatırılır. 685-ci ildə Saad ibn Huzayfə əl-Yaman Xulvan hakimi təyin olunur. Xilafət ona buradakı kürdləri itaətdə saxlamaq üçün

ildə 100 dirhəm vəd edir. 703-cü ildə Fars əyalətində özlərini müstəqil aparan kürdlərin müqavimətini qırmaq üzün bura yeridilən ərəb qoşununa xilafətin şərq vilayətlərinin hakimi əl-Xəccac şəxsən özü rəhbərlik edir.

744-cü ildə **anası kürd** olan Məhəmməd ibn Mərvan *(II Mərvan)* xəlifə təyin olunur. O, 750-ci ilə qədər xilafətə başçılıq edir (33,31). Xəlifə təyin olunanadək II Mərvan on iki il *(732-744)* Qafqazda hərbi döyüşlərdə təcrübə qazanmış, ərəb qoşunlarının Kiçik Asiyada Vizantiya imperiyasına qarşı hərbi əməliyyatlarına başçılıq etmişdir.

750-ci ildə Xəlifə Mərvan öldürüldü və xilafətin başına abbasilərsülaləsi keçdi. Abbasilər 1258-ci ilədək xilafətə başçılıq etdilər. Abbasilərin birinci xəlifəsi Abal-Abbas *(749-754)* hakimiyyətə keçən kimi Kürdüstan şəhərlərində yeni başçılar təyin etməklə burada öz iqtidarını güclənirdi. Xəlifə əl-Mənsur *(754-775)* abbasilərə qarşı Xürrəmilər hərəkatı geniş vüsət almağa başlayır. Ərəb mənbələrinin verdiyi məlumata görə kürdlərin üstünlük təşkil etdiyi Cibal vilayətində Əhalinin əksəriyyəti “xürrəmi dinini” qəbul etmişdi (32,37). Həmədan rayonunda xürrəmi hərəkatına qarşı döyüşdə ərəblər 60 mindən çox əhalini *(əsasən kürdləri)* məhv etmişdi. Ərəb alimi əl-Məsudinin verdiyi məlumata görə kürdlərin böyük əksəriyyət təşkil etdiyi Cibalda xürrəmilərin sayı 200 min nəfərdən çox idi (33,38).

IX əsrin 30-cu illərində Mosal vilayətindən ərəblərə qarşı kürdlərin daha güclü üsyanı baş qaldırır. Ərəb mənbələrinin verdiyi məlumata görə geniş ərazini əhatə edən və 838-ci ildə başlayan bu üsyana kürdlərin rəhbəri Cəfər ibn Fəhərcas başçılıq edirdi. Bu üsyan haqqında ərəb müəlliflərindən İbn əl-Fəkih, əl-Məsudi, ad-Dinavəri, İbn əl-Əsir, İbn Xaldun və başqaları öz əsərlərində müəyyən məlumatlar vermişlər. Məsələn, Əl-Məsudi yazır ki, Cəfər ibn Fəharcasın rəhbərlik etdiyi bu üsyan Mosal, Azərbaycan və Ermənistan arasındakı geniş ərazini *(başqa sözlə Kürdüstanın böyük bir hissəsini)* əhatə edirdi (33,41).

Həmin üsyandan ciddi narahat olan Xəlifə əl-Mötəssim 840-cı ildə görkəmli sərkərdə İtahın başçılığı altında böyük miqdarda qoşunu kürdlərin üzərinə yeritdi. Ciddi müqavimətə baxmayaraq, üsyan məğlubiyyətə uğradı. Ərəb mənbələri bu qələbəni Xəlifə əl-Mötəsinin hakimiyyəti dövründə altı ən mühüm qələbədən biri kimi göstərir, üsyana rəhbərlik edən Cəfəri Xürrəmilərin rəhbəri Babək, Təbəristan Knyazı Məzyar və digər görkəmli sərkərdələrlə müqayisə edirlər. Dasin dağlarında həbs edilən Cəfər öldürüldükdən sonra cəsədi Babək (837) və Məzyarın (839) edam edildiyi Sammara şəhərinə göndərilir və burada parça-parça edilir.

900-cü ildə Suriyada kərmatilər hərəkatı küclənməyə başlayır. Zikrəvayhın rəhbərlik etdiyi bu hərəkat tezliklə bütün Suriya və İraq ərazisinə yayılmağa başlayır. ərəb mənbələrində suriyanın qərb rayonlarından birinə hakimlik edən Cəfər ibn Həmid əl-

Kürdiyə İbn Zikrəvayhın yazdığı məktuba rats gəlirik ki, bu da onu göstərir ki, kürdlər suriyanın qərbində hələ IX əsrdə məskunlaşmışlar və onlar kərmatilər hərəkatında fəal iştirak etmişlər. Belə ki, həmin məktubda İbn Zikrəvayh Cəfər ibn Həmid əl-Kürdidən xahiş edir ki, ora göndərilən qoşuna köməklik göstərsin və baş verən hadisələr haqqında düzgün məlumat göndərsin (33,47).

IX əsrin ikinci yarısında ərəblərə qarşı mübarizədə Şimali Mesopotomiyada, xüsusilə Mosal vilayətində yaşayan kürdlər mühüm rol oynamışlar. 868-ci ildə xaricilər hərəkatı Müsavir ibn əl-Həmid ibn Müsavir əş-Şarinin başçılığı ilə Mosal vilayətində geniş vüsət almağa başladı. Bu hərəkatda əsasən kürdlər və ərəblər iştirak edirdi. Məlumolduğu kimi **xaricilik** IIV əsirdə meydana çıxmış ictimai-siyasi və dini cərəyandır. Dördüncü xəlifə Həzrət Əli Suriyada Əmavilərlə müharibədə (657) qələbə əzminə olarkən aldanaraq döyüşü dayandırıb, danışıqlar aparmağa razı olduğu üçün bir qrup onun ordusundan ayrılmış və buna görə də xaricilər adlanmışlar. Xaricilərin təliminə görə imam və ya hər hansı müsəlman başçı bütün şəxslərdən, müxtəlif sinfin nümayəndələrindən seçilə bilər; rəhbər üçün başlıca şərt-onun **ədalətli** olmasıdır (34,57).

Xaricilərin üsyanı qısa vaxt ərzində genişlənərək bütün Mosul vilayətini bürüdü. Xaricilərin Mosuldan Xulvana doğru irəlilədiyini görən Xəlifə onların üzərinə qoşun yeritdi, lakin ərəb qoşunları məğlub olub geri çəkilmək məcburiyyətində qaldı. Xaricilər az vaxt ərzində Mosalda, Xadissdə, Tikritdə, Sincarda, Nisaybində, Haburda hakimiyyəti ələ keçirtdilər. 876-cı ildə hərəkatın başçısı Müasavir əş Şari vəfat etdi. Xaricilər Şəhrizurda yerləşən **kürd Məhəmməd ibn Hurrada** müraciət edərək hərəkata başçılıq etməsini ondaç xahiş etdilər. O, əvvəlcə bu təklifi qəbul etmədi, sonradan fikrini dəyişsə də müəyyən münaqişələr nəticəsində Harun əl-Bacəli əş Şari hərəkatın başçısı təyin olundu.

892-ci ildə yeni Xəlifə əl-Mütədid (892-902) kürdləri öz tərəfinə çəkmək və beləliklə Mosal vilayətində qayda-qanun yaratmaq məqsədi ilə həmin vilayətə Əli bin Davud ibn Ruhzadə **əl-Kürdini** hakim təyin edir. 894-cü ildə Xəlifə əl-Mütədid Mosal üzərinə qoşun yeritdi. Bunu eşitən kürdlər və onlarla birgə hərəkət edin köçəri ərəblər son damla qanlarınadək vuruşmaq qərarına gəldilər. Onlar yan-yana üç süvari dəstəsi yaradıb bununla öz ailələrini qorumağa başladılar. Ciddi müqavimətə baxmayaraq üsyançılar saysız-hesabsız xilafət qoşununun böyük təzyiqinə tab gətirə bilmədi və məğlub oldular. Onların bir qismi öldürüldü, xeyli hissəsi Zab çayında boğuldu, müəyyən hissəsi isə əsir alındı. Buradan Bağdada doğru irəliləyən Xəlifə yol üstü kürdlərin yaşadığı əl-Həsəniyə məntəqəsinə daxil oldu. İbn əl-Əsirin məlumatına görə burada ərəblər on min qoşuna başçılıq edən və özünün müdafiə qalası olan **kürd şəddadla** qarşı-qarşıya gəldi. Xilafıt çox çətinliklə də olsa Şəddadın qoşunlarını məğlub edib, qalasını dağıtdı.

895-ci ildə Xəlifə əl-Mütədid yenidən Mosal vilayətinə qoşun yeritdi. Harun əş-Şarinin başçılıq etdiyi xaricilər güclü xilafət ordusuna ciddi müqavimət göstərsələr dəməğlub oldular. Üsyançılar Zab çayının dərəsindən Azərbaycan ərazisinə keçdilər.

IX əsrin ikinci yarısından başlayaraq, xilafətin tərkibində yaranan müstəqil və yarımmüstəqil əmirliklər, o cümlədən kürd sülalələri ərəblərə qarşı müqaviməti gücləndirmyə başladılar. 902-ci ildə Xəlifə əl-Müktəfiyə (902-908) qarşı Dəclə çayı sahilində təşkil olunan üsyanda kürdlər də iştirak edirdi. 902-903-cü illərdə Bağdaddan qaçan xilafət sərkərdəsi Əbu Səid əl-Havarizmi Şəhrizu hakimi İbn Əba ər-Rabi **əl-Kürdi** ilə qohumluq əlaqələrinə girərək, Xəlifə əl- Müktəfiyə qarşı mübarizəyə başladı.

IX əsrin ortalarından başlayaraq, kürdlərlə bərabər Kürdüstan ərazisində məskunlaşmış bəzi ərəb tayfaları da xilafətə qarşı mübarizə aparırdı. Həmin tayfalardan kürdlərin üstünlük təşkil etdiyi Diyar Rabiyədə yaşayan güclü tayfa birləşməsi olan taqlib xüsusilə fərqlənirdi. İslamın yayılmasından əvvəl bu tayfa xristian dinini qəbul etmişdi. IX əsrin sonlarında bu tayfa Həmdan ibn Həmdanın başçılığı ilə xaricilər tərəfindən vuruşduğu halda,X əsrin əvvəllərində Həmdanın oğlu Hüseynin rəhbərliyi altında xilafətə tərəf keçib xaricilər hərəkatının yatırılmasına kömək etdi.

905-ci ildə xəlifə əl-Müktəfi Hüseynin qardaşı, **anası kürd olan Əbu əl-Haycə** ibn Həmdanı Mosulun hakimi təyin etdi (33,52). Beləliklə Mosul vilayəti həmdanilər *(Həmdan ibn Həmdanın adını daşımaqla)* sülələsinin irsi hakimiyyəti altına keçdi. Həmdanilər əmirliyinin çiçəklənmə dövrü Əbu əl-Haycənin iki oğlunun hakimiyyətinə təsadüf edir. Qardaşlarından biri Həsən irsi əmir tituluna yiyələnərək müstəqil hakimiyyətə başladı. Həsənin arvadı Fatimə kürd **Əhməd ibn əl-Kürdinin** qızı idi. 941-ci ildə Bağdad sarayı *(xilafətin mərkəzi burda yerləşirdi)* Həsənə Nəsir əd-Dövlə titulu verdi və beləliklə o, Mosul vilaytətində öz hakimiyyətini gücləndirdi.

Əbu əl-Haycə ibn Həmdan Mosula hakim təyin olunan gündən qədim zamanlardan burada yaşayan və bu torpaqların qorunması uğrunda sərlər boyu canından və qanından keçmiş kürdlərin ciddi narazılığına səbəb oldu. Hərçənd ki, onun anası kürd idi. Əbu əl-Haycə ibn Həmdana qarşı ilk kürd üsyanı Məhəmməd ibn Bilalın rəhbərliyi altında başladı. Əvvəlcə Ninəva *(Mosul şəhəri yaxınlığında yerləşən qədim şəhər)* şəhərinə hücum edən üsyançılar onun böyük hissəsini ələ keçirməyə nail oldular. Əbu əl-Haycə ibn Həmdan üsyanı yatırtmağa çalışsa da heç bir nəticə əldə edə bilmədi.

906-cı ildə Xəlifədən kömək alan Haycə ibn Həmdan kürdlərin üzərinə qoşun göndərdi. Kürdlər Şəhruzura doğru hərəkət edib burada möhkəmləndilər. Kürdlərin başçısı Məhəmməd ibn Bilal hiyləgər gediş edərək, öz tərəfdarlarının Azərbaycan ərazisinə keçməsi üçün vaxt qazanmaq məqsədi ilə Ibn Həmdanla danışıqlar aparmaq qərarına gəldi.

Ərəb mənbələrinin verdiyi məlumata görə kürdlərin bu üsyanı Mosal vilayətində Cəfər ibn Fəhərcasın hərəkatından sonra ikinci böyük üsyan idi. Bu üsyanda kürdlərin **əl-hədbaniya** adlı tayfa birləşməsinin **beş mindən çox ailəsi** iştirak etmişdi ki, bu da həmin vilayətin ərazisində kürdlərin geniş məskunlaşdığına bir daha dəlalət edir. Ciddi müqavimətə baxmayaraq, məğlub olan kürdlərin bir hissəsi Azərbaycan *(Cənubi Azərbaycan)* ərazisinə keçdi, digər qismi isə həmdanilərin hakimiyyətinə tabe olmaq məcburiyyətində qaldı.

907-ci ildə yenidən üsyana başlayan kürdlər Mosal vilayətinin bir sıra rayonlarını ələ keçirtdilər. Həsən ibn Əhmədin başçılığı altında böyük miqdarda ərəb qoşunu üsyanı yatırtmaq üçün kürdlərin üzərinə hücuma keçdi. Kürd üsyançılarına başçılıq edən *əl-Kürdi* əl-Mütəqalib qüvvələrin qeyri bərabər olduğunu görüb Kürdüstan dağlarına doğru geri çəkilməyə məcbur oldu.

Bu dəfə də məğlub olan kürdlər ərəblərə qarşı öz mübarizələrini sonrakı illərdə də davam etdirmişlər. Belə ki, 913-cü ildə başlayan üsyan Əbu əl-Həycə tərəfindən yatırılsa da, 921-ci ildə kürdlərin **əl-maraniya** tayfası yenidən üsyana başladı (32,54). Bundan bir qədər sonra Şəhrizur vilayətində **cəlali** Kürdlərin üsyanı baş qaldırdı.

Həmdanilərlə kürdlər arasındakı münaqişələr bütün X əsr boyu davam etmiş, kürd sülələsi Mərvanilərin hakimiyyəti illərində *(X əsrin ikinci yarısında)* daha kəskin xarakter almışdır. Ərəb xilafətində yaranmış siyasi şəraitdən istifadə edən kürd feodalları X əsrin əvvəllərindən başlayaraq, xilafətdən ayrılmağa və müstəqil dövlət qurmağa cəhd göstərdilər. Beləcəhdlərdən birini İsfahan *(həmin dövrdə Fars əyalətinin paytaxtı idi)* hakimi **kürd Abdulla ibn İbrahim** əl-Məsməi *(əl-Kürdi)* göstərdi. Onun 908-ci ildə başladığı üsyana 10 mindən çox kürd və digər xalqların nümayəndəsi qoşulmuşdu. Kürdlərin üzərinə Bədr əl-Həməmənin başçılğı altında böyük qüvvə ilə qoşun göndərən Xəlifə əl Müktədir onların müqavimətini qıra bilmədiyini görüb Abdulla ibn İbrahim **əl-kürdi** xəlifənin sülh təklifinə razı olduğu üçün üsyan döyüşsüz sona yetdi. Ona görə də xəlifə əl-Müktədir **Abdulla ibn İbrahim** əl-kürdini 910-cu ildə Fars və Kirman əyalətlərinin hakimi təyin etdi.

913-cü ildə Xəlifə əl-Müktədir onu həmin vəzifədən azad edib, yerinə Bədr əl-Həməmi göndərdi. Ərəb mənbələri İbrahim əl-Kürdinin həyatının sonrakı 12 ili haqqında heç bir məlumat vermir. İbn əl-Əsir və İbn Xaldun qeyd edirlər ki, 926-cı ildə Abdullah ibn İbrahim əl-Kürdi Kirman əyalətində yerləşən Kofss *(Kufiçi)* rayonuna hücum edib beş min nəfəri əsir aldı və onları aparıb Fars əyalətində satdı (32,56). İbn Xaldun burada onu da qeyd edir ki, İbrahim əl-Kürdi həmin vaxt *(926-cı il)* Fars əyalətinin hakimi idi.

IX əsrin ikinci yarısından başlayaraq İran imperiyasının Azərbaycan əyalətində antiərəb və antifeodal hərəkatın güclənməsi ilə əlaqədar burada yaşayan kürdlərin fəallığı

artmağa başlayır. Bu fəallıq abbasilər xilafətinin zəiflədiyi X əsrin əvvəllərində daha ciddi xarakter alır. Elə həmin dövrdə *(934-938-ci illərdə)* **Deysəm ibn İbrahim əl-Kürdi** Azərbaycna əyalətində hakimiyyəti ələ keçirərək müstəqil dövlət qurmağa nail oldu **(Bu barədə II hissədə geniş məlumat verilir)**

928-ci ildə görkəmli kürd sərkərdəsi, deməli *(sonralar Azərbaycandili mənbələrdə milli)* tayfasının başçısı Mərdəvic ibn Ziyar *(Ziyar ibn Müsafir 890-cı ildə Deyləm və Təbəristanı ərəblərdən azad etmişdi)* Təbəristan və Gürgan *(Qorqan)* əyalətlərində hakmiyyəti ələ keçirərək Ziyarilər sülaləsinin *(928-1045)* əsasını qoydu *(34,81).* Mərdəvic ibn Ziyar Həmədandan sonra Xalvan İsfaham ərəb işğalçılarından azad etdi. Beləliklə Şərq Kürdüstan əyalətləri üzərində ərəb xilafətinin hakimiyyətinə son qoyuldu.

945-ci ildə Əhməd Buheyvinin başçılığı ilə Bağdadı ələ keçirən və abbasilər sülələsinin hakimiyyətinə son qoyan buheyvilərin qoşununda kürdlərin iştirakını bir çox ərəb mənbələri təsdiq edir (33,64). Hətta, bəzi tətqiqatçıların fikrinə görə abbasilər sülaləsinin *(başqa sözlə ərəb xilafətinin)* hakimiyyətinə son qoyan Buheyvilərin mənşəyi kürdlərlə bağlıdır.

Ərəb xilafətinin dağılmağa doğru getdiyini görən bəzi kürd fedalları öz hakimiyyətlərini gücləndirərək, müstəqil dövlət qurmağa başladılar. Məsələn, 961-ci ildə bir sıra kürd tayfalarını öz ətrafında birləşdirən Həsənvayh ibn **əl-Kürdi** paytaxtı **Dinavər** olan müstəqil **Həsənvayhilər** əmirliyinin və sülaləsinin (961-1015) əsasını qoydu (35,114). Həsənvay ibn əl- Kürdinin ölümündən sonra hakimiyyət onun oğlu Bədrə keçdi (979-1015). Həsənvayh əmirliyinə Həmədan, Dinavər, Həhavənd, Əsədabad və digər rayonlar daxil idi. Böyük kürd tarixçisi Şərəf xan Bidlisi yazır ki, Bədrin hakimiyyəti zamanı Dinavərdən Əhvaza, Xuzistana, Burucizdə, Əsədabada və Nəhavəndə qədər olan bütün qalalar, dağlar və düzənliklər Həsənvayh əmirliyinə tabe idi (11, 91).

Ərəb mənbələri Bədrin öz əmirliyində islam dininin yayılmasına və inkişafına böyük diqqət yetirdiyini qeyd edirlər. Məsələn, İbn əl-Cauzi yazır ki, Bədr hər il 20 nəfərin həccə getməsi üçün min dinar xərcləyir, hər cümə günü yoxsulları və dul qadınlara 1000 dirhəm verir, Həccə gedənlər üçün ayaqqabı tikilməsinə hər il 3000 dinar ayırır, hər ay 20000 dirhəm ölənlərin kəfəni üçün xərcləyir. Daha sonra həmin müəllif qeyd edir ki, Bədr öz ərazilərində 3000-dən çox məscid tikdirmişdir (33,72-73).

Ümumiyyətlə, X-XIII əsrlərdə yadelli işğalçılara qarşı mübarizəni daha da gücləndirən kürdlər böyük tayfa imperiyası yaratmağa nail olmuşdur. Kürd tarixşünaslığının "şah əsəri" olan "Şərəfnamə" də və digər xalqlara aid bir çox elmi mənbələrdə qeyd edildiyi kimi, bu dövrdə kürd sülalələri və tayfa birləşmələri Diyarbəkir, Cəzirə, Dinavər, Şəhrizur, Luristan, Şam *(Suriya)*, Misir, Fars, Azərbaycan *(Gəncə)*, Ərməniyyə *(indiki Ermənistan)* və s. əyalətlərdə müstəqil hökumət təşkil etmişlər (29,51).

Onu da qeyd edək ki, həmin hökumətlərdən və sülalələrdən bəziləri öz müstəqilliyini XIX əsrin 30-cu illərinədək *(Dersim kürdləri)* qoruyub saxlaya bilmişdir.

Güclü hökumət qurmuş və əsirlər boyu öz hakimiyyətini davam etdirmiş qüdrətli kür sülalələrindən Şəddadilər *(II hissədə bu sülalənin Azərbaycan və Ermənistan ərazisində qurduğu feodal dövlət haqqında geniş bəhs edilir)*, Mərvanilər, Rəvvadilər, Əyyabilər, Bani Ərdəlan, Bidlisilər, dərsimlilər və s. Xüsusi qeyd etmək lazımdır. Həmin sülalələrin qurduğu müstəqil hökumət və dövlətlərin tarixinə aid xülasəni burada qeyd etməyi məqsədəuyğun hesab edirik.

**Rəvvadilər** sülaləsinin qurduğu Rəvvadilər dövləti haqqında Azərbaycan sovet Ensklopediyasının VIII cildində oxuyuruq: “Rəvvadilər dövləti-Azərbaycanda orta əsr feodal dövləti *(10 əsrin yarısı-1116/17)*. Paytaxt təbriz şəhəri idi. Ərəb xilafətinin zəifləməsi dövründə meydana gəlmiş dövlətlərdən biri olan Rəvvadilər dövlətinin əsasını Vəcna ibn-Ər-**Rəvvad** qoymuşdur. Hələ VIII sərdən Azərbaycanda məskən salmış **əzdi** ərəb nəslinə mənsub olan Rəvvadilər Marağa, Təbriz, Əhər və s. yerlərdə hakimlik etmiş, hakimlik etmiş, Salarilər dövlətin. Son qoyaraq, Azərbaycanın cənub və cənub qərb vilayətlərində hakimiyyəti ələ keçirmişdilər” (37,128). Elmi mənbələrə əsasında verilmiş bu qısa məlumatda hər şey doğrudur; bircə faktdan-Əzdilərin ərəb əsilli olmasından-başqa Rəvvadilərin kürd mənşəli olması və hələ VIII əsrdə ərəb xilafətinə qarşı mübarizə aparması haqqında bir çox tətqiqatçılar, o, cümlədən görkəmli gürcü alimi A.M. Menteşaşvili fikir söyləmişdir (36,3).

Rəvvadi dövləti haqqında ASE-də verilmiş bu qısa məlumatda onu da dəqiqləşdirməyə ehtiyac vardır ki, bu dövlətin ərazisi Azərbaycanın cənub və cənub-qərb vilayətlərini deyil, həmçinin Kürdüstanın şərq hissəsini *(İran Kürdüstanı)* də əhatə edirdi.

Daha sonra ASE-də qeyd olunduğu kimi, Təbrizdə möhkəmlənən Rəvvad əl-Əzdi, sonralar isə onun oğlu Vəcna ibn ər-Rəvvad xilafətə tabe olmaqdan imtina etdi. Məhəmməd ibn ər-Rəvvadın dövründə Rəvvadi dövləti yarımmüstəqil fəaliyyət göstərirdi. Vəhsudan ibn Məhəmməd və onun oğlu Məmlan ibn Vəhsudanın hakimiyyəti illərində Rəvvadilər dövləti iqtisadi-siyasi və mədəni cəhətdən inkişaf etdi. Müharibə zamanı Rəvvadi dövləti 100 minə yaxın yaxın piyada və **süvari qoşunu** döyüş meydanına çıxarmağa qadir idi (37,128).

Rəvvadi hökmdarları Vəhsadan ibn Məhəmməd və və Məmlan ibn Vəhsudan qərbə doğru irəliləyən oğuzları, sonralar isə Səlcuqlara qarşı uğurla mübarizə aparmışlar. Belə ki, 1038-ci ildə Azərbaycana soxulmuş oğuzları məğlubiyyətə uğratdı və onlara qarşı Şəddadi hökmdarı ləşkəri ilə ittifqa girdi. 1054-cü ildə Vəhsudan Azərbaycanı işğal edən Səlcuq sultanı toğrula tabe oldu. Vəhsudanın yerinə keçən oğlu Məmlan müstəqilliyə can atdığı

üçün sultan Alp Arslan tərəfindən hakimyyətdən salındı, Rəvvadi dövləti müvəqqəti olaraq süqut etdi.

1108-ci ildə Rəvvadi hökmdarı Əhməd Yəl Rəvvadi dövlətinin bərpə etməyə nail oldu. O, 1112-ci ildə Suriyada 5 min süvari ilə səlibçilərə qarşı müharibədə iştirak etdi. Əhməd Yəlin Bağdada batinilər *(batin-ərəbcə daxili deməkdir, batinilik-islam dinində təriqətçi dini-fəlsəfi təlmidir)* tərəfindən öldürülməsilə *(1117-ci il)* Rəvvadilər dövlətinə son qoyuldu.

Rəvvadilərin hakimiyyəti dövründə çoxsaylı feodal müharibələrinə baxmayaraq, Azərbaycanda iqtisadiyyat, elm, mədəniyyət, sənətkarlıq və ticarət xeyli inkişaf etmiş, təbriz şəhəri abadlaşdırılmış və ətrafına hasar çəkilmişdir. Təsadüfi deyil ki, görkəmli Azərbaycan şairi Qətran Təbrizi Rəvvadi hökmdarlarına bir sıra qəsidələr həsr etmişdir (37,128).

Qüdrətli kürd sülalələrindən biri də **Mərvanilərdir.** Tarixdə iki Mərvanilər sülaləsi məlumdur: birincisi-Əməvilər sülaləsinin sonuncu xəlifəsi olan I Mərvan İbn əl-Hakimidən *(onun da anası kürd idi)* başlanan qolu; ikincisi-Diyarbəkir hakimləri sülaləsi. Kürd mənşəli Mərvanilər haqqında ASE-nin VI cildində verilmiş qısa məlumatda oxuyuruq: "**Kürd mənşəli** Mərvanilərin banisi tayfa başçısı **Baz** idi. Baz Ermənistan və Kürdüstanda bir sıra qalaları ələ keçirmişdi. Onun varisləri sonralar Diyarbəkir, Xilafət və mələgirdi tutaraq müstəqil hakimlik yaratdılar. Bir müddət Mosulda hakimlik etmişlər.

Mərvanilər Abbasilər, Fatimilər və Səlcuqilərlə, həmçinin Bizansla yaxşı menasibət saxlamış, bir sıra abadlıq işləri aparmışdılar. Mərvanilərə Səlcuqilər son qoymuşdular" (38,519).

Bu qısa məlumatın götürüldüyü "Müsəlman sülalələri" kitabında (39) Mərvanilər haqqında daha geniş materiallar verilmişdir. Tarixi mənbələrdə Mərvanilər sülaləsinin aşağıdakı hökmdarlarının adları öz əksini tapmışdır.

1) Həsən İbn Mərvan (990,997);
2) Məhəmməd əd- dövlə Səid (997-1011);
3) Nəsrəd-dövlə Əhməd ibn Mərvan (1011-1061);
4) Nizam əd-Dövlə Nəsr (1061-1063);
5) Səid (1063-1079);
6) Mənsur (1079-1085).

Onu da qeyd edək ki, ASE-də Mərvanilərin banisi kimi göstərilən Bazın adı kürdlərin əfsanəvi qəhrəmanı Əbu Abdulla əl-Hüseyn olmuşdur. Mərvanilər sülaləsinin

çiçəklənmə dövrü Əhməd ibn Mərvanın hakimiyyəti illərində *(1011-1061)* təsadüf edir. S.X.Bidlisi "Şərəfnamə" də qeyd edir ki, "Kürdlərdən **ilk sultan**" **Əhməd ibn Mərvan** olmuşdur. Fatimilərlə, Vizantiya imperatoru Səlcuq sultanları ilə sülh müqaviləsi bağlayan Əhməd ibn Mərvan ölkəsində iqtisadiyyatın və mədəniyyətin inkişafı üçün əlverişli şərait yaratmışdır.

Təkcə Yaxın və Orta Şərq deyil, dünya tarixinə qızıl hərflərlə öz adını yazdırmış kürd sülalələrindən biri **Əyubilərdir.** Bu sülalələrin tarixi, xüsusiləonun banisi Səlahəddin Əyyubi haqqında onlarla elmi və bədii əsərlər yazılmış, filmlər çəkilmişdir. Təəsüf ki, dünya şöhrətli bu sülalə haqqında ASE-nin VI cildində cəmi bi neçə cümlə yazılmışdır.

Əyyubilər, Eyyubilər- Yaxın Şərqdə sülalə əsasını Misirdə Fatimilərin süqutundan sonra 1171-ci ildə Səlahəddin qoymuşdur. Sülalə Səlahəddinin atası Əyyub ibn Şadinin adı ilə adlandırılmışdır. Əyyubilərin müxtəlif qolları 12-13-cü əsrlərdə Misirdə (1171-1250), Suriyada Dəməşq *(1186-1260),* Hələb *(1186-1260)* və Xüms *(1178-1262)***),** Mesopotomiyada *(1200-1945)* və **Cənubi Ərəbistan** *(1173-1228)* hakimiyyətdəolmuşdur. Misir Əyyubiləri səlibçilərlə mübarizənin başlıca təşkilatçılarından idi. Məmlüklərin hərbi siyasi başlıca artması və sülalə daxilndəki çəkişmələr Əyyubiləri zəiflətdi. Əyyubilərin sas Misir qolu 1250-ci ildə məmlüklərin sui-qəsdi nəticəsində süqut etdi (40,152).

Göründüyü kimi burada Əyyubilərin etnik mənsubiyyəti haqqında heç nə deyilmir. Halbuki təkcə küdr müəlliflərinin deyil, çoxlu sayda xarici ölkə alimlərinin, görkəmli şərqşünasların əsərlərində Əyyubilərin kürd mənşəyi haqqında açıq-aydın yazılmışdır. (7;12;21;22;23;25;35;36;41;42;43;44). Sülalənin banisi Səlahəddin Yusif ibn Əyyub 1138-ci ildə İraqın Tikrit şəhərində anadan olmuşdur. Elmi mənbələrin verdiyi məlumatlara görə onun atası Racəddin Əyyub və babası **Şadi Rəvənd** adlı kürd tayfasına aid olub, X əsrdə yaşadıqları Dvin *(Dəbil, Yerevan yaxınlığında yerləşir)* şəhərindən *(hazırda şəhər tipli qəsəbədir)* İraqa köçmüşlər. Yeri gəlmişkən, onu da qey edək ki, İrəvan *(Yerevan)* və İrandakı rəvandüz şəhərlərinin adı məhz kürdlərin qəhrəmanlıqlarla dolu tarix yazan **Rəvənd** tayfası ilə bağlıdır. Təkcə onu qeyd etmək kifayətdir ki, bu tayfa islam dünyasına, Yaxın və Orta Şərqin ölkələrinin tarixinə parlaq səhifələr yazmış iki qüdrətli kürd sülaləsini *(şəddadilər və Əyyubilər)* bəxş etmişdir.

Rəvənd tayfasının görkəmli nümayəndələrindən olan Şadi *(Səlahəddinin babası)* iki oğlu *(Racəddin Əyyub, Əsədəddin Şirkuh)* ilə birlikdə İraqa köçüb burada məskunlaşmışdır.

1164-1169-cu illərdə Misirə qarşı hərbi yürüşlərə Səlabəddinin əmisi Şirku rəhbərlik edirdi. 1169-cu ildə Misirin paytaxtı Qahirə şəhərinə "ağ atın belində daxil olan" Səlahəddin hakimiyyəti ələ alaraq əyyubilər sülaləsinin əsasını qoydu. Tarixçilər Səlahəddinin şəxsi katibi əl-İsfahi onu "VIII əsrin Napalyonu" , "Qüdsin xilaskarı", "Zəfər

çalan şah", "Müsəlman dünyasının birləşdiricisi" və s. adlandırmışlar. Görkəmli inglis yazıçısı Valter Skott onu **"Şərq tarixində ən böyük şəxsiyyət** *(fiqur)***"** adlandıraraq, "Şirürəkli Riçart" romanında qəhrəmanın dili ilə deyir: "Xaça çəkilməmiş *(yəni xristian olmayan)* insanda da ola biləcək bütün xeyirxahlıqlara malik bütpərəst Səlahəddin bu müqəddəs torpaqları almaq ədalətli ola bilərdimi?!" (12,18). Şir ürəkli Riçardı *(səlibçilərin kralı)* məğlub edən Səlahəddin onu öldürməyib buraxmışdı:

Əvvəlcə *(1169-cu ildə)* Misir hakiminin vəziri təyin olunan Səlahəddin 1175-ci ildə Misir Sultanı elan olundu. Qısa vaxt ərzində Yəmən, Suriya, Livan, Fələstin, Əlcəzair, Benqazi, Diyarbəkir və Nubiyanın özünə tabe etdirdi. Səlibçilərə qarşı qəhrəmancasına vuruşan Səlahəddin 1187-ci ildə Hittin məntəqəsi yaxınlığında xaçlıların qoşununu darmadağın edib, həmin ilin oktyabrının 2-də müqəddəs Qüds şəhərini, az sonra isə Suriya və Fələstin torpaqlarını işğalçılardan *(Avropanın Xristian qoşun birləşmələri olan səlibçilər-"Xaç daşıyalar")*azad etdi.

1189-1192-ci illərdə baş verən III səlib yürüşü zamanı səlibçilərin böyük qüvvə ilə *("xaçlıların" birləşmiş qoşunlarına bu yürüçdə Almaniya imperatoru I Fridrix Barborassa, Fransa kralı II Flipp Avqust, İngiltərə Kralı Şirürəkli Riçard başçılıq edirdi )* hücuma keçdiyinə baxmayaraq, Səlahəddinin şəxsən rəhbərlik etdiyi qoşun avropalıları darmadağın edib, onları döyüş meydanından qaçmaq məcburiyyətdində qoydu.

IV cildində Əyyubilərin mənşəyi barədə susan ASE VIII cldində bu sülalənin banisi Səlahəddin Əyyubinin "**Türkləşmiş Kürd" olduğunu etiraf edir.**

Burada bu görkəmli sərkərdə və dövlət xadimi haqqında belə yazılmışdır: "Mhir döyüşçü və siyasətçi kimi məşhur olmuş Səlahəddin Əyyubi öz hakimiyyəti dövründə vergilri qismən azaltmış, iqta torpaq mülkiyyətinin genişləndirilməsi və mədrəsələrin tikintisinə şərait yaratmışdı"(37,372).

4 mart 1193-cü ildə Cəlaləddin Əyybi Dəməşqdə qızdırma xəstəliyindən vəfat edir. Buna baxmayaraq, onun qurduğu Əyyubilər hakimiyyəti 1252-ci islədək davam etdi. Onun hakimiyyəti illərində Misir və Suriya padşahlığı ərəb fəlsəfəsinin, tarixşünaslığının və ədəbiyyatının mərkəzinə çevrildi; İslam dini və mədəniyyəti regionda öz inkişafının yüksək inkişaf səviyyəsinə çatdı.

Əsrlər boyu *(XII əsrdən-XIX əsrin 60-cı illərinədək!)* gah müstəqil, gah da yarımmüstəqil hakimiyyət sürmüş küdr tayfa birləşməsi **Bani Ərdalan** Kürdüstan və İran tarixinə öz damğasını vuran sülalələrdən biridir. Ş.X.Bidlisi "Şərəfnamə"də ərdalanlıların adını kürdlərin güclü tayfa birləşmələri olan Həkəri Soran və Babanlarla yanaşı çəkir (45,87). Bani Ərdalan kürdlərinin tarixi haqqında çoxsaylı əsərlərdə geniş məlumat verildiyinə baxmayaraq, müxtəlif dövrlərdə yazılmış iki kitab dəyərli elmi mənbə kimi daha çox diqqəti cəlb edir (46;47).

Həmin kitablardan birincisi Xosrov İbn Məhəmməd Bani Ərdalanın o zamankı hakimi Xosrov xan  Nakamın dövründə tamamlanmışdır. Lakin bu dəyərli əsər yalnız 1977-ci ildə Tehranda İranlı kürd alim doktor İsmayıl Ərdalan tərəfindən çap olunmuşdur. Rus alimi E.İ.Vasilyeva həminəsəri fars dilindən rus dilinə çevirərək, 1984-cü ildə Moskvada çap etdirmişdir.

İkinci kitabın müəllifi Mah Şərəf xanım Kürdüstani Xosrov-xan Nakamin həyat yoldaşıdır. O, həm də Məsturə təxəllüsü ilə gözəl şerlər yazmış və tətqiqatçıların X.B. Natəvanla müqayisə etdiyi “divan sahibi” olan kürd şairəsidir (48,4-5). Müəllif həmin kitabı 1845-1847 ci illərdə, yəni birinci kitabdan təxminən 13 il sonra yazmışdır. Mah Şərəf xanımın kitabı ilk dəfə 1946-cü ildə -onun vətənində -İran kürdüstanında Demokratik Cümhuriyyət yaranan il çap olunmuşdur.  Həmin kitabı çap etdirən kürd alimi Nasir Azadpur yazır: “Hərçənd ki, Ərdalan tarixinə dair çox kitab və əsrlər yazılmışdır, etiraf etmək lazımdır ki, Məsturənin Xronikası yazılması tarixinin qədimliyinə müəllifin şəxsiyyəti və Bani Ərdalan evinə qohumluq əlaqələri  nöqteyi-nəzərindən istənilən digər kitabdan  daha çox diqqəti cəlb edir (47,11). E.U.Vasilyeva həminkitabı rus dilinə tərcümə edərək 1990-cı ildə Moskvada çap etdirmişdir.

Hər iki elmi mənbə əsasında S.X.Lonqriqqin “imperiya” adlandırdığı Bani Ərdalan vilayətinin (knyazlığının)  qısa tarixinə nəzər yetirək. Yeri gəlmişkən qeyd edək ki, Ərdalan kürdlərin yaşadığı yeganə vilayətdir ki, onların adl ilə, yəni kürdüstan adlandırılmışdır. Bir çox mənbələrdə Ərdalan və Kürdüstan sözləri sinonim kimi işlənmişdir. İranın müasir ictimai-siyasi Kürdüstan ostanı məhz tarixi ərdalan vilayətinin ərazisində yerləşir. Bir çox tədqiqatçılar bu vilayətin ərazisini kürdlərin yaranma mərkəzi-ocağı hesab edir (46,49).

Vilayətin tarixi haqqında həriki kitabı farscadan rus dilinə tərcümə edən E.U.Vasiliyeva Bani Ərdalan knyazlığının tarixini 4 dövrə bölür:

I dövr-knyazlığın yaranmasından XV əsrədək.

II dövr-XVI əsrdən-1658-ci ilədək. Bu dövrdə vilayət geniş əraziləri əhatə edir və demək olar ki, müstəqil idarə olunurdu. Və hətta, hökmdarlarının adına pul buraxılırdı (36,85).

III dövr-1658-1825-ci illər. Knyazlığın ərazisi əsasən Ərdalan vilayətini əhatə edirdi.

IV dövr-1825-1868-ci illər. Bu dövrdə yerli hakimiyyət zəifləyir və vilayətdə Qacarlar sülaləsinin nüfuzu artmağa başlayır.

Kürd alimlərinin əksəriyyəti Bani Ərdalan sülaləsinin öz mənşəyini Sasanilərdən-Ərdəşur Papakandan olduğunu yazır. Şərəf Xan Bidlisi qeyd edir ki, sülalənin banisi Baba

Ardalan Diyarbəkrdə hökmranliq edən Mərvanilərdən idi və o, həmin dövrdə Şəhruzurun hakimi idi (45,146). K.Riç və başqalarının fikrinə görə Bani Ərdalan ailəsi *(sülaləsi)* öz başlanğıcını quran *(goran)* tayfa birləşməsinin bir qolu olan mamuilərdən almışdır.

Tədqiqatçılar belə hesab edir ki, bu sülalənin banisi Baba Ərdalan 1169-cu ildə Ərdalanda deyil, şəhrizur vilayətində hakimiyyətə gəlmişdir. Sülalənin ilk hökmdarları olan Baba Ərdalan, Kalul, I Xızır, İlyas, II Xızırın dövründə vilayətin sahəsi geniş əraziləri-Şəhrizur, Palanqan, Koy, Hərir, Baban, Şəhrbazar, Rəvandüz, Ərdəbil və İmadiyəni əhatə edirdi.

1550-ci ildə Şah Təhmasibin göstərişi ilə qızılbaşların *(səfəvilərin)* qoşunu Ərdalan üzərinə hücuma keçir. Vilayətin hakimi Bikə bəyin qəhramancasına döyüşü nəticəsində qızılbaşlar geriyə qaçmağa məcbur olurlar (46,75). 1561-1562-ci illərdə Bağdad əmiri Usman-paşa sülalənin ilk iqamətgahı olmuş Zalm qalasını və Şəhrizuru işğal edir. Xosrov ibn Məhəmmədin verdiyi məlumata görə üç ildən sonra *(1565-ci ildə)* Bəni Ərdalanın hakimi Sultan Əli bəy Şəhrizuru osmanlılardan geri alır (46,75).

Bani Ərdalan *(Kürdüstan)* hakimi Teymur xan *(Sultan Əli bəyin oğlu) (1579-1590)* özhakimiyyətini gücləndirərək və Şah Təhmasibin ölümündən istifadə edərək Kirmanşah, Sonkor, Dinavər və Gorusu da Kürdüstanın *(Bani Ərdalanın)* tərkibinə daxil edir. O, əvvəlcə Osmanlı sultanı Murad-xana itaətkarlıq göstərsə də, sonradan vilayəti müstəqil idarə etməyə başlayır. Vaxtından əvvəl *(goruslularla müharibədə)* ölümüTeymur xanın müstəqil Kürdüstan dövləti qurmaq arzusunu ürəyində qoydu.

Teymur xanın ölümündən sonra hakimiyyətə gələn Helo-xan Palanqan, Həsənabad, Mərivan qalalarını tikdi *(bəzi tətqiqatlara görə bərpa etdi)* və sülalənin ilk iqamətgahı olan Zalm qalasını bərpa edib daha da möhkəmləndirdi. Tədricən öz hakimiyyətini və ordusunu gücləndirən Helo-xan İran şahı *(Şah Abbas)* və Osmanlı sultanına baş əyməyib vilayəti müstəqil idarə etməyə başladı (46,76).

1611-ci ildə İran şahının Əmri ilə Liristan hakimi Hüseyn-xan Lurun başçılığı altında böyük qoşun birləşmələri Ərdalanın *(Kürdüstanın)* üzərinə hücuma keçir. Helo-xana itaətsizliyinə görə dərs vermək istəyən Şah Abbasın qoşunu biabırcasına məğlub olub, geriyə qayıtdı. Buna görə şah Abbas özü Ərdalan üzərinə yeriməyə başladı, lakin ətrafdakıların məsləhəti ilə Helo-xana hücum etməyib geri qayıtdı.

Öz bacısı Helo-xana oğlu Xan Əhməd-xana ərə verən Şah Abbas onu Kürdüstanın *(Ədalanın)* hakimi təyin etdi. 1616-cı ildə hakimiyyətə gələn Xan Əhməd xan Kürdüstan *(Ərdalan)* vilayətinin ərazisini daha da genişləndirdi və onun iqtisadi-siyasi qüdrətini xeyli güclədirdi. Tarixçi İsgəndər bəy Türkmən şah Abbasın dövründə hakimlik etmiş qüdrətli 17 kürd və lur *(onlar da kürd xalqının bir qoludur)* əmirləri içərisində birinci sırada Helo-xanın oğlu Xan Əhməd-xanın adını çəkir.

Şah Abbasın ölümündən *(19.I.1629)* sonra Xan Əhməd-xan qızılbaşların tabeliyindən çıxıb, öz adına pul kəsdirməyə və Tam müstəqil hökmranlıq etməyə başlayır. Xan Əhməd xan Kürdüstan (Ərdalan) vilayətinin sahəsini Kirmanşahdan və Həmədandan **Urmiyayadək,** Marağadan Mosul və İmadiyəyədək genişləndirdi.

1638-ci ildə Şah Səfi Zal xanın başçılığı altında Xan Əhməd xan Osmanlı sultanı tərəfindən ona kömyə göndərilən türkdöyüşçü dəstələri ilə birlikdə şah Səfinin qoşununa Mərivan gölü ətrafında darmadağın etdi. Həmin döyüşdən sonra Mosula gedən Xan Əhməd xan burada vəfat edir.

Xosrov-xan Bani Ərdalanın hakimiyyəti illərində *(1756/57-1790/91)* Kürdüstan vilayətinin hərbi siyasi-qüdrətidaha da güclənir, müstəqilliyi artır. Belə ki, 1779-cu ildə Kərim xan Zəndin ölümündən sonra hakimiyyəti ələ keçirməyə çalışan Qacarlar sülaləsi yalnız Xosrov-xan Bani Ərdalanın hərbi köməyi sayəsində öz məqsədinə nail olur. Ağa Məhəmməd-xan Qacarın hakimiyyət başına keçməsinə yaxın olan köməklik göstərən Xosrov xan Bani Ərdalan tədricən özünü müstəqil aparmağa başlayır. Onun bu itaətsizliyi A.M.Qacarın xoşuna gəlmir və o öz müttəfiqinin *(Xosrov xanın)* üzərinə qoşun göndərir. Həmədan yaxınlığında baş verən şiddətli döyüşdə Xosrov xan Qalib gəlir və ağır itkiyə məruz qalan Ağa Məhəmməd xan Qacar geri çəkilməli olur. Tarixçilərin verdiyi məlumatlara görə bu döyüşdə "dərs alan" Ağa Məhəmməd xan sonralar birbaşa Xosrov xanın üzərinə hücuma keçməyə cürət etmir (46,89).

Bani Ərdalan axırıncı qüdrətli hökmdarlarından biri olan Əmənullah xan *(Xosrov xanın oğlu)* 20 ildən yuxarı *(1799-1825)* bir dövrdə vilayəti demək olar ki, tam müstəqil idarə etmişdir. Mənbələrin verdiyi məlumata görə, O, Şah (kral) mövqeyinə malik olub sözün tam mənasında müstəqil idi (36,85). Rus alimi F.Çyornozubov fars və erməni mənbələri əsasında vilayət haqqında yazdığı dəyərli əsərində *(**"Şirlər və Günəş" ölkəsi.**Ərdalan, yaxud İran Kürdüstanı)*qeyd edir ki, Əmənullah xanın adı bütün dünyada məşhur idi. Hindlər inglislərlə müharibə zamanı İran şahına və **Əmənullah xana** kömək üçün müraciət etmişdilər. Əgər İranda kiməsə heykən qoyulması qərara alınsaydı, şübhəsiz ki, Kürdlər Ərdalanın bu böyük dövlət xadiminə *(Əmənullah xana)* üstünlük verərdilər (49,38).

1825-ci ildə Əmənullah xan vəfat etdikdən sonra onun yerinə oğlu Xosrov xan Nakam *(şairə Məsturənin əri)* keçir. O, 1819-cu ildə Fətəli-şahın qızı Valiyə xanım ilə evlənmişdi. 1835-ci ildə Xosrov xan Nakam 30 yaşında vəfat edir. Ərinin ölümündən sonra Valiyə xanım vilayəti idarə etməyə başlayır və beləliklə, burada hakimiyyət Qacarlar sülaləsinin nüfuzu altına keçir. 1865-ci ildə Xosrov xan Nakamın ikinci oğlu Qulam şah *(II Əmənallah)* vilayətin hakimi təyin olunur, onun ölümündən sonra-1868-ci ildə İran şahı Nəsrəddin Şah Ərdalan vilayətinin *(İran kürdüstanına)* yerli sülalədən deyil, ərdalanlıların hakimiyyətə gətirdiyi Qacarlar sülaləsinin olan öz dayısı *(Nəsrəddin şahın*

*dayısı)* Mötəmməd əd-Dövləni hakim *(vali)* təyin edir. Beləkilə, əsrlər boyu müstəqli hökmranlıq edən Bani Ərdəlan sülaləsinin hakimiyyətinə son qoyulur. Lakin tarixçilərin yazdığına görə sonralar da bu sülalənin nümayəndələri Şah sarayında böyük nüfuza malik olmuşlar (36,85).

Əsrlər boyu müstəqil və ya yarımmüstəqil hakimiyyətə malik olan kürd əmirliklərindən biri də kürd **Bidlis əmirliyidr.** Əmrlik onun paytaxtı olan bidlis şəhərinin adını daşıyır. Bidlis şəhəri Van gölünün cənu-qərbində yerləşir və Kürdüstanın ən qədim şəhərlərindən biridir. Görkəmli kürd tarixçisi məşhur "Şərəfnamə"nin müəllifi Şərəf xan Bidlisi həmin sərənidə qeyd edir ki, Makedoniyalı İsgəndər tərəfindən əvvəlcə Bidlis çayı çayında eyni adlı qala tikilmiş, sonralar həmin qalanın ətrafında şəhər yaranıb inkişaf etmişdir. Şəmsəddin Sami şəhər haqqında yazır:"Kürdüstan olan Bidlis şəhəri orta əsrlərdə uzun zaman kiçik **kürd hökumətinin** mərkəzi olmuşdur" (15,94). Orta əsrlərdə "İpək yolu" üzərində böyük ticarət mərkəzi olan Bidlis əmirliyini də öz hakimiyyəti altında birləşdirmişdi. Ş.X.Bidlisinin yazdığına görə Bidlis əmirliyində 24 kürd yaşayırdı. Həmin tayfaların ən qüvvətlisi **Ruzəki** tayfası olmuşdur. Ona görə də əmirliyi əsrlər boyu bu tayfadan olan hökmdarlar idarə etmişlər. Ş.X.Bidlisinin və başqa tətqiqatçıların yazdığına görə Bidlis hökmdarlarının mənşəyi Sasanilər sülaləsi ilə bağlıdır. (15,96).

"Şərəfnamə"nin müəllifi yazır ki, *(tarixdə adları qeyd olunan)* "mənim nəzərimə çatan Bidlis hökmdarları 18 nəfərdən ibarət olub 450 ildən artıqdır ki, hökmranlıq edirlər" (15,97).

1925-ci ildə Cəlaləddin Xarəzmşah monqollara məğlub olub Azərbaycana gəlir və buradan da bidlisə keçir. O burada Bidlis hökmdarı Məlik Əşrəfin qızı ilə evlənir. Məlik Əşrəf Bidlis hökmdarı olmazdan əvvəl Suriyada *(Şamda)* yaşamış və Əyyabilərin qoşun başçısı olmuşdur. Məlik Əşrəf heç bir şaha tabe olmadan ölənədək Bidlis əmirliyini müstəqil idarə etmişdir.

Ümumiyyətlə Bidlis əmirliyi 1384-cü ildən 1849-cu ilədək gah müstəqil, gah da yarımmüstəqil surətdə fəaliyyət göstərmişdir *(Yenə orada,səh. 16).*

Tətqiqatçıların yazdığına görə Məlik Əşrəfin ölümündən sonra hakimiyyət onun qardaşı Məlik Məcdəddinə, ondan sonra isə oğullarına *(Məlik Məcdəddinin)* keçmiş, onlara Teymurləngin Kürdüstana gəlməsinədək heç kim toxunmamış, əmirliyi müstəqil idarə etmişlər. 1393-cü ildə Bidlis üzərinə qoşun yeridən Teymurləngi Vilayətin hakimi Hacı Şərəf hədiyyələrlə *(kürd atları ilə)* qarşılayır. Zəmanəsinin ağıllı siyasətçilərindən hesab olunan Hacı Şərəfin bu hərəkəti Teymurləngin xoşuna gəlir və o, bir neçə rayonu da Bidlis əmirliyinə qataraq onun *(Hacı Şərəfin)* hakim təyin olunması barədə xüsusi fərman verir (15,98). Beləliklə, Hacı şərəf bidlis əmirliyinin müstəqilliyini monqol istilası dövründə də qoruyub saxlamağa nail olur.

Hacı Şərəfdən sonra onun oğlu Məlik Şəmsəddin Bidlis hökmdarı *(1399-1425)* olur. Teymurləng zamanında qaçaq düşən Qara Yusif Qaraqoyunlu Teymurun ölümündən sonra 1405-ci ildə öz tərəfdarları ilə birlikdə əvvəlcə Diyarbəkir kürdlərinə, daha sonra Bidlis əmiri Məlik şəmsəddinə pənah gətirir. F.Metsopskinin yazdığına görəMəlik Şəmsəddin Qara Yusifi böyük hörmətlə: duz-çörəklə qarşılamış, ona silah, at, qatır, çoxlu miqdarda hərbi sursat bağışlamışdır (50,22-23).

Qara Yusif öz qızını Məlik Şəmsəddinə ərə verir, o isə Pasin rayonu ilə Onik qalasını qayınatasına *(Qara Yusifə)* bağışlayır.

Burada bir qədər qüvvə toplayan Qara Yusif 1406-cı ildə Teymurləngin nəvəsi Əbu bəkrin ixtiyarında olan Çuxur Səəd qalasına hücum etdi. Həmin döyüşdə qalib gələn Qara Yusif Mərənd, Naxçıvan, Şərur və Makuna da ələ keçirir.

Qara Yusif şah olan kimi *(1410-cu il)* Mum və Əxlat rayonlarının Bidlis əmirliyinə qıtılması barədə fərman verdi. Tarixçilərinə yazdığına Qara Yusiflə Məlik Şəmsəddin arasındakı dostluq və ittifaq o dərəcəyə çatmışdı ki, Qara Yusif ona “oğlum” deyə müraciət edirdi (15,99).

1420-ci ildə Qara Yusif öləndən 40 gün sonra Teymurləngin oğlu Şahrux Mirzə Kürdüstana gəlir və Əxlat nahiyyəsində Mərku adlanan yerdə düşərgə salır. Digər kürd əmirləri ilə birgə Məlik Şəmsəddin ona tabe olduğunu bildirmiş və beləliklə öz əmirliyini qoruyub saxlamışdır. Ş.X.Bidlisinin yazdığna görə Məlik Şəmsəddin öz adına xütbə oxutdurmuş və sikkə zərb etdirmişdir (15,101). Kürdlər arasında ona “Şəmsəddin əl-Kəbir” adı verilmişdi.

1453-cü ildən Diyarbəkir və Ermənistanda hökmdarlıq edən Ağqoyunlu Uzun Həsən 1468-ci ildə Qaraqoyunluları məğlub edərək bəzi kürd əmirliklərini də öz itaəti altına salmağa başladı. O, Bidlis qalasını işğal etmək üçün Süleyman bəyin Başçılığı altında böyük qüvvə ilə qoşun göndərdi. Qalan üç il mühasirədə saxladığı üçün müdafiəçilər arasında baş verən xəstəlik çoxlu sayda insanın məhvinə səbəb olmuşdu.

1471-ci ildə Uzun Həsən Bidlisin üzərinə yeni qüvvə ilə qoşun göndərdi. Əmir İbrahimin sülh təklifini Uzun Həsən qəbul etdi. Beləliklə, 1471-ci ildən 1498-ci ilədək Bidlis əmirliyi Ağqoyunlu hökumətinin tabeliyinə keçdi. 1501-ci ildə Bidlis əmirliyində hakimiyyəti ələ alan Əmir Ş ərəf *(Şərəf xan Bidlisinin babası)* 1533-cü ilədək müəyyən fasilələrlə demək olar ki, əmirliyi müstəqil idarə etdi.

1532-ci ildə Şah Təhmasib Əmir Şərəfi Kürdüstanın bəylərbəyisi təyin etdi və Osmanlılarla Azərbaycanın sərhədlərinin təhlükəsizliyini qorumağı ona tapşırdı. 1533-cü ildə Bidlis əmiri Şərəf xan öldürülür. 1535-ci ildən Bidlis əmirliyi Osmanlı hökumətinin bir vilayətinə çevrilir, yalnız 43 ildən sonra-1578-ci ildə “Şərəfnamə”nin müəllifi, Əmir

Şərəfin nəvəsi Şərəf xan Bidlisinin hakimiyyətinə verilir və müstəqil əmirlik kimi fəaliyyətə başlayır. 1588-1596-cı ildə Bidlis əmirliyinə Şərəf xanım oğlu Şəmsəddin bəy hakimlik etmişdir.

V.Nikitin qeyd edir ki, XVI-XVII-XVIII əsrlərdə Bidlis əmirliyi çox vaxt Osmanlı hökumətinə tabe olmurdu. Ona görə də XIX əsrin ortalarında *(1849-cu il)* Türkiyə əmirliklərini tamamilə ləğv etmək qərarına gəldikdə əvvəlcə Bidlis əmiri Şərəf bəyi Konstantinopola apardı və sonra Bidlis əmirliyini özünə tabe etdi (51,248). Tətqiqatçıların yazdığına görə həmin ilədək *(1849-cu il)* Bidlis əmirliyi yarımmüstəqil halda Şərəfxan Bidlisinin xələfləri tərəfindən idarə olunmuşdur.

Əsrlər boyu azadlıq uğrunda mübarizə aparan və yadelli işğalçılara boyun əyməyən Kürdüstan vilayətlərindən biri də **Dərsimdir** *(indiki Tunceli vilayəti).* N.Dərsiminin fikrinə görə Dərsim-iki kürd sözündən *("dər"-qapı: "sim"-gümüş)* yaranıb **"Gümüş qapı"** deməkdir (26,1). E.ə.VI əsrdə yunanlar bu yerə Daranis, Bisütun kitabələrində isə Zuza *(Zaza-zozan-"yaylaq")* deyilmişdir. Vilayətin qərbində yaşayan Koçan tayfası Dərsimə "Kürdüstan qapısı" deyir. Xalq arasında Dərsim sözü Kürdüstan sözünün sinonimi kimi işlənilmişdir.

Qədim Midiyanın vilayətlərindən biri olan Dərsim *(Zuza)* kürdləri bütün tarixləri boyu müstəqil, azad yaşamaq uğrunda mübarizə aparmış, yadellilərə heç zaman boyun əyməmiş və könüllü təslim olmamışdır. Təkcə onu qeyd etmək kifayətdir ki, 600 ildən çox yaşayan Osmanlı imperiyası döründə osmanlılar nə qədər çalışsalar sa, dərsimlilərin iradəsini qıra bilməmiş, onları özlərinə tabe etməyə müvəffəq olmamışdır. Yalnız 1938-ci ildə aviasiyanın *(hərbi təyyarələrin)* köməyi nəticəsində Dərsim vilayəti Türkiyəni tanımağa məcbur olmuşdur.

Romalılar, Bizanslılar və İranlılar dəfələrlə bu dağlıq bölgəyə hücum etsələr də onu ələ keçiər bilməmişlər. 1093-cü ildə Səlcuqlar Bizansı məğlub edib kürd əmirliklərindən Van, Diyarbəkir, Bidlis, Muş, Sasun, Cabaqcur və s. ələ keçirsələr də, Dərsimə daxil olmağa nail olmamışlar.

1224-cü ildə monqollar Səlcuq dövləti üzərinə hücuma keçərkən dərsimlilər dağ keçidlərini tutaraq onlara yol verməmişdir. Anadolunu işğal etdikdən sonra Hülaku xan Ərzincan vilayətinə hakim təyin etdiyi oğlu Pəşmuta Dərsimə hücum etməsini əmr etmişdi. Monqol-tatar ordusu ilə Dərsim kürdləri arasında Qızıl kilisə yaxınlığında iki aydan çox davam edən döyüşdə işğalçılar məğlub olub geri çəkildi.

Monqollardan sonra onların naibləri olan Elxanilər də Dərsim vilayətini özlərinə tabe etdirə bilmədi. Qaraqoyunlular və Ağqoyunlular da Dərsim vilayətinə daxil olmağa çalışsalar da öz məqsədlərinə nail ola bilməmişlər.

Dərsimdə  şiəlik geniş yayıldığı üçün onlar Şah İsmayıl ilə yaxşı münasibətlər qurmuş,  Kəmah qalasını hərbi baza kimi ona güzəştə getmiş, Çaldıran döyüşü *(1514-cü il)* zamanı səfəvilərə kömək etmişlər (26,75-76). Sultan Səlim Kürdüstan ərazisini bütövlükdə İranın hökmranlığından çıxarıb Osmanlı imperiyasna qatmaq məqsədi ilə kürd əmirliklərini öz tərəfinə çəkmək qərarına gəlir. O, bu məqsədə nail olmaq üçün görkəmli kürd alimi İdris Bidlisinin nüfuzundan istifadə edir. Kürdlərə tam muxtariyyət verəcəyini vəd edən Sultan Səlimin sözlərinə inanan İdris Bidlisi öz nüfuzundan istifadə edərək kürd əmirlərinin xeyli hissəsini osmanlıların tərəfinə çəkə bilir. Lakin dərsimlilər boş vədlərə inanmayıb müstəqil hərəkət etməyə üstünlük verirlər.

1635-ci ildə IV Sultan Murad muxtar hakimiyyətə malik kürd əmirliklərini tamamilə aradan qaldırmaq üçün böyük qüvvə ilə onların üzərinə qoşun yeridir və Ərzuruma gəlib çıxsa da Dərsimə daxil ola bilmir.

Osmanlı imperiyasının demək olar ki,  bütün sultanları hakimiyyətə gələn kimi Dərsim üzərinə qoşun yeritmiş, lakin öz məqsədlərinə *(Dərsim kürdlərini öz itaəti altına salmaq)* nail olmamışdır.

1923-cü ildə qurulan Türkiyə Cümhuriyyətinin ilk illərində də Dərsim vilayəti mərkəzi hökuməti tanımırdı. 1936-cı ildə Mustafa Kamal *(Atatürk)* Türkiyənin Böyük Millət Məclisindəki nitqində demişdi: “Daxili işlərimizdən ən mühüm bir səhifə varsa o da *Dərsim məsələsidir.* Daxildə mövcud olan bu yaranı, bu qorxulu çibanı ortadan qaldırmaq və kökünü kəsmək üçün nəyin bahasına olursa-olsun, tədbir görülməli və bunu üçün təcili qərarlar qəbuluna görə hökümətə tam və geniş səlahiyyətlər verilməlidir” (26,259).

Atatürkün bu çıxışından və tapşırığından dərhal sonra General Abdullah Alpdoğan dərsim valis və hərbi komandanı təyin olunur, ona az vaxt ərzində “nəyin bahasına olursa-olsun” dərsimlilərin müqavimətini qırmaq, burada baş qaldırmış üsyanı yatırtmaq tapşırığı verilir. Olduqca böyük hərbi qüvvə və texnika ilə Dərsimə girən General A. Alpdoğan yenə də Səid Rızanın başçılıq etdiyi dərsimlilərin ciddi müqavimətinə rats gəlir. Qəhrəman dərsimlilərin müqavimətini qıra bilmədiyini görən Genral Abdullah Alpdoğan dinc yaşayış məntəqələri də daxil olmaqla vilayətin ərazisini hərbi təyyarələr vasitəsi ilə bombardman edir.

Müharibənin uzun sürəcəyini görən türk ordusu Ərzincan valisi vasitəsilə Səid Rızaya sülh təklif edir və danışıqlar üçün onu Ərzincana çağırır. Türk hökumətinin dərsimlilərə muxtariyət verəcəyinə inanan  Səid Rıza Ərzincana gəlir və burada xaincəsinə həbs olunur. Hərbi məhkəmənin qərarı ilə Səid Rıza Elazığ *(Eləziz)* şəhərinin Buğday meydanında edam edilir. Edam zamanı qəhrəman kürd oğlu Səid Rıza uca səslə son sözünü deyir: “75 yaşım var, şəhid oluram, Kürdüstanın şəhidlərinə qarışıram. Dərsim

məğlub olur, lakin *kürdlük və kürdüstan yaşayacaqdır!* Kürd gəncliyi intiqam alacaqdır. Zalımlara və yalançılara lənət olsun!” (26,290).

1938-ci ildə Dərsim aviasiya bombardmanından sonra tamamilə dağıdıldı, minlərlə dinc əhali məhv edildi və didərgin düşdü. Dərsimin adı dəyişdirilərək Tanceli qoyuldu.

Orta əsrlərdə mövcud olmuş müstəqil və ya rarımmüstəqil kürd əmirliklərinin, vilayətlərinin qısa tarixi səciyyəsi göstərir ki, həmin dövrlərdə kürd xalqı öz azadlığı, müstəqil dövlət qurmaq uğrunda daima mübarizə aparmış yadelli işğalçılara *(ərəblərə, osmanlılara, farslara, monqollara və s.)* qarşı qəhrəmancasına vuruşmuş və bu yolda milyonlarla qurban vermişdir.

Çox təəssüflər ki, bütün bu küharibələr nəticəsiz qalmış, milyonlarla kürd şəhidinin qanı yerdə qalmış, ayrı-ayrı kürd feodal dövlətləri *(əmirlik və vilayətləri)* birləşib müstəqil Kürdüstan dövləti yarada bilməmişdir. Bunun əksinə olaraq, XX ərsdə *(1223-cü ildə)* Kürdüstanın ərazisi rəsmi olaraq *(Lozanna müqaviləsinə əsasən)* dörd dövlət *(İran, Türkiyə, İraq, Suriya)* arasında bölüşdürüldü (52,274). Bununla qətiyyən razılaşmayan Kürdlər həmin dövlətlərlə silahlı mübarizəyə qalxdılar.

Beləliklə, XX əsr, qısa fasilələr istisna olmaqla, kürdlərlə onları əsarətdə saxlamaq istəyən Türkiyə, İran, İraq hökümətləri arasında qanlı müharibələr əsrinə çevrildi. Həmin müharibələrdən bir neçəsinə qısa nəzər yetirməyi məqsədəuyğun hesab edirik.

Lozanna müqaviləsindən dərhal sonra Türkiyənin kürdlər yaşayan şərq və cənub-şərq vilayətlərində başlayan həyəcan və narazılıqlar *(Atatürkün kürtlərə muxtariyyət verəcəyi barədəki vəadləri boşa çıxanda bu narazılıqlar daha da gücləndi)* tezliklə silahlı üsyana çevrildi. Həmin üsyanlardan bir neşəsinin qısa səciyyəsinə diqqət yetirək.

1925-ci ildə Şeyx Səidin başçılığı ilə Türkiyənin kürdlər yaşayan 14 cənub şərq vilayətini əhatə edən üsyan demək olar ki şimali kürdüstanı demək olar ki, Şimali Kürdüstanı *(Türkiyə kürdüstanı)* tamami ilə bürüdü (53,308). Şeyx Sədini bu üsyanda başlıca məqsədi paytaxtı Diyarbəkir olmaqla müstəqil kürdüstan dövləti yaratmaq idi.

Öz ətrafına 10 min silahlı toplayan Şeyx Səid 14 fevral 1925-ci ildə vilayət mərkəzi olan Gənc şəhərini ələ keçirtdi. Türk məmurları və vali əsir alındı. Şeyx Səidin sərəncamı ilə Gənc şəhəri Kürdüstanın müvəqqəti paytaxtı elan edildi (54,121). Fevralın 29-da Licə və Xani qəzalarını özünə tabe edən Şeyx Səid Diyarbəkir yaxınlığındakı Tala adlanan yerdə KÜrd ordusunun qərərgahını yaratmağa başladı. Tarixçilərin məlumatına görə bu zaman kürd ordusunun qərərgahını yaratmağa başladı. Tarixçilərin məlumatına görə bu zaman Kürd ordusunun sayı 20 min nəfərə yaxın idi (54,122).

11 Mart 1925-ci ildə Diyarbəkirin Mardin qapısından şəhərə daxil olan kürd

silahlarını diyarbəkirlilər böyük sevinclə və: "Yaşasın azadlıq!", "Yaşasın Kürdüstan!" şüarları ilə qarşıladı. Qeyri-bərabər döyüşdə şəhərin alınmasının mümkün olmadığını görən Şeyx Səid geri çəkilmək əmri verdi. Türk hökuməti məsələnin ciddi xarakter aldığını görüb üsyançıların üzərinə böyük qoşun birləşmələri göndərdi. Tətqiqatçıların yazdığına görə şimaldan 40 min, cənubdan 30 min türk ordusu üsyançıları sıxışdırmağa başladı (55,37). Bütün qüvvələri səfərbərliyə alan Türk ordusunun rəhbərliyi aprel ayında qəzetlərdə Şeyx Səidin həbsinə kömək barədə elan dərc etdirdi. Elanda deyilirdi ki, Şeyx Səidin dirisini ələ keçirənə 1000 qızıl lirə, ölüsünü gətirənə isə 700 qızıl lirə veriləcəkdir (55,68).

Beləliklə, qeyri bərabər döyüşdə məğlub olan Şeyx Səid hərbi məhkəmənin qərarı ilə 29 iyun 1925-ci ildə 47 kürd tayfa başçısı ilə birlikdə Diyarbəkirdə edam edilir (54,128). N. Dersiminin yazdığına görə həmin edam sentyabrın 4-də həyata keçirilmişdir (26,184). Edam zamanı Şeyx Səid özünü son dərəcə məğrur aparmış və demişdi: *"Mən qətiyyən təəssüflənmirəm ki, öz həyatımı xalqıma qurban verirəm.* Biz onunla fəxr edirik ki, düşmənlərimizin önündə nəvələrimiz bizim üçün xəcalət çəkməyəcəklər" (56,100).

XX əsrdə Türkiyə Kürdüstanında baş verən güclü üsyanlardan biri də Ağrıdağ üsyanıdır. Şeyx Səid üsyanın qan içində boğulması, bəzi kürd tayfa başçılarının türk hökuməti tərəfindən ələ alınması bu ölkədəki milli-azadlıq hərəkatını susdura bilmədi, əksinə daha da gücləndirdi.

1927-ci ilin yazında Ağrı, İğdır, Bəyazit vilayətlərində baş qaldıran üsyan getdikcə genişlənməyə başladı. Üsyandan təşvişə düşən Türk hökuməti üsyançıların üzərinə 10 mindən yuxarı silahlı qoşun göndərdi. Şiddətli döyüşlərdə Türk ordusunun iki mindən çox əsgəri öldürüldü, 500 nəfərə yaxını əsir alındı (54,143). Getdikcə şiddətlənən üsyan tez bir zamanda Van, Malazgird, Muş, Bidlis və Siirt vilayətlərinə yayıldı. 1928-1929-cu illərdə üsyançılar öz qüvvələrini Ağrıdağın çətin keçilən yerlərində cəmləşdirdilər. Böyük və Kiçik Ağrıdağ arasındakı dağarası çökəkliyi özlərinə hərbi bazaya çevirən üsyançılar türk ordusuna şiddətli müqaviməti 19310-ci ilədək davam etdirməyə nail oldular (57,109).

Ağrı üsyanı adını almış bu hərəkat "Xoybun" *("Müstəqillik")* adlı kürd komitəsi tərəfindən təşkil olunmuşdu. Bu komitə 1927-ci ilin avqustunda bir sıra kürd siyasi təşkilatlarının qurultayında yaradılmışdı. Həmin komitənin bütün üzvləri müstəqil Kürdüstan naminə bütün kürdlərin birliyi uğrunda mübarizə aparacaqlarına söz vermişdilər (58,270).

"Xoybun" təşkilatına rəhbərlik edən odlu vətənpərvər İhsan Nuri münaqişə regionuna gələrək İbrahim paşanın *(İbrahime Həsike)* başçılıq etdiyi silahlı üsyançıların qüvvələrini birləşdirməyə və dezgen istiqamətləndirməyə nail oldu. Üsyançılara siyasi rəhbərliyi gücləndirmək üçün "Xoyban", "Aqıri" *("Alovlanan"; Ağrı dağın kürdcə*

*adından götürülüb)* adlı qəzet nəşr etməyə başladı. Ağrıdağ hərəkatını izləyən mütərəqqi ingilis müəllif S.S. Qavan yazır: “Bu üsyan Ağrı-dağ konqresində kürd qruplarının birləşməsi sayəsində özünün yüksək təşkilatçılığı ilə maraq doğurur. Eyni zamanda bu təşkilat vahid kütləvi təşkilat formasına çox yaxınlaşmışdır” (59,21).

Üsyanın getdikcə şiddətlənməsini və daha geniş yayılmasını görən Türk höküməti sülh danışıqları aparmaq üçün 12 millət vəkilindən və türkiyənin şərq vilayətlərinin bir neçə rəhbər şəxslərindın ibarət komisya yaratdı. 1928-ci ilin may ayında komisya üzvləri Şehli körpü deyilən yerdə *(bitərəf zonada)* İhsan Nurinin rəhbərlik etdiyi Kürd nümayəndə heyyəti ilə görüşdü. Komisya üzvləri hökumət adından İhsan Nuriyə yüksək dövlət vəzifəsi təklif etdilər; bu şərtlə ki üsyançılar silahı yerə qoyub Türk ordusuna təslim olsunlar. Kürd nümayəndə heyyəti bu təkliflə razılaşmadı və sülh danışıqları nəticəsiz başa çatdı.

1930-cu ilin əvvəllərində Türkiyənin bütün cənub-şərq vilayətləri *(Türkiyə kürdüstanı)* kürd üsyançılarınıln tabeçiliyində idi. Həmin ilin 6 aprelində hərbi texnika ilə gücləndirilmiş türk qoşun birləşməsi üsyançılar tərəfindən darma-dağın edildi. Ciddi narahat olmağa başlayan Türk hökuməti bütün qüvvələri səfərbərliyə alıb üsyançıların üzərinə böyük miqdarda hərbi qüvvə göndərdi. Bir aydan çox davam edən şiddətli döyeşlərdə Türk ordusu məğlubiyyətə uğradı; iki min əsgər əsir alındı, 12 təyyarə vuruldu, 60 ədəd plamyot üsyançıların əlinə keçdi*(54, 146)*

Ağır məğlubiyyətdən qorxuya düşən Türk hökuməti döyüş bölgəsinə göndərilən canlı qüvvənin sayını 60 min əsgərə çatdırdı *(60, 31).* Iyun ayınadək davam edən şiddətli döyüşlərdən sonra Türk ordusu yalnız aviasiyanın köməkliyi ilə üsyançıları iran və türkiyənin sərhədləri boyu yerləşən dağlıq bölgəyə doğru sıxışdıra bildi. Bu zaman İran Kürdüstanında yerləşən Mako rayonundan üsyançıların köməyinə yeni Kürd silahlı dəstələr yetişdi. Üsyan dalğası yenidən alovlanaraq, Başqalə, Saray, Bəqrikalə, Ərciş, Patnos, Van, **Zilan** və.s. rayonları bürüdü. Həmin rayonlarda üsyançıların sayı 1921-ci ildəkinə *(10 min nəfər)* çatdı.

Yenidən böyük qüvvə ilə üsyançıların üzərinə yeriyən türk ordusu iyul ayının axırlarınadək davam edən şiddətli döyüşlər nəticəsində onların müqavimətini qıra bildi. Mənbələrin verdiyi məlumata görə türk ordusu təkcə üsyançıları öldürmür, qarşılarına çıxan bütün dini əhalini, bütöv kəndləri məhv edib-dağıdır, kürdlərin mal-qarasınə qabaqlarına qatıb aparırdılar. Məsələn təkcə **Zilan dərəsində** 1550 nəfər məhv edilmiş Ərciş rayonunda 200 kənd yandırılmış, Patnosda isə bütün yaşayış məntəqələri yerlə-yeksan edilmişdir (57,111).

Kürdlərin müqavimətini 15 sentyabradək davam edən döyüşlərdə böyük çətinliklə qıran türk ordusu mətbuat səhifələrinə özlərini öyən yazılar dərc etməyə başadılar.

Məsələn, “Milliyət” qəzeti üsyançıların məğlubiyyətindən sonra öz səhifəsində Ağrıdağın ətəyində qazılmış bir məzar şəkli vermişdi. Məzar daşının üstündə yazılmışdı: “Burada xəyal edilən Kürdüstan dəfn edilmişdir” (61,76).

Həmin sətirlərin müəllifi indi sağ olsaydı nə qədər yanıldığını anlayar və gözləri ilə görərdi ki, 6 min ildən çox Kürdüstan uğrunda mübarizə aparan kürdlərin doğma vətənini “dəfn etmək” tarix boyu nəhəng imperiyalara *(İran, Roma, Bizans, Osmanlı, Ərəb xilafəti, Monqol-tutur və s.)* qismət olmadığı kimi, bu, Yürkiyə cumhuriyyətinə də nəsib olmamışdır və heç zaman nəsib olmayacaqdır. Həmin şəklin çap olunduğu ildə Türkiyənin baş naziri İsmət İnönü Sivasdakı dəmir yolunun açılışına həsr olunmuş tədbirdəki çıxışında deyirdi: “Bu ölkədə yalnız türk millәti etnik və irqi qüquqlar tələb edə bilər. Başqa heç bir ünsürün buna haqqı yoxdur” (54,147).

Elə baş nazirin həmin çıxışından sonra Türkiyədə yaşayan kürdlər öz milli haqları uğrunda yeni hərəkata başladılar. Və bu hərəkatın mərkəzi əsrlər boyu Osmanlı imperiyasına baş əyməyən və “Kürdüstanın qapısı” adlandırılan Dərsim vilayəti oldu. Yuxarıda qeyd etdiyimiz kimi dərsimlilərin hərəkatı 1938-ci ilədək davam etdi.

İkinci Dünya müharibəsindən, xüsusilə 1960-cı il dövlət çevrilişindən sonra Türkiyədə kürdlərin öz milli haqları uğrunda mübarizəsi yenidən canlanmağa başladı və bu mücadilə bu gün də davam etməkdədir. Dövlət çevrilişindən sonra qurulan yeni Türk hököməti bəyan etdi ki, “vahid Türkiyənin türklərə məxsus olması fikri başqa məqsədlər güdən bəzi şəxslərə aşılanacaqdır” (62). Yeni hökumət həmin fikrin aşılanması yolunu da *(kütləvi həbslər, sui-qəsdlər, təzyiq və hədə-qorxular )* tezliklə müəyyənləşdirdi. Elə həmin ildə yeni hökumət 244 nəfər görkəmli kürd xadimini həbs etdirdi (63,109).

Kürdləri inkar etmək siyasətini həyata keçirək yeni Türk hökuməti “Yaşayış məntəqələri ” *(Məskunlaşma)* haqqında 2510 № li qanuna əlavə 105 № li qanun qəbul etdi. Həmin qanunda öz milli haqlarını tələb edən kürdlərin doğma vətənindən keçirilməsi nəzərdə tutulurdu (64, 101-103). 1961-ci ildə Türkiyə Kürdüstanından 55 nəfər görkəmli kürd ziyallısı və siyasətçisi ölkənin qərb vilayətlərinə sürgün edildi. Bundan bir qədər əvvəl isə *(1460-cı ilin oktyabrında)* 147 nəfər professor-müəllim ölkənin universitetlərindən xaric edilmişdi. Onların hamısının günahı “Müstəqil kürdüstanın yaradılmasına yönəlmiş fəaliyyət” idi (65,40).

Yeni Türk hökumətinin kürdlərə qarşı apardığı assimliyasiya və repressiya siyasəti ölkədə yeni narazılıq dalğası yaratdı. XX əsrin 60-cı illərindən başlayaraq kürdlər siyasi mübarizə ilə yanaşı, partizançılıq yoluna üstünlük verdi. Türkiyə hökuməti kürd partizanlarını “bandit, quldur,bölücü” adlandıraraq onlara qarşı kəskin mübarizəyə başladı. 1966-cı ilin iyunda Türk hökuməti 21 nazirin iştirakı ilə gizli iclas keçirtdi.

İclasda kürd milli hərəkatının qarşısını almaq və ölkədə kürdlərin assimliyasiyasını

gücləndirmək üçün tədbirləri planı müzakirə edildi. Eyni zamanda gözdən pərdə asmaq məqsədi ilə ölkənin kürdlər yaşayan 16 şərq vilayətində mədəni və iqtisadi inkişaf üçün müəyyən tədbirlərin həyata keçirilməsi qərara alındı.

1967-ci ildə Türkiyə hökuməti kürd hərəkatının yatırılmasının “hüquqi bazasını” möhkəmləndirmək məqsədi ilə 6/7635 № li dekret qəbul etdi. Həmin dekretə görə kürd dilində xarici mənşəli hər hansı materialın *(yazılı materiallar, plastinkalar, maqnitafon lentləri və s.)* Türkiyə gətirilməsi və yayılması qadağan edildi (66). Həmin ilin sentyabrında Türkiyə hökumətinin inkraçılıq, etnik haqları tapdalamaq və assimliyasiya siyasətinə etiraz əlaməti olaraq, Cenevrə şəhərində Beynəlxalq Hüquqşünaslar Assosasiyası məruzə dərc etdirdi (67,12).

Kürdlərin Assimliyasını gücləndirmək məqsədi ilə60-cı illərdə *(XX əsr)* kürd uşaqları üçün xüsusi internat məktəbləri açıldı. Həmin məktəblərin başlıca vəzifəsi kürdlər arasında türk dili və mədəniyyətinin təsirini gücləndirmək idi. Həmin məqsədlə, həmçinin, 60-cı illərin axırlarında kürdlərin üstünlük təşkil etdiyi Diyarbəkir, Van, Ərzurum, Kars və digər şərq vilayətlərinin mərkəzi şəhərlərində yaradılan radiostansiyalardan geniş istifadə olunurdu.

Türkiyə hökumətinin bütün bu tədbirləri *(təzyiqlər, qadağalar, həbslər)* kürdlərin siyasi mübarizəsini daha da güclədirdi. 60-cı illərin axırından başlayaraq Diyarbəkir və digər kürd vilayətlərini mitinq və yürüşlər dalğası bürüdü. Türkiyədə 1965-ci ildə siyasi partiyalar haqqında qəbul edilmiş qanunda azsaylı xalqların siyasi partiya yaratması qadağan edildi. Ona görə də həmin illərdə kürd ziyalıları qeyri-leqal şəraitdə Türkiyə Kürdüstanı Demokratik Partiyasını *(TKDP)* yaratdılar. Həmin partiya Türkiyə dövləti çərçivəsində kürdlərəinzibati və mədəni muxtariyyətin verilməsi, kürdlərin milli haqlarının tanınması, kürd dili və mədəniyyətinin inkişaf etdirilməsi uğrunda mübarizəni öz qarşısında məqsəd qoymuşdu. Həmin dövrdə Türkiyə Kürdüstanında, həmçinin T ürkiyə Kürdlərinin Azadlıq Partiyası, Azadlıq Assosasiyası, Kürdüstan döyüşçüləri Təşkilatı və s. Gizli fəaliyyət göstərirdi (68).

1970-ci ildə Türkiyə Fəhlə Partiyası özünün IV qurultayında kürd məsələsinə dair xüsusi qətnamə qəbul etdi. Həmin qətnamədə deyilirdi: “Türkiyə Fəhlə Partiyası rəsmi surətdəbəyan edir ki, **Türkiyənin şərqində kürd xalqı mövcuddur.** Lap əvvəldən hakim siniflər tərəfindən təsdiq edilən faşist rejimi kürd xalqına qarşı münasibətdə tez-tez qanlı əməliyyatlar forması alan **əzmək, terror və assimlyasiya** siyasəti aparmışdır (69,205)”.

Türkiyənin tərəqqipərvər və sülhsevər qüvvələrinin və beynəlxalq təşkilatların etirazına baxmayaraq Türk ordusu 1970-ci illərin əvvəllərində kürd vilayətlərində *(Həkəri, Mardin, Silvan, Batman, Diyarbəkir, Malazgird, Karayazı və s.)* hərbi əməliyyatlara başladı. Həmin əməliyyatlar, bir qayda olaraq, kütləvi həbslərlə müşayət olunurdu.

Həmin illərdə yüzlərlə vətənpərvər kürd ziyalısı həbsə atıldı. Onların arasında T. Ziya əkinçi, C.Yıldırım, Musa Antər, Kamal Burkay, Nəci Kutlay, Mehdi Zona, M.E. Bozarslan, Yusuf Əkinçi, İsmail Beşikçi və s. Kimi görkəmli kürd ziyalıları var idi.

Türkiyə hökumətinin "əzmək, terror və assimilyasiya" siyasəti, kütləvi həbslər və təzyiqlər məsələni daha da kəskinləşdirdi. Belə bir şəraitdə 1978-ci ildə Türkiyədə kürdlərin yeni siyasi partiyası-Kürd  Işçi Partiyası *(PKK-Partiya Karkarin Kürdistan)* yarandı. 1980-ci ilin sentyabr ayında general  Kənan Evrenin başçılığı ilə Türkiyədə hərbi çevriliş baş verdi. Ölkədə hakimiyyəti ələ alan K. Evren müsahibələrinin birində deyirdi: *"Kürdlər mövcuddur*. Lakin biz onlara ölkəni parçalamaq imkanı verməyəcəyik. Bu məsələni kökündən qoparmaq üçün biz hər şüyi edəcəyik*"*(100,90).

Həmin müsahibədən sonra həqiqətən də Türk ordusu kürdlərin milli-azadlıq mübarizəsi əzmini qırmaq üçün əlindən gələn "hər şeyi" etdi. Ölkənin kürdlər yaşayan bütün şərq *("Doğu Anadolu")* və cənub-şərq *("Güney-doğu Anadolu")* vilayətlərində hərbi vəziyyət elan olundu. "Bölücü və terorist" kürdlərə qarşı hərbi əməliyyatlar zamanı minlərlə insan həbs edildi və edam cəzasına məhkum olundu. Kürd siyasətçilərinin əksəriyyəti ölkəni tərk etmək məcburiyyətində qaldı.

Türkiyə Kürdüstanı ərazisindəki kürd toponimlərinin *(coğrafi adların)* demək olar ki, 80%-dən çoxu dəyişdirildi. Məsələn, Ağrı vilayətində 376, Van vilayətində-426Muşda-289, Bitlisdə-229 kəndin adı kürdcə olduğu üçün dəyişdirildi. *(Belə dəyişmə əməliyyatı hələ 1938-ci ildən-Dersimin adı Tanceli qoyulandan-başlamışdır).*

1984-cü ilədək siyasi mübarizəyə üstünlük verən partiyanın lideri Abdulla Öcalan həmin ilin avqust ayından silahlı mübarizə yoluna keçdi. Həmin partiyanın döyüşçüləri *(gərila)* ilə Türk ordusu arasında bu günədək davam edən hərbi əməliyyatlarda 40 minə yaxın adam həlak olmuşdur. Həlak olanların əksəriyyəti hərbi əməliyyatlar zamanı evləri, eşikləri yelə-yeksan olan dinc kürd əhalisidir.

1999-cu ilin 16 fevralında PKK-nın lideri A.Öcalan ABŞ və İsrailin gizli təşkilatlarının köməyi ilə həbs edildi və Mərmərə dənizində yerləşən Imrali adasındakı həbsxanaya salındı. Ona verilən "edam" cəzası, sonradan "ömürlük həbs" cəzası ilə  əvəz edildi və hazırda o həmin həbsxanada, xüsusi şəraitdə saxlanılır. Onun həbsindən 11 il keçdiyinə baxmayaraq, PKK ilə Türk ordusu arasındakı döyüşlər davam etməkdədir;

Hərçənd ki, Türkiyə hökumətinin başçıları son 11 ildə dəfələrlə PKK-nın "kökünü qazıdıqlarını" bəyan etmişlər.

PKK-nı "bölücü", "terorist" təşkilat adlandıran Türkiyə hökuməti məsələni demokratik-siyasi mübarizə yolu ilə həll etməyə çalışan kürd partiyalarına qarşı münasibətdə də səmimi olmayıb son 20 ildə həmin partiyaların *(HADEP,DEHAP,DTP)* sıxışdırılması və bağlanılması ilə nəinki kürdlər arasında, eyni zamanda Avropa birliyi, Avropa Şurası, dünyanın bir çox demokratik dövlətlərində və beynəlxalq təşkilatlarda ciddi narazılıq doğurmuşdur.

Doğrudur, son illərdə, xüsusilə, AKP iqtidarı dövründə Türkiyə hökuməti kürd məsələsində müəyyən güzəştlərə getmişdir. Məsələn, XX əsr boyu kürd xalqının varlığını və kürd dilinin mövcudluğunu qətiyyətlə inkar edən, kür musiqisinin yayımlanmasına və milli bayramların *("Novruz" və s.)* keçirilməsinə, hətta, kürd uşaqlarına öz dillərində ad verilməsinə qadağalar qoyan bu qadağaları pozan kürd əsilli mədəniyyət və incəsənət xadimlərini, görkəmli yazıçı və alimləri dərhal həbs etdirən Türkiyə hökuməti son illərdə kürdlərin milli-mədəni haqlarının tanınması, yuxarıda qeyd olunan qadağaların aradan qaldırılması istqamətində, ləng də olsa, müəyyən addımlar atmaqdadır. Hətta Türkiyənin dövlət televiziyasında kürd dilində ayrıca kanal *(TRT-6)* açılmış, burada müntəzəm verilişlər yayımlanmağa başlanılmışdır.

Lakin bütün bu "yarımçıq" addımlar kürdlərin milli haqlarının tam tanınması tələbini ödəmir və ölkədə milli zəmində qərginlik davam etməkdədir. Əlbəttə, Türkiyə hökuməti nə qədər tez cəsarətli addım atıb dövlət səviyyəsində-konstitusiya əsasında kürdlərin milli haqlarını tanısa, bu kürdlərdən daha çox Türkiyə Cumhuriyyətinin xeyrinə olar. Belə ki, bununla uzun illər boyu kürdlərə mqarşı hərbi əməliyyatlara xərclənən külli miqdarda vəsait ölkənin sosial-iqtisadi inkişafına yönələr, ölkədə siyasi sabitlik, vətəndaş həmrəyliyi və milli birlik möhkəmlənər, ölkənin gələcəkdə parçalanması təhlükəsi aradan qalxar. Bütün bunlar isə tez bir zamanda ölkənin iqtisadi qüdrətinin güclənmənməsinə və Türkiyənin demokratik bir dövlət kimi beynəlxalq nüfuzunun artmasına səbəb ola bilər.

Lizanna müqaviləsindən *(1923-cü il)* sonra Kürdüstan ərazisinin 4 yerə parçalanması ilə əlaqədar ciddi narazılıqlar Şimali Kürdüstanda *(Türkiyə Kürdüstanı)* olduğu kimi İraq Kürdüstanında da tezliklə silahlı mübarizəyə çevrildi. Burada həmin mübarizə əslində Birinci Dünya müharibəsindən əvvəl başlamışdı.

Birinci Dünya müharibəsindən dərhal sonra İraqın və İraq Kürdüstanının ərazisini öz nüfuz dairəsində saxlamaq üçün ikiüzlü və hiyləgər siyasət yeridərək, üzdə zöünü kürdlərin milli-azadlıq hərəkatının müdafiəçisi kimi göstərən inglislər əslində regionda "parçala hökm et!" şüarını həyata keçirirdi. Onlar Müstəqil Kürdüstanın yaradılmasına kömək etmək əvəzinə *(halbu ki, üzdə buna çalıdıqlarını bəyan edirdilər)* ayrı-ayrı kürd

feodal-tayfa rəhbərlərini hakimiyyətə gətirməklə şirnikləndirir, onları bir-birinin üzərinə saldıqrmaqla öz məkrli məqsədinə *(regionda yeganə hökmranlıq)* nail olmağa çalışırdı (70,115,59,30).

Belə bir şəraitdə 1918-i ilin noyabrın 1-də Şeyx Mahmud **Barzanci** *(1882-1956)* Süleymaniyə əyalətinin hökmdarı elan edildi. Şeyx Mahmud Barzancinin məqsədi Mosul vilayətinin bütün ərazisi də daxil olmaqla müstəqil Kürdüstan dövləti yaratmaq idi. O belə bir dövlətin İngiltərənin himayəsi altında yaradılmasına razı idi və bunun üçün inglislərin İrandakı səlahiyyətli komissarı Arnold Vilsona 40 kürd tayfa rəhbərlərinin imzaladığı sənədi təqdim etmişdi (71,129).

Əlbəttə, kürdlərin bu istədi ingilis müstəmləkəçilərinin maraqlarına uyğun gəlmirdi və ona görə də onlar regionda, xüsusilə neftlə zəngin Mosul vilayətində öz mövqelərini möhkəmləndirmək üçün Ş.M. Barzaminin nüfuz dairəsini daraltmağa başladılar (72,83). Bundan narazı qalan kürdlər 1919-cu ilin yazında silahlı üsyana başladılar. Həmin ilin aprelində **gəyan** *(qayan)* tayfası Zahoda, Əhməd Bazaninin rəhbərlik etdiyi kürdlər **Barzan** rayonunda İnglis işğalçılarına qarşı silahlı mübarizəyə qalxdılar (73,193). May ayının 20 –də İran Kürdüstanından **avroman** tayfa birləşməsinin rəhbəri Mahmud-xan Dizli kömək üçün öz silahları ilə birgə Süleymaniyə şəhərinə daxil oldu.

İnglislərin xəyanətini görən Ş.M. Barzanci 23 may 1919-cu ildə inglislərin Süleymaniyə şəhərindəki siyasi qərargahına hücum edib siyasi zabit Qrinhouzu və onun bütün şəxsi heyətini həbsə saldı və Cənubi Kürdüstanın müstəqüilliyini bəyan etdi. Süleymaniyə şəhərinin inzibati binası üzərində inglis bayrağı endirildi, onun yerində kürd bayrağı ucaldıldı (74,32). Öz hakimiyyət dairəsini genişləndirən Şeyx Mahmud Kərkün yolunda yerləşən Tasluca dərəsində hərbi texnika ilə silahlanmış inglislərin dəstəsini darmadığın etdi. Bunu görən inglislər Şeyx Mahmudun üzərinə böyük texnika və canlı qüvvə göndərdi.

18 iyun 1919-cu ildə Dərbənde Bazian adlı ərazidə inglislərlə şiddətli döyüş zamanı Ş.M. Barzanci yaralandı və həbs edildi. Bu məşğuliyyətdə ingilislərin hərbi texnikaya görə üstünlüyündən başqa, öz minliyti mənliyini pula və vəzifəyə satan kürd feodal Muşir Həmay Süleymanın xəyanəti də müəyyən rol oynadı. O inglislərə bələdçilik edərək, gizli aşırım yolu ilə onların üsyançılara arxadan zərbə vurmasına köməklik etmişdi.

Beləkillə şeyx Mahmud Barzancinin başçılıq etdiyi silahlı üsyan məğlubiyyətlə nəticələndi. Lakin buna baxmayaraq, həmin üsyan təkcə İraqda deyil, Kürdüstanın digər parçalarında da milli-azadlıq hərəkatının yeni dalğasına təkan verməklə öz tarixi rolunu oynadı (75,410).

1920-1922-ci illərdə Türkiyə Osmanlı imperiyasının əldən getmiş torpaqlarını, o

cümlədən İraq ərazisini geri qaytarmaq üçün əlindən gələni etdi. 1922-ci ilin sentyabrında türk ordusu Süleymaniyə şəhərinə yaxınlaşdı. İnglislər buradakı mövqelərindən geri çəkilib Ərdəbil və Kərkün şəhərində yerləşməli oldular. Vəziyyəti öz xeyirlərinə dəyişmək üçün Şeyx Mahmud Barzanciyə müraciət edərək onu sürgündən Süleymaniyəyə geri gətirdilər. *(O Hindistanda sürgündə idi ).* Bağdatda inglislərin ali komisarı, İraqın kralı Feysəl və Ş.M. Barzanci arasındakı danışıqlarda belə bir razılıq əldə olundu: 1) Ş.M. Barzanci Kürdüstan ərazisində öz nüfuzundan istifadə edərək qayda-qanun yaradacaq və türklərin İraq ərazisinə soxulmasının qarşısını alacaq; 2) İngilislər muxtar KÜrd rayonunun yaradılmasında Şeyx Mahmuda köməklik göstərcək.

Beləliklə, 1922-ci ilin 14 sentyabrında Ş.M.Barzanci yenidən Süleymaniyə vilayətinin hökmdarı *(Seçki Şurasının Sədri)* təyin olundu və həmin ilin oktyabrında iraqlı hərbi zabitlərin və inglislərin siyasi komissarı Noelin müşaiyəti ilə şəhərə daxil oldu (76,200-201). Şeyx Mahmud tezliklə öz hökumətinin tərkibini Bağdata təqdim etdi. O, Kürd dövlətinin başçısı, kardaşı Şeyx Qadir isə Baş nazir təyin olundu. **Kürd dili rəsmi dil elan olundu.** Bu dildə müxtəlif markalar, pul nişanları çap olundu, təhsil müəssisələrinin yaradılması üçün tədbirlər həyata keçirildi.

Kürd dilində əvvəlcə “Bangi Kürdüstanın” *(“Kürdüstanın səsi”)* daha sonra isə “Ümidi Kürdüstanın” *(“Kürdüstanın ümidi”),* “Röya Kurdistan” (“Kürdistanın günəşi”) qəzəlləri nəşr olunmağa başladı (77, 104).

1922-ci ildə Şeyx Mahmud Barzani kürdləri muxtarriyyət məsələsini müzakirə etmək üçün öz nümayyəndələrini Bağdada göndərdi. Lakin ingilislər və Bağdadaın hakim dairələri kürdlərin haqlı tələblərini *(İraq çərçivəsində Muxtar Kürdistanın yaradılması)* qəbul etmədikləri üçün danışıqlar nəticəsiz başa çatdı. İngilislərin ona münasibətdə 1919-cu illəri kimi hərəkət edəcəyindən şübhələnən Ş.M.Barranci ingilislərə qarşı olan dairələrdə özünə müttəfiq axtarmağa məcbur oldı. Bu məqsədlə o, Türk hökümıəti və İraq ərəbləri ilə danışıqlara başladı. Bunu görən ingilislər Seyx Mahmudu izahat vermək üçün Bağdada çağırdı. Lakin o, Bağdada getməkdəm imtina etdi (78,99).

1923-cü ilin martın 3-də ingilislər Süleymaniyə şəhərini hərbi təyyarələrdən bombalamağa başladı. İngilislərin şəhəri vəhşicəsinə dağıtmağa başladığını görən Ş.M.Barranci Süleymaniyyəni tərk edib öz dəstəsi ilə dağlara çəkildi.İngilislərə qarşı silahlı mübarizə aparan Şeyx Mahmud digər kürd liderlərini də milli azadlıq hərəkatına qoşulmağa çağırdı. Lakin bəzi kürd feodallıq hərəkatına qoşulmağa çağırdı. Lakin bəzi kürd feodalları və xüsusilə dini rəhbərləri onu ingilis “agenti” adlandıraraq köməkdən imtina etdilər. Məsələn, İran kürdüstanının bəzi rəhbərləri Ş.M. Barzancinin çağırışına cavab olaraq bəyan etdilər ki, onlar ingilislərdən asılı olmayan müstəqil Kürdüstan uğrunda mübarizə aparırlar (79). Əvvəlcə Ş.M.Barzanciyə ingilislərə qarşı mübarizədə kömək edəcəyini vədd edən Türk hökuməti 1923-cü ildə öz mövqeyini möhkəmləndirən

kimi nəinki vədinə sadiq qaldı, əksinə, kürdlərin milli azadlıq hərəkatının boğulması üçün tədbirlərə başladı 1923-cü ilin may ayının ortalarında ingilis silahlı qüvvələri milli mənliyini sərvətə və vəzifəyə satan bəzi kürd feodallarının köməyi ilə Süleymaniyə şəhərini işğal etdilər. Qeyi-bərabər qüvvələrlə döyüşün əhəmiyyətsiz olduğunu görən Şeyx Mahmud ingilislərə qarşı partizan hərəkatına keçməyə məcbur oldu.

İraq Kürdüstanında milli-azadlıq hərəkatının yatırılması üçün vaxtilə Ş.M.Barzanciyə vədlər verən Türk  də əlindən gələni əsirgəmədi (80).

Ş.M. Barzancinin rəhbərliyi altında baş qaldıran milli-azadlıq hərəkatını yatırdıqdan sonra *(1923-cü il)* ingilislər Osmanlı imperiyasının tərkibindən çıxmış və əhalisinin əksəriyyəti kürdlərdənibarət olan Mosal vilayətini öz mandatı altında olan İraqa birləşdirmək üçün “dəridən-qabıqdan” çıxdılar. Və nəhayət 1925-ci ilin 15 dekabrında Millətlər Siqası *(indiki BMT)* Mosal vilayətinin İraqa birləşdirilməsi və bu ölkənin *(İraqın)* 25 illiyin Böyük Britaniyanın mandatına *(yəni tabeliyinə)* verilməsi barədə qərar qəbul etdi.

Öz doğma torpaqlarında yadelli işğalçıların ağalığını möhkəmləndirən bu qərar İraq Kürdüstanında ciddi narazılıqların baş qaldırmasına səbəb oldu. Həmin narazılıqları yumşaltmaq məqsədi ilə İraqın Baş naziri 1926-cı ilin fevralında Bağdatda-parlament iclasında bəyan etdi: **“Biz kürdlərə öz haqlarını verməliyik.** Vəzifəli şəxslər onlardan olmalıdır. Kürdlərin **ana dili rəsmi dil olmalı,** onların uşaqları isə məktəblərdə kürd dilində oxumalıdır**”** (51,293). Lakin kürdləri sakitləşdirmək məqsədi daşıyan bu bəyanat elə parlamentin divarları arasında qalan boş vəddən başqa bir şey olmadı.

1930-cu illlərdə kürdlərin milli-azadlıq hərəkatı yenidən canlanmağa başladı. Həmin ilin 6 sentyabrında Süleymaniyədə təşkil olunan izdihamlı mitinqdə qarşıdan gələn parlament seçkilərini boykot etmək tələbi irəli sürüldü və bu şüarlar səsləndirildi: “Rədd olsun imperializm!”, “Kürdüstana azadlıq!” (77,147). İraq hökuməti dinc əhalənin üzərinə qoşun göndərərək mitinqi silah gücünə *(39-a yaxın dinc nümayişçi öldürüldü)* dağıtdı.

Yaranan şəraitdən istifadə etmək qərarına gələn M. Barzanci İranın sərhəd rayonlarından İraqa doğru yeridi. İlk Günlər kürd üsyançılar xeyli uğur qazanaraq hökumət qoşunlarını məğlubiyyətə uğratdı. Vəziyyətdən ciddi narahat olan ingilislər hərbi-hava qüvvələri vasitəsi ilə üsyançıların və dinc əhalinin  yaşadığı əraziləri bombardman etdi. Kürd üsyançıları 1931-ci ilin yay aylarınadək ciddi müqavimət göstərsələr də birləşmiş ingilis-İraq qoşunlarının yüksək texnika ilə təmin olunmuş hərbi gücünə tab gətirə bilmədilər.

Hərəkatın lideri Şeyx Mahmud Barzanci ingilislərlə danışıqlar nəticəsində əvvəlcə Bağdada gətirildi, sonra isə Samarra şəhərinə sürgünə göndərildi. *(İngilislər onun və ailəsinin təhlükəsizliyini təmin edəcəklərini vəd etmişdilər).*

Ş.M. Barzancinin başçılıq etdiyi milli-azadlıq hərəkatı yatırıldıqdan az sonra İrada **Barzanilər** hərəkatı baş qaldırdı. Əslində Barzaninin Osmanlı imperiyası dövründə işğalçılara demək olar ki, boyun əyməmiş və yarımmüstəqil hakimiyyətlərini sürdürməkdə davam etdirmişlər. 1931-ci ilin iyun ayında ingilislər öz nümayəndəsini hərəkatın lideri **Əhməd Barzaninin** yanına göndərərək ondan üsyanı dayandırmağı tələb etdilər. Lakin Ə.Barzani bu tələbi rədd edərək, həmin ilin iyul ayında ingilis-Iraq birləşmiş hərbi qüvvələrinə qarşı qəhrəmancasına döyüşə başladı. İngilislər tərəfindən ələ alınan Şeyx Rəşid Bradost Ə. Barzaniyə qarşı çıxdı.

Üsyançılara gücü çatmadığını görən İraq hökuməti yenidən ingilislərin hərbi-hava qüvvələrinə müraciət etdi. İngilis təyyarələri Barzan rayonunu vəhşicəsinə bombardman etməyə başladı. Bu barədə ingilis H.S. Lonqriq "İraq 1900-1950-ci illərdə siyasi, sosial və iqtisadi tarixi" adlı kitabında yazır: "Əhmədin fəaliyyət göstərdiyi rayon tədricən təsir göstərən bombalardan istifadə edilməklə intensiv bombardman edildi; hətta, mal-qaranı havadan məhv etdilər " (86,196).

Qeyri-bərabər qüvvələrlə İraq-ingilis qoşun birləşmələrinə qarşı qəhrəmancasına döyüşn barzanilər 1933-cü ilin may ayınadək ciddi müqavimət göstərə bildi. Həmin ay fransız jurnalisti yazırdı ki, 10 mindən çox İraq əsgəri yalnız ingilislərinin hərbi-hava qüvvələrinin böyük köməyi nəticəsində Əhməd Barzaninin rəhbərlik etdiyi üsyançıların öhdəsindən gələ bildi (87,79).

İngilislərlə yanaşı, Türkiyə hökuməti də kürd üsyançılarına qarşı döyüşdə İraq əsgərlərinə yaxından köməklik göstərdi. Hətta, Əhməd Barzani aldadılaraq Türkiyəyəaparılmış və burada 100-ə yaxın silahdaşı ilə aldadılaraq həbs edilmişdir (54,156).

1943-cü ilin yayında Barzanilər hərəkatı **Mustafa Barzaninin** rəhbərliyi ilə yenidən baş qaldırdı. Üsyan bölgəsinə yenidən hərbi qüvvə göndərən İraq hökumətinin qoşunları Merqa Sor *("Qırmızı çəmənlik")* rayonunda darmadağın edildi. Kürd üsyançıları ilə bacarmadığını görən İraq hökuməti vaxt udmaq məqsədi ilə M.Barzani ilə sülh danışıqlarına getdi. Uzun sürən danışıqlardan sonra əldə olunan razılıq müqaviləsində İraq hökuməti kürdlərin aşağıdakı tələblərini yerinə yetirəcəyinə söz vermişdi:

1). Üsyançıların ələ keçirdiyi ərazilər onların *(Kürdlərin)* nəzarətində saxlanılacaq;

2). Üsyançıların silahları özlərində qalacaq;

3). Üsyanla əlaqədar ölkənin şimalında həbs olunanların hamısı azadlığa buraxılacaq;

4). Kürdüstan sənaye və ərzaq məhsulları ilə ədalət prinsipi əsasında təmin olunacaq;

5). Kürdlərin yaşadığı rayonlar kürdlər tərəfindən idarə olunacaqdır;

6). Mədəniyyət və maarif sahəsində İraq Kürdüstanı muxtariyyət hüququna malik olacaqdır;

7). İraq Kürdüstanında məktəb və xəstəxanalrın tikintisi üçün hökumət vəsait ayıracaq (54,168-169). 1944-cü ilin mart ayında İraq hökumətinin başçısı Nuri Səid Kürdüstana səfər etdi. O, Kərkük və Ərdəbil şəhərlərindəki çıxışlarında **özünün də kürd mənşəli olduğunu,** bu xalqın vətənpərvərliyini və qəhrəmanlığını təqdir etdiyini, İraq hökumətinin kürdlərin bütün tələblərini yerinə yetirəcəyini bəyan etdi (88,98).

İraq hökumətinin əvvələrdə belə vədlər verib yerinə yetirmədiyini yaxşı bilən B. Barzani 1945-ci ildə Azadlıq komitəsi yaratdı. Həmin komitənin bütün üsyan rayonlarında özəkləri təşkil olundu. Həmin komitədən az əvvəl yaradılmış "Şoreş" *("İnqilab")* partiyası da üsyançılara kömək edəcəyini bəyan etdi.

Bütün bunları görən İraq hökuməti iki üzlü siyasətə üstünlük verdi: bir tərəfdən M.Barzaninin yanına vasitəçilər göndərilir, digər tərəfdən üsyanı silah gücünə yatırdmaq məqsədi ilə hərbi əməliyyatlar hazırlanırdı.

1945-ci ilin avqustunda İraq hökuməti ingilis generalı Rentonun başçılğı altında Barzanilərin üzərinə 25 mindən yuxarı silahlı qüvvə yeritdi. Bundan əlavə hökumətin vəzifə və pul ilə ələ aldığı kürd feodallarının beş minə yaxın döyüşçüsü də üsyançılara qarşı hərbi əməliyyatlara cəlb edildi. Sentyabırda genişlənən ilk hərbi əməliyyatlar zamanı M. Barzaninin partizan dəstələri hökumət qoşunlarını məğlubiyyətə uğradaraq, Ərdəbil üzərinə hücuma hazırlaşdı.

Bu vəziyytdən narahat olan ingilislər əvvəllər olduğu kimi bu dəfə də kürd üsyançılarının üzərinə hərbi təyyarələrdən vəhşicəsinə bombalar yağdırdı. İngilis Lonqriqin yazdığına görə hərbi təyyarılır təkcə üsyançıların mövqelərini, onları müdaviə edən dinc əhalinin bütün evlərini, malını-mülkünü bombardman edirdi. Nəticədə üsyanın baş verdiyi ərazilərdə 50-dən çox yaşayış məntəqəsi yerlə yeksan edildi (54,172).

M.Barzani qeyri-bərabər qüvvələrlə döyüşməyin əhəmiyyətsiz olduğunu görüb İran Kürdüstanına tərəf çəkilməyi qərara aldı. Ərbildə təşkil olunan hərbi tribunal M. Barzani, Şeyx Əhməd Barzani və İraq ordusunun kürd mənşəli yeddi zabiti daxil olmaqla 35 nəfərin qiyabi olaraq ölüm cəzasına məhkum edilməsi barədə qərar çıxartdı. Həmin zabitlərdən kapitan Mustafa Xoşnav dar ağacı önündə qürurla səsləndi: "Cəlladlar öz sahiblərinizə deyin ki, mənim qanım üçün qisas alınacaqdır! Mən onunla fəxr edirəm ki, mənim adım həmvətənlərim tərəfindən unudulmayacaqdır  və öz həyatım Kürdüstanın böyüməsi və xoşbəxtliyi üçün qurban verənlərin adı ilə bir sırada dayanacaqdır" (54,175). **Haşiyə:** M. Xoşnavın adı unudulmadı, əksinə Kürdüstanın tarixinə  qızıl hərflərlə əbədi

hәkk olundu. Tәkcә onun deyil XX әsrdә İraq hökumәti tәrәfindәn mәhv edilmiş milyondan çox kürdün qisası gec dә olsa, alındı: Şәddam Hüseyn dar ağacından asıldı *(Onun müddәhim kürsüsündә әylәşdiyi mәhkәmәnin sәdri kürd idi).*

1958-ci ilin 14 iyulunda baş verәn inqilab nәticәsindә İraq Haşimlәr krallığı devrildi; ölkәdә ilk respublika hökumәti tәşkil olundu. Hәmin hökumәtin iki naziri milliyәtcә kürd idi. Mahmud Salih Mahmud *(Sәhiyyә naziri)*; Mustafa Әli *(Әdliyyә naziri)*. Yeni yaradılan Ali dövlәt şurasının üç üzvündәn biri-Xalid Naxışbındi dә kürd idi.

Yeni hökumәtin kürdlәrin milli haqlarını tanıyacağı barәdәki vәdlәrinә vә bu istiqamәtdә atılan ilk addımlara inanan kürdlәr demokratik mübarizә yolunu seçmәk qәrarına gәldilәr. Belә ki, Kürdüstan Demokratik partiyası 16 iyul 1958-ci ildә özünün mәrkәzi komitәsinin fövqәladә plenumunda xüsusi bәyanat qәbul etdi. Bәyanatda qeyd olunurdu ki, HDP ölkәdә yeni yaranmış respublika quruluşunu müdafiә edir vә onun apardığı siyasәtlә hәmrәydir. Eyni zamanda KDP әminliyini bildirdi ki, demokratik İraq rejimi kürdlәrin milli haqlarını tanıyacaqdır.

1958-ci ilin 26 iyulunda İraq respublikasının müvәqqәti Konstitusiyası qәbul edildi. Hәmin konstitusiya ölkәnin tarixindә ilk dәfә olaraq kürdlrin milli haqları qanunla tәsbit olundu. Belә ki hәmin konstitusiyanın 3-cü maddәsindә yazılmışdı: "Әrәblәr vә kürdlәr tәrәfdaşdırlar, onların milli haqları vahid İraq çәrçivәsindә kontitusiya ilә tәmin olunur (89,20)".

Hәmin ildәn başlayaraq kürdlәrin milli haqlarının tanınması istiqamәtindә müәyyәn addımlar atıldı: Maarif nazirliyindә "Kürdüstanda tәdris-tәrbiyә işlәrinin tәşkili" departamentin yaradılması; mәktәblәrdә kür dilindә tәlimә başlanılması; kürd dilindәki qәzet vә jurnalların leqal nәşri, Kürdüstan Demokratik Partiyasının bütün ölkәdә sәrbәst fәaliyyәti; 1943-1945-ci il üsyanının iştirakçıları, o cümlәdәn M.Barzani haqqında Amnistiyanın verilmәsi vә s.

Bağdadda nәşr olunan "Әl- Cumhuriyyә" qәzeti 1958-ci ilin 19 iyul sayında yazırdı: "İraqın azadlığı vә mütlәqiyyәn uğrunda mübarizәdә әrәblәrlә bәrabәr iştirak edәn kürdlәr әmin ola bilәrlәr ki, onların vәziyyәti ilә müvafiq olacaqdır" (54,198).

Bütün bu adddımlar Türkiyә hökumәtini ciddi naraht etmәyә başladı. Hәmin hökumәt hәtta belә bir rәsmi bәyanat verdi: "öz maraqlarının Kәrkükdә (?!) müdafiә

etmәk üçün Türkiyә әn aktiv siyasәt yürütmәyә hazırdır" (90,71).

1958-ci ilin 7 oktyabrında İraq hökumәtinin başçısı Qasım MşBarzanini vә 1958-ci ilin 7 oktyabrında İraq hökumәtinin başçısı Qasım MşBarzanini vә onu müşaiyәt edәn digәr kürd liderlәrini qәbul etdi. Elә hәmin gün M.Barzani Ali dövlәt Şurasının üzvlәri ilә

görüşdü. Bu səmimi görüşlər və aparılan danışıqlar Kürd ictimaiyyətində demokratik əhvali-ruhiyyə və vahid İraq dövləti çərçivəsində konstitusiya yolu ilə kürdlərə muxtariyyət verilməsinə inam yaratdı.

Bütün qeyd olunanlarla barışmayan İraq hökumətinin millətçi sağ qanadı, Türkiyə və İranın Xüsusi xidmət orqanları yenicə durulmaqda olan suyu bulandırmağa başladılar. Əvvəlcə millətçi sağ qanada rəhbərlik edən Əbdül Salam Aref və onu müdafiə edənlər tərəfindən 1958-ci ilin noyabr-dekabr ayında baş nazir Qasıma qarşı sui-qəsdlər təşkil olundu. Lakin sol qüvvələrin, o cümlədən, KDP-nin köməyi nəticəsində hökumət bu sui qəsdlərin qarşısını ala bildi. Daha sonra Türkiyə və İranın xüsusi xidmət orqanları Kürdüstan bölgəsində təxribatlar təşkil etməyə başladılar.

Türkiyə hökumətinin gizli agentləri apardıqları təxribatlar məqsədi ilə 1959-cu ilin yanvarında Kərkükün Körpü qəsəbəsində kürkmənlərlə kürdlərin toqquşmasını təşkil etdilər. *(Türk hökuməti belə təxribat xarakterli fəaliyyətini Şimali İraqda (Kürdüstanda) bu gün də davam etdirməkdə və burada demokratik yolla Kürd muxtariyyətinin yaradılmasına mane olmaqdadır).* Həmin ilin iyulunda qeyd olunan qüvvələr kərkük şəhərində kütləvi iğtişaşlar törətdilər. Bu iğtişaşlardan sonra Qasımın başçılıq etdiyi İraq hökuməti demokratik dəyişikliklərdən, o cümlədən kürdlərin haqlarının tanınması istiqamətində atılan addımlardan üz döndərməyə başladı.

1961-ci ildə KDP-nin orqanı olan “Xəbat” *(“Mübarizə”)* qəzeti və kürd dilindəki digər nəşrlər bağlandı. Həmin ilin avqustunda KDP iki dəfə İraq hökumətinə müraciət etdi. Bu müraciətlərə cavab əvəzində İraq hökuməti Kürdüstan ərazisinə böyük hərbi qüvvə göndərdi. Hərbi-hava qüvvələri əvvəlcə Barzan rayonunu, daha sonra isə Kürdüstanın digər ərazilərini bombalamağa başladı. Kürdlərə qarşı aparılan hədə-qorxu kompaniyası o dərəcəyə çatmışdı ki, kürd əsilli məmurlara milli geyimdə gəzmək qadağan olunmuşdu (60,65).

1963-cü ilin 8 fevralında dövlət çevrilişi nəticəsində sağ millətçi-ekstremist qüvvələr hakimiyyəti ələ keçirtdi və İraqda hərbi-diktatura rejimi yaradıldı. Həmin ilin iyununda Milli Şura kürdlərin üstünlük təşkil etdiyi vilayətlərin *(Mosul, Süleymaniyə, Ərbil, Kərkük)* ərazisini hərbi zona elan etdi. Eyni zamanda həmin şura Barzanilərə ultimatum göndərərək 24 saat saat ərzində silahı yerə qoymaq tələbini irəli sürdü. Bu ultimatumun səhərisi İraq hökuməti M. Barzaninin dirisini və ya ölüsünü Bağdada gətirənlərə **250 min dollar** verəcəyini elan etdi (54,208).

Kürdlərin muxtariyyət əldə etmək üçün apardığı milli mübarizəyə son qoymaq üçün Türkiyə, İran və Suriya hökumətləri də İraqın hərbi-diktatura rejiminə gizli və açıq yardım edirdi. Hətta, Türkiyə və İran təyyarələrinə İraqın hava sərhədlərini keçib kürdlərin

yaşadığı rayonlarda "kəşfiyyat" uçuşlarını həyata keçirtmək və hərbi əməliyyatlarda iştirak etmək icazəsi verilmişdi.

Qeyri-bərabər qüvvələrlə qəhrəmancasına döyüşən Barzanilərə həmin ağır günlərdə heç kim köməklik göstərmirdi. Yalnız Sovet İttifaqı Türkiyə, İran və Suriya hökumətlərinin İraqın daxili işlərinə qarışmasını pisləyən bəyanatla çıxış etdi (79,09.07.1963).

Kürdlərin müqavimətini silah gücünə qıra  bilməyəcəyini görən kürd hökuməti yenidən onlarla danışıqlara getməyi qərara aldı. 1964-cü ilin 10 fevralında İraq hökuməti ilə kürdlərin milli hərəkat lideri arasında "Kürdüstanda müharibənin dayandırılması və problemin sülh yolu ilə həlli" haqqında müqavilə imzalandı.

1966-cı ildə İraq hökuməti yenidən silah gücünə əl atdı. Həmin ilin may ayında Rəvandüz rayonunda hökumət qoşunları ilə kürdlər arasında böyük toqquşma baş verdi. Kürdlər bu döyüşdə öz mövqelərini qoruyub saxlamaqla yanaşı, hökumət qoşunlarına ağır zərbə vura bildilər. Bu döyüşdən sonra İraq hökuməti yenidən kürdlərlə danışıqlara getdi və 1966-cı ilin 29 iyununda onlar arasında sülh müqaviləsi imzalandı. Lakin səhərisi gün (30 iyun) müqavilənin şərtləri ilə razılaşmayan sağ millətçilər dövlət çevrilişinə cəhd etdilər.

1968-ci ilin 17 iyulunda "Ərəb inqilabi hərəkatı"nın zabitləri "BƏƏS" partiyasının üzvləri olan hərbiçilərlə birlikdə İraqda dövlət çevrilişi edərək genral Əhməd Həsən Bəkri prezident təyin etdilər. Həmin ilin sentyabrında qəbul edilən ölkənin yeni müvəqqəti Konstitusiyasına əsasən BƏƏS-dən başqa bütün siyasi partiyaların fəaliyyəti qadağan olundu. Yeni Konstitusiyada kürd məsələsinin həlli öz əksini tapmamışdı.

Ölkədə vəziyyətin gərginləşdiyini görən İraq hökuməti 1970-ci ildə kürd məsələsinin demokratik yolla həllinin əruriliyini anlamağa və bu istiqamətdə müəyyən addımlar atmağa başladı. Həmin il İnqilabi Rəhbərlik Şurasının sədr müavini olan Səddam Hüseyn bəyan etdi ki: "Müasir dövrdə, məhz indi ölkə elə bir həddə çatıb ki, **İraqda bütün İnqilabın taleyi kürd məsələsinin həllindən asılıdır**" (54,215). *(Hakimiyyətə kürdlərin köməyi ilə keçən S.Hüseyn qurduğu diktatura rejimini möhkəmləndir-dikdən sonra kürd xalqının qəniminə çevrildi).*

**1970-ci ilin 11 Martında** kürd probleminin sülh və demokratiya yolu ilə həll edilməsinə dair müqavilə bəyan edildi. Müqavilədə iran kürdlərinə muxtariyyət verilməsi, ərəb dili ilə yanaşı kürd dilinin də rəsmi dil olması nəzərdə tutulmuşdu. Həmin müqavilədən sonrakı ilk aylarda kürdlərin milli haqqlarının özlərinə qaytarılması istiqamətində hökumət tərəfindən müəyyən addımlar atıldı. Lakin bu addımlarla razılaşmayan millətçi qüvvələr ölkəqə vəziyyəti gərginləşdirməyə cəht göstərdilər 1971-ci

ildə kürdlərin lideri M.Barzanıya qarşı uğursuzluqla nəticələnən sui qəst təşkil olundu. Beləliklə, hökumət ilə kürdlər arasındakı münasibətlərdə soyuqluq yaradıldı. “Kürd muxtar rayonunun yaradılması haqqında “qanun qəbul edilməsi də gərginliyi aradan qaldırmadı.

1974-cü ildə yenidən kürdlərlə iraqın hökumət qoşunları arasında silahlı toqquşma baş verdi. Həmin toqquşma 1975-ci ilə-dək davam etdi. Hökumət böyük çətinliklə də olsa **Barzanilərin** bu hərəkatını da silah gücünə yatırtdı. Hənin ildən etibarən Ərər Sosialist Dirçəliş Partiyası *(BƏƏS)* ölkədə bütün hakimiyyəti ələ keçirtdi və demokratik qüvvələrə, o cümlədən kürd məsələsini sülh yolu ilə həll etməyə çalışan kürdlərə qarşı kəskin hücuma keçdi. Kürdlərin muxtariyyət uğrunda mübarizəsinə birdəfəlik son qoymaq məqsədi ilə ölkənin Kürdüstan bölgəsində demokrafik vəziyyəti dəyişdirmək planını həyata keçirtməyə başladı. Az vaxt ərzində **700 mindən çox kürd** doğma yurdlarından sürgün edildi (54,269).

İraq Kominist Partiyasının verdiyi məlumata görə 1974-1978-ci illər  ərzində Diyalə, Süleymaniyə, Ərbil, Kərkük, Duhak və Mosal vilayətlərində 1222 kürd kəndi boşaldıldı. Bəzi mənbələrə görə dağıdılan və boşaldılan kürd kəndlərinin sayı 6130 idi. (22,66). Həmin kəndlərin bəziləri dağıdıldı, digər kəndlərə ərəblər köçürüldü. İraq hökuməti özünün **1974-cü ildə mart ayının 11-də** kürdlərə milli muxtariyyət verilməsi barədə qəbul etdiyi qanunu *(33 N-li qanun)* pozaraq, 1978/1979-cu tədris ilindən başlayaraq, Kürdüstan bölgəsində təlimin kürd dilində deyil ərəb dilində aparılmasına göstəriş verdi.Rəsmi sənədlərdə, məktəb,xəstəxana, mehmanxana və s. Adlarında kür dilininişlədilməsi qadağan edildi. 1978-ci ildə **Kürd Elmlər Akademiyası** *(1970-ci ildə yaradılmışdı)* bağlanıldı, Süleymaniyə **Kürd Universiteti** ərəb dilində təlim keçdi.

Kürdlərin milli-azadlıq hərəkatına son qoymaq məqsədilə İraq hökuməti İran və Türkiyə ilə münasibətləri yaxşılaşdırmağa başladı. 1975-ci ildə İranla sərhəd mübahisələrini nizama saldıqdan sonra 1978-ci ildə İraq-Türkiyə müqaviləsi imzalandı. Həmin müqavilənin 4-cü bəndində kürdlərə qarşı mübarizədə qüvvələrin koordinasiyası nəzərdə tutulmuşdu (54,271).

1979-cu ildə Səddam Hüseyn İraqın Kürdüstan Muxtar rayonuna *(qəribədir ki, Kürdüstan Muxtar bölgəsinə üç vilayət-Süleymaniyə, Ərbil, Dahok-daxil olduğu halda, həmin ərazilər rəsmi dövlət sənədlərində Kürd Muxtar rayonu (?!)adlandırıldı)* səfər etdi. Səfərdə məqsəd Iranla müharibə ərəfəsində kürdlərin dəstəyini almaq idi. Ona görə də S.Hüseyn Kürdüstan bölgəsindəki görüşlərində yenidən kürdlərə muxtariyyətin möhkəmləndiriləcəyi, ölkənin cənubuna köçürülmüş kürdlərin öz doğma yerlərinə geri qaytarılacağı barədə vədlər verdi.

1979-cu ildə İranla İraq arasında başlanan müharibə Kürdüstan bölgəsində

vəziyyəti daha da kəskinləşdirdi. Kürdlərin muxtariyyət uğrundakı mübarizəsindən vahiməyə düşən Türkiyə 1982-ci ildə İraqla gizli müqavilə imzaladı. Həmin müqavilənin xüsusi maddəsinə əsasən hər iki tərəfin hərbiçilərinə, o cümlədən hərbi-hava qüvvələrinə kürdlərə qarşı əməliyyatlar zamanı ölkənin sərhədlərindən 17 km-dək içəriyə daxil olmaq icazəsi verilirdi (91,95).

İranla mübarizə şəraitindən istifadə edən S. Hüseyn kürdlərə verdiyi vədi tezliklə yaddan çıxarib onlara qarşı soyqırım siyasəti yeritməyə başladı. Belə ki, o əvvəlcə sərhədlərin təhlükəsizliyini təmin etmək bəhanəsi ilə Türkiyəyə yaxın rayonlarda yaşayan kürdlərin kütləvi departasiyasını həyata keçirtdi. Mənbələrin (92) verdiyi məlumata görə departasiya edilmiş kürdlərin sayı iki milyon nəfəri ötmüşdü.

Daha sonra kürdlərin qaniçən cəlladına çevrilən Səddam onların milli-azadlıq mübarizəsi əzmini qırmaq və gözlərini qorxutmaq məqsədilə, alman faşistlərinin belə əl atmadığı vasitədən istifadə etdi: 1988-ci ilin 16 Martında gecə əhalisi 70 mindən çox olan Hələbcə şəhəri kimyəvi bombalarla yerlə-yeksan edildi. Təkcə bir gecədə **beş mindən** çox dinc əhali –qadın, uşaq, qoca məhv edildi, minlərlə insan zəhərli maddələrlə ömürlük şikəst edildi. *(Ahları həmin gecə göylərə yüksələn insanların harayını Allahdan başqa heç kim eşitmədi. Dünya ictimaiyyəti və özünü insan haqlarının müdafiəçisi elan edən ABŞ kürdlərin bu soyqırım fəlakətinə göz yumdu. Lakin Allahın bu günahsız insanların qanı üçün Səddam Hüseynə və həmin zəhərli silahların hazırlanıb tətbiq edilməsində xüsusi xidmətləri olan "Kimya Əli" yə verdiyi cəza gec olsa da güc oldu: 2003-cü ildə Səddam nəinki devrildi, öz xalqına və kürdlərə qarşı törətdiyi cinayətlərə görə edam edildi. "Kimya Əli" də özüm cəzasına məhkum olundu).*

Ümumiyyətlə, on ilə yaxın davam edən İraq İran müharibəsi nəticəsində yüz minlərlə kürd məhv edildi *(hər iki tərəfdə ən şiddətli döyüşlər kürdlərin yaşadığı vilayətlərdə gedirdi)* 2 milyondan *(bəzi məlumatlara görə üç milyona yaxın)* yuxarı kürd isə evini-eşiyini itirib didərgin həyatına düçar oldu.

İranla müharibəni dayandırandan az sonra 1990-cı ilin avqustunda S.Hüseyn qonşu Küveyt dövlətini özünün 19-cu əyaləti ela edərək onun ərazisini işğal etdi. Lakin ABŞ və digər Qərb dövlətlərinin birgə qoşunlarının birbaşa köməyi ilə S. Hüseyn geri çəilmək məcburiyyətində qaldı və Küveyt işğaldan azad edildi. Yaranmış tarixi şəraitdən istifadə edən İraq kürdləri C.Tələbani *(Kürdüstan Vətənpərvərlər Birliyi partiyasının sədri)* və M. Barzaninin *(Mustafa Barzaninin oğlu, Kürdüstan Demokratik Partiyasının sədri)* rəhbərliyi altında Kürdüstan bölgəsinin azadlığıuğrunda döyüşə başladılar. Az vaxt ərzində demək olar ki, İraq Kürdüstanının bütün ərazisi ərəb işğalından azad edildi və bölgədə hakimiyyət C. Tələbani və M. Barzaninin altına keçdi.

Yaranmış vəziyyətlə barışmayan qaniçən, cəllad Səddam Hələbcədəki soyqırıma

görə cəzalanmadığından şirnikərək Kürdüstan bölgəsini bombalamağa başladı. Kürdlərin yaşadığı bütün kəndləri yerlə-yeksan etməyə çalışan qaniçən cəllad Səddam yüzminlərlə əhalinin *(qadın, qoca, uşaq)* məhvinə və didərgin düşməsinə səbəb oldu. Bölgədəki kürdlərin *(sayı üç milyona yaxın idi)* kütləvi məhvinə çalışan S. Hüseynin vəhşiliyi dünya ictimaiyyətində ciddi narazılığa səbəb oldu. Bu narazılıqlardan sonra işə qarışan ABŞ, Almaniya, Fransa, İngiltərə və digər Avropa ölkələrinin təsiri ilə BMT İraq ərazisinin 36-cı paraleldən şimalda qalan hissəsində *(Kürdüstan bölgəsində)* İraq təyyarələrinin uçuşunu qadağan edən qərar qəbul etdi. Yalnız bundan sonra İraq kürdlərinin kütləvi qırğınına son qoyuldu.

Kürdlərin kütləvi qırğınlar zamanı axıdılan günahsız qanları, ahu-naləsi S. Hüseyni Allahın cəzasına çatdırdı. Allah əli təkcə kürdlərin deyil, öz millətinin də *(şiə ərəblərin)* qanına bulaşmış Səddamın ağlını başından aldı. O quduzlaşaraq dünya ictimaiyyətinə, ABŞ başda olmaqla Avropa dövlətlərinə, BMT-yə meydan oxumağa, nüvə silahı istehsal edəcəyi ilə hədə-qorxu gəlməyə başladı.BMT-nin bir neçə sanksiyasını, ABŞ-ın başçılıq etdiyi koalisya dövlətlərinin *(Qərbi Avropa dövlətinin çoxu buraya daxil idi.)* xəbərdarlıqlarını qulaqardına vuran Səddam həmin ölkələri hədələməkdə davam etdi; onlarla axıra qədər vuruşacağını və qalib gələcəyini bildirdi.

Səddamın hədə-qorxuları və bütün dünyaya meydan oxuması o dərəcəyə çatdı ki, yeganə müttəfiqi olan Rusiya da ondan üz döndərdi və İraqa ABŞ-ın başçılığı ilə koalisya qoşunlarının daxil olmasını BMT TŞ-nin iclasında razılıq verdi. Beləliklə, 2003-cü ilin aprel ayının əvvəllərində koalisya qoşunları İraq ərazisinə daxil oldu. Aprelin 9-da qoşunların bağdada daxil olduğunu görən Səddam gecə ilə qaçıb doğulduğu Tikritdə “siçan deşiyində” *(yerin altında qazılmış quyuda)* gizləndi. Elə həmin gün Bağdadın mərkəzində ucalan qaniçən diktatorun *(Səddamın)* nəhəng heykəli ərəblərin özləri tərəfindən boynuna zəncir salınmaqla uçuruldu. Uzun axtarışlardan sonra Səddam gizləndiyi “siçan deşiyindən” çıxarılıb məhkəməyə verildi. Məhkəmə onu öz xalqına qarşı törətdiyi qanlı cinayətlərə görə ölüm cəzasına məhkum etdi.

Yaranmış yeni tarixi şəraitdən bacarıqla istifadə edən C. Tələbani və Məsud Barzani aralarındakı uzun müddət davam edən ziddiyyəti həll edərək qüvvələrini birləşdirdilər. Onların birləşmiş qüvvələri S.Hüseyn rejiminin devrilməsində ABŞ-ın başçılıq etdiyi koalisya qoşunlarına yaxından köməklik göstərdi və Kürdüstan bölgəsini diktatura rejimindən tam azad etdi. ABŞ kürdlərin bu fədakarlığı əvəzində müstəqil Kürdüstan dövlətinin *(İraqın Kürdüstan bölgəsi ərazisində)* yaradılmasına vəd vermişdi. Lakin ingilislər kimi ABŞ dövləti də vədinə xilaf çıxdı. Bu məsələdə Türkiyənin kəskin mövqedə dayanması xüsusi rol oynadı. Belə ki, öz sərhədləri yaxınlığında *(İran Kürdüstanı və Türkiyə Kürdüstanı birbaşa həmsərhəd olan vahid ərazidir)* müstəqil Kürdüstan dövlətinin yaranacağından vahiməyə düşən Türkiyə hökuməti ABŞ-a təzyiqlər

göstərməyə *(öz hərbi bazalarını ABŞ-ın üzünə bağlayacağı; Kərkükdə yaşayan türkmənlərin haqlarını (?!) qorumaq üçün Şimali İraq (Kürdüstan) bölgəsinə qoşun yeridəcəyi; Əfqanıstandakı türk qoşunlarını geri çağıracağı və s. hədələrlə)* başladı.

C.Tələbani və M. Bərzani ilə ABŞ hökuməti arasında aparılan danışıqlardan sonra hər iki kürd lideri federativ İraq dövləti çərçivəsində geniş muxtariyyət hüququna malik Kürdüstan vilayətinin *(Türkiyə rəsmi dairələri və dövri mətbuatı "Kürdüstan" əvəzinə "Şimali İraqbölgəsi" işlədirlər)* yaradılmasına razılıq verdi.

Beləliklə S. Hüseyn 30 illik diktatura rejimindən xilas olan İraq ərəbləri və kürdləri öz aralarında razılığa gəlib demokratik seçkilərə getdilər. Seçkilər nəticəsində C. Tələbani İraq prezidenti seçildi. *(tarixdə kürd xalqının lideri olaraq seçilmiş ilk prezidentdir; 2010-cu ildə o, bu vəzifəyə ikinci dəfə seçilmişdir)*. Yeni yaradılan İraq hökumətinin Baş naziri ərəblərdən, müavini kürdlərdən təyin olundu. Mərkəzi tərkibinəüç nəfər kürd nazir daxil edildi. Kürdüstanda da prezident və parlament seçkiləri keçirildi, yerli hökumət təşkil olnudu. M. Bərzani kürrKürdüstanın ilk prezidenti seçildi. *(2010-cu ildə Məsud Barzani ikinci dəfə Kürdüstan prezidenti seçildi)*. Bu isə o deməkdir ki, İraq Kürdləri yüz ildən bəri uğrunda mübarizə apardıqları və milyonlarla şəhid verdikləri arzularına *(Kürdüstan dövlətinin yaradılması)* əsasən çatmışlar. Belə ki, siyasi müşahidəçilərin yazdığına görə öz bayrağı, himni, gerbi, dövlət dili, Prezidenti, Parlamenti və Hökuməti olan Kürdüstan, federativ iraq dövləti çərçivəsində muxtar qurum olsa da, əslində yarımmüstəqil *(bəzi məsələlərdə müstəqil)* dövlətdir.

Tarixi Kürdüstanın ən qədim parçalarından biri də **İran Kürdüstanıdır.** Qeyd etdiyimiz kimi bura kürdlərin ilk yaranma ocaqlarından biridir və buradakı bir çox kürd sülalələri əsrlər boyu müstəqil və yarımmüstəqil hakimiyyət sürmüşlər. Bani-Ərdalan sülaləsinin hakimiyyəti XIX əsrin axırlarınadək davam etmişdi. Elə həmin dövrlərdən etibarən Iranda kürdlərin milli-azadlıq mübarizəsi baş qaldırdı: Əsrlərdən bəzi müstəqil hakimiyyət sürmüş kürd sülalələri İran şahlarına boyun əyməkdən imtina etdilər.

XX əsrin ilk illərindən ikiqat istismara və zülmə məruz qalan İran kürdlərinin narazılığı getdikcə artaraq silahlı mübarizəyə çevrildi. 1905-ci ilin yayında Təbrizdə İran kürdlərinin şah rejimi ilə müxalifətdə olan lideri Salmaslı Cəfər ağanın öldürülməsi vəziyyəti daha da kəskinləşdirdi, İranın Kürdüstan və Azərbaycan əyalətlərində yaşayan kürdlərin silahlı üsyanına səbəb oldu. Cəfər ağanın şah rejimi tərəfindən təqib olunan atası Məhəmməd ağa və qardaşı İsmayıl ağa Simko Türkiyə ərazisinə keçməyə məcbur oldular. Qardaşının qisasını almağa çalışan Ismayıl ağa Simko Xoy-Salmas rayonuna hücum edərək Qotur qalasında öz mövqeyini möhkəmləndirdi (93,17).

Həmin ilin dekabrında İranda burja demokratik inqilab başlandı və 1911-ci ilədək davam etdi. Şah rejiminə qarşı vuruşan fidailərə kürdlər və azərbaycanlılar *(azərilər)* də

qoşuldu. 1906-cı ilin noyabr ayında kürdlərin fəal iştirakı ilə hakimiyyət xalq tərəfindən seçilmiş deputatlardan ibarət əncumənin *(şəhər soveti)* əlinə keçdi (94,10).

1907-ci ilin yazında Maku xanı Murtuza Qulu-xanın əleyhinə başlayan silahlı üsyanda 30 min silahlı kürd iştirak etdi. Murtuza Qulu-xan Rusiyaya qaçmağa məcbur oldu. Makada hakimiyyətiələ keçirən üsyançılar 1908-ci ilin yayında məğlubiyyətə uğradı.

Kürdüstanın parçalanmasına səbəb olan Lozanna müqaviləsindən sonra narazılıq dalğası bütün Iran Kürdüstanını bürüdü. Əvvəlcə kəlhani və qurani kürdləri üsyana başladılar. Az sonra vəludbəqi və babacani tayfaları onlara qoşuldu. Üsyançıların ciddi müqavimətinə baxmayaraq, böyük üstünlüyə malik şah qoşunları onları məğlubbiyyətə uğradaraq kəlhani tayfasının başçısı Fətəli Sultanı həbs etməyə nail oldu. 1923-cü ilin oktyabrında özünün "saray"ı, qoşunu olan və o vaxtadək bir çox məsələlərdə müstəqil siyasət yeridən Maku xanı həbs edildi, bura mərkəzdən hərbi qubernator təyin olundu və beləliklə bu xanlığın müstəqilliyinə son qoyuldu.

1923-cü ildə kəlhur *(kəlhor)* tayfasının başçısı Sərdar Rəşid üsyan qaldırıb öz əyalətində qubernatorluğun ləğv edilməsini tələb etdi. Lakin şah qoşunları bu üsyanı da yatırtdı və Sərdar Rəşidi həbs etdi. *(Rıza şah sonradan onu əfv etdi).*

1924-cü illərdə Urmiya gölünün qərbində yerləşən rayonlarda yeni üsyan qaldıran İsmayıl ağa Simko 1925-ci ildə məğlub oldu. 1926-cı ildə kürdləri tamamilə özünə tabe etdirmək üçün Rza şah onların üzərinə böyük qoşun birləşmələrini göndərdi. Şah qoşunlarına qarşı Salar-əd-Dövlənin və Cəfər Cultanın başçılıq etdikləri kürd silahlıları qəhrəmancasına vuruşsalar da, qeyri-bərabər qüvvə səbəbindən məğlubiyyətə düçar oldular. Həmin vaxt puştəri tayfasının silahlıları Sərdəşt şəhərinə hücuma keçdi; kurəddin, gyalibəqi, həmavənd, cəfər, mansur tayfalarının qüvvələri də Babəkir Əilinin rəhbərliyi altında onlara qoşuldu. Hökumət qoşunlarını darmadağın edərək Sərdəşt şəhərini ələ keçirən üsyançılar burada şahın nizami qoşun birləşmələri qarşısında uzun müddət tab gətirə bilmədi və məğlubiyyətə uğradılar. 1929-cu ildə İsmayıl ağa Simko yenidən İran Kürdüstanına gəlib Uşnu məntəqəsindən yerləşdi. Burada Barzani kürdlərindən 500 nəfərlik dəstə ona qoşuldu. Bunu görən Iran şahı böyük hərbi qüvvə göndərib üsyançıları məğlubiyyətə uğratdı. Qeyri-bərabər döyüşdə İ. Simko öldürüldü.

Simko hərəkatının ləğv edilməsi ilə İran Kürdüstanında milli-azdlıq mübarizəsinin alovu bir qədər zəifləsə də sönmədi. Belə ki, həmin əsrin *(XX əsr)* 30-cu illərində İran Kürdüstanında məhəlli xarakter daşıyan çoxsaylı üsyanlar baş qaldırdı. Lakin bu üsyanlar da şah qoşunları tərəfindən qəddarcasına yatırıldı. Mənbələrin verdiyi məlumata görə həmin illərdə təkcə Rza şah tərəfindən kürd hərəkatını yatırtmaq səlahiyyəti verilmiş general Əhmədi tərəfindən 10 mindən çox kürd güllələnmiş və dar ağacından asılmış, 4 min nəfərdən yuxarı həbs edilmişdir (54,141).

İkinci Dünya müharibəsində *(1941-1945-ci illər)* SSRi-nin faşist Almaniyası üzərindəki qələbəsi digər dövlətlərdə olduğu kimi, İranda da milli-demokratik hərəkatın güclənməsinə təkan verdi. Əsrlərdən bəri İran şahları tərəfindənqanı sorulan kürdlər və azərilər *(cənubi Azərbaycanda yaşayan azərbaycanlilar)* öz milli haqlarını tələb etmək üçün silaha sarıldılar və şah qoşunlarını öz torpaqlarından qovdular.

Hələ 1942-ci ildə Mehabadda gizli şəraitdə "Koməl" adlı siyasi təşkilat yaradıldı. Bu təşkilatın tam adı: "Koməle Ziyaneweye Kurdustan" *("Kürdüstan dirçəliş cəmiyyəti")* idi və qısa olaraq **Kİ** yazılırdı (95,85-86). Lakin nədənsə O.İ.İiqalina Mehabad Kürd Cumhuriyyətinə *(Azərbaycan dilli mənbələrdə Kürdüstan Demokratik Respublikası)* həsr etdiyi elmi əsərlərində bu təşkilatın adını "Jiina Kudistan" *("Kürdüstanın həyatı")* qısa adını isəmüvafiq olaraq "İK" yazmışdır (54,177; 96,118). Həmin təşkilatla *(O.İ.Jiqalina onu partiya kimi qələmə verir)* bağlı digər yalnışlıq isə rəhbərliklə əlaqədardır. O.İ.Jiqalinanın yazdığına görə həmin təşkilat Mehabadlı sənətkar Əbdürrəhman Zəbihinin *(O, İran zəhmətkeşlərinin yaratdığı "Tudə" partiyasının üzvü idi)* təşəbbüsü ilə yaradılmış və bu partiyaya əsasən o *(Ə.Zəbihi)* rəhbərlik etmişdir.

Lakin həm yerli *(ərəb və kürddilli)*, həm də xarici elmi mənbələrdən, eyni zamanda kürd liderlərinin şəxsi arxivlərindəki materiallardan istifadə edərək "Mehabad Kürd Cumhuriyyəti 1946" adlı sanballı monoqrafiya yazan ingilis William Aegleton göstərir ki, bu təşkilat Mehabadın orta təbəqədən olan 11 nəfərdən ibarət təşəbbüs qrupu *(Ə.Zəbihi də həmin qrupa daxil idi)* tərəfindənyaradılmış və ona kollegial orqan olan Mərkəzi Komitə rəhbərlik etmişdir (95,82-88).

Cəlal Tələbani *(İraqın indiki prezidenti)* özünün ərəbcə yazdığı "Kürdüstan və Kürd milli hərəkatı" adlı kitabında həmin 11 nəfərin aşağıdakılardan ibarət olduğunu yazır *(bu siyahını C.Tələbaniyə Ə. Zəbihinin özü təqdim etmişdir)*:

1.Həsən Rəzkeri. 2. Rəhman *(Əbdürrəhman)* Fəbihi. 3. Əbdürrəhman İmami. 4. Əbdülkadir Müdərrisi. 5. Nəcməddin Təvhidi. 6. Mühəmməd Nanəwazadə. 7. Əli Mahmudi. 8. Mühəmməd Əshabi. 9. Əbdürrəhman Kəyani. 10. Siddik Heydəri. 11. Kasun Kadiri. Təşəbbüs qrupunun bu zvlərindən başqa təsis yığıncağına İraq kürdlərinin nümayəndəsi yüzbaşı Mir Hac da iştirak etmişdi (95,83).

Göründüyü kimi, O.İ. Jiqalina "Sovet" alimi olduğu üçün ideoloji hissə qapılmış və zəhmətkeş təbəqədən olan Ə.Zəbihinin rolunu bir qədər şişirtməyə yol vermişdir. Lakin tarix-tarixdir, o həqiqəti sevir. Həqiqət isə gec-tez üzə çıxır.

"Koməl" (Kİ) öz proqramının ilk bəndində İran dövləti çərçivəsində Muxtar

Kürdüstan Respublikasının yaradılmasını qarşısındakı əsas məqsəd kimi qeyd emişdi. 1944-cü ilin May ayında "Koməl" İraqdakı müttəfiqlərinin köməyi ilə üçrəngli *(qərməzə,*

*ağ, yaşıl)* kürdüstan bayrağını hazırladı. Bayrağın ortasında günəş, qələm və dağ təsvirolunmuşdu. Getdikcə öz sıralarını genişləndirən "Koməl" 1944-cü ildə Mehabad şəhərinin başçısı Məhəmməd Qaziyə təşkilata üzv olmadığı təklif etdi. O, bu təklifi məmnuniyyətlə qəbul etdi.

1945-ci ilin Mart ayında "Koməl"in üzvlərindən ibarət yaradıcı qrup kürd dilində "Dayue Niştiman" *("Ana Vətən")* adlı opera hazırladı. Operanın qısa məzmunu belə idi: Ana Vətən təhlükədədir. Qəsbkarlar ona işgəncə verir. Sonda Ana Vətənin igid oğulları döyüşə atılaraq onu azad edirlər. Operanın tamaşaçılara təsiri o qədər güclü idi ki, onu seyr edənlərin qəlbləri vətən eşqi və düşmənə intiqam hissi ilə coşurdu.

1945-ci ilin Sentyabr ayında M. Qazinin rəhbərlik etdiyi kürd liderlərindən ibarət nümayəndə heyəti Bakı şəhərinə ikinci səfər etdi. *(Birinci səfər 1941-ci illə olmuşdu).* Həmin ayın 19-da nümayəndə heyəti Azərbaycan Kommunist Partiyasının birinci katibi M.Bağırovla görüşdü. Nümayəndə heyəti kürdlərin İranda müstəqil Kürdüstan dövləti qurmaq istədiklərini və bunun üçün Sovet İttifaqından kömək gözlədiklərini M. Bağırova bildirdi. M. Bağırov hələlik belə bir dövlətin qurulması üçün tarixi şəraitin mövcud olmadığını, indiki zamanda Azərbaycanın tərkibində muxtariyyət hüququna malik Kürdüstanın yaradılmasının məqsədəuyğunluğunu əsaslandırmağa çalışdı (95,110-111).

M. Bağırovu dinlədikdən sonra M. Qazi İran Kürdlərinin fikrini ona çatdırdı: "Kürdlər Azərbaycandan kənarda muxtar qurum yaratmağa qəti qərar vermişlər". Bu sözlərdən sonra M. Bağırov yüksək səslə dedi: "Sovetlər Ittifaqı var olduqca kürdlərmütləq azadlıqlarınaqovuşacaqdır" (95,112). Bu sözlərdən sonra M. Bağırov Sovet İttifaqının İran kürdlərinə hərbi texnika, silah-sursat verəcəyinə və maddi yardım göstərəcəyinə nümayəndə heyətini əmin etdi.

1945-ci ilin oktyabr ayında "Koməl" təşkilatının bazasında İran Kürdüstanı Demokrat Partiyası *(İKDP)* yaradıldı (95,142). Həmin partiyanın yaranması tarixi haqqında O.İ.Jiqalina qeyri-dəqiqliyə yol olunmuş yazısında (54,178). həmin partiyanın 1945-ci ilin axırlarında, 1988-ci ildə işıq üzü görmüş kitabında isə avqust ayında yaradıldığını qeyd etmişdir (96,128). İKDP-nin dekabr ayında dərc olunan Proqramında "qanunçuluq, ədalətlilik, sivilizasiyalılıq" priksipləri əsasına İran dövlət çərçivəsində kürdlərə muxtariyyət hüququ verən qurumun yaradılması başlıca məqsəd kimi qarşıya qoyulmuşdur.

12 dekabr 1945-ci ildə Cənubi Azərbaycanda 101 üzvdən ibarət Milli Məclis toplandı (Həmin üzvlərin hamısı İran Azərbaycanı Demokrat Partiyası tərəfindən seçilmişdi). Həmin toplantıda İran dövləti çərçivəsində Azərbaycan Demokratik Cumhuriyyəti elan edildi. Milli Məclisin iclasında Mehabaddan gəlmiş beş nəfərdən ibarət kürd nümayəndələri dəiştirak edirdi. Milli Məclisin kürdlərlə bağlı qərarı *(yalnız*

*bir bələdiyyə məclisinin kürdlərə ayrılması)* onları razı salmasa da nümayəndə heyəti sakitcə Mehabada qayıtdı.

17 dekabr 1945-ci ildə İKDP-nin təşkil edildiyi mitinqdə İranın şah rejiminin Mehabadda son qalığı olan Ədliyyə Sarayının binası ələ keçirildi və onun üzərində Kürdüstan bayrağı ucaldıldı. **1946-cı ilin 22 yanvarında** *(O.İ.Jiqabina yuxarıda qeyd olunan mənbələrdə 24 yanvar yazır)* Mehabad şəhərində, qış olduğuna və bu ərazinin dənzi səviyyəsindən 1000 metr yüksəklikdə yerləşdiyinə baxmayaraq, günəşli bir gün idi. Səhər açılandan bir qədər sonra Mehabadın mərkəzindəki "Çawarçıra" *("Dörd lampa")* meydanı ardı-arası kəsilməyən mitinq iştirakçıları təeəfindən tamamilə dolmuşdu. Meydana gələn hər iki küçə Kürdüstan bayraqları ilə bəzədilmişdi. Mitinqçilər tərəfindən meydana dəvət edilən Məhəmməd Qazi maxta kürsünün üzərinə çıxaraq nitq söylədi. O, öz nitqində kürdlərin qədim zamanlardan bu günədək doğma torpaqlarında yaşadığını, haqqlarının tapdalandığını, artıq onların da oyandığını və digər xalqlar kimi öz müqəddaratlarını təyin etmək hüququna malik olduğunu bildirdikdən sonra Mehabad Kürd Cumhuriyyətini elan etdi: "Bu andan etibarən muxtar Kürd Cumhuriyyəti qurulmuşdur" (95,154). On beş dəqiqə davam edən çıxışında M. Qazi göstərdiyi yardıma görə Sovet İttifaqına minnətdarlığını bildirdi, qonşu Azərbaycan xalqını Demokratik Respublika qurmaları münasibətilə təbrik etdirə kürdlərin azərilərlə dostluq edəcəyini söylədi.

M.Qazi Mehabad və ətraf rayonlarda çox böyük nüfuza malik olan **Qazilər** ailəsinin görkəmli nümayəndələrindən biri idi. O ilk təhsilini "Kütabxanə" adlanan dini məktəbdə almışdı. Lakin onun dünyagörüşünün formalaşmasında Mehabad ən nüfuzlu qazilərindən olan atası Əli Qazinin və evlərindəki müxtəlif dillərdə olan çoxlu kitabların qiraəti mühüm rol oynamışdı. Dini təhsil aldığına baxmayaraq, müşahidəçilərin yazdığına görə kürd ərəb, fars, ingilis, Azərbaycan, rus dillərini bilən M. Qazinin dünyagörüşündə mütərəqqi iqtisadi, siyasi və sosial baxışlar mühüm yer tuturdu (95,79). Bəziləri onun "Sovet" təsirlə hərəkət etdiyini söyləsələrdə, W. Aegletonun yazdığı kimi, M. Qazi ömrünün sonuna qədər kürd milliyətçisi olaraq qaldı və kimsənin ona rəhbərlik etməsini qəbul etmədi (95,145). O, Kürdüstan Cumhuriyyətinin başçısı kimi ona verilən 3000 tümən *(700 dollar)* maaşdan imtina etmiş, xalqa təmənnasız xidmət göstərmişdir.

Yeni qurulan Kürd hökumətinin başçısı Hacı Baba Şeyx təyin olundu. Hökumətin digər üzvləri aşağıdakılar idi:

1. Məhəmməd Hüseyn Seyfi Qazi- Hərbi naziri və prezidentin köməkçisi*(Prezident M.Qazi idi).*
2. Mənaf Kərimi- Milli Təhsil nazir.
3. Məhəmməd Əmin Muini –Daxili işlər naziri.

4. Seyid Məhəmməd Əyyubi-Səhiyyə naziri
5. Əbdürrəhman İlhanzadə-Xarici işlər naziri.
6. İsmayıl Ağa İlhanzadə-Rabitə və Yol işləri naziri.
7. Əhməd İlahi-İqtisadiyyat naziri.
8. Xəlil Hüşvəri-Əmək Naziri.
9. Kərim Əhmədiyan-Poçt, Teleqraf, Telefon işləri naziri.
10. Hacı Mustafa Davudi-Ticarət naziri.
11. Molla Hüseyn Məcdi-Ədliyyə naziri
12. Mahmud Vəlizadə-Kənd təsərrüfatı naziri.

Kürdüstan və Azərbaycanda milli-azadlıq hərəkatının getdikcə möhkəmləndiyindən narahat olan İran hökuməti BMT-yə Sovet İttifaqından şikayət etdi. və sovet qoşunlarının öz ərazisindən *(həmin qoşunlar 1941-ci ildən İran ərazisinə, daha doğrusu Cənubi Azərbaycana daxil olmuşdu)* çıxarılmasını istədi. 4 aprel 1946-cı ildə İranla Sovet İttifaqı arasında müqavilə imzalandı. Həmin müqavilənin şərtlərinə görə Sovet İttifaqı 6 həftə ərzində öz qoşunlarını İran ərazisindənçıxarmalı, bunun əvəzində isə 50 il müddətində güzəştli qiymətlərlə bu ölkədən neft almalı idi.

Vəziyyətin gərginləşdiyini görən M.Qazi Kürdüstan Cumhuriyyətini möhkəmləndirmək üçün zəruri addımlar atmağa başladı. Ordunu gücləndirmək üçün Sovet İttifaqında silah-sursat alındı. Kürdüstan Milli marşı hazırlanıb əsgərlərə öyrədildi. Marşın sözlərini şair Əbdürrəhman Həjar yazmış, musiqisini Mənaf Kərimi *(Milli Təhsil naziri)* bəstələmişdilər. Marşın son bəndində Kürdüstanın coğrafi ərazisinin genişlənəcəyinə açıq işarə vardı:

Neftım awe jiyan,
Le Sert u Kermanşane,
Baba gurgur duzane,
Le Musilda hemane.
Mosal nefti də bizimdir (95,179).

1946-cı ilin Mart ayında Kürdüstan Cumhuriyyətinə dəstək olmaq məqsədilə öz döyüşçülərini *(3000 nəfər)* Mehabada topladı və burada qərarga yaratdı. Tez bir zamanda ayrı-ayrı tayfa başçılarına tabe olan silahlı dəstələr əsasında vahid Mərkəzə *(M. Qaziyə və Hərb naziri Məhəmməd Hüseyn Seyfiyə)* tabe olan Kürd Ordusu yaradıldı. Həmin ilin Aprel ayının 23-də *(O. Jiqalina 3may yazır, Bax: 54,səh. 182;96, səh 136)* Kürdüstan və Azərbaycan Cümhuriyyətləri arasında yeddi maddədən ibarət dostluq və qarşılıqlı əməkdaşlıq haqqında müqavilə imzalandı. Müqavilədə hər iki tərəfin sosial-iqtisadi və hərbi sahələrdə bir-birinə yardım edəcəyi, hər iki xalqın *(kürdlərin və azərbaycanlıların)* milli haqlarının qarşılıqlı sürətdə təmin ediləcəyi xüsusi qeyd olunmuşdu. Yeddinci maddədə deyilirdi: "-Hər kim ki, iki xalq arasında tarixi dostluğu və əməkdaşlığı pozmağa cəhd edərsə və hər kim ki, iki xalqın milli birliyini aradan qaldırmağa çalışarsa, iki xalq tərəfindən cəzalandırılacaqdır" (95,194-195).

1946-cı ilin 24 aprelində İranın hökumət qoşunları kürdlərə öz gücünü göstərmək və onların gözünü qorxutmaq məqsədi ilə Kürdüstan Cümhuriyyətinin üzərinə hücuma keçdi, lakin "Qəhrawa" *("Qəhrabad")* adlanan kəndi yaxınlığında Kürd ordusunun silahlı dəstəsi onları ağır məğlubiyyətə uğrdaraq, 40-dan çox əsgəri əsir aldı. *(Həmin əsgərlər sonradan azad edilib Tehran şəhərinə geri göndərildi).*

Moskva radiosunun verdiyi xəbərə görə 1946-cı ilin 9 May günü bütün Sovet qoşunları İran ərazisini tərk etdi (95,207). Bundan bir neçə gün *(15 May )* sonra İranın hökumət qoşunları Saqqız şəhəri yaxınlığında-Mameşah dağında yerləşən kürd silahlı dəstələrinin üzərinə hücuma keçdi. Buradakı Kürdlərin *(Bazanilərdən ibarət idi)* silahlı dəstəsinə *(cəmi 43 nəfər)* Xəlil Xoşəwi başçılıq edirdi. Qeyri-bərabər döyüşdə düşmənin 22 əsgərini məhv edib, 40 əsgərini əsir aldıqdan sonra kürd döyüşçüləri geri çəkilmək məcburiyyətində qaldı. Bu döyüşdə kürdlər cəmi bir nəfər itki verdi ki, bu da 10 güllə yarası aldığına baxmayaraq, son qanınadək qəhramancasına vuruşan və döyüş mövqeyini tərk etməyən dəstə başçısı Xəlil Xoşəvəri idi (95,224).

1946-cı ilin iyun ayının ortalarında tərəflər *(kürd döyüşçüləri ilə hökumət qoşunları)* arasında atəşkəs elan olundu. Nisbi sakitlik şəraitində Kürd Cumhuriyyətinin sosial-mədəni inkişafı üçün ətdbirlər gücləndirildi. Bu dövrdə İran Kürdüstanı Demokratik Partiyasının rəsmi orqanı olan "Niştiman" *("Vətən")* qəzetindən başqa "Kürdüstan" adlı gündəlik qəzet, "Həwar" *("Fəryad"),* "Aqır" *("Od-alov"),* "Hilalə" *("Aypara"),* "Gelawiz" *("Gəlavej"-ulduz adıdır)* adlı jurnallar kürd dilində çap olunub İran kürdləri və eləcə də İraq kürdləri arasında geniş yayılmışdı.

İyul ayının axırlarında ibtidai siniflər üçün kürd dilində dərslər artıq çapa hazır idi. Kürd dilində hər gün saat $16^{00}$-dan $22^{00}$-dək verilişlər yayımlanırdı.

M.Qazi İran dövləti çərçivəsində Kürd Cümhuriyyətinin qanuni əsaslara söykənməsini təmin etmək məqsədilə 1946-cı ilin avqust ayının əvvəllərində Tehrana səfər etdi. O, burada iki dəfə iranın baş Qərərgah rəisi Genral Razmara ilə görüşdü. İranın baş naziri bütün İran Kürdüstanının bir ostan *(vilayət)* altında birləşdirilməsi və bura Mərkəzi iran hökuməti tərəfindən bir rəhbərin təyin olunmasını təklif etdi. Lakin M. Qazi bu təklifi qəbul etmədi. Çünki bu həm kürdlərin, həm də Cənubi Azərbaycanın *(İran Kürdüstanın bəzi şəhərlərində azərbaycanlılar üstünlük təşkil etdiyi üçün Azərbaycan Demokratik Cümhuriyyətinin tərkibinə daxil edilmişdi)* milli maraqlarına zidd idi. Hiyləgər siyasətçi olan Ə.Kvıvammüssəltənə bu təklifi ilə kürdlərlə azərbaycanlılar arasındakı tarixi dostluğu və möhkəm birliyi pozmaq, beləliklə hər ikisini zəiflədib məğlubiyyətə uğradaraq özünə tabe etdirmək istəyirdi.

ABŞ-ın beynəlxalq dəstəyini alan və Sovet İttifaqının müdaxilə etməyəcəyinə əmin olan Iran hökuməti payız aylarında Cənubi Azərbaycanda və Kürdüstanda baş vermiş və demokratik Cümhuriyyətin yaranması ilə nəticələnmiş milli-azadlıq hərəkatını qan içində boğmaq qərarına gəldi.

11 dekabr 1946-cı ildə Təbrizdə xalq İran ordusuna qarşı mübarizəyə səsləyən vərəqələr yayılmağa başladı. Lakin elə həmin günü axşam saatlarında Azərbaycan valisi Səlamüllah Cavidin Tehrana Azərbaycan Demokratik Cuümhuriyyətinin çökdüyü və Azərbaycan və Azərbaycan demokratk Partiyası liderlərinin *(sədri Cəfər Pişəvəri idi)* Şimala *(Sovet Azərbaycanına)* qaçdıqları barədə teleqram vurulması xəbəri yayıldı. İki gün sonra *(13 dekabr)* İran ordusu Təbrizə daxil oldu və şəhəri zəbt edərək buradakı milli hərəkatı qan içində boğdu (95,258-259).

Azərbaycan Demokratik Respublikasının qəfildən çökməsi və Sovet İttifaqının buna göz yumması Kürdləri ciddi narahat etməyə başladı. Dekabrın 14-də *(1946-cı il)* Kürdüstan Demokratik partiyasının liderləri və milli hölumətin bəzi üzvləri M. Qazinin yanına gələrək müqavimətin mənasız olduğunu bildirdilər və ölkəni tərk etməyi təklif etdilər. M. Qazi təklif sahiblərinin istədikləri kimi hərəkət etmələrinə razı olduğunu, lakin özünün Mehabadı heç vaxt tərk etməyəcəyini, doğma xalqı ilə qalacağını qətiyyətlə bildirdi. Bu qətiyyətdən heyrətlənən bəzi liderlər də onunla qalacağını bəyan etdilər.

21 dekabr 1946-cı ildə M. Qazi başda olmaqla Mehabad Kürd Cümhuriyyətinin 45

nəfərdən ibarət məmurları həbs edildi. *(M. Qazi xalqı mənasız qırğına verməmək üçün silahlı müqavimət göstərmədi).* 23 yanvar 1947-ci ildə İranın Hərbi Məhkəməsi M. Qazinin, qardaşı Sədri Qazi və əmisi oğlu Seyfi Qaziyə edam, 28 nəfər milli hərəkat fəallarına isə 2 ildən 15 ilədək həbs cəzası barədə hökm çıxarıldı. Həmin ilin Mart ayının 31-də gecə saat $3^{00}$-da M. Qazi, Seyt Qazi və Sədri Qazi Mehabadın "Çawarçıra"

meydanında *(Kürd Cümhuriyyətinin yaradılması 22 yanvar 1946-cı ildə bu meydanda elan edilmişdi)* edam edildilər.

M.Qazinin son nəfəsinədək qəhrəmancasına davrandığını və məğrurluğunu, milli qürur hissini itirmədiyini göstərən tətqiqatçılar onun məhkəməsindən belə bir epizodu xüsusi olaraq qeyd edirlər. Məhkəmədə M.Qazinin iki ay əvvəl İran Ordusunun rəhbərlərinə göndərdiyi məktub oxunan zaman zalda əyləşən İran hərbiçiləri səs-küy salır və onun əfv edilməsini tələb edirlər. Çünki, M.Qazi həmin hərbiçilərə həqarətlə yazmışdı: "Siz, orda zabitləri müharibə qızışan kimi canınızı qurtarmaq üçün geri qaçarsınız və Firdovsinin misralarını belə təhrif edərsiniz:

Hamımızın düşmənə baş əyməmiz

Özümüzü ölümə verməyimizdən yaxşıdır" (95, 285).

Firdovsi "Şahnamə" də həmin misraları belə yazmışdı:

Ölkəni düşmənə verməkdən daha yaxşıdır-

Bizim bir-bir öldürülməyimiz.

Kürd xalqının qəhrəman və yenilməz oğlu M. Qazi məhz bu yolu seçərək, doğma Vətəni son nəfəsinədək tərk etmədi və onun uğrunda ölməyi qaçmaqdan üstün tutdu. Ona görə də onun adı Kürd xalqının tarixinə qızıl hərflərlə yazılmış və əbədi olaraq yaşayacaqdır.

Cəmi on bir ay şamadığına baxmayaraq, Mehabad Kürd Cumhuriyyəti İran kürdlərinin milli-azadlıq hərəkatı tarixində mühüm rol oynadı. Bzəi tətqiqatçılar bu respublikanın yaradılmasını təkcə Kürdüstanda deyil, bütün Orta Şərq regionunda mühüm hadisə kimi qiymətləndirildi. Məsələn, 1945-1946-cı illərdə Mehabadda olmuş amerikalı A. Ruzvelt yazır: "Kiçik Kürd respublikasının yaranması və məzmunu, onun qısa və burulğanlı tarixi, gözlənilməz süqutu Orta Şərqin müasir tarixinin ən parlaq hadisələrini təşkil edir" (97,135).

Mehabad Kürd Cümhuriyyətinin və Azərbaycan Demokratik Respublikasının ləğvindən sonra İranın şah rejimi ölkənin şimal-qərb regionunda repressiyalara, təzyiq və təqiblərə, hətta, dövlət səviyyəsində terror əməliyyatlarına başladı. İKDP gizli fəaliyyətə keçməyə məcbur oldu, partiya fəallarının əksəriyyəti xarici ölkələrə üz tutdu. XX əsrin 60-70-ci illərində Şah rejimi kürdlərə qarşı mübarizəni qəddarcasına şiddətləndirdi. İran kürdlərinin ağır vəziyyyətindən bəhs edən İran alimi Bş Cazani həmin illərdə yazırdı: "Farslarla müqayisədə onlar *(kürdlər)* ikiqat istismardan əzab çəkirlər: həm istismar olunan sinif kimi, həm də milli dini haqları tapdalanan xalq kimi" (98,215).

Şah rejiminin bu ikiqat zülmündən cana doyan İran kürdləri yenidən silaha sarılmağa məcbur oldular. 1967-ci ildə başşlayan və İKDP tərəfindən idarə olunan silahlı üsyan 18 aya yaxın davam etdi. Əsasən Mehabad, Bane, Sərdəşt rayonlarını əhatə edən üsyan “partizan müharibəsi” xarakteri daşıyırdı. Üsyançılara qarşı böyük hərbi qüvvə göndərən İran hökuməti onları məğlub etdikdən sonra İKDP-nin fəallarının böyük bir qismini həbs edib edam cəzasına məhkum etdi. Üsyançı kürdlərin gözünü qorxutmaq üçün üsyana rəhbərlik edənlərdən birinin-Süleyman Muyninin cəsədini növbə ilə bir neçə şəhərdə dar ağacından asdılar.

Lakin nə kütləvi həbslər, nə də qəddarcasına həyata keçirilən edam cəzaları Iran kürdlərinin milli-azadlıq mübarizəsi əzmini qıra bilmədi. Öz sıralarını yeni üzvlərlə möhkəmləndirən İKDP 1973-cü ilin sentyabr ayında özünün III qurultayını keçirərək yeni Proqram və Nizamnamə qəbul etdi. Partiyanın müəyyənləşdirdiyi yeni strategiyanın əsasında “İrana-demokratiya, Kürdüstana-muxtariyyət” prinsipi dururdu.

1975-ci ildə imzalanan Əlcəzair müqaviləsindən sonra Şah rejimi İran kürdlərinə qarşı repressiya tədbirlərini yenidən gücləndirməyə başladı. Kürd dilində ədəbiyyatın nəşrinə qadağa qoyuldu. Müəllimlərin öz şagirdləri ilə kürd dilində danışması, dövlət müəssisələrində kürdlərin milli geyimdə gəzməsi yasaq edildi.

Təkcə kürdlərin deyil, ölkədə yaşayan bütün milli azlıqların, hətta, farsların həbsxanasına çevrilən Şah rejimi 1978-1979-cu illərdə baş verən İslam inqilabı nəticəsində devrildi. 1 aprel 1979-cu ildə İran İslam Respublikasının yaradılması elan edildi. Digər milli azlıqlar kimi, kürdlər də Şah rejimindən cana doyduqları üçün islam inqilabına yaxından köməklik göstərdilər. Onlar ölkədə qurulacaq İslam dövlətinin öz din qardaşlarına, o cümlədən kürdlərə, Şah rejimi kimi zülm etməyəcəyinə, milli haqlara hörmət edəcəyinə inanırdılar. Çox təəsüf ki, kürdlərin, azərilərin və digər milli azlıqların bu unamı özünü doğrultmadı.

1980-ci ilin mart ayında İKDP-nin lideri Ə. Qasımlo İran İslam Respublikasının prezidenti Bənisədrə açıq məktub göndərdi. İran kürdüstanında vəziyyətin gərgin olduğunu həmin məktubda açıqlayan Ə.Qasımlo, silahlı toqquşmanı dayandırmağı, danışıqlar aparmağı təklif etdi. Məktuba heç bir cavab almayan İKDP lideri Bənisədrdən Kürd nümayəndə heyyətini qəbul etməyi və onların mövqeyini dinləməyi xahiş etdi. Bənisədr Kürd nümayəndələrini Tehranda qəbul etdi və İran dövləti çərçivəsində Kürdüstana muxtariyyət verilməsi haqqında 6 maddədən ibarət layihəni ona təqdim edən kürd liderlərinə bildirildi ki, onlarla danışıqlar ancaq və ancaq kürdlərin döyüşü dayandırıb *(bu zaman kürdüstan əyalətində kürdlərlə hökumət qoşunları arasında şiddətli döyüşlər gedirdi)* bütün silahları təhvil verdikdən sonra aparıla bilər və muxtariyyət məsələsinə yalnız bundan sonra baxmaq olar.

Bu təklifin səmimiliyinə inanmayan kürdlər silahları təhvil vermədən imtina etdi. 22 May 1980-ci ildə "Kürd məsələsi"ni prezident Bənisədrlə müzakirə edən İmam Xomeyni nəyin bahasına olursa-olsun, bu problemə bir dəfəlik son qoymağı təklif tapşırdı. *(Görünür, o, unutmuşdu ki, ondan əvvəl bir çox İran şahları da belə qərar qəbul etmiş, lakin qəhrəman kürd xalqının qanını içsələr də milli iradəsini qıra bilməmişdilər).*

İraqla aparılan və təxminən 10 il davam edən müharibə Xomeyni rejiminin başını qatsa da, İran əsgərləri fürsət düşən kimi kürdlərin dağlarda yerləşən mövqelərini bombardman etməyi unutmurdular. Kürdlərin milli-azadlıq mübarizəsini silah gücünə məğlub etməyin qeyri-mümkün olduğunu görən Xomeyni rejimi onların dini liderlərinin vasitəsi lə *(İrandakı kürdlərin əksəriyyəti sünnü təriqətinə mənsubdur)* milli maraqların "müsəlman birliyinə və qardaşlığına" xələl gətirməsi barədə təbliğat kompaniyasına başladı. Belə kompaniyanın təsiri nəticəsində Şeyx Əhməd Moftizadənin *(sünnü kürdlərin şüyxi)* tərəfdarları açıq dini fanatizm nümayiş etdirərək Kürdüstanın milli hərəkat üzvlərinin əlində olan rayonlarına silahlı hücum təşkil etdilər.

Lakin kürd şeyxləri arasında dini birliyi "müsəlman birliyini" milli maraqlarla uzlaşdırmağın mümkünlüyünü dərk edən ağıllı şəxslər də vardır. Onlardan biri-Mehabadın CÜmə məscidinin rəhbəri Şeyx İzəddin Hoseyni *(o da sünni təriqətinə mənsubdur)* müsəlman birliyini müdafiə etməklə yanaşı, İran İslam Respublikası çərçivəsində kürdlərə muxtariyyət verilməsinin tərəfdarı olmasını gizlətmir və deyir: "Kürd xalqı-İranın bir hissəsidir və bizim mübarizəmiz iran xalqının mübarizəsindən ayrılmazdır.

Əgər mərkəzi hökumət kürd xalqının tələblərini *(onlara muxtariyyətin verilməsi)* yerinə yetirsə, əsil 100% demokratik islam sistemi *(quruluşu)* yaranar" (99,170).

İranın "vahid müsəlman xalqı"nın dövləti olduğunu bəyan edən Xomeyni rejiminin tərəfdarları tərəfindən aparılan dini təbliğatın burada yaşayan milli azlıqların qanuni haqlarının tapdalanmasına yönəldiyini yaxşı bilən şeyx İ. Hoseyni müsahibələrinin birində deyir: "Biz özünəməxsus xüsusiyyətləri olan bir millətik. Biz daxili muxtariyyət istəyirik" (99,171).

İ. Hoseyni və başqa mütərəqqi kürd şeyxlərinin *("din qardaşlarının")* belə demokratik təkliflərini qulaqardına vuran Xomeyni rejimi İraqla müharibədən başı açılan kimi yenidən İran Kürdüstanının ərazisini bombalamağa başladı. Təkcə 1993-1994-cü illərdə 300-dən çox İslam inqilabından həmin ilədək isə 500-dən çox kürd kəndi yerlə yeksan edilmişdir.

"Terorizmə qarşı mübarizə" pərdəsi altında dinc əhalini bombardman etməklə ürəyi soyumayan Xomeyni rejimi dövlət səviyyəsində terrora əl ataraq, İKDP-nin liderləri olan Ə.Qasımlonun *(1989-cu ildə Vyana şəhərində)* və S. Şərəfkəndinin Balin şəhərində ölümünü təşkil etdi.

Kürdlərin milli-azadlıq mübarizəsini zəiflətmək və yox etmək məqsədilə hal-hazırda da Xomeyni rejimi dinc əhaliyə və milli hərəkat liderlərinə qarşı teror əməliyyatlarına ara vermir. "PKK-nın İran qanadı" adlandırılan "PİAK-a qarşı mübarizə" pərdəsi altında İraq və Türkiyə kəndlərinin yaxınlığında yerləşən kürd kəndlərini vaxtaşırı bombardman edən Xomeyni rejimi "din qardaşlarının" qanını tökə-tökə "Müsəlman birliyi"ndən dəm vurur. Və unudur ki, kürdlər müsəlman olmaqdan əvvəl insandı; tarixi farslardan çox-çox qədim olan bir xalqdır; onların insani və milli haqlarını tapdalamaqla "İslam birliyinə" nail olmaq qeyri-mümkündür.

Lozanna müqaviləsindən sonra *(1923-cü il)* dörd yerə parçalanan Kürdüstan ərazisinin ən az hissəsi Suriyanın ərazisinə düşdü. Suriya kürdləri mövcud şəraiti nəzərə alaraq öz milli-haqları uğrunda siyasi mübarizəyə üstünlük verdilər. XX əsrin 40-cı illərində ölkədə yaranan əlverişli şəraitlə əlaqədar kürdlərin üstünlük təşkil etdikləri yaşayış məntəqələrində kürd dilini və ədəbiyyatını öyrənən məktəblilər, xeyriyyə cəmiyyətləri, mədəniyyət mərkəzləri, idman təşkilatları və s. yaradıldı.

Suriya kürdlərinin milli mədəni inkişafında görkəmli kürd ziyalıları Ş.Ciyərxun, Osman Sabri, C.Ə.Bədrxan, Molla Həsən, Əhməd Zaza, Nurəddin Zaza, Əhməd Hami, Əbde Tello və başqalarının xüsusi xidməti olmuşdur. Onlar nəşr etdikləri qəzet və jurnallar, yazdıqları əsərlər, təşkil etdikləri ictimai birlik və cəmiyyətlər vasitəsilə Suriya kürdlərində milli-mənlik şüurunun formalaşmasına çalışırdılar. Məsələn, məşhur Bədrxanlar ailəsinin *(Bu ailənin görkəmli nümayəndəsi Bədrxan bəy-XIX əsrin ortalarınadək müstəqilliyini qoruyub saxlamış Cəzirə ("Cuzira Botan")əmirliyinin hakimi-1842-ci ildə öz vilayətində kür bayrağını yüksəltmiş və öz adına pul kəsdirmişdi)*üzvü Cəllad Bədrxan 1930-cu ildə Şam *(Suriyanın indiki paytaxt Dəməşq o zaman belə adlanırdı)* şəhərində kür dilində "Hewar" *("Fəryad")* jurnalını, onun qardaşı Kamran Bədrxan 1940-cı ildə "Roja nu" *("Yeni gün")* jurnalını nəşr etdirirlər.

Həmin jurnalın səhifələrində kürdlərin tarixi dili, ədəbiyyatı və adət-ənənələrinə dair dəyərli məqalələr çap olunurdu. Onu da qeyd edək ki, "Hewar" jurnalı C. Bədrxanın latın qrafikası əsasında yaratdığı kürd əlifbası ilə nəşr olunurdu. Bu əlifbadan hazırda Dünya kürdlərinin əksəriyyəti *(İran və İraqın ərəb qrafikasından istifadə edən kürdləri istisna olmaqla)* istifadə edir.

XX əsrin 50-ci illərində N.Zaza, o. Səbri, H. Dərviş, R. Hamo və sş kimi kürd ziyalıları Suriya kürdlərinin siyasi dərnək və təşkilatlarını vahid partiya halında birləşməyə səyy göstərdilər. Həmin səylər nəticəsində 1957-ci ildə Suriyanın kürdlər üstünlük təşkil edən Qamışlo şəhərində Kürdüstan demokrat partiyası yaradıldı. Kürd Vətənpərvərlər Hərəkatı, Kür Fəallar Komitəsi, Kürd marksistləri *(Suriya Kommunist Partiyasından ayrılmışdılar)* yeni partiyanın tərkibində birləşdilər.

Qonşu dövlətlər *(İraq, İran, Türkiyə)* kimi Suriya hökuməti də kürdlər arasında baş qaldıran milli-azadlıq hərəkatının qarşısını almaq üçün bütün vasitəsilə əl atmış və atmaqdadır. Məsələn, 1963-cü ildə Dəməşqdə Cəzirə şəhərinin *(bura da əsasən kürdlər yaşayır)* polis idarəsi rəisi Məhəmməd Təlab Hilalın "Cəzirə əyalətinin milli, sosial və siyasi xüsusiyyətləri" adlı yazında kürdlərə qarşı hazırlanan planın maddələrinə diqqət yetirək:

"1. Kürdlərin deportasiyası, sürgün edilməsi, köçürülməsi və assimliyasiyası.

2. Kürdlərin təhsil almaq imkanlarından məhrum edilməsi.

3. Kürdlərin işə düzəldilməsi imkanlarından məhrum edilməsi.

4. Şimali Kürdüstanda üsyan zamanı Suriyaya pənah gətirən kürdlərin Türkiyə hökumətinə təhvil verilməsi.

5. Kürdlər arasında ədavətin salınması ilə onların parçalanması.

6. 1962-ci ildən başlanmış "Xizam" *(sərhəd mühafizəsi dəstəsi)* siyasətini davam etdirmək *(yəni sərhədə yaxın yerləşən kürd kəndlərini boşaldıb, burada ərəblərdən ibarət "Xizam"ları yerləşdirmək)*

7. Kürdlərin yaşadığı rayonlarda "təmizqanlı ərəblərin" yerləşdirilməsi.

8."Ərəb qurşağı" rayonlarında kürdlərin köçürülməsini və onların yerində ərəblərin yerləşdirilməsini həyata keçirən hərbi hissələrin yaradılması.

9. Kürd rayonlarına köçürülmüş ərəblər üçün hərbi təlimlərin təşkili.

10. Ərəb dilini bilməyənlərin *(yəni kürdlərin)* seçkilərdə iştirakını qadağan etmək.

11. Kürd üləmalarının ölkənin cənub rayonlarına köçürülməsi və onların yerinə ərəb üləmalarının gətirilməsi.

12. Ərəblər arasında kürdlərə qarşı təbliğat və izahat işinin aparılması (12,130)."

Qeyd olunan plandan tam aydın olur göründüyü kimi, qonşularından geri qalmaq istəməyən Suriya dövlətinin də kürdlərə qarşı yeritdiyi siyasət, silahlı müqavimət, represiya, deportasiya, mənəvi terror, təzyiq və təqib, siyasi şantaj və. Smetodlara əsaslanır.

1967-ci ildə başlanan İztail ərəb münaqişəsi ilə əlaqədar başı qarışan Suriya hökuməti yuxarıda qeyd olunan planın bütün bəndlərini həyata keçirə bilmədi. Ərəb ordusuna çağırılan Suriya kürdləri “Calan təpələri” uğrunda gedən döyüşlərə göndərildi.

1971-ci ldə Suriya prezidenti H. Əsəd ölkədə aparılan aqrar islahatlar ilə əlaqədar Cəzirə *(Hasələ)* əyalətində torpaq sahələrinin kürdlərə paylanmasına icazə verdi. Iraq hökuməti 1974-cü ildə “Kürd muxtar respublikasının yaradılması haqqında” qanunu bəyan etdikdən az sonra *(1975-ci ildə)* Suriyanın Milli Şurasına bir neçə kürd deputatının seçilməsinə inkan yaradıldı. 1976-cı ildə Hafiz Əsəd Suriya hökumətinin kürdləri köçürtmək və “ərəb qurşağı” yaratmaq planını tənqid etdi.

Həmin dövrdə Suriyanın gizli xidmət orqanları tərəfindən ələ alınan kürd siyasi partiyalarının əksəriyyəti H. Əsədin milli siyasətini tərifləyir, Suriyanın ərazi bütövlüyünün qorunmasına tərəfdar olduqlarını bildirirdilər.

XX əsrin 80-ci illərində Türkiyə ilə soyuq münasibətdə olan Suriya dövləti PKK-nın lideri A. Öcalana yardım edir və onun bu ölkə ərazisində özünə qərargah qurmasına icazə vermirdi. Lakin həmin əsrin 90-cı illərinin əvvəllərində İraq kürdüstanında milli parlamentin və hökumətin yaranmasından narahat olan Suriya dövləti Türkiyə və İranla münasibətləri yaxşılaşdırmağa başladıvə kürdlərin milli-azadlıqmübarizəsinə qarşı həmin ölkələrlə birgə siyasət yeridəcəyinə söz verdi. Məhz həmin siyasətin nəticəsidir ki, Suriya hökuməti 1998-ci ildə A. Öcalandan ölkəni tərk etməyi tələb etdi.

İraqda Kürdüstana muxtariyyətin verilməsinə qısqanclıqla yanaşan Suriya hökuməti hakimiyyətdən devrilmiş S. Hüseyn tərəfdarlarını öz ərazisində gizlətdi və onlara yardım etdi. Son illərdə isə Türkiyəyə PKK-ya qarşı mübarizədə yaxından köməklik göstərən Suriya hökuməti kürdlərə milli haqlarının qaytarılması məsələsinə mənfi münasibətini gizlədə bilmir.

# I. III. KÜRDLƏRİN VƏ KÜRDÜSTANIN MÜASİR COĞRAFİYASI

Bu kitabın I.I. və I.II fəsillərində kürdlərin və Kürdüstanın tarixi coğrafiyası, yəni onların qədim zamanlarda və orta əsrlərdə məskunlaşdığı ərazilər haqqında qısa məlumat verilmişdir. Lakin müasir dövrdə həm kürdlərin sayında, həm onların məskunlaşma areallarında, həm də tarixi Kürdüstanın sərhədləri çərçivəsində ciddi dəyişikliklər baş vermişdir. Ona görə də kürdlərin və Kürdüstanın müasir coğrafiyasına qısa nəzər yetirməyi məqsədəuyğun hesab edirik.

Kürd alimlərinin deyil, xarici ölkələrin bir çox tətqiqatçıları və siyasətçilərin verdiyi məlumata görə dünyada yaşayan kürdlərin sayı XX əsrin 90-cı illərində 40 milyona çatmışdır (22,15). Deməli hal-hazırda *(2010-cu il)* kürdlərin sayı 50 milyona yaxındır. Belə ki, kürdlərin yaşadığı və üstünlük təşkil etdiyi bölgələrdə *(Türkiyə, İran, İraq və Suriyada)* əhalinin illik təbii artımı 2%-dən yuxarıdır. Bu isə o deməkdir ki, kürdlərin sayı hər il təbii artım hesabına bir milyon nəfər artır.

Dünya kürdlərinin 90%-dən çoxu Lozanna müqaviləsindən *(1923)* sonra dörd yerə parçalanmış tarixi Kürdüstan ərazisində yaşayır. Hal-hazırda dünyanın siyasi-inzibati xəritəsində tarixi Kürdüstan ərazisində yalnız İranın tərkibindəki Kürdüstan ostanının *(inzibati ərazi vahidi kimi bu ostan İran Kürdüstanının az bir hissəsini əhatə edir)* və İraqın şimalındakı Kürdüstan bölgəsinin *(ərəb mənbələri bu bölgəni Kürd Muxtar rayonu kimi göstərirlər)* adını rast gəlirik. Ona görə də tarixi Kürdüstanın müasir coğrafiyasını onun ayrı-ayrı parçaları üzrə verməyə məcburuq.

Tarixi Kürdüstanın həm əhalisinə, həm də ərazisinə görə ən böyük parçası Türkiyə Cuümhuriyyətinin *(1923-cü ildə Osmanlı imperiyasının xarabalıqları üzərində M. Kş Atatürk tərəfindən yaradılmışdır)* sərhədləri daxilindədir. Bu parçanı kürdlər Şimali Kürdüstan, xarici ölkə alimləri və siyasətçiləri isə Türkiyə Kürdüstanı adlandırırlar. *(Rəsmi sənədlərə görə isə Şərqi Anadolu və Cənub-Şərqi Anadolu bölgələri yazılır).*

Kürdüstanın Türkiyə sərhədləri daxilindəki ərazisi əsasən dağlıq və dağlıq yaylalardan ibarət olub sahəsi 250 min kv.km-dən çoxdur. ərazinin relyefini əsasən Kiçik Asiya *(türklər Anadolu, ermənilər və avropalılar Ermənistan adlandırır)* yaylası üzərində uzanan hündür dağ silsilələri təşkil edir. Həmin silsilələr içərisində əsas yeri Şimali Kürdüstanın mərkəzindən keçərək onun ərazisini yarıra bölən Kürdüstan sıra dağları *(bəzi mənbələrdə Şərqi Tavr və ya Tooros dağları adlandırılır)* tutur (101,48;102,240). Bu dağların *(Kürdüstan sıra dağlarının)* ən yüksək zirvəsi Cilo dağıdır. Onun hündürlüyü 4168m-dir. Şimali Kürdüstanın ən yüksək zirvəsi isə Böyük Ararat *(kürdlər bu dağa Aqıri, türklər Ağrı deyir)* dağıdır ki, onun da hündürlüyü 5166m-

dir. Bu dağ təkcə Türkiyə ərazisində deyil, bütün Yaxın və Orta Şərq regionunda ən yüksək zirvədir.

Kürdüstan *(şərqi Tavr)* sıra dağlarından şimal şərqdə Bitlis silsiləsi uzanır. Ərazinin çox hissəsini dağlıq yaylalar təşkil edir. Belə yaylalardan ən məşhuru Bingöl *(kürd dilində "Bin"-qoxu; "qûl"- çiçək,gül deməkdir) yaylasıdır.*

Yüz kilometrlərlə uzanan hündür dağ silsilələri çoxsaylı çay dərələri ilə parçalanmışdır. Bu dərələr çox yerdə sıldırım qayalar və dərin dar uçurumlarla əhatə olunduğu üçün gediş-gəliş olduqca təhlükəlidir. Belə dərələrdən Tunceli *(keçmiş Dersim)* vilayəti ərazisində yerləşən məşhur Qutu *(Kutu)* dərəsini misal göstərmək olar. Qeyd olunan dərələrdə, daha doğrusu dərənin divarını təşkil edən sıldırım qayacıqlarda çoxlu mağaralar mövcuddur. Əsrlər boyu kürdlər yadellilərin basqınına məruz qaldıqda məhz bu təbii sığınacaqlara pənah aparmışlar.

Şimali Kürdüstanın dağları, dağlıq yaylaları və dağarası çökəklikləri faydalı qazıntılar *(dəmir, əlvan metal filizləri kömür və s.),* tikinti materialları *(mərmər və digər qiymətli daş-qaşlar)* və başqa təbii sərvətlərlə *(mineral suları, qiymətli ağac növlərinə və dərman bitkilərinə malik meşələr, nadir heyvan növləri və s.)* zəngindir.

Yaxın və Orta Şərq regionunun ən böyük çayları olan Dəclə və Fəratın, Cənubi Qafqazın *(Zaqafqaziyanın)* ən iri çaylarından biri olan Arazın mənbələri, eləcə də həmin çaylar üzərində yaradılmış ən böyük su anbarları Şimali Kürdüstanın ərazisindədir. Türkiyənin ən böyük gölü olan Van *(sahəsi: 3764 kv. km-dir)* da Şimali Kürdüstan ərazisində yerləşir.

Şimali Kürdüstan əhalisinin 70% dən çoxu *(bəzi yaşayış məntəqələrində bu göstərici 90-100%-ə çatır)* kürdlərdən ibarətdir. Kürdlərdən başqa burada türklər, azərilər, çərkərlər, az miqdarda ermənilər, ərəblər və s. millətlər yaşayır. Ümumiyyətlə dünyada kürdlərin ən çox hissəsi Türkiyədə yaşayır. Belə ki, tətqiqatçıların apardığı hesablamalara görə 50 milyonluq kürd xalqının 25 milyona qədəri Türkiyədə yaşayır. Həmin kürdlərin isə 80%-dən çoxu Şimali Kürdüstan ərazisində məskunlaşmışdır.

Şimali Kürdüstanın da kürdlərinin yaşadıqları vilayətlər *(bu vilayətlərin hamısı Türkiyə Cümhuriyyətinə aiddir)* aşağıdakılardır: Diyarbəkir, Van, Ağrı, Bitlis, İğdır, Həkkəri, Qaziantəp, Bingöl, Tanceli *(Dersin),* Adıyaman, Mardin, Muş, Siirt, Şanlı Urfa, Elazığ, Ərzincan, Malatya, Kars, Ərzurum, Sivas, Qəhrəmanmaraş və s. Bu ərazilərdən silahlı üsyanlar və onları müşaiyət edən repressiya və sürgünlər dövründə çox sayda *(bəzən minlərlə, bəzən yüzminlərlə)* kürdün köçürülməsinə baxmayaraq, hal-hazıırda Diyarbəkir, Ağrı, Bingöl, Bitlis, Həkkəri, Mardin, Van və s. vilayətlərdə onlar *(kürdlər)* əhalinin 90%-dən çoxunu təşkil edir.

XIX əsrin ortalarınadək Kars, Ərzurum, Sivas və Qəhrəman maraş vilayətlərində də kürdlər üstünlük təşkil edir. Məsələn, gürcü alimi D.Z. Bakradzenin verdiyi məlumata görə (103) XIX əsrin 70-ci illərində Kars vilayətində əhalinin əksəriyyəti kürdlərdən ibarət olmuşdur. Lakin sonralar bura türklərin, ermənilərin, acarların, azərbaycanlıların, yevreglərin, osetinlərin, hətta kabardinlərin köçməsi ilə əlaqədar əhalinin milli tərkibində ciddi dəyişikliklər baş vermişdir.

Şimali Kürdüstanın ən böyük şəhəri Diyarbəkirdir. *(kürdlər bu şəhərə Aməd deyir ki, bu da qədim Medlərin-Madların-Mədlərin adı ilə bağlıdır).* Son məlumatlara görə Diyarbəkir əhalisinin sayı bir milyonu ötmüşdür. Qaziantəp əhalisinin sayı bir milyonu ötmüşdür. Bitlis şəhərinin əhalisi 400 mindən çoxdur. Tədqiqatçıların verdiyi məlumata görə bu şəhərin əhalisi hələ XIX əsrin ortalarında 30 min nəfərdən çox idi ki, onun da 20 min nəfəri kürd olmuşdur (104,352).

XX əsrin 80-ci illərinədək Şimali Kürdüstan sosial iqtisadi inkişaf baxımından Türkiyənin ən geri qalmış bölgəsi idi.Bunun səbəbi həm regionda uzun illər ərzində davam edən çəkişmələr, üsyanlar, hərbi əməliyyatlar, həm də Türk hökumətinin kürdlərə qarşı apardığı milli  ayrı-seçkilik siyasətidir.

Ağır iqtisadi durumdam və və işsizlikdən çarəsiz qalan kürdlər öz doğma yerlərini tərk edib “bir parça çörək” üçün xarici ölkələrə və Türkiyənin iri şəhərlərinə üz tutmuşdu. İş axtaranların çoxu İstanbula köçmüşdü. Bu köçmənin nəticəsidir ki, Şimali Kürdüstandan kənarda Türkiyədə kürdlər ən çox İstanbul şəhərində yaşayır. Bəzi mənbələrin verdiyi məlumata görə burada yaşayan kürdlərin sayı 4 milyona yaxındır.

İstanbuldan başqa kürdlər Türkiyənin digər şəhərlərində *(Ankara, Konya, Tokat, Adana, Çankırı və s.)* də yaşayır.

Şimali Kürdüstanda  XX əsrin 90-cı illərinədək iqtisadiyyatın əsasını kənd təsərrüfatı, yüngül və yeyinti sənayesi təşkil edirdi. Kənd təsərrüfatında isə əsas yeri heyvandarlıq *(əsasən qoyunçuluq)* tutur. Əkinçiliyin bəzi sahələri *(taxılçılıq, pambıqçılıq, tütünçülük və s.)* də qismən inkişaf etmişdir. Son 20 ildə Türkiyə hökumətinin Şərqi və Cənub-Şərqi Anadolu bölgələrində həyata keçirtdiyi iqtisadi islahatlarla əlaqədar olaraq kürdlərin üstünlük təşkil etdiyi vilayətlərdə də sosial-iqtisadi sahədə müəyyən irəliləyişlər baş vermişdir. Belə ki, bu vilayətlərdə yeni su anbarları, yüngül və yeyinti sənayesi müəsisələri tikilmiş, Batman vilayətində neft hasilatına başlanılmış, vilayət mərkəzlərində dövlət universtetləri yaradılmışdır.

Bütün bu tədbirlərə baxmayaraq, Şimali Kürdüstanda, yəni Türkiyənin şərq və Cənub şərq vilaytlərində əhalinin sosial-iqtisadi vəziyyəti ölkənin mərkəzi və qərbində yerləşən bölgələrlə müqayisədə çox ağır olaraq qalmaqdadır.  Bülə ki, kürdlərin üstünlük təşkil etdiyi vilayətlərdə hələ də işsizliyin faizi yüksək, əmək haqları çox aşağıdır;

kəndlərin çoxunda xəstəxana və orta məktəblər, digər sosial mədəni obyektlər yox dərəcəsindədir; təhsildən kənarda qalanların faizi ölkənin orta göstəricisindən çox yuxarıdır və s.

Tarixi Kürdüstanın sahəsinə və əhalisinə görə ikinci olan Şərq hissəsi İran İslam Respublikasının sərhədləri daxilində yerləşir. Onun sahəsi təxminən 180 min kv- km-ə yaxındır. İranda yaşayan kürdlərin ümumi sayı isə 10 milyondan yuxarıdır.

İranın inzibati-ərazi bölgüsünə əsasən Şərqi Kürdüstanın ərazisi Kürdüstan, Bəxtiyariyə və Çaharmahal, Lwristan, Kermanşah ostanları *(əyalətləri)* arasında bölünmüşdür. Bundan başqa tarixi Kürdüstana aid olan bəzi şəhərlər və rayonlar *(Maku, Xoy, Urmiya və s.)* Qərbi Azərbaycan ostanının tərkibinə qatılmışdır. Hətta 1946-cı ildə yaranan Kürd Cümhuriyyətinin paytaxtı Mehabad da bu ostana verilib. Əslində Luristan, Kermanşah, Bəxtiyariyə və Çaharmahal ostanlarının adı da kürdlərlə bağlıdır. Belə ki, Luristan kürdlərin qədim tayfa birləşmələrindən biri olan lurların vətənidir. Böyük kürd tarixçisi Ş.X. Bidlisi “Şərəfnamə” əsərində kürdləri dil və etnik xüsusiyyətlərinə görə 4 qrupa bölür: 1). Kurmak; 2) Lur; 3) Kəlhor; 4) Quran.

Müəllif həmin əsərində Lurların mənşəyi haqqında yazır: “ Manrud vilayətində bir kənd var ki, adına Kord *(Kürd)* deyilir. Bu kəndin yaxınlığında bir dərə var, Lur dilində ona Kul deyirlər. Həmin dərədə Lur adında bir yer var. Həmin yerdə çıxarılanlara lur adı verilib” (11,93).

Qədim kürd şəhərlərindən biri olan Kermanşahın mənası kürd dilində “şah kürdlərin şəhəri” deməkdir. Bəxtiyariyə və Çaharmahal ostanın adındakı birinci söz kürd tayfası olan Bəxtiyarilərin adı ilə bağlıdır; ikinci sözün *(Çaharmahal)* mənası isə “dörd mahal” deməkdir ki, bu da kürd dilinə aiddir.

Göründüyü kimi, İran hökuməti yeni inzibati-ərazi bölgüsü pərdəsi altında tarixi Kürdüstanın öz ərazisinə qatdığı Şərq hissəsini kürdlərin assimliyasiyasını asanlaşdırmaq məqsədilə dör yerə bölsə də “cidanı çuvalda” gizlədə bilməyib.

Şimali Kürdüstanda olduğu kimi Şərqi Kürdüstanda da ərazinin relyefinə sıra dağlar dağlıq yaylalar və dağlararası çökəkliklər üstünlük təşkil edir. Bu relyef formaları İran dağlıq yaylasının şimal-qərb qurtaracağında yerləşən Kürdüstan silsiləsi İraq və Türkiyənin sərhədləri boyunca 240 km uzanır. Bu silsilənin orta hündürlüyü 3000 m-dən çoxdur. Ayrı-Ayrı zirvələrin yüksəkliyi isə 4000 m-dən yuxarıdır.

Kürdüstan silsiləsinin qurtaracağından başlayaraq cənub-şərqə doğru əvvəlcə İraq sərhəddi boyunca, daha sonra isə İran körfəzi istiqamətində Hörmüz boğazınadək uzanan Zaqros sıra dağlarının ümumi uzunluğu 1600 km-ə, eni isə 300 km-ə çatır. Əslində böyük dağ sistemi *(bir neçə silsilədən ibarət relyef formasına dağ sistemi deyilir)* olan Zaqrosun

orta hündürlüyü 2500 m, ən yüksək zirvəsinin *(Zərdkuh)* hündürlüyü isə 4548m-dir. Geoloji qurluşuna görə əsasən Mezozoy və Kaynozoy yaşlı əhəng daşları və sistemlərdən ibarət olan Zaqros dağlarında karst mağaralarına rast gəlinir.

Şərqi Kürdüstanın ərazisi filiz *(dəmir, mis, qızıl, platin, gümüş, uran, manqan və s.)*, neft *(Şahabad, Nefteşah, Kermanşah, Sumar yataqları)*, kömür *(Lahican və Əfsandabad yatağı)*, tikinti materialları *(mərmər, gips, yaşəm daşı və s.)*, mineral sular *(Kermanşahın 60 km-də müalicəvi mənbəyi və.s)* kimi təbii sərvətlərləzəngindir.

Şərqi Kürdüstanda çoxlu sayda kiçik dağ çayları mövcuddur. Həmin çaylardan nisbətən böyük olanları: Zərincan, Maku, Qızılüzən, Spi (Ağçay), Qotur, Zəngemar, **Kərxe** və s. dir. İranın ən böyük gölü olan Urmiya yuxarıda qeyd etsiyimiz kimi qədim kürd tayfalarının məskunlaşdığı ərazidə yerləşir. Bu göl *(uzunluğu 140 km, eni 50 km, dərinliyi 15m, sahəsi 5800 kv. km)* qədim zamanlardan Kürdüstan ilə Cənubi Azərbaycan arasında sərhəd rolunu oynamışdır. Bu göl Asiya qitəsinin altıncı gölü olub şorsuludur.

Şərqi Kürdüstanın dağ meşələri qiymətli ağac növləri və dərman bitkiləri ilə zəngindir. Dağlıq yaylaların güllü-çiçəkli alp çəmənlikləri qoyunçuluq üçün təbii yeni bazasıdır.

Şərqi Kürdüstan əhalisinin 80%-dən çoxunu kürdlər təşkil edir. Burada kürdlərdən başqa azərilər *(azərbaycanlılar)*, farslar, aysorilər, ermənilər və digər azsaylı xalqlar da yaşayır. Kürdlər daha çox Sənəndəc *(Kürdüstan ostanının mərkəzi)*, Mehabad, Saqqız, Kermanşah, Sərdəşt, Bane, Salmas, Merqəvər, Terqəvər, Oşnuya *(Uşnu)*, Bokan, Nəhedə, Nəhavənd və s. şəhərlərdə və rayonlarda yaşayır. Xoy, Urmiya və Maku mahallarında da xeyli sayda kürd yaşayır. Həmin mahallarda XIX əsrin axırlarınadək kürlərin sayı daha çox olmuşdur. Lakin XX əsrin əvvəllərində oSmanlı hökumətinin bu əraziləri işğalı ilə əlaqədar olaraq kürdlərin bir qismi buradan köçmüşdür.

Urmiya şəhərində və ətraf rayonlarında ən qədim zamanlardan kürd tayfa birləşmələrinin məskunlaşdığı barədə yuxarıda yazılmışdır. Orta əsr ərəb mənbələrində də həmin dövrlərdə Urmiya gölü ətrafında *(o cümlədən Urmiya şəhərində)* kürdlərin yaşadığını sübut edən faktlar öz əksini tapmışdır. Məsələn, X əsr ərəb coğrafiyaşünası Əbu Duləf yazır: “Urmiya ətrafında bitkisi olmayan və yaxınlığında heyvanat dolanmayan acı göl vardır. Onun ortasındakı *(adada)* Kəbuzan adlanan dağlar yerləşir” (105,81). Kəbuzan kürd dilindəki “Kəpəz” sözündən olub mənası “qayalıq” deməkdir. Həmin müəllif daha sonra yazır: “Gölün sahili **Vadi əl-Kurdi** adlanan yerə çatır, burada az tapılan daşlar vardır. Bu vadidə, Səlmas tərəfdə olduqca yaxşı, yüksək keyfiyyətli, böyük əhəmiyyətli və çox faydalı isti bulaq var. Bu- ümumi rəy və fikrinə *(razılığına)* görə dünyada yer altından çıxan ən yaxşı sudur. Buranı Zəravənd adlandırırlar” *(Yenə orda. 81)*.

Göründüyü kimi orta əsrlərdə Urmiya gölünün ətrafları “Kürd vadisi” adlanırdı; bu vadidəki bir çox coğrafi adlar da təbii ki, kürd dilinə məxsus idi. Məsələn, Zəravənd kürd dilində “Sarı su çıxan yer” mənasındadır. Tarixdən o da məlumdur ki, 922-ci ildə Mosal kürdü Sadaka bin Əli Urmiyada hakimiyyəti ələ aldıqdan sonra Ermənistan və Azərbaycanı özünə tabe etdirmişdi (81,120).

Maku və Xoy mahallarında orta əsrlərdə kürd tayfa birləşmələrinin hökmranlıq etmələri və bu yerlərdə kürd nüfuzunun XX əsrin əvvəllərinədək davam etməsi barədə Şərqi Kürdüstanın tarixinə dair yazıların, demək olar ki, hamısında rast gəlirik. Onu da qeyd edək ki, V.F. Minorskinin fikrinə görə Maka sözü Mahkuh *(Midiya dağı)* və ya Markuh *(Marlar dağı)* sözündən yaranmışdır (38,318). Midyalıların *(Medlərin, Madların, erməni mənbələrində Marların)* isə kürdlərə eyni mənşəyə malik olmaları barədə I.I. fəsildə yazılmışdır. Səfəvilər dövründə XVI-XVIII əsrlərdə Maku mahalı Kürd tayfası olan Mahmudilər tərəfindənidarə olunurdu (38; 318).

Xoy şəhərinin adı orta əsr ərəb mənbələrində Xuvey kimi yazılmışdır. Hər iki söz eyni mənşəli olub kürd dilində “xo”/ “Xwe” *(“duz”)* sözündəndir. Uzun illər, xüsusilə Səfəvilərin hakimiyyəti dövründə Xoy mahalında, XVIII əsrin ortalarından isə xoy xanlığında kürd tayfa birləşməsi olan Dünbililər *(1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının başçılarından biri olan Fətəli xan Xoyski bu tayfaya mənsubdur)* hakimiyyət sürmüşlər.

Əhməd Xan Dünbilinin dövründə *(1763-1786)* Xoy xanlığı öz inkişafının yüksək səviyyəsinə çatmışdır. Əhməd Xan Qarabağ xanlığı ilə ittifaq bağlayaraq, İrəvan və Naxçıvan xanlıqlarını özündən asılı vəziyyətə salmışdı. Dünbililər sülaləsinin axırıncı xanı olan Hüseynqulu xanın dövründə *(1786-1813)* Xoy xanlığı Qacarlardan asılı vəziyyətə düşdü (34,95-96). 1913-cü ildə Xoy şəhərində kürdlərin “Maarif” *(“Gehandeni”)* adlı cəmiyyəti yaranmışdı.

Şərqi Kürdüstanın ərazisindən kənarda İran kürdləri ən çox Tehran, İsfahan, İlam şəhərlərində, həmçinin Xorasan və bəlucistan vilayətlərində yaşayır. Tehran və İsfahan şəhərlərinə kürdlər qədim zamanlardan başlayaraq müasir dövrədək zaman-zaman müxtəlif siyasi, sosial və iqtisadi səbəblər üzündən köçmüşlər.

Xorasan vilayətində yaşayan kürdlər əsasən buradakı Kuçan, Şirvan, Bocnurd, Dərəgəz, Kəlat və s. rayonlarda məskunlaşmışlar. Təxmini hesablamalara görə hal-hazırda Xorasan vilayətində ən azı 500 min kürd yaşayır. Elmimənbələrin verdiyi mənbəyə görə hələ Səfəvilər dövründə bu vilayətdə yaşayan kürdlərin sayı 250 mindən çox idi. Kürdlərin bu vilayətdə məskunlaşması tarixi haqqında iki fikir mövcuddur. Birinci qrup alimlərin fikrinə görə Xorasan kürdləri ilk dəfə Teymurləng tərəfindən suriyadan Xorəzm və Buxaraya köçürülmüşlər. Teymurlənginölümündən sonra *(1405-ci*

*il)* onun oğlanları araslnda baş verən hakimiyyət çəkişmələrindən istifadə edən kürdlər doğma vətənlərinə dönmək qərarına gəlirlər. Geri dönən kürdlərin bir qismi Dərəqəz *(əslində kürdcə Daraquz-“ Qoz ağacı”; bax: 25, səh 120),* Bocnurd, Kuçan və s. rayonlarında əlverişli şəraiti *(heyvandarlıq üçün)* görüb həmin ərazilərdə qalmağa üstünlük vermişlər (96,154).

İkinci qrup alimlərin yazdığına görə isə Xorasan kürdlərini bura İranın şimal-şərq sərhədlərini qorumaq məqsədilə Səfəvi şahları *(I Şah İsmayıl, I Şah Abbas və Nadir Şah)*görürmüşlər (96,154;106;3). Həmin mənbələrin verdiyi məlumata görə I Şah İsmayılın hakimiyyəti illərində *(1501-1524)* Xorasan vilayətinə 30 min, I Şah Abbasın dövründə *(1587-1629).* isə 15 min kürd ailəsi köçürülmüşdür.

Əslində isə Xorasan kürdlərinin burada hələ X əsrdən qabaq məskunlaşması barədə ərəb alimi Əl-istəhri X əsrdə məlumat verir (108,175).

Xorasana köçürülən kürdlər əsasən iki tayfa birləşməsinə *(Zəfəranlı və Şadıllı)* aid olmuşdur. Bu birləşmələrin tərkibində aşağıdakı tayfalar əsas yer tutmuşdur: Melanlı *(Milanlı),* Bacgiranlı, Aqazlı, Hiwalanlı, Kuranlı, Qasımanlı, Maşkanlı, burci, Kaywanlı, Məzdəkanlı, Rəşanlı, Briwanlı, Badiwanlı, Həfşalanlı, Cafkanlı, Waranlı, Tupkanlı, Sayfkanlı, Qəhrəmanlı, Badilli, Şeyx-Əmirli və s.

Son illərdə görkəmli kürdşünas M. Lətif Bruki Xorasan kürdlərinin tarixi haqqında yeni elmi mülahizə irəli sürmüşdür. Müəllif Moskvada nəşr olunan “Дружба” *(“Dostani ”)* adlı jurnalda dərc etdirdiyi məqaləsində yuxarıda qeyd etdiyimiz müəlliflərin fikirləri ilə *(Xorasan kürdlərinin guya ilk dəfə Teymurləng və Səfəvi şahları tərəfindən Kürdüstandan bu yerlərə köçürülməsi )* razılaşmır, Xorasan kürdlərini Zərdüşt dövründən *(onun kürd olması barədə bax: I.I.)* bu yerlərdə məskunlaşması mülahizəsini irəli sürür. Öz fikrini əsaslandırmaq üçün M.L.Bruki yazır: “Tarixdən yaxşı məlumdur ki, Parfiya e.ə. VII əsrdən Midyanın tərkibində olmuşdur *(parfiyanın kürdlərlə sıx əlaqəsi barədə bax: I.II.)* VII əsr erməni tarixçisi Sebos məlumat verir ki, Sasani çarı Xosrov I Ənuşirəvanın*(531,579)* sərkərdəsi Smbat böyük səhranın *(Qaraqum səhrası nəzərdə tutulur)* ətəklərində Türküstan *(indiki Türkmənistan da buraya daxil idi)* və Dəlhastan hüdudlarında... kodrilərlə qarşılaşmışdır.... Xorasan *(qədim iran-kürd dillərində “Xavarasan”-hərfi mənada “Doğan günəş” ölkəsi )* İranın indiki şimal-şərq hissələrini, Türkmənistandan başlayaraq Əfqanıstanın şimal və şimal-qərb torpaqlarınıəhatə edirdi. Kürdlər hal-hazırda da bu ərazilərdə-Xorasanda, Türkmənistanda və Əfqanıstanda yaşayır ” (112).

Müəllifin göstərdiyi bu elmi faktlardan belə bir məntiqi nəticə çıxır ki, Teymurləngin və Səfəvi şahlarının kürdləri məhz bu bölgəyə *(soydaşlarının qədimdən yaşadığı ərazilərə)* köçürülmələri heç də təsadüfi deyildir.

Xorasan kürdləri doğma vətənlərindən uzaqda yaşamaqlarına baxmayaraq öz həmvətənləri kimi İran tarixində möhkəmiz salmışlar. Məsələn, Dərəqəz və Kəlat xanlıqları uzun illəryarımmüstəqil həyat sürmüş, onların hakimiyyətinə yalnız XX əsrin 20-ci illərində son qoyulmuşdur (96,10). Yaxad, xorasan, Şirvan dairəsindı 1917-ci ildə zəfəranlı tayfa birləşməsinin xanı Tac Məhəmməd İbrahim çobanı Xudaverdinin *(Xuda xanın)* başçılığı altında başlanan silahlı üsyan genişlənərək tezliklə Kuçan mahalını da əhatə etdi. İran hökuməti bu üsyanı yalnız 1920-ci ilin avqust ayında yatırda bildi. Müşahidəçilərin verdiyi məlumata görə üsyançılarınarasında qəhrəmancasına vuruşan kürd qadınları da var idi (96,48).

Xorasan kürlərindən başqa, İran kürdləri Gilan, Mozandaran *(kürddilində "daha böyük" deməkdir)*, Qəzvin, Məkran və s. əyalətlərdə də yaşayır.

Şərqi Kürdüstanın iqtisadiyyatında əsas yeri kənd təsərrüfatı *(maldarlıq, qoyunçuluq, əkinçilik)*, yüngül və yeyinti sənayesi təşkil edir.Şimali Kürdütanda olduğu kimi burada da əhalinin sosial-iqtisadi vəziyyəti ölkənin mərkəzi vilayətləri ilə müqayisədə çox aşağıdır.

Əhalisinin sayına və ərazisinə görə Kürdüstanın üçüncü parçası İraq dövləti çərçivəsində yerləşən Cənubi Kürdüstandır. Onun sahəsi təxminən 100 min kv. km-dir. Əhalisi isə 6 mln nəfərdən yuxarıdır.

Yuxarıda qeyd etdiyimiz kimi, 2003-cü ilsə S. Hüseynin diktatura rejimi dağıldıqdan sonra federativ İraq dövləti çərçivəsində muxtariyyət hüququna malik olan kürdüstan bölgəsi yaranmışdır. Bu muxtariyyət Iraqın yeni qəbul edilmiş Konstitusiyasında təsbit olunmuşdur. Siyasi icmalçıların və müşahidəçilərin yarımmütəqil dövlət adlandırdığı İraq Kürdüstanının öz bayrağı, dövlət dili *(kürd dili)*, himni, gerbi, prezidenti *(M.Barzani)*, hökuməti, parlamenti, özü nümüdafiə qüvvələri, paytaxt *(Ərbil)* mövcuddur.

Muxtariyyət hüquqla Kürdüstan bölgəsini rəsmi olaraq Ərbil, Süleymaniyə, Duhok əyalətləri *(ərəbcə "mühafizə")* daxil edilmişdir. Halbuki Mosul, Kərkük vilayətləri, eləcə də Xanəgin, sincar rayonları da qədim kürdlərin ana vətənidir (bax: I-II, I-II). Yeni Iraq Konstitusiyası qəbul edilərkən bu ərazilər İraqın mərkəzi hökuməti ilə Kürd hökuməti arasında ciddi mübahisələrə səbəb oldu (1971-ci ilin mart ayında bəyan edilmiş Kürd muxtar rayonuna da həkim ərazilər daxil edilmədiyi üçün Mustafa Barzani həmin muxtariyyəti qəbul etməmişdi).

Kürdlərin ən qədim məskunlaşma ərazilərindən olan Kərkük *(ərəblər bura VIII əsrdən, türkmənlər isə XI əsrdən sonra gəlmişlər)* yeni Konstitusiyayan görə burada

yaşayan əhalinin çoxluğuna təşkil edən kürdlər bunu öz hüquqlarının pozulması kimi qəbul edirlər.

Ərəb istilasından sonra kürdlərin sayının məcburi azalması nəticəsində gəlmələrin *(ərəblərin)* üstünlük təşkil etdiyi Mosal vilayəti *(həmin vilayət uzun illər Osmanlı imperiyasının tabeliyində olsa da kürdlər tərəfindən idarə olunmuşdur)* isə Mərkəzi hökumətin *(ərəblərin)* tabeliyinə verilmişdir.

Cənubi Kürdüstannın relyefi müxtəlifdir. Belə ki, İran və Türkiyə ilə həmsərhəd olan rayonların relyefi əsasən dağlıqdır. Dağlıq ərazini Kürdüstan *(Şərqi Tavr)* və Zarqos silsilələrinin şimaldan və şimal-şərqdən İraq ərazisinə daxil olan qolları təşkil edir. Cənuba və cənub-qərbə doğru getdikcədağlıq relyefi dağətəyi yüksəkliklər və ovalıqlar *(Mesopotomiya ovalığının şimal hissələri)* əvəz edir.

Cənubi Kürdüstanın *(İraq Kürdüstanının)* ərazisi neft-qaz *(Kərkük, Ərbil, Xanəgin vilayətləri),* dəmir filizi *(Süleymaniyə yaxınlığında)* kükürd, fosfat, bitium, tikinti materialları və s. faydalı qazıntılarla zəngindir. Mənbəyini Şimali Kürdüstandan alan Dəclə və Fərat çayları, eləcə də dəclənin iri qolları *(Dialə, böyük Zab, Kiçik Zab)* Cənubi Kürdüstanın ən böyük çaylarıdır.

Cənubi Kürdüstan əhalisinin 80%-dən çoxunu kürdlər təşkil edir. Kürdlərdən başqa burada ərəblər, türkmənlər təşkil edir. Mosal, Kərkük, *(50%-dən çox)* Xonəgin və s. əyalətlərdə də xeyli sayda kürd yaşayır.

Cənubi Kürdüstan iqtisadiyyatın əsasını neft hasilatı, yüngül və yeyinti sənayesi, heyvandarlıq və dəmyə əkinçiliyi *(xüsusilə taxılçılıq, tütünçülük)* təşkil edir. Ən iri sənaye mərkəzləri Kərkük, Ərbil və Süleymaniyədir. Son illərdə Süleymaniyyə, Ərbil, Duhok vilayətlərində konserv, şəkər, sement zavodları, toxuculuq və tikiş müəssisələri, mərmər emalı zavodu və s. tikilmişdir. Kurort təsərrüfatının və turizmin inkişafı üçün də yerli kürd Hökuməti yeni addımlar atmaqdadır (107,74). Az vaxt ərzində Kürd Hökuməti bölgənin sosial-iqtisadi inkişafı üçün böyük işlər görmüşdür.

Kürdüstanın həm sahəsinə, həm də əahlisinə görə ən kiçik parçası-Cənubi-qərbi Kürdüstan-Suriya dövlətinin sərhədləri daxilində yerləşir. Onun sahəsi təxminən 25 min kv.km-ə yaxındır. Suriyada yaşayan kürdlərin ümumi sayı isə 3 mln nəfərə çatır.

Cənubi-qərbi Kürdüstanın relyefində yaylalar və düzənliklər üstünlük təşkil edir. Belə ki, ərazinin çox hissəsi hündürlüyü 450 m-dən 200 m-dək olan Cəzirə platosunun *(yaylasının)* üzərində yerləşir. Hələb vilayətində Cəbəl əl-Əkrad (***Kürd dağları***) dağları uzanır. Cənub-qərbi Kürdüstan nefti *(Derik və Rumeyla)*, dəmir filizi *(ayn-Əl-Ərəb-*

*keçmiş Kəbani),* tikinti materialları və s. ilə zəngindir. Əsas çayları Dəclə Habur və onların qollarıdır.

Cənub-qərbi Kürdüstanda kürdlər əsasən Həsəkə *(keçmiş Cəzirə),* Hələb, Dəməşq, Raqqə, Latakiya, Həma, Homs, Deyr-əz-Zur, İdlib əyalətlərində yaşayır. Buradakı kürlər ən çox sahəsi 22 mindən yuxarı olan Həsəkə əyalətində yaşayır. Bu əyalətin kürdlər üstünlük təşkil etdiyi şəhər, qəsəbə və kəndləri aşağıdakılardır: Həsəkə *(əyalətinmərkəzi),* Qamışlo *(əyalətin böyük şəhəri),* Amud, Derbasiya, Rasyutan *(Sərekaniye-Bulaqbaşı),* Tel-Əbyad, Tel-Təmir, Tell- Koçər, Əl-Matinkiya *(Derik),* Kubur-Əl-Bid, Ayn-Divar, diclə, şəddadi, Butah, Səncar və s. Dəməşq şəhərində yaşayan kürdlər əsasən haradakı "Xayy-əl-əkrad" *("KÜrd məhəlləsi")* adlanan kvartalda məskunlaşmışlar. Hələb əyalətindəki kürdlər daha çox cəbəl-Əl-Əkrad *("Kürd dağları"),* Cəbəl Saman və Əziz rayonlarında, həmçinin Afrin, Ayn-Əl-Ərəb, Kubbani və Carablos şəhərində yaşayır.

Elmi mənbələrin verdiyi məlumatlara görə Suriyanın paytaxtı Dəməşq şəhərində yaşayan KÜrdlərin sayı 170 mini ötmüşdür.

Cənub-qərbi Kürdüstanın başlıca təsərrüfat sahələri kənd təsərrüfatı *(heyvandarlıq və əkinçilik),* yüngül və yeyinti sənayesi, neft hasilatı və s.dir. Burada becərilən əsas bitkilər pambıq və buğdadır. Cəzirə əyalətində *(Həsəkədə)* yetişdirilən bərk buğda sortlarından alınan yüksək keyfiyyətli un Avropa ölkələrinə *(ən çox İtaliyaya)* ixrac olunur. Həmin andan makaron və qənnadı məmulatları istehsalında geniş istifadə olunur.

Kürdlərin müasir coğrafiyası tarixi Kürdüstanın dörd parçası ilə bitmir. Tarixi Kürdüstandan kənarda kürdlərin ən çox yaşadığı regioan "postsovet məkanı" deyilən keçmiş SSRİ-nin ərazisidir. "postsovet məkanı"nda kürdlərin qədim zamanlardan vəvə ən çox yaşadığı başlıca region Cənubi Qafqaz respublikasının *(Azərbaycan, Ermənistan, Gürcüstan)* ərazisidir.Sovet dövründə *(1917-1991-ci illər)* Zaqafqaziya adlanan bu regionda Kürdlər çox qədim zamanlardan yaşayır. Çünki Cənubi Qafqazın ərazisi tarixi Kürdüstanın ərazisi ilə demək olar ki, birbaşa həmsərhəddir: Şimali Kürdüstan *(Türkiyə Kürdüstanı)* Gürcüstan və Ermənistanla, Şərqi Kürdüstan *(İran Kürdüstanı)* isə Azərbaycanla sərhəd-keçid məntəqələrinə malikdir.

Çox təəsüf ki, bu tarixi-təbii reallığı və adı çəkilən respublikalarda kürdlərin adı ilə bağlı olan qədim yer adlarını *(toponimləri)* nəzərə almayan bəzi tətqiqatçıları öz əsərlərində belə bir yanlışlığa yol vermişlər ki, Cənubi Qafqaz respublikalarının ərazisinə kürdlər əsasən, güya, XIX əsrin əvvəllərində *(1805-1828-ci illər)* gəlmişlər. Məsələn, Zaqafqaziya kürdlərinin tarixi və etnoqrafiyasına həsr etdiyi kitabında T.F.Aristova özündən əvvəlki tətqiqatçıların (A. Bykspan, Q. Çursin və s.) fikrinə və özünün çöl tətqiqatçılarının materiallarına əsasən yazır: "Ekspedisiya işləri zamanı aydın olmuşdur ki, Zaqafqaziyanın bütün kürd yaşlıları bir qayda olaraq, kürdlərin Yaxın Şərq

ölkələrindən köçməsi nəticəsində yaranan kəndlərinin yaranması tarixini xatırlayırlar. Beləliklə, Azərbaycan ərazisində, onun yüksək dağlıq və dağətəyi rayonlarındakı kürd əhalinin əsas kütləsi İrandan XıX əsrin əvvəllərindən başlayaraq köçmüşlər” (7,39).

Həmin müəllif sonrakı illərdə yazdığı “Kürdlərin maddi mədəniyyəti XIX-XX əsrin əvvəllərində” adlı kitabında həmin səhvini qismən düzəldərək, kürdlərin Azərbaycan ərazisində VIII-XIV əsrlərdən məskunlaşdığını qeyd edir (8,65). Halbuki, Azərbaycan ərazisində qədim kürd tayfaları eramızdan əvvəlki minilliklərdə məskunlaşmışdır. Bu barədə bu kitabın II.I. fəslində geniş məlumat veriləcəkdir.

Ermənistan ərazisində də kürdlər ən qədim zamanlardan məskunlaşmışlar. Məsələ burasındadır ki, ən qədim kürd tayfa birləşmələrinin *(urartalıların, xoldeylərin, nairlərin və s.)* doğma vətəni olan Arimana vilayəti (“Manna ariləri”nin vətəni) yuxarıda qeyd etditimiz kimi, Aralıq dənizi sahillərindən gəlmiş Haylar *(ermənilər)* tərəfindən işğal olunduqdan sonra onlar tərəfindən Hayastan, avropalılar və ruslar tərəfindən Armeniya adlanmağa başlamışdır.

İndiki Ermənistan ərazisində kürdlərin orta əsrlərədək geniş məskunlaşdığını sübut edən bəzi faktları I.I. və I.II fəsillərdə vermişik. Əlavə olaraq onu da qeyd edək ki, buradakı bir çox coğrafi adlar kürdlərin sonralar Ermənistan *(Hayastan)* adlandırılan respublikanın *(1920-ci ildən)* ərazisində orta əsrlərədək geniş məskunlaşdığını sübut edir. Məsələn, kürd mənşəli Şəddadilər sülaləsinin yaratdığı dövlətin ilk paytaxtı olan **Dəbil** *(hazırda Ermənistanın Ararat rayonundakı Dvin qəsəbəsinin ərazisində yerləşirdi)* şəhərin orta əsrlərdə kürdlər tərəfindən məskunlaşdığı barədə bir çox ərəb mənbələrində məlumat verilmişdir. Məsələn, hələ X əsrdə ərəb coğrafiyaşünası Əl-Müqəddəsi yazırdı: “Dəbil çox böyük şəhərdir. Buranın qalası alınmaz, nemətləri çoxdur; tarixi qədimdir... Came məscidi hündür təpədə yerləşir. Kürdlər buranı qoruyurlar” (105,132).

Bu məlumata ozu da əlavə edək ki, Dəbil şəhərinin adı qədim kürd tayfasının adı olan “Bil” sözü ilə bağlıdır. Maraqlıdır ki, İraqdakı Kürdüstanın bu günkü paytaxtıolan Ərdəbil də həmin tayfanın adını daşıyır. Onu da xatırladaq ki, Səlahəddin Əyyabinin ulu babası məhz Dəbildən Ərbilə getmişdir. Dəbiş şəhərinin qədim zamanlardan kürdlərə məxsus olduğunu sübut edən başqa fakta diqqət yetirək. W. Köhler “Övliya Çələbi səyahətnaməsində Bitlis və xalqı” adlı kitabında yazır: “642-ci ildə ərəblər Artaşat yaxınlığında Kürd çayını keçdilər və Dvin qalasını tutdular. Kazaryan yazır ki, Mertsamur çayının digər adı da kürd çayıdır” (109,19).

Buradakı Dvin-Dəbilin ermənicə adıdır. Artaşat şəhəri dəbilin yaxınlığında yerləşir. Onun adı kürd dilində Ərdəşad olub “Şad *(Şadilər-Şəddadilərin kürdcə qısa adı)* torpağı” *(“Ərd”-yer, torpaq deməkdir)* mənasındadır. Kürd çayının *(Metsamurun)*

sahillərindəki kəndlərdən biri son dövrlərədək Kürdkənd adlanırdı. Hazırda həmin kəndə Noraşen adı verilmişdir.

Yaxud başqa bir misal. Orta əsrlərdə Mosuldan Zəngəzur dağlarınadək geniş ərazidə iz qoyan kürd tayfa birləşməsi- Zəngilərin adını daşıyan bir çox toponimlərə indiki Ermənistan ərazisində də rats gəlirik: Zəngi çayı *(indiki Razdan),* Zəngibasar rayonu *(indiki Masis),* Zəngəzur silsiləsi və s. Bəzi tətqiqatçıların fikrinə görə Ermənistanın indiki paytaxtı İrəvanın adı qədim kürd tayfası olan Rəvanla *(Rəwan)* bağlıdır. Kürdlər indi də İrəvana Rəwan deyir. İraq Kürdüstanındakı Rəvandiz şəhərinin qədim zamanlardan bu günədək kürdlərlə məskunlaşması faktı bu mülahizənin doğruluğuna dəlalət edir.

Ermənistanın Gorus, Sisian və s. kimi şəhər adları da kürdlərlə bağlıdır. Ümumiyyətlə, indiki Ermənistan ərazisində kürdlərin və kürd mənşəli tayfa və qəbilələrin adı ilə bağlı belə qədim toponimlər yüzlərlədir. Onların öyrənilməsinin dərin tətqiqata ehtiyacı olduğundan burada qeyd etdiyimiz bir neçə faktla kifayətlənməyi məqsədəuyğun hesab edirik.

Beləliklə T. Aristova, Q. Çursin, A. Bukşpan və başqa tətqiqatçılar yuxarıda qeyd etdiyimiz faktları və həmin faktlardan irəli gələn məntiqi mühakiməni *(kürdlər doğma vətənlərini tərk etmək məcburiyyətində qaldıqda ərəblərin, farsların türklərin və.s qonşu xalqların yaşadıqları ölkələrə deyil, məhz öz soydaşlarının qədim zamanlardan bəri yaşadığı indiki Ermənistan və Azərbaycan ərazisinə-tarixi kürdüstanın ən ucqar məntəqələrinə köçmüşlər)* nəzərə almadıqları üçün Cənubi Qafqaz *(Zaqafqaziya)* kürdlərinin məskunlaşma tarixi haqqında yuxarıda qeyd etdiyimiz yalnışlığa yol vermişlər.

Əlbəttə, həmin müəlliflərin qeyd etdiyi kimi, XIX əsrin I yarısında Cənubi Qafqaz, xüsusi ilə, Ermənistan və Azərbaycan ərazilərinə tarixi Kürdüstanın bir çox vilayətlərindən xeyli sayda kürd tayfaları siyasi və sosial-iqtisadi səbəblərə görə köçərək bu yerlərdə məskunlaşmışlar. Həmin tayfalar həm Ermənistanın həm də Azərbaycanın digər regionlarında *(ermənilərin və Azərbaycanlıları üstünlük təşkil etdiyi yerlərdə)* deyil, məhz öz soydaşlarının *(Kürdlərin)* qədimdən yaşadıqları rayonlarda məskunlaşmışlar.

XX əsrin 80-ci illərinədək, daha doğrusu, Ermənistanla Azərbaycan arasındakı Qarabağla əlaqədar münaqişənin yarandığı ilədək *(1988-ci il)* Hayastan Respiblikası ərazisində 80 mindən çox kürd yaşayırdı. Lakin bu rəqəm əhalinin 1989-cu il siyahıya alınmasında 60 min göstərilmişdir. Həmin dövrdə kürdlər əsasən Ermənistanın Araqats, Talin, Aparan, Armavir, Eçmədzin, Artaşat, Ararat (Vedi), Aştarak, Kotayk, Taşir

(Kalinino), Vardenis (Basarkeçər), Kirovakan, Axtin, Dilican rayonlarında və İrəvan şəhərində yaşayırdı.

1988-ci ildən başlayan "Qarabağ müharibəsi" illərində Ermənistan hökuməti "etnik təmizləmə siyasəti yeridərək, 200 mindən çox azərbaycanlı ilə yanaşı, 20 minə yaxın müsəlman kürdünü də ölkəni tərk etməyə məcbur etdi *(mənəvi təzyiq, terzər və silah gücünə). (1937-ci ildə də 20 minə yaxın müsəlman kürd Orta Asiyaya sürgün edilmişdi).* Müsəlman kürdləri həmin dövrdə əsasən **Ararat (Vedi) rayonunun**-Xalisa, Şidli, Qaralar, Yengicə, Dəvəli, Şirazlı, Taytan, Çimən, Şahablı, Arazdəyən, Şıxlar, Kiçik Vedi, Avşar; **Masis** rayonunun-Zəhmət, Yuxarı Nəcitli, Aşağı Nəcitli *(hər iki kəndin adı kürdcə "Ovçu" mənasında olan "Neçirvan" sözündən yaranmışdır),* Nizami, Çobankərə, Dəmirçilər, Rəhimabad, Mehmandar, Qaraqışlaq, Ağcaqışlaq, Hacıelyas, Sarvanlar, Zəngi və s. *(bu kəndlərin hamısının adı dəyişdirilmişdir);* **Vardenis (Basarkeçər)** rayonunun Qolovino, Semyonovka; **Eçmədzin** rayonunun-Kürd kənd *(Kürokənd)* və s. yaşayış məntəqələrində yaşayırdı.

Kürdlər qeyd olunan bu kəndlərdə əsasən azərbaycanlılara birgə yaşadığından *(bu kəndlərin 80%-dən çoxunda azərbaycanlılar üstünlük təşkil edirdi)* 1988-ci ilin payızında elə onlarla birlikdə doğma yerlərindən qovuldular.

İlk illərdə müsəlman olmadıqları üçün və Ermənistanda qoyunçuluq təsərrüfatının 80%-dən çoxunun zəhmətini çəkən Ezdi *(onlara Yezidi demək yanlışdır; bax: I. IV)* kürdlərinə dəyməyən və onları qızışdıraraq müsəlman kürdlərinin üstünə basqına göndərən ermənilər, Dağlıq Qarabağı işğal etdikdən sonra *(1993-cü ildən)* onları da sıxışdırmağa başladılar. Nəticədə Ezdi kürdlərinin də xeyli hissəsi (bəzi məlumatlara görə 20 mindən yuxarı) öz doğma yurdlarını tərk etməyə və xarici tutmağa məcbur oldu.

Beləliklə, "monoetnik" (təkmillətli) ölkəyə çevrilən Ermənistanda bu gün dağlıq rayonlarda ermənilər üçün qoyun sürülərini saxlayan bir neçə min Ezdi kürdlərindən başqa, demək olar ki, bir nəfər də olsun azərbaycanlı və müsəlman Kürdü qalmamışdır.

Gürcüstan Respublikasında *(1920-1991-ci illərdə Gürcüstan Sovet Sosialist Respublikası)* 1989-cu ilin məlumatına əsasən 33,3 min nəfər kürd yaşayırdı. Gürcüstan ərazisində də kürdlərin qədim zamanlardan yaşadıqlarına baxmayaraq, onların böyük qismi XIX əsrin əvvəllərindən XX əsrin əvvəllərinədək davam edən dövrdə, xüsusilə, Rus-İran *(1804-1813; 1826-1828)* və Rus-Türk *(1853-1856; 1877-1888)* müharibələri zamanı köçmüşlər.

Bəzi gürcü alimlərinin verdiyi məlumata görə indiki Gürcüstan ərazisində kürdlərin məskunlaşması ən azı X əsrin ortalarından başlamışdır (9,134)

Kürdlərin orta əsrlərdə Gürcü dövlətinin ictimai-siyasi həyatında mühüm rol oynamaları barədə bir sıra tarixi faktlar mövcuddur. Məsələnə, təkcə onu qeyd etmək kifayətdir ki, gürcülərin məşhur çarı Tamaranın (1184-1212) baş sərkərdələri İvane *(İvo, İbo- İbrahim)* və Zaxare *(Zahar)* qardaşları kürd idi (111,8).

XX əsrin əvvəllərindən 1989-cu ilədək Gürcüstanda yaşayan KÜrdlər əsasən Aspindz (Axçə, Çoldə, Nəkləkef, Bərtəqan, Timuk, Anakət, Danət, Zədəvarz kəndlərində); Adıgün (Blorzə, İntələ, Pərihev, Küpəli,Ş Rustav kəndlərində); Ahalkələk ((Axalkalak), Mirişxan kəndində) rayonlarında, Batumi şəhərinin ətraf kəndlərində, Tiflis şəhərində yaşayırdılar. Tiflisdə əsasən Ezdi kürdləri yaşayırdı.

Ermənistanda olduğu kimi Gürcüstan SSRI-də də Sovet hakimiyyətinin ilk illərində kürdlərin sosial iqtisadi və mədəni inkişafı üçün müəyyən addımlar atıldı. Belə ki, kolxoz quruculuğuna fəal qoşulan kürdlər üçün savadsızlığı ləğv edən kurslar, kürd balaları üçün doğma dildə ibtidai məktəblər açıldı və s.

Lakin kürdlərin bu “xoş” günü uzun sürmədi. Belə ki, Stalin repressiyanın qurbanları siyahısına Gürcüstanın Türkiyə ilə sərhəddində yaşayan kürdlər və Məhsəti (Mesxet) türkləri də düşdü. 1944-cü ilin noyabr ayında həmin xalqların nümayəndəsindən ibarət 92 min nəfər yük qatarları ilə Orta Asiyaya sürgün edildi. Bəzi mənbələrə görə bu rəqəm 115,5 min nəfərdir (12,53). Sürgün edilənlərdən çoxlu sayda qadın, uşaq (həmin uşaqların ataları o illərdə cəbhədə “Stalin uğrunda”, “Sovet ittifaqı uğrunda qəhrəmancasına vuruşurdu; Onlardan biri kürd Bəkir Mustafayev Sovet İttifaqı qəhrəmanı adına layiq görülmüşdü) yollarda xəstəlikdən, aclıq və susuzluqdan məhv oldu. Onu da qeyd edək ki, mənbələrin verdiyi məlumata görə həmin ildə sürgün olunanların 20 mini müsəlman kürdü idi (1937-ci ildə Ermənistanda olduğu kimi, bu dəfə də kürdlər müsəlman olduğu və türklərlə birgə yaşadıqları üçün sürgün edilmişdi). Əslində burada kürdlərin (müsəlman olanların) sayı daha çox olmuşdur. Lakin həmin illərdə türklər və azərbaycanlılarla birgə (eyni kənddə) yaşayan müsəlman kürdlərinin sənədlərində bir qayda olaraq “azərbaycanlı” yazılırdı. Digər tərəfdən kürdlərlə ailə qurub, onlarla qaynayıb-qarışan kürdləri də “türk” hesab edirlər. Hətta adını yuxarıda qeyd etdiyimiz “xalis kürd” olan Bəkir Mustafayevin də sənədlərində, qəribədə olsa “azərbaycanlı” yazılmışdır.

Sürgün illərindən sonra Gürcüstanda Tiflis, Batumi, Telavi və Rustavi şəhərlərində, həmçinin az miqdarda Kaxeti vilayətində yaşayan kürdlər istisna olmaqla, demək olar ki, bir nəfər də olsun müsəlman kürdü qalmamışdır. Gürcüstanda da, Ermənistanda olduğu kimi, millətçi qüvvələr hakimiyyətə gələn kimi (1989-1991-ci illərdə “gürcü şovinizmi” tüğyan edirdi) erməni dostlarının irəli sürdüyü şüarı (“Ermənistan-yalnız ermənilərindir!”) mənimsəyərək, “Gürcüstan-yalnız gürcülərindir”

devizi ilə hərəkət etməyə başladılar. Nəticədə təkcə xeyli sayda azərbaycablılar deyil, təzyiq və təqiblərə məruz qalan Ezdi kürdləri də ölkəni tərk etməyə məcbur oldu. Odur ki, bu ölkədə kürdlərin sayı ildən-ilə azalır.

“Postsovet məkanında” Cənubi Qafqaz respublikalarından sonra kürdlərin ən çox məskunlaşdığı ikinci regiona Orta Asiyadır. Bu regionda isə kürdlər ən çox Qazağıstan Respublikasında *(1920-1936-cı illərdə Kazaxıstan Muxtar Sovet Sosialist Respublikası; 1936-1991-ci illərdə Qazaxıstan SSR)* yaşayır. Burada yaşayan kürdlər öz xoşları ilə deyil, əsasən Türkiyə ilə həmsərhəd olan regionlardan 1937-ci ildə ermənistan SSR-də, Naxçıvan MSSR, Azərbaycan SSR-nin Cəbrayıl, Zəngilan rayonlarından; 1944-cü ildə Gürcüstan SSR-in yuxarıda qeyd olnunan regionlarından; 1988-1990-cı illərdən Ermənistandan sürgün və departasiya nəticəsində məskunlaşmışlar.

2004-cü ilin rəsmi sənədlərinə görə Qazaxıstanda yaşayan kürdlərin sayı 32 min nəfər olmuşdur. Lakin tətqiqaycıların hesablamalarına görə hal-hazırda həmin kürdlərin sayı 100 mindən çoxdur (9,171). Bu respublikalarda yaşayan kürdlər əsasən Almatı, Çimkənd, Cənubi Qazaxıstan, Cambal və Taldı-Kurqan vilayətlərində, həmçinin ölkənin keçmiş (Almatı) və yeni (Astana) paytaxtında yaşayırlar.

Qazaxıstan öz müstəqilliyinə qovuşduqdan *(1991-ci il, 16 dekabr)* sonra buradakı az saylı xalqların, o cümlədən kürdlərin milli mənəvi inkişafı üçün əlverişli şərait yaranmışdır. Belə şəraitin nəticəsidir ki, kürdlərin kompakt yaşadıqları yaşayış məntəqələrindəki  orta məktəblərdə kür dili tədris olunur; Kürd mədəniyyət mərkəzləri assosasiyası-“Bərbanq” (Şəfəq), bir sıra şəhər və vilayət mərkəzlərində milli-mədəniyyət mərkəzləri; folklor kollektivləri fəaliyyət göstərir; “Jiyana Kurd” (“Kürd həyat”) adı qəzet, “Nubar” adlı jurnal nəşr olunur və s.

Qazaxıstan kürdləri bu ölkələrin sosial iqtisadi və mədəni inkişaflarında özünəməxsus rol oynayır. Belə ki, bu gün respublikanın elm və mədəniyyət mərkəzlərində, iri istehsal müəssisələrinə, hüquq-mühafizə orqanlarından, ümumtəhsil və ali məktəblərində, səhiyyə, idman və turizm təşkillatlarında, biznes sahəsində yüzlərlə görkəmli kürd mütəxəssisləri çalışır. Həmin mütəxəssislərdən təkcə Qazaxıstanda deyil, bütün Dünyada görkəmli neft-kimya mütəxəssis alimi kimi tanınan kimya elmləri doktoru, professor, akaemik, dövlət mükafatı laureatı, N.R. Nadirova, tanınmış kürdşünas alim, jurnalist, kürdlərin digər xalqlarla ədəbi əlaqələrinə dair samballı monoqrafların, eələcə də ümumtəhsil mərkəzlərin ikinci sinifləri üçün iki cildli dərsliyin müəllifi, filologiya elmləri doktoru, professor, akademik K.R.İ.Mirzəyevi beynəlxalq mineral ehtiyatlar Akademiyasının müxbir üzvü, texnika elmləri doktoru mərhum professor Q.A. Musayevi, etxnika elmləri doktoru professor U.A. Sadıqovu,Turizm və İdman Akademiyasının müdiri M.O. Mirzəyevi; respublikanın “Əməkdar müəllim”ləri:

A.K.Nadirovu, M.T.Süleymanovu, A.B. Nadirovu, S. İ. Seyidovu, İ. A. Əliyevi; Kikboksinq üzrə Avropa çempionları: Mikayıl və İsmayıl Nadirova qardaşlarını, Ramazan Səyadovu, Boks üzrə MOİK komandasının baş məşqçisi, idman ustası A. Aslanovu və onlarla başqalarını misal göstərmək olar.

Orta Asiya regonunda kürdlərin daha çox yaşadığı respublika Qırğızıstandır. Qırğızıstan Respublikasında *(1917-1926-ci illərdə Qara Qağız muxtar vilayəti; 1926-1991-ci illərdə Qırğızıstan SSR)* yaşayan kürdlər də Qazaxıstan Kürdləri kimi 1937,1944,1989-ci illər deportasiyaları nəticəsində bu yerlərə zorla köçürülmüşlər.

Sürgün edilən ( *Cənubi Qafqaz respublikalarından)* kürdlərin birinci ( *1937-ci il)* və ikinci (*1944-cü il)* dəstəsi əsasən OŞ vilayətinin Suzak rayonunda, kokyanqak və cələlabat şəhərlərinin ətraf qəsəbələrində məskunlaşmışlar. 1989-cu ildən sonra köçənlərin də bir qismi həmin rayonlara digərləri isə Bişkek şəhəri və onun ətrafındakı şəhərlərə üz tutmuşdur.

1989-cu ilin rəsmi siyahıyaalınmasına görə Qırğızıstanda yaşayan kürdlərin sayı 14300 nəfər olmuşdur həmin dövrdə kürdlər əsasən Çu vilayətinin Alamudin və Sokuluk rayonlarında; Tallas vilayətinin Manas və Kabarin rayonlarında; Oş vilayətlərinin, Rok-Yanqaq və Cələlabad şəhərlərində; Bişkek şəhəri və onun ətrafında yerləşən kəndlərdə *(Karl Marks , Petrovkaha, Vasilyevka, Vinoqradnoye, Leninskoye və s.)* yaşayırdı.

Hal –hazırda bu ölkələrdə yaşayan kürdlərin sayı tətqiqtçıların hesablamalarına əsasən 25 min nəfərdən çoxdur (9,181).

SSRİ-nin dağıdılmasına doğru getdiyi illərdə *(1988-1991)* Qırğızıstanda da ekstremist –millətçi qüvvələr az saylı xalqlara qarşı təzyiq və təqib kompaniyasına başladılar. Başqa millətdən olan xalqların məskunlşadığı yaşayış məntəqələrinə hücum edən quldur dəstələri Oş vilayətinin Sozak rayonundakı Oktyabr, Safarovka və Mixaylovka kəndlərində yaşayan 300-dən yuxarı kürdü də öz doğma ev-eşiklərindən didərgin saldılar. Həmin kürdlər Rusiyanın Krasnodar, Stavropol və Saratov vilayətlərinə pənah aparmaq məcburiyyətnidə qaldılar.

1994-cü ildə, yanvar ayının 21-də çağrılan Qırğızıstan xalqlarının qurultayından sonra ölkədə milli münasibətlərdəki gərginlik səngiməyə başladı. Həmin qurultayda kürdlərin “Niştiman” *(“Vətən”)* assosasiyasının da daxil olduğu Qırğızıstan Xalqlarının Assambleyasının Nizamnaməsi, həmçinin “Birlik, sülh və barışıq Bəyannaməsi” qəbul edildi.

1993-cü ildə yaradılmış Qırğızıstan kürdlərinin “Niştiman” assosasiyası öz sıralarını genişləndirərək “Midya” adlı Qırğızıstan Kürdlərinin İctimai Birliyinə çevrildi.

Birliyin sədri Şeyx Ramazan Seyidov seçildi. *(“Niştiman” nın köməkliyi ilə Bişkek şəhərində və bir sıra kəndlərdə kürdlərin bir sıra rəqs və mahnı qrupları yaradılmışdır. Hazırda qırğızıstan radiosunda 12 aprel 2002-ci ildən)* həftədə bir dəfə kürd dilində verilişlər *(cəmi15 dəqiqə)* yayımlanır. Qısa efir vaxtından səmərəli istifadə etməyə çalışan redaktorlar Həjar Əsgərov və Pakizər Məmmədova-ölkədə və dünyada yaşayan kürdlər haqqında maraqlı verilişlər hazırlayırlar.

2004-cü ilin noyabr ayında yaradılan “İraq Kürdüstanı və Qırğızıstan Dostluq Cəmiyyəti”də iki xalq *(kürdlər və qırğızlar)*, həmçinin iki ölkə *(İraq və Qırğızıstan)* arasında sosial-iqtisadi və mədəni əlaqələrin, dostluq münasibətlərinin inkişafı üçün əlindən gələni əsirgəmir.

Orta Asiyada kürdlərin yaşadığı üçüncü *(1924-1991-ci illərdə Özbəkistan SSR; 26 dekabr 1991-ci ildən ÖR)* kürdlərin məskunlaşma tarixi daha qədimdir. Belə ki, yuxarıda qeyd etdiyimiz kimi bu ərazilərə kürdlərin bir qismini *(bəzi tətqiqatçılara görə ona itaətsizlik göstərən döyüşçüləri; başqalarına görə kürd əalimləri və sənətkarlarını)* bələ XIV əsrdə Teymurləng köçürmüşdür (96,154;9,189)

XVIII-XIX əsrlərdə tarixi Özbəkistanın bir hissəsi olan Xivə xanlığının ordusunda kürdlər də xidmət edirdi. Məhz həmin əsrlərdən kürdlərin də xidmət edirdi. Məhz həmin əsrlərdən kürdlərin bu qədim torpaqlar da məskunlaşması başlanmışdır.

Mənbələrin verdiyi məlumatlara görə Özbəkistanda sovet hakimiyyətinin ilk illərində burada yaşayan kürdlərin sayı 15 min nəfər olmuşdur (9,189).

1937-ci ildə Azərbaycan və Ermənistandan sürgün edilən Kürdlərin az bir hissəsi, 1944-cü ildə Gürcüstandan deportasiya edilənlərin isə əksəriyyəti Özbəkistana köçürülmüşdür. Burada kürdlər respublikanın 7 vilayəti ən çox Daşkənd, Səmərqənd, Fərqanə, Buxara “43 rayonu və yüz”lərlə kəndinə səpələnmişlər.

1990cı illərdə Fərqanə vadisində baş verən millətlərarası toqquşmalar nəticəsində məshəti türkləri ilə yanaşı (*onların çoxu Azərbaycana pənah gətirdi)*, onlara qonşuluqda yaşayan kürdlərin də xeyli hissəsi Rusiya və Qazaxıstana köçməyə məcbur oldu.

Bu münaqişədən sonrakı illərdə də Özbəkistanda milli münaqişələrin tez-tez qızışması ilə əlaqədar olaraq, digər azsaylı xalqlar kimi, kürdlər də bu ölkəni tərk etmiş və etməkdədirlər.

Orta Asiya respublikalarından olan Türkmənistanda kürdlərin qədimdən *(bax: I.II.: Xorasan kürdləri haqqındakı səhifələr)* yaşadığına baxmayaraq, bəzi sovet kürdşünasları *(Ç. Bakayev, O.İ.Jiqalina və b.)* belə hesab edir ki, buradakı kürdlər XVII əsrdən sonra Xorasandan gəlmişlər (113,8).

Tətqiqatçıların hesablamalarına görə Türkmənistanda hal-hazırda 300 minə yaxın kürd yaşayır. Hələ XX əsrin əvvəllərində burada yaşayan kürdlərin sayı 100 min nəfərdən çox olmuşdur (9,194). Lakin 1970-ci il siyahıyaalınmasında Türkmənistanda yaşayan kürdlərin sayı 2993 nəfər (?!) göstərilmişdir. 1990-cı ildə isə Türkmənistanın rəsmi dairələri bu respublikada cəmi 4300 nəfər kürdün yaşadığını bildirmişlər *(yenə orada).*

Məsələ burasındadır ki, Türkmənistan torpaqlarında qədim zamanlardan türklərlə birgə yaşayan və onlarla eyni dinə mənsub olan qarışıq ailə quran kürdlər demək olar ki, tamamilə assimlyasiyaya uğramış və rəmi sənədlərdə "türkmən " kimi qeyd edilmişlər.

SSRİ dağıldıqdan sonra Türkmənistanda yaşayan kürdlər haqqında da inkarçılıq siyasəti yeridilmiş, nəticədə bəzi kürdlər bu ölkəni tərk etmiş, qalanları isə öz əsillərini danmağa məcbur olmuşlar. Təsadüfi deyil ki,kürdlərin bu vəziyyətini nəzərə alan İnsan haqları üzeə Hülsinki qrupu 2004-cü ildə dərc etdirdiyi məruzəsində Türkmənistanda yaşayan 6000 (?!) kürdün hüquqlarının tapdalandığına ayrıca paraqraf həsr etmişdir (9,195).

Sovet hakimiyyətinin ilk illərində Türkmənistanda *(1918-1924-cü illərdə Türkmənistan MSSR; 1924-1991-ci illərdə TÜrkmənistan SSR; 27 oktyabr 1991-ci ildən Türkmənistan Respublikası)* yaşayan kürdlər əsasən İranla sərhəd bölgəsində: Aşxabad, Göy-Təpə, Kaaxkin ragonlarında *(Baqir, Firyzə, Çuli, Qərm-ab-"İstisa", kürdcə-və s. kəndlərdə)*; Mari vilayətinin Türkməqali, Bayram-Əli rayonlarında; həmçinin Aşxabad və Mare şəhərlərində məskunlaşmışdılar. Hal-hazırda da kürdlər həmin yaşayış məntəqələrində yaşayır. Lakin sovet hakimiyyəti illərində kürdlərin Türkmənistandan kütləvi miqrasiyası, yaxud, deportasiyası baş vermədiyi halda, burada onların sayı 100 mindən 6000-ə (?!) enmişdir, daha doğrusu endirilmişdir.

Cənubi Qafqaz, Orta Asiya regionlarından sonra Kürdütanın tarixi torpaqlarından Kənarda *(post sovet məkanında")* kürdlərin ən çox yaşadığı üçüncü region Rusiya Federasiyasıdır. RF Dövlət Dumasının verdiyi bir arayışdakı məlumata görə bu ölkədə yaşayan kürdlərin sayı 250 min nəfərdən çoxdur (9,15). Halbuki 1989-cu il siyahıyaalınmasına görə bu rəqəm cəmi 4700 nəfər, 2002-ci ildə isə 19607 nəfər göstərilmişdir (Yenə orad, səh 215)

Tətqiqatçıların fikrinə görə Çar Rusiyası ərazisində kürdlərin ilkin məskunlaşması tarixi XIX əsrin əvvəllərindən başlayır. A.N. Xalfin bu barədə yazır ki, Rus-İran *(1804-1813 və 1826-1828)* və Rus-Türk *(1806-1812 və 1828-1829)* müharibələri gedişində və Gülüstan (1813), Türkmənçay (1828) sülh müqavilələrindən sonra Rusiya imperiyasının sərhədləri cənuba doğru uzandı. Qarabağ xanlığının Rusiyaya birləşdirilməsi ilə imperiyanın xalqları sırasında kürdlər də görünməyə başladı (114,39).

Çar Rusiyası dağıldıqdan *(1917-ci il)* və Cənubi Qafqaz respublikaları müstəqillik əldə etdikdən *(1918-ci il)* sonra Rusiyada yaşayan Kürdlərin sayı minimuma endi. Sovet hakimiyyətinin ilk illərində Rusiya şəhərlərində *(əsasən Moskva, Sankt-Peterburq)* yaşayan Kürdlər burada ali təhsil almaq məqsədilə gələnlərdən ibarət idi. Məhz onların və onlardan sonra gələnlərin Moskva və Leninqrad *(Sankt-Peterburq)* şəhərlərinin şərqşünaslıq institutunun rus alimləri ilə sıx əməkdaşlığı sayəsində həmin şəhərlərdə Sovet kürdşünaslığının əsası qoyuldu. 1954-cü ildə SSRİ EA şərqşünaslıq institutunda *(Leninqrad bölməsində)* kürd qrupu yaradıldı. Burada Qanade Kurdo Kordoyev *(1960-1985-ci illərdə həmin qrupa rəhbərlik etmişdir)*, İ.İ. Sukerman, M.B. Rudenko, həmçinin onların şagirdləri Y.İ. Vasilyeva, İ.S. Musaelyan, İ.A. Smirnova, K.A. Eyyubi, Z.A. Yusupova və başqalarının əməyi sayəsində sovet kürdşünaslığının bir çox dəyərli əsərləri yaradıldı.

XX əsrin 30-cu illərində həmçinin 1944-cü ildə Stalin repressiyaları nəticəsində cənubi Qafqaz repressiyalarından departasiya edilən kürdlərin bir qismi də Rusiyanın uzaq Sibir regionuna sürgün edilmişdir. Onların böyük əksəriyyəti burada məhv olmuş sağqalan az bir qismi isə orada qalaraq yerli ruslarla ailə qurmuş, son nəticədə assimliyasiyaya  uğrayaraq yoxa çıxmışlar. Həmin kürdlərin bəzilərinin övladları *(nəvələri)* XX əsrin 70-ci illərin axırlarınadək babalarının kürd olduqlarını unutmamışdılar. Məsələn, təsadüf nəticəsində bu sətirlərin müəllifi 1977-ci ilin yayında “Moskva- Novosibirsk” qatarında həmin kürdlərdən birinin nəvəsi lə tanış olmuş və onun Maqadan vilayətindəki qəsəbələrin birində yaşamış “kürd” babası haqqındakı söhbətlərini *(babasının və bir neçə başqa  kürdün bu yerlərə İkinci Dünya müharibəsi illərində sürgün edilmələri, burada rus qızları ilə evlənərək məskən salmaları, atasının kürdlərin qəhrəmanlığı haqqında söylədiklərini və s.)* dinləmişdir.

“Sovet dövründə Rusiyaya gedib orada qalan kürdlərin bir qismi  də “əmək miqrantlarıdır”. Bir parça çörək” üçün onlar doğma yerlərini tərk etmiş və bir daha geri qayıtmamışlar. Cənubi Qafqaz və Orta Asiya respublikalarında milli zəmində toqquşmalar baş verdikdən və SSRİ dağıldıqdan sonrakı illərdə kürdlərin təzyiq və təqiblər nəticəsində öz doğma yurdlarından, uzun illər boyu ağır zəhmət bahasına qurduqları ev-eşiklərindən didərgin düşməsi zamanı onların böyük bir qisminin ümid yeri və pənahgahı Rusiya Fedarasiyası oldu. Həmin illərdə Rusiyaya üz tutan bir çox kürd ailələri ikiqat departasiyaya *(Ermənistandan Orta Asiyaya, oradan da Rusiyaya)* məruz qaldılar. Bəzi kürd ailələri isə həmin illərdə qısa vaxt ərzində üç, hətta dörd dəfə köçmək (Ermənistandan Qırğızıstana, oradan Qazaxıstana, daha sonra isə Rusiyaya; yaxud Ermənistandan-Azərbaycana, buradan Orta Asiyaya-Qırğızıstan və ya Qazaxıstana, oradan Rusiyaya) məcburiyyətində qalmışlar.

1988-1991-ci illərdə Ermənistandan didərgin salınmış 18 mindən çox kürdün xeyli hissəsi əvvəlcə Azərbaycana pənah gətirmiş, sonrakı illərdə buradan Orta Asiya respublikalarına köçmüş; oralarda da rahatlıq tapmadıqda Rusiyaya üz tutmuşdur. Həmin kürdlərin ikinci qismi isə ya birbaşa Rusiyaya (ən çox Krısnodor diyarına) ya da Orta Asiyaya; buradakı respublikalarda bir neçə il qaldıqdan sonra oradan Rusiyaya köçmək məcburiyyətində qalmışlar.

Qeyd olunan dövrdə Rusiyaya pənah gətirən kürdləri ilk illərdə Krasnodor və Stavropol diyarlarında "Xoş üzlə" qarşıladıqları üçün onların (didərgin kürdlərin) xeyli hissəsi məhz həmin yerlərdə məskunlaşmaq qərarına gəldi. Lakin tezliklə Şimali Qafqaz respublikalarında, xüsusilə, Çeçenistanda milli zəmində toqquşmaların (daha sonra müharibənin) baş verməsi Rusiyanın digər regionlarında da millətlərarası münasibətlərinin gərginləşməsinə səbəb oldu. Odur ki, Krasnodar diyarının tərkibində olan Adigey respublikasında məskunlaşmış didərgin (qaçqın və köçkünlərin, az miqdarda "əmək miqrantlarının"- SSRİ-nin dağılmasından əvvəl Rusiyaya iş dalınca gedənlərin) kürdlərin həminillərdə yenidən qara günləri başladı. Belə ki, ikiqat milli ayrı-seçkiliyə, təzyiq və təqiblərə *(bir yandan ruslar, digər yandan isə adigeylər tərəfindən)* məruz qalan, hər cür bəhanə ilə qeydiyyata alınmayan krasnodar kürdlərinin bir qismi üçüncü, bəziləri isə dördüncü dəfə dərbədər oldular.

RF-ə pənah aparan kürdlərin ikinci "axınını" Ermənistandan didərgin salınmış Erdi kürdləridir. Onların əksəriyyəti Ermənistandakı təzyiq və təqiblərə tab gətirməyərək, Rusiyanın iri sənaye mərkəzlərinə, hətta, Sibir və Uzaq Şərq regionuna, Krasnodar və Stavropol diyarlarına və digər vilayətlərə üz tutmuşlar.

Hal-hazırda *(2010)* RF-də yaşayan kürdlərin coğrafiyası H.Əsgərovun tətqiqatına *(9)* görə aşağıdakı kimidir. RF-də kürdlərin kompakt yaşadığı ərazilər bunlardır: Moskva şəhəri və moskva vilayəti; Sankt Peterburq şəhəri; Krasnodar və Saratov vilayətləri; AdıgeyRespublikası; Saratov, Tambov, Yaroslave, Nijni Novqorod, Kursk vəs. vilayətləri; Xantı-Manssı Muxtar dairəsi *(Surqut, Nijnivartovsk, Nefteyuqansk şəhərləri)* və s. (9,216).

Qeyd olunan ocaqlardan başqa RF-in digər vilayət və şəhərlərində hətta, Uzaq Şərq (Vladivastok, Petropowlivsk-Kamçatsk) və ən ucqar qərb (Kalininqrad vilayəti) regionlarında da kürdlər yaşayır.

RF.də yaşayan kürdlərin az bir qismində taleyin hökmü, siyasi təqib və təzyiqlər, həmçinin əmək miqrasiyası nəticəsində tarixi kürdüstanın ərazisini tərk edən, müxtəlif şəhər və vilayətlərdə məskunlaşanlar təşkil edir.

“Postsovet” məkanında kürdlərin yaşadığı respublikalardan biri də Ukraynadır. Burada kürdlərin məskunlaşma tarixi XX əsrin əvvələrinə aiddir. Lakin ukraynalı alim Valentin Stetsyuk kürdlərin mənşəyini qədim skiflərlə bağlayır və öz fikrini sübut etmək üçün Ukraynanın ərazisində kürd dilində olan 250 dən çox toponimin (həmin toponimlər skiflərin yadigarıdır) izahına istinad edir. (9,223). Başqırd alimi S Qalyanov da kürdlərin skiflərlə sıx əlaqəsini elmi mənbələr əsasında sübut etməyə çalışır (24,6-7).

Skiflər elmi mənbələrin verdiyi məlumata görə Skiflər e.ə. VII əsrin 70 –ci illərinədək Qara dənizin şimal sahillərində (indiki Ukraynanın cənub vilayətlərində) geniş yayılmış hind-ari (İran) dilində danışan tayfa birləşmələrindən biri olmuşdur. “Tarixin atası” Heredot onlar haqqında geniş məlumat vermişdir. Skiflər e.ə. VII əsrin ortalarında Midya, Suriya, Fələstin və digər əraziləri ələ keçirərək Ön Asiyada, o cümlədən, qədim Kürdüstanda hakim mövqeyə çatmışdırlar.

Sovet hakimiyyəti illərində bura (Ukraynanın müxtəlif vilayət və şəhərlərinə) iş dalınca gələn kürdlərə SSRİ dağıldıqdan sonra Cənubi Qafqaz və Orta Asiya respublikalarından didərgin düşənlər də əlavə olunmuşdur. Bu ölkədə kürdlərin sayı barədə dəqiq məlumat yoxdur; tətqiqatçıların hesablamalarına görə bu rəqəm 20 min nəfərə yaxındır (9,227).

Hal-hazırda kürdlər əsasən Ukraynanın Xarkov, Kiyev, Odessa, Nikolayev, Xerson, Zaporojiye, Donetsk şəhərlərində və Krım Muxtar Respublikasında yaşayırlar. 1944-cü ildə Krım tatarları ilə burada yaşayan kürdlər də Özbəkistana sürgün edilmişdir. SSRİ dağıldıqdan və Krım tatarlarının öz doğma vətənlərinə qayıtma hüququ bərpa olunduqdan sonra kürdlə də bu yarmadaya qayıtmağa başlamışlar.

Ukraynada kürdlərin öz mədəniyyətlərini inkişaf etdirmələri üçün heç bir maneə yoxdur. Odur ki, son onilliklərdə bu ölkənin Kiyev, Odessa, Nikolayev, Xerson, Xarkov şəhərlərində, eləcə də Krım Muxtar Respublikasında kürdlərin bir sıra milli mədəniyyət ocaqları yaradılmışdır.

“Postsover” məkanında yaşayan kürdlərin az bir hissəsi də Tacikistan, Moldova, Belorusiya və Baltikyanı ölkələrdə (Estoniya, Latviya, Litva) məskunlaşmışdır.

“Postsovet” məkanına daxil olan ölkələrdə, daha doğrusu MDB-də yaşayan kürdlər haqqında görkəmli jurnalist və kürşünas H.Əsgərov “MDB ölkələrində kürd diasporası” adlı sanballı monoqrafiyasında (9) geniş məlumat verdiyi üçün həmin kürdlər haqqında yuxarıdakı qısa qeydlərlə kifayətlənirik.

Asiya qitəsinin digər ölkələrində-Əfqanıstan və Pakistanda da küdlər yaşayır. Bu ölkələrdə, xüsusilə, Əfqanıstanda kürdlər qədim zamanlardan (Parfiya çarlığı dövründə) yaşayır.

Avropa ölkələrində yaşayan kürdlər əsasən siyasi mühacirlər və əmək miqrantlarıdır. Bu kürdlərin çoxu tarixi kürdüstanın bütün parçalarından, xüsusilə Türkiyədən, az bir hissəsi isə "postsovet" məkanına daxil olan ölkələrdən köçənlər və mühacirlərdir.Kürdlər son on illiklərdə daha çox Avropanın Almaniya (300 mindən yuxarı), Fransa (50 min), İsveç (30 min), Norveç, Avstriya, Polşa, Bolqarıstan və s. ölkələrində məskunlaşmışlar. Bu ölkələrdə yaşayan kürdlər milli mədəniyyət mərkəzləri yaratmış, ana dilində "bazar günü" məktəbləri təşkil etmiş, özəl televiziya kanalları açmış, çoxsaylı qəzet və jurnallar nəşrinə nail olmuşlar.

Bu zaman fransanın paytaxtı Paris şəhərinə görkəmli kürd ziyalısı Kəndal Nəzanın rəhbərliyi altında 20 ildən çoxdur ki, fəaliyyət göstərən "Kürd İnstitutu"nu xüsusi qeyd etmək lazımdır. Burada kürd dili, ədəbiyyat və tarixinin öyrənilməsi və təbliği istiqamətində təqdirəlayiq işlər görürlər. Onu da qeyd edək ki, "Kürd-1" özəl televiziya kanalının rəhbəri də K. Nəzandır.

Öz tarixi vətənlərindən didərgin salınmış kürdlər bir gün Amerika (ABŞ və Kanada) və uzaq Avstraliya (Avstraliya İttifaqı və Yeni Zelandiya) qitələrinədək səpələnmişlər. Kürdlərin köç karvanı, belə getsə, buzlu Antraktida materikinə üz tutmağa məcbur olacaqdır. Çünki "doğma vətən" də təzyiq və təqiblər altında, milli diskriminasiya və dövlət teroru şəraitində "yaşamaqdan" (buna yaşamaq demək mümkünsə!!!) buzlu materikin $70^0$-$80^0$ şaxtasında rahat nəfəs almaq daha yaxşıdır.

# I.IV. KÜRDLƏRİN ETNOQRAFİYASI VƏ MƏDƏNİYYƏTİ

Kürd xalqının özünəməxsus etnoqrafik xüsusiyyətləri haqqında demək olar ki, bütün kürdşünas alimlərin və xarici ölkələrdən kürdüstana gələn missionerlərin, siyasətçilərin fikri eynidir. Həmin fikirlərin "ortaq məxrəci" belədir: Kürdlə ön Asiyanın antropoloji cəhətdən ən gözəl tiplərindən biridir. Onlar qorxmaz, cəsur, "kişi sözünə əməl edən", mərd, döyüşkən, igid, əməksevər və qonaqpərvərdirlər. Kürd cəmiyyətində qadın Şərqin heç bir xalqında olmayan azadlığa malikdir. Kürd qadını təkcə özünün gözəlliyi ilə deyil, həm də namusu, qeyrəti, "aslan ürəyi" olması ilə fərqlənir.

Bütün bu xüsusiyyətlər hər bir kürd üçün, eləcə də kürdləri yaxından tanıyanlar üçün "teorem" yox, sübuta ehtiyacı olan bir aksiomadır. Kürdləri yaxşı tanımayan xarici ölkə vətəndaşları onların fərqləndiri və heyrətləndirici xüsusiyyətləri "teoremə" bənzədiyinə görə elə əcnəbi ölkə alimlərinin fikirləri əsasında bu "teoremi" isbat etməyi məqsədəuyğun hesab edirik. Dr. F. Şinnavi yazır: "Kürdlər xarakter baxımından cəsur, igid və qorxmadan savaşan, düşmənə qarşı addımını geri atmayan bir millətdir" (22,46).

İran kürdləri arasında yaşayaraq onlar haqqında kitab (25) yazan alman mənşəli Rusiya alimi P.Lerx yuxarıda qeyd etdiyimiz bəzi xüsusiyyətlər haqqında öz fikrini belə bildirir: "Kürdlər qədim Xaldeylər kimi çox **zirək** *(cəld, bacarıqlı)* olub, **zəhmətdən** qorxmurlar...... Bu xalq artıq ən qədim zamanlardan **döyüş qəhrəmanlıqları** ilə fərqlənir..." (25,25). MÜəllif kürdlərin qəhrəmanlığı haqqında fikirlərini əsaslandırmaq üçün yunanların 10.000-lik qoşununa qalib gələn karduxları; Xaçpərəstlərin ("Səlib"çilərin) birləşmiş qoşunlarını darmadağın edib müqəddəs Qüdsü və İslam dünyasını xilas edən Səlahəddin Əyyubini; Hulaku xan və Teymurləngin vahiməli monqol-tatar döyüşçülərinə ciddi müqavimət göstərib böyük zərbə vuran Aməd *(Diyarbəkir)* kürdlərini; üç yüz ildən çox bir müddətdə Osmanlı Sultanlarına baş əyməyən və öz müstəqilliklərini qoruyub saxlayan kürd əmirlərini; kiçik bir kürd tayfasının başçısından İran şahı titolunadək yüksələn Kərim-xan Zəndi milas göstərir (Yenə orada, səh25-26). O kürdlərdə döyüş ruhunun yüksək olmasını onların qədim zamanlardan azadlıqsevər olmaları və ona canatmaları ilə əlaqələndirir.

P.Lerx həmin kitabında kürdlərin antropoloji xüsusiyyətlərinə görə cəzbedici və cüssəli olmalarını da xüsusi qeyd etməyi unutmamışdır: "Kürd kifayət qədər qəddi-qamətli, boyu və möhkəm quruluşlu əzələləri ilə fərqlənir. Onu başı demək olar ki, yumrudur, alnı açıqdır, saçları sıx və qaradır, burnu gözəldir, gözləri qara və parlaqdır, sifətinin rəngi tutqun, cizgiləri isə xoşagəlimlidir və kişiliyi kəs etdirir" (Yenə orada). Müəllif bu əlamətlərin əcnəbi alim Riqler tərəfindnə də təsdiqlədiyini qeyd edərək, daha

sonra əcnəbi missioner, səyyah və tətqiqatçıların *(Pujula, Riç, Bore, Qyörnle, Kox və s.)* kürdlərin fərqləndirici antropoloji və xarakter xüsusiyyətləri haqqındakı fikirlərini sadalayır və həmin fikirlərin demək olar ki, yuxarıda qeyd olunanlarla üst-üstə düşdüyünü vurğulayır.

Kürdləri yaxından tanıyan və bir neçə il onların həyat tərzini öyrənən erməni şairi X. Abovyan da onların antropoloji cəhətdən fərqləndiyinə diqqəti çəkərək yazır: "Kürdlər ilk baxışdan kişilik təcəssümünü əks etdirən, görkəminə, boy-buxununa, hündür boyuna, enli sinəsinə, cəngavər çiyinlərinə görə fərqləndirmək mümkündür... Bundan başqa kürdün fərqləndirici əlamətləri: iri odlu gözləri, sıx qaşları, hündür alnı, uzun qartal burnu, bərk yerişi, bir sözlə **qədim qəhrəmanlara** xas olan bütün cəhətlər" (115,202).

X. Abovyan kürdlər haqqında yazdığı başqa bir məqaləsində onların cəngavərliyinə, verdiyi sözə kişi kimi əməl etməsi diqqəti cəlb edir: "Kürdləri şərqin retsarları (cəngavərləri) adlandırmaq olar... **Döyüşkənlik,** açıqürəklilik, **düzgünlük,** öz knyazlarına son dərəcə **sədaqətlilik,** verilən **sözə ciddi əməl** etmək, qonaqpərvərlik... qadına hədsiz hörmət, bax, budur bütün xalqa məxsus ümumi əlamətlər" (116,189).

Kürdlərin cəngavərliyi və döyüşçü kimi qəhrəmanlığını, orduda sədaqətlə xidmət etdiklərini təkcə P. Lerx və X. Abovyan deyil, onlarla əcnəbi səyyah, misioner və tətqiqatçılar da, xüsusi qeyd etmişlər. Aleksey Manzyak "İslam döyüşçüləri" adlı kitabında kürdlərin döyüşkənliyinin, qəhrəmanlığının mənbəyini araşdıraraq gösətiri ki, bu, kəndlərin etnogenezində mühüm rol oynamış karduxların döyüş ənənələri ilə bağlıdır. Müəllifin fikrincə bu ənənələrin əsrlər boyu qorunub saxlanılmasının başlıca səbəbi kürdlərin yaşadığı regionun qanlı tarixi *(yuxarıda kürdüstan ərazisinin tarix boyu imperiyalar arsındakı döyüş meydanına çevrilməsini qeyd etmişik),* kürd əmirləri arasında müntəzəm baş verən "kiçik müharibələr" və kürdlərin gündəlik həyatında döyüşməyin əsas məşquliyyətlərdən biri olmasıdır. (31, 198-200)

Belə döyüş ənənələrinin kürdlərin həyatında XX əsrin əvvəllərinədək davam etməsini A.A. Arakelyan da təsdiqləyir: "Kişilərin başlıca məşğuliyyətinin at belində silah işlətməklə bağlı, hərbi yürüşlər... və ov zamanı yerinə yetirilən tapşırıqlar təşkil edir " (117,20).

Onu da qeyd edək ki, kürdlərin döyüş qəhrəmanlığından və sədaqətlə xidmətindən əsrlərlə geniş istifadə edən Osmanlı sultanları, İran şahları, Ərəb xəlifələri böyük hərb uğurlar qazanmış, öz ərazilərin təhlükəsizliyini qoruyub saxlamışlar. Yaxın şərq regionunda kürd süvari dəstələrinin döyüş məharəti ilə fərqlənməsi az qüvvə ilə böyük uğurlar qazanması barədə tarixi faktlar kifayət qədərdir.

Xaçpərəst qoşunlarını darmadağın edən Səlahəddin Əyyubinin ordusunda başlıca zərbə qüvvəsini kürd süvariləri təşkil edirdi. (22,46). XVI əsrdə *(1554-1586-ci illərdə)* Səfəvi ordusunun tərkibində özünün süvari dəstəsində böyük hərbi uğurlar qazandığına görə şərəfxan Bidlisinin tarixçi Oruc Bəy Byat "Azərbaycanın görkəmli sərkərdələri" sırasına daxil etmişdir (29,24).

Akademik O.V.Vilçevskiy qeyd edir ki, II Dünya müharibəsinədək yaxın şərq ölkələrinin ordusunda başlıca yeri kürd süvari dəstələri tuturdu (14,41).

Osmanlı sultanı II Əbdül Həmid (1876-1909) 1891-ci ildə yaratdığı "Həmidiyə" adlanan çevik süvari dəstləri məhz kürdlərdən ibarət idi. 1923-cü ildə Türkiyə cumhuriyyətini quran M.K. Atatürk bu dəstənin adını dəyişməklə ("Əşirət alayları") onlardan gənc respublikanın avropalı işğalçılardan azad edilməsi və süvariliyin təmin edilməsində başlıca hərbi qüvvə kimi istifadə etdi. Kürd süvari dəstələrinin digərlərindən fərqi və gücü onda idi ki, bura daxil olan döyüşçülər yalnız eyni tayfanın üzvlərindən ibarət olurdu.

Kürdşünas tətqiqatçıların fikrinə görə kürd süvari dəstələrinin böyük döyüş məharətlərinə malik olmasının bir səbəbi də ümumiyyətlə, bu xalqın gündəlik həyatında atın ən qədim zamanlardan mühüm rol oynamasıdır. Akademik O, Vilçeviskiy kürdlərə həsr etdiyi sanballı monoqrafiyasında bu cəhətə xüsusi diqqət yetirərək qeyd edir ki, kürdlərin ən qədim zamanlardan ata bağlılığı elə güclü olmuşdur ki, bu indiki dövrə qədər öz əhəmiyyətini itirmımişdir.

Müəllif həmin fikrini əsaslandırmaq üçün yazır: " Müasir dövrdə, atın Ön Asiya əhalisinin təsərrüfat həyatında geniş yer tutduğu bir zamanda, o, kürdlərlə elə dərəcədə sıx bağlı hesab olunur ki, İraq 1925-ci ildə "Ərəb və kürdlərin Birləşmiş Həşimi krallığı" elan edilərkən özünün yeni gerbini yaratdı, bu gerbin qalxanının dayaq hissəsində ərəb dəvəsi və **kürd atı** təsvir olunmuşdur" (14,41).

O. V. Vilçeviskinin kürd süvariləri haqqındakı fikirlərini belə yekunlaşdırır: "Bir sözlə, ilk baxışdan kürdü atsız təsəvvür etmək çətindir, at-kürd məişətinin, kürd təsərrüfatının ayrılmaz hissəsidir" (Yenə orada). Bu fikri erməni yazıçısı, kürdlərə heç də rəğbət bəsləməyən Akon Melik Akopyan (Raffi) da etiraf etmişdir: "Kürd uşaqlıqdan atı və silahı idarə etməyi öyrənir... Kürd heç vaxt başqasına hətta doğma qardaşına, öz atına minmək imkanı verməz. Onun özü kimi atı da bir-birini tanıyır. Atın xarakterinə bələd olmayan kənar şəxs onu idarə edə bilməz və onu korlaya bilər. Onu görə də kürdlərdə belə bir məsəl var: "İki şey- qadın və at-var ki, onları başqasına vermək olmaz " (118,279).

Xarici ölkə kürdşünaslarının, eləcə də kürdlər arasında başqa adla yaşayan missionerlərin demək olar ki, hamısı kürd cəmiyyətində qadının digər müsəlman qadınları ilə müqayisədə geniş azadlığa malik olmasını, öz namus və şərəfini, qanı bahasına olsa belə, axıradək qorumasını , kürd qadınının döyüşdə kişilərlə bərabər vuruşmasını heyrət hissi ilə qələmə almışlar. Bu fikirləri əsaslnadırmaq üçün bir neçə fakta müraciət edək.

K. Riç kürd qadınının ailədəki mövqeyinə diqqəti cəlb edərək yazır ki: "demək olar ki, onlara əri bərabərhüquqlulular kimi yanaşır. Kürd qadını türk qadınlarının kölə vəziyyətinə istehza və nifrətlə yanaşır" (119,131).

P. Lerx özündən əvvəlki missioner və tətqiqatçıların fikirlərinə istinad edərək kürd qadını haqqında deyilənləri və yazılanları təsdiqləyir: "Qadın cinsi kürdlərdə qonşu xalqlarla müqayisədə böyük azadlığa malikdir. Southgate..... hətta, inandırır ki, kürd kişisinin öz həyat yoldaşına münasibəti ona qərbin ailə həyatını xatırladır. İş zamanı və kişilər arasında qadınlar həmişə örtüksüz gəzirlər. Ər öz arvadına tam etibar edir. O, ev və çöl işlərini görür, uşaqlara baxır, paltar və xalça hazırlayır...... Kürd qadınları çox əməksevərdirlər... Nigah kürdlərdə qırılmaz (pozulmaz) ittifaq hesab olunur" (25,31).

Akademik V.F.minorskiy kürdlərə həsr etdiyi kitabında (21) kürd cəmiyyətində qadının mövqeyi və kürd qadınının fərqləndirici xüsusiyyətlərinə ayrıca yer vermişdir. O, burada göstərir ki, hər bir xalqın xarakteristikası üçün qadına münasibət məsələsi mühümdür. Bu baxımdan müəllif kürdləri "Müsəlman xalqları içərisində ən liberar" xalq hesab edir (21,36).

V.F. Minorskiy bu fikrin banisini əsaslandırmaq üçün qeyd edir ki, kürd qadınları da ailədə müəyyən işləri yerinə yetirir, lakin onlar üzlərini örtmürlər, kişilərlə bir məclisdə sərbəst əyləşib söhbət edirlər. Daha sonra müəllif kürd qadınları haqqında Soanın aşağıdakı sözlərinə istinad edir: "Kəndlərdə bir neçə dəfə evin sahibəsi əri evdə olmadığı halda məni qonaq qəbul edərək, mənimlə əyləşib söhbət etmiş, türk və fars qadınları kimi yalançı utancaqlıq və ciddilik rolunu oynamamış, evdəki yeməkləri mənimlə sevinc hissi ilə paylaşmışdır " (21,36).

Kürd qadının təkcə ailədə deyil cəmiyyətdə də böyük nüfuza malik olmasına diqqəti cəlb edən V.F.Minorski həmin fikrini əsaslandırmaq üçün bir sıra adlı-sanlı kürd qadınlarının övladlarının (oğlanların) atanın adı ilə deyil ananın adı ilə çağırılmasını; ərinin əvəzinə bütün tayfaya və yaşadıqları şəhərə, vilayətə başçılıq edən bəzi kürd xanımlarının (Həkkəri əmirliyinin kürdlər təeəfindən işğalı illərində burada hakimlik edən xanım; Süleymaniyə vilayətinin əri Osman Paşa Cavtan sonra idarə edən Adilə xanım) rəhbərlik və idarə etmək qabiliyyətlərini misal göstərir (yenə orda səh37).

Akademik O.V.Vinçeviski də kürdlərin Ön Asiyanın digər xalqlarından fərqləndirici xüsusiyyətləri sırasına onların qadına münasibətini və kürd qadınının kişilərlə birgə döyüşməsini daxil edərək yazır: ".... hələ 1950-ci ildə Iran qoşunlarının Cavanrud tayfasının üsyanını yatırtmaq üçün apardığı cəza əməliyyatları zamanı həmin tayfanın könüllülər dəstəsinin tərkibində demək olar ki, əli silah tutan bütün qadınları da vuruşurdu.

Ona görə də hərçənd ki, əsrlər keçdikcə patriarxal münasibətlər Kürdüstanda da yayılmışdır, .... matriarxatın möhkəm və güclü izləri (xatirələri) kürd mühitində bu günədək özünü göstərməkdədir. Qadının əhəmiyyətli dərəcədə müstəqil mövqeyi ona hamı tərəfindən hörmət, bəzi hallarda onun hədsiz nüfuza malik olması-kürdləri Kiçik Asiya və İranın qonşu xalqlarından fərqləndirən başlıca əlamətlərdəndir" (14,40).

Görkəmli kürdşünasın bu fikrinə onu da əlavə edək ki, kürd qadınının qəhrəmanlığına dair çoxsaylı tarixi faktlar təkcə XX əsrə deyil, bütün dövrlərə aid olub bu gün də davam etməkdədir.Bu baxımdan təkcə son 30 ildə Şimali Kürdüstanda öz xalqının milli azadlığı uğrunda şəhid olmuş onlarla kürd qızını və ya Qarabağ müharibəsi illərində (1992-1994) Ermənilərin əlinə keçməmək üçün özünü qayadan atan neçə-neçə kürd qadınını xatırlamaq kifayətdir.

Kürd qadının qəhrəmanlığına dair faktlar dünya qadınlarının həyatına həsr olunmuş və alman alimləri tərəfindən yazılmış, 1885-ci ildə rus dilinə tərcümə edilmiş "Qadın. Onun həyatı, mənəviyyatı və ictimai mövqeyi" adlı beynəlxalq əhəmiyyətli kitaba da düşmüşdür. Həmin kitabda kürd qadınının cəmiyyətdəki azadlığı, əməksevərliyi, ev işlarində çevikliyi, zirəkliyi, şən və ismətli olması ilə yanaşı, qəhrəmanlığı da xüsusi qeyd edilmişdir. Bu fikrin isbatı üçün Kırım müharibəsi *(yuxarıda qeyd etdiyimiz Rus-Türk müharibəsi)* illərində ətrafına silahlı dəstə toplayaraq kişi paltarında, ağ atın belində İstanbula gedib ruslara qarşı vuruşmaq istədiyini bildirən Qara Fatma nümunə göstərilir.

Kitabın "Kürdlərin köçəri həyatı" adlı üçüncü fəslində yazılmışdır: "Bu qədim dağlıların döyüşkənlik ruhu həm də onunla sübut olunur ki, qadınların özləridə müharibədə iştirak edirlər və bu baxımdan kürdlərin amazonkası Qara Fatma, hətta, tarixə düşmüşdür. O, əslən şərt dağlıq dairə olan Rəvvandizdir..." (120,67).

Kürd qadınının hüquq bərabərliyini, ailə təsərrüfatında zəhmətkeşliyini və döyüşdə kişilərdən geri qalmamasını XIX əsrin erməni tətqiqatçısı K. Xaçaturov xüsusi qeyd etmişdir: "Kürdlərdə qadın tatarlar *(azərbaycanlılar)*, ermənilər və digər xalqlarla müqayisədə çox böyük hüquqlara malikdir. Kürdün arvadı həm ev şəraitində *(məişətdə)*, hə də müharibədə yoldaşlıq edir. Əgər ər müharibəyə yollanırsa, qadınlar isə eəv

təsərrüfatını yola verir. Qadın cinsinin hünəri qadınlara böyük azadlıq hüququ verir. (121,35).

Erməni müəllif daha sonra kürd qadının döyüş məharətinə diqqəti cəlb edərək yazır: “Silahlanmış bir kürd qadını başqa xalqdan olan dörd nəfər silahlanmış kişinin öhdəsindən gələ bilir. Onda qadın özünü müdafiə edə bilmirsə, onda öz qohum əqrabasının *(tayfasının)* şərəf və hörmətindən məhrum olur. Belə zəif ananın qızı ilə heç bir oğlan evlənməyə razı olmaz” (Yenə orada, səh 85).

Kürd qadınının döyüşkənliyini bir xalqın milli mentaliteti hesab edən Aleksey Madzyak yazır: “Kürd qadınının döyüşkənliyi-bu demək olar ki, onların mentalitetidir. Kürd mahnısında deyilir:

Yerə və göyə and içirəm!

Yadda saxla lənətə gəlmiş düşmən,

Kürd qadını sənin ayağına düşməyəcəkdir!”

Qadının belə mövqeyini bir tərəfdən uzun zaman hərbi demokratiyaya köklənmiş kürd cəmiyyətinin xüsusiyyətləri, digər tərəfdən isə müharibəyə millətin bütün yaşlı hissəsini müntəzəm səfərbər etmək kimi tarixi zərurət müəyyənləşdirmişdir (31,226). Görkəmli kürdşünas V.P. Nikitin kürd qadınının bir çox özəllikləri ilə yanaşı, onun şərəf və namusunu yüksək səviyyədə qorumasını, ismətli olmasını xüsusi qeyd etmişdir: “Kürdlər arasında faişəlik və Şərqdə geniş yayılmış digər əxlaqsızlıqlar yoxdur” (51,61).

Kürdlərin etnoqrafik xüsusiyyətlərindən biri də onların mərd, səxavətli, qəlbiaçıq və qonaqpərvərliyidir. P.Lerx bu cəhəti xüsusi qeyd etməklə yazır ki, “kürdlərin qonaqpərvərliyinə onların arasında uzun müddət yaşayan və tez-tez olan: Riç, Ensvort, Ranlinson, Leyard, Brend və b. Şahidlik edir” (25,29). Akademik O. V. Vilçevski də kürdlərin bu cəhətini xüsusi qeyd etmişdir (130,208).

Görkəmli kürdşünasın diqqətini cəlb edən xüsusiyyətlərdən biri də kürdlərin polad iradəsi, dönməzliyi, möhkəm xarakteridir. Bu barədə P.Lerx belə yazır: “Pujula kürd xarakterinin möhkəmliyi barədə heyrətləndirici misal göstərir. Hafiz paşanın 1837-ci ildəki yürüşü zamanı əsir alınan, öz gözəlliyi ilə fərqlənən bəym üsyan edən tayfasının mövqeləri və sayı barədə məlumatın müqabilində ona təklif olunan bütün hədiyyələrdən və vasitələrdən qətiyyətlə imtina etdi. Keçmiş kürd bəyi kimi mən adamların rəisi ola

bilmərəm, ”- deyə o qürurla  padşahın sərkərdəsinə cavab verdi. İki günlük işgəncələr ona öz tayfasını satmağa vadar edə bilmədi. Üçüncü gün qəddar paşa onu qaynar qazana saldı, Lakin qəhrəman kürd ölənə qədər möhkəm dayandı” (yenə orada, səh 31).

Görkəmli şərqşünas akademik A. Kremskiy “Kürdlər” adlı məqaləsində *(həmin məqalə 1896-cı ildə S. Peterburqda nəşr olunan “Enksklopedik lüğət” də verilmişdir)* bu xalqın xarakterik xüsusiyyətlərini yığcam şəkildə  belə ümumiləşdirmişdir: “Kürdlər qəhrəman, **azadlıqsevən,** qonaqpərvər, təmkinlidirlər və **verilən sözə əməl edirlər,** bununla yalançı farslardan fərqlənirlər.... Kürd qadını Şərqdə heç bir xalqda olmayan bir azadlığa sahibdir” (223,69-71).

Rus-türk müharibəsi *(XIX əsrin 50-ci illəri)* zamanı əsir alınmış kürdlərin bir qrupu Rusiyanın Smolensk quberniyasının Roslavl şəhərində saxlanılmışdır. Təxminən bir il müddətində həmin kürdlər  üzərində müşahidə aparan jurnalist K.Mikeşin yazır: “Kürdlərin əksəriyyəti  uca boylu, möhkəm bədənli, enli kürəklidir; xoşagəlmli sifət cizgilərinə malikdirlər..... Yazda, qar əriyən zaman əsirlər küçəyə çıxır, tez-tez hansısa balalaykanın *(blur adlanan kürd zurnası nəzərdə tutulur-B.M.)* sədaları altında rəqs edirdilər.... Məni onların “çıxard” oyunu zamanı göstərdikləri çeviklik xüsusilə heyrətləndirdi. Kürdlərdən biri əllərini sinasində çarpaz saxlayaraq meydançanın ortasında əyilmiş vəziyyətdə dayanır, qalan əlli nəfər isə qaçaraq onun üzərindən tullanır.... Tullananlardan kiminsə qeyri dəqiq hərəkətini görə bilmədim. Bu oyundan hər bir kürdün çevikliyini , sürət tərzini görmək mümkündür... Kürdlərin gülə olan həsas münasibətini Şimal xalqlarında az görmək olar.... Kürdlər olduqca  dindar, təmkinli və əməsevərdirlər.... Onları müşahidə etdiyim bir il ərzində kürdlər fövqəladə surətdə **sülhsevər**  və bir-birlərinə qarşı qeyri-adi dostluq şəraitində yaşayırdılar” (224,№283).

Kürdlərin digər etnoqrafik xüsusiyyətləri; maddi mədəniyyəti, adət-ənənələri, milli geyimləri, məişəti, mətbəxi və s. barədə çoxsaylı əsərlər (7; 8; 104; 115;116; 121; 122;123;124;125;126;127;128;129 və s.) yazıldığı üçün burada daha əhəmiyyətli hesab olunan bəzi fərqləndirici cəhətləri qısaca qeyd etməyi məqsədəuyğun sayırıq.

Kürdlərin özünəməxsus etnoqrafiq xüsusiyyətləri onların milli geyim formalarında da öz əksini tapmışdır. Kürdlər ən qədim zamanlardan özünə xas geyim formaları yaratmış və əsrlər boyu onu qoruyub saxlamağa çalışmışdır. Minilliklər ərzində kürdlər digər xalqların əsarətində yaşadığına baxmayaraq, öz milli geyimini dəyişməmiş və bu günədək qoruyub saxlaya bilmişlər. İraq Kürdüstanının başçısı  M. Bərzani prezident kürsüsündə bu gün də milli geyimdə əyləşir.

Kürdlərin maddi mədəniyyət nümunələri içərisində milli geyimləri xüsusi yer tutur. Həm  kişilərin, həm də qadınların geyim formaları özünün rahatlığı və genişliyi ilə qonşu xalqların *(ərəblərin, kürdlərin, farsların və s.)* qiyafəsindən ciddi şəkildə fərqlənir. Bu

fərqləndirici xüsusiyyətlər *(genişlik, sərbəstlik, rahatlıq və s.),* fikrimizcə kürd xalqının azadlıq ruhunun çox yüksək olması, qədim zamanlardan sərbəst, müstəqil yaşamağa can atması ilə bağlıdır.

Kürd geyim formalarını, xüsusilə, qadın paltarlarının fərqləndirici əlamətlərindən biri də onların parlaq, al-əlvan rəngli olmasıdır. Şübhəsiz ki, bu cəhət Kürdüstanın ecəzkar gözəlliyindən irəli gəlir.

Xarici müşahidəçilərin diqqətini daha çox kişilərin geyimində ağ-qara rəngli parçadan hazərlanan baş örtüyü və bellərinin doladıqları uzun şal, qadınlarda isə "kofi" *(dingə)* adlanan baş örtüyü, jileti xatırladan "elək" *(qabağı açıq üst geyimi),* koftayabənzər "kurtık", "dehrə" adlanan bir neçə təbəqədən ibarət rəngbərəng parçadan tikilən yubka və onun üzərində qabaq tərəfdən bağlanan "mezər" *(önlük),* gümüş kəmər və s. cəlb etmişdir.

Kürdlərin milli geyimləri kimi milli xörəkləri də özünəməxsusluğu ilə fərqlənir. Ümumiyyətlə kürd mətbəxi üçün səciyyəvi cəhət burada ətdən və süddən hazırlanan xörəklərdən və Kürdüstan dağlarının "min bir dərdin dərmanı" olan bitkilərindən *(onların sayı-hesabı yoxdur)* geniş istifadə olunmasıdır .

Ətdən hazırlanan xörək növlərindən ən çox xoşladığı "qəli" (qovurma), kabab, "seləqəli" *(sac qovurması)* kəlapır *(kürdcə: "kəl"-qaynama , "pur"-çox deməkdir),* "avsir" (şorba) və s. Yeri gəlmişkən "xörək" kürd sözü olub "yemək" deməkdir.

Tanınmış kürd ziyalısı H. Nadirova özünün "Kürdlərin milli xörəkləri" adlı dəyərli kitabında (127) kürd mətbəxi haqqında geniş və dərin məlumatlar verdiyindən burada yuxarıdakı qısa qeydlərlə kifayətlənirik.

Kürdlərin mədəniyyət tarixində maddi nümunələr deyil, mənəvi dəyərlər daha önəmli yer tutur. Bu cəhətə xüsusi diqqət yetirək dr. Fəhmi Şinnavi kürdləri qədim misirlilərlə müqayisə edərək yazır : "kürdlər tamamilə **özəl bir millətdir.** Misirlilər isə kosmopolit bir millət. Misirlilər bütün dünyaya özlərini süvdirmək üçün tarixi əsərlər qoyduqları halda, kürdlər şəxsiyyətli, fədakar, zülmə qarşı çıxan və fərqli şəxsiyyətlərini *(milli-mənəvi dəyərlərini –kursiv bizimdir.)* ortaya qoymuşlar" (22,20).

Hörmətli dr. F. Şinnavinin kürdlərin maddi mədəniyyət nümunələrinin azlığı (o, burdada gətirdiyimiz iqtibasdan əvvəl belə bir sual verir: "nə üçün kürdlər misirlilər kimi tarixi əsərlər buraxmamışlar") barədəki fikrinə müəyyən aydınlaq gətirməyi zəruri hesab edirik. Müəllif özü bu məsələni belə hesab edir ki, kürdlərin misirlilər kimi tarixi əsərlər (yəni Misir ehramları kimi maddi mədəniyyət nümunələri) yaratmamasının başlıca səbəbi Misir dövlətinin Nilin münbit torpaqları sahillərində yerləşməsi, Kürdüstanın isə sərt dağlıq ərazilərdən ibarət olması; həmçinin misirlilərin kürdlər kimi mənəviyyata, milli mənliyə o qədər əhəmiyyət verməməsidir.

Əlbəttə müəllifin bu izahı tamamilə doğrudur; lakin burada razılaşmadığımız bircə cəhət var: kürdlərin yaratdığı maddi mədəniyyət nümunələri heç də az olmamışdır. Bu nümunələrin bir qismi imperiyalararası müharibələr zamanı tamamilə dağıdılmış, digər qismi isə kürdlərin doğma torpaqlarını işğal edən qonşu xalqlar (ərəblər, farslar, türklər və s.) tərəfindən mənimsənilmişdir.

Dr. F. Şinnavinin çox yüksək qiymətləndirdiyi milli-mənəvi dəyərlərdən bəzilərini (milli ləyaqət, milli qürur və şərəf, qorxmaazlıq, igidlik, yüksək yeksək doyüşrola, mərdlik, namusluluq, abır-həya və ismət, qadın azadlığı xarakterik, möhkəmliyi, qonaqpərvərlik və s.) yuxarıda qeyd etmişik. Lakin kürdlərin, fikrimizcə, milli-mənəvi dəyərləri içərisində birinci yeri milli varlığın "məhək daşı" olan doğma ana dili tutur. Artıq qeyd etdiyimiz kimi, kürdlər minilliklər boyu yadelli və yaddiilli işğalçıların əsarətinə, təzyiq və təqiblərə, mənəvi terora, ana dilində danışmaq və hətta bu dildə balalarına ad vermək, qadağalarına məruz qaldıqlarına baxmayaraq, öz doğma və doğma olduğu qədər də qədim olan dillərini bu günədək qoruyub saxlaya bilmişlər. Müqayisə üçün qeyd edək ki, ən qədim zamanlardan kürdlərlə qonşu olan azərilər (azərbaycanlılar) qədim əcdadlarının doğma dilini (həmin dil kürd dili kimi İran dillərinə aid idi) erkən orta əsrlərədək qoruya bilsələr də, sonrakı dövrlərdə türkdilli xalq kimi formalaşmışlar.

Kürd dilinin mənşəyi və formalaşması tarixi haqqında müəyyən elmi mübahisələr mövcud olsa da həqiqət birdir: bu qədim dil öz başlanğıcını ən qədim dillərdən biri olan sanskrit dilindən almış və İran dillərinin şimal-qərb qoluna aiddir.

Görkəmli başqırd alimi Salavat Qalyamov kürd və başqırd (başkürd, başkord) dillərinin sanskrit dili ilə sıx əlaqəsini sübut edən çoxsaylı fonetik, morfoloji və qramatik materialların təhlili əsasında həmin dillərin genetik qohumluğu nəticəsinə gəlmişdir (24,4). Müəllif, yuxarıda qeyd etdiyimiz kimi, hər iki xalqın eyni mənşəyə (qədim Veda yazılarında hind-ari tayfalarından biri kimi qeyd olunan **Kuru** etnosu) və eyni dil qrupuna mənsub olduqlarını tarixi-toponomik dəlillərlə yanaşı, leksik materiallar əsasında da sübut etməyə çalışmış və demək olar ki, məqsədinə nail olmuşdur. Onun bu məsələlərə həsr etdiyi iki sanballı monoqrafiya (23;24) böyük elmi dəyər kəsb edir.

Kürd dilinin ikinci inkişaf mərhələsi Med// Mad (Midiya) dili ilə bağlıdır. Yuxarıda kürdlərin etnogenezində Medlərin (Madların, Marların) mehem rol oynaması barədə görkəmli şərqşünas alimlərin fikirlərini qeyd etmişik. Həmin alimlərin əksəriyyəti məhz dil faktoruna əsasən həmin xalqların eyni soykökünə malik olduğunu sübut etməyə çalışırlar. Görkəmli kürd alimi "Kürd və Kürdüstan tarixi" adlı məşhur kitabında Kürd və Mad dillərinin eyni mənşəyə malik olduğunu sübut etmək üçün aşağıdakı sözlərin müqayisəli cədvəlini tərtib etmişdir (81,103):

| Kurmanc kürdcəsi : | Avesta dili: | Farsca: | Tükcə: |
|---|---|---|---|
| məzın | maza | bozorg | böyük |
| bərz | bərəza | bolənd | yüksək |
| masi | masıya | mahi | balıq |
| oştra (ıwştra) | oştra (ıwştra) | şotor | dəvə |
| pirt | pıreta | pol | körpü |
| ro, xor | hor | afitab | günəş |
| vəraz | vəraza | gəraz | donuz |
| mej(meş) | mexşi | meges | milçək |
| bərx | vəraxa | bərə | quzu |
| qısə | xesa | soxən | söz |
| wısu | was | xwastən | istəmək |
| zanin | zanin | danisten | bilmək |
| əz | zəm | mən | mən |

Cədvəldən aydın göründüyü kimi bir çox "Avesta" (Med dilində yazılmış qədim abidə) sözləri fars dilindəki sözlərdən fəqləndiyi halda, kürd dilindəki sözlərlə eyniyyət təşkil edir.

Görkəmli şərqşünas alim V. Minorski də kürd dilini Med// Mad dili ilə sıx bağlı olduğunu bu xalqların eyni mənşəyə mailk olması ilə əlaqələndirir: "Kürd dilini Karduxların, ya da Kortişlərin, ya da hamısının əsli olaraq qəbul etdiyimiz Medlərin dili ilə bağlamaq gərəkdir. Kürdlərin **gerçək ataları** əlimizdə olandəlillərə görə Medlərdir" (84,41).

Kürdlər haqqında sanballı kitabın *(bu kitab fransız, rus, türk və s. dillərdə çap olunub)* müəllifi B. Nikitin də Kürd dilinin Mad dilinə ən yaxın dil olduğunu qeyd edərək, ingilis alimi Soanın sözlərinə istinad edir: ".... Zərdüştün danışdığı **Avesta dilinə** ən çox yaxınlaşan" Mukri **Kürdcəsidir** (130,295).

Yuxarıda qeyd etdiyimiz kimi, müasir kürd dilinin əsasları II-VI əsrlərdə formalaşmışdır. Məhz həmin dövrdə ayrı-ayrı kürd tayfa birləşmələrinin eyni dildə danışmaları onların qaynayıb-qrışmalarına və vahid xalq kimi formalaşmasına səbəb olmuşdur. Kürd xalqının və dilinin formalaşması məsələlərinə həsr etdiyi dəyərli monoqrafiyasında O. Vilçevskiy, kürd dilində ilk yazılı nümunə (Kürdüstanın ərəblər tərəfindən dağıdılması) haqqında ağı" adlı poemanın tapılmış fraqmentlərini təhlil edərək yazır:

"Bu fraqmentlərin azlığına baxmayaraq, hər halda, onlar imkan verir ki, təsdiqləyək: artıq sasanilər dövründə kürd dili sonrakı dövrlərdə ona xas olan və onu digər İran dillərindən fərqləndirən xarakterik xüsusiyyətlərə malik olmuşdur. Artıq biz hələ VI-VII əsrlərdə **müstəqqil dildə** danışankürd xalqı haqqında söhbət aça bilərik" (14,115).

Müasir kürd dilinin bir neçə dialekti mövcuddur. Həmin dialektləri dilçilər iki əsas qrupa bölürlər: a) Şimal *(Krumanci)*; b) Cənub *(Sorani)*. Şimali Kürdüstan kürdlərinin demək olar ki, hamısı, Cənubi Kürdüstanın Zaho, Dahok, Mosal, Akra, Amadiya, həmçinin Cənub-qərbi Kürdüstanda, İranın Xorasan vilayətində, "post sovet" məkanına daxil olan respublikalarda yaşayan kürdlərin əksəriyyəti kurmanci dialektində danışırlar.

Şərqi Kürdüstanda (Urmiya gölünün qərb sahillərində yürləşən rayonlaristisna olmaqla), Cənubi Kürdüstanın Süleymaniyə, Ərbil, Kərkük, Rəvandiz vilayətlərində yaşayan kürdlərin dili sorani dialektinə aiddir.

Kurmanci dialektinin bir sıra qolları ilə yanaşı, zaza dialekti də şimal qrupuna daxildir. Cənub qrupuna isə sorani ilə yanaşı qorani (qurani) dialekti də aid edilir.

Müasir kürd dilində 9 sait, 30 samit səs mövcuddur. Dünyada yaşayan kürdlər **latın** (Şimali Kürdüstanda, Avropa və digər xarici ölkələrdə, "postsovet" məkanına daxil olan respublikalarda) , **Kril** *(Ermənistan və Gürcüstanda)* və **ərəb** *(Şərqi və Cənubi Kürdüstanda)* qrafikalı əlifbadan istifadə edirlər.

Kürd dilinin fonetik, morfoloji və qramatik xüsusiyyətlərinə çoxsaylı əsərlər *(6;106;113;131;132;133;134;135;136;137;138;139;140;141;142;143;144 və s.)* həsr olunduğu üçün həmin məsələlər üzərində geniş dayanmağa ehtiyac duymuruq. Lakin kürd dilinin qədimliyinə və müstəqilliyinə şübhə ilə yanaşan bəzi "alimlərə" və "siyasətçilərə" bir neçə faktı xatırlatmağı zəruri hesab edirik. Həmin "Kürdfobiya"çıların diqqətinə bir daha çatdırırıq ki, nə kürd dilinin qədim sanskrit dili ilə birbaşa əlaqəsini sübut edən S. Qallyamov, nə də bu dilin Med//Mad (Midiya) dilinə ən yaxın dil olduğunu təsdiqləyən akademik V.F. Minorskiy kürd deyil, öz sahələrində tanınmış mütəxəssislərdir.

Başqa misal. Hələ 1787-ci ildə, görkəmli rus alimi, akademik Pallos özünün məşhur "Bütün dillərin və ləhcələrin müqayisəli lüğətləri" adlı kitabına 276 kürd sözü daxil

edəndə, yaxud, elə həmin ildə italyan missioner Maurisio Qarzoni Roma şəhərində Kürd dilinin qrammatikasını nəşr edəndə kürd xalqına qarşı inkarçılıq siyasəti yeridən ağalarının sifarişi ilə müstəqil kürd dilinin mövcud olmadığını, onun guya “fars dilinin bir ləhcəsi” olduğunu öz cızma-qaralarında “sübut” etməyə çalışan “Kürdfobiya”çıların heç babaları da dünyaya gəlməmişdilər.

Hətta kürd dilinin ən qədim dillərdən biri olduğunun sübutu kimi Nuhun gəmisinin Kürdüstandakı Cudi dağına bənd olmasını Xatırlatan və aşağıdakı sözləri yazan dr. Fəhmi Şinnavi də kürd deyil: “Quranın da zikr etdiyi kimi kürdlərin mənşəyi hz. Nuhun gəmisinin Cudi dağına bənd olduğu dövrədək uzanır: **Avropa və Asiya dillərinin törəndiyi dilin əsli Kürd dilidir** ” (22,46).

Kürd xalqının milli-mənəvi dəyərlərli xəzinəsində heç bir mübahisəsiz ən önəmli yeri kürd folkloru tutur. Kürd dili kimi kürd folklora da özünün qədimliyi və zənginliyi ilə seçilir. Təsadefi deyil ki, dünya kürdşünaslarının demək olar ki, hamısı kürd mədəniyyətindən bəhs edərkən bu xalqın yaratdığı şifahi ədəbiyyat *(foklor)* nümunələrini öz plana çəkmişlər. Məsələn, görkəmli şərqşünas alim, akademik N.Y.Marr kürd mədəniyyətinin inkişafında folklorun rolunu çox yüksək qiymətləndirərək yazır: “Kürd tayfaları tarixində müstəqil amil *(faktor)*, əhəmiyyətli ictimai-mədəni qüvvə rolunu oynamış və bu günədək həmin rolu oynamaqdadırlar. Bu hadisənin açarını hər çeydən əvvəl **zəngin kürd folklorunda**, kürd rəqsləri və mahnılarında axtarmaq lazımdır” (41,23).

Akademik V. F. Minorskiy də kürd folklorunun zənginliyinə və Ön Asiya xalqları arasında geniş təsir dairəsinə malik olduğuna diqqəti cəlb edir, fikrini əsaslandırmaq üçün ermənilərin və aycorların kürd mahnılarını oxumasını, kürd nağıllarından istifadəsini misal göstərir (21,13). Daha sonra müəllif yazır: “Kürdlərin olduqca zəngin xalq ədəbiyyatı: saysız-hesabsız nağıllar, xalq rəvayətləri, mahnıları mövcuddur” (Yenə orada 116). Görkəmli alim M. Vaqner isə kürd mahnılarının Ön Asiyada geniş yayıldığını, onların bir qisminin türk dilinə tərcümə olunduğunu qeyd edir (183,255).

Kürdlərin zəngin folklor mədəniyyətinə malik olmasını, hətta, özlərindən başqa heç bir xalqı tərifləməyən ermənilərin tanınmış şairi X.Abovyan da etiraf edir: “Kürd xalq poeziyası valehedici addımlar atmış və yüksək inkişaf səviyyəsinə çatmışdır” (116,188).

Görkəmli kürdşünas V.P. Nikitin kürd ədəbiyyatında folklorun rolunu yüksək dəyərləndirərək, onun bu gün də xalqın həyatında mühüm rol oynadığını qeyd edir: “Kürd ədəbiyyatı-birinci növbədə **kürd folkloru** deməkdir; onda təkcə keçmiş nəsillərin irsini görmürük; bizim günlərdə o, həyat qabiliyyətinə və heyrətləndirici yaradıcılıq qüvvəsinə dəlalət edir ki, bu da onun gündəlik yeniləşməsinə və zənginləşməsinə səbəb olur... (51, 362) .

Şərqşünas alim L.İ.Klimoviç kürd xalq ədəbiyyatında bu xalqın qəhrəmanlıq tarixinin geniş əks olunduğuna diqqəti çəkməklə yanaşı, kürd mədəniyyətinin Yaxın Şərqdəki roluna xüsusi toxunur: "Kürdlər yaxın Şərqin maddi və mənəvi mədəniyyətinə böyük töhfə vermişlər" (145,67).

Kürd folklorunda başlıca yeri xalq dastanları *(bəyt-sərhati)* tutur. Qonşu Şərq xalqlarında olduğu kimi burada da həmin dastanlar məzmununa görə iki qrupa bölünür: a) qəhrəmanlıq; b) məhəbbət dastanları. Lakin kürd xalq dastanlarının fərqləndirici cəhəti mövcuddur: demək olar ki, bütün dastanlar əvvəldən axıradadək nəzmə çəkilmişdir.Onların ifasında da fərq var: həmin dastanları "dənqbej" *(xalq xanndələri)* adlanan yüksək istedada malik sənətkarlar xalq məclislərində, evlərdə təşkil olunan musiqi gecələrində *(bəzən bu gecələr səhərədək davam edir)* mahnı formasında ifa edirlər.

Kürd xalq dastanlarından ən məşhurları "Mən və Zin", "Rüstəm və Zal", "Zənbilfroş" *(Zənbilsatan)*, "Qər və Kulik", "Xəce və Siyabənd", "Dımdım", "Məme və Əyşe" və s. dir.

Kürd folklorunda önəmli yerlərdən birini də xalq mahnıları tutur. Bu mahnılar motivinə və süjetinə görə iki qrupa bölünür: a) süvari mahnıları *("kılaên siyara");* b) məhəbbət və yallı mahnıları *("kılaên qovəndê)*. İkinci qrup mahnılara bir çox bölgələrdə "qız mahnıları" *("kılaên kəça")* da deyilir. Çünki bu mahnıları çox vaxt qız-gəlinlər toy və şənliklərdə oxuya-oxuya yallı gedirlər.

"Kılaên siyara" deyilən mahnıların demək olar ki, hamısı kürd xalqının qəhrəmanlıq tarixini əks etdirən süjetlərdən ibarətdir. Bu mahnıların baş qəhrəmanı bir qayda olaraq xalqının azadlığı uğrunda bu və ya digər döyüşdə şücaət və igidlik göstərənlərdir. Bu mahnıların sözləri də, musiqisi də "dənqbej" lərə məxsusdur. Həmin mahnılar qonşu xalqlarda müşahidə olunmayan bir tərzdə ifa olunur. Belə ki, bəzən axşamdan səhərəcən davam edən musiqi gecələrində "dənqbej"lər bu mahnıları heç bir musiqi alətinin müşaiyəti olmadan muğamat üstündə ifa edirlər.

Kürd "dənqbej" lərin, məhəbbət və yallı mahnılarını oxuyan qəz-gəlinlərin ifasını heyrətlə izləyən X. Abovyan yazır: "Hər bir kürd, hətta hər bir kürd qadını ruhən anadangəlmə şairdirlər. Onların hamısı təəcübləndirici improvizasiya qabiliyyətinə malikdirlər..... " (116,188).

Kürdlərin milli rəqsləri sistemində başlıca yeri yallı-"qovənd" *(kürd dilindəki "qav" sözündən olub "addım" deməkdir)* tutur. Toy şənliklərində, digər əyləncə məclislərində demək olar ki, "qovənd"dən başqa rəqslər ifa olunmur. Tətqiqatçıların demək olar ki, hamısı "qovənd" *(yallını)* kürdlərin milli rəqsi hesab edir. Yeri gəlmişkən Naxçıvanda yaradılmış "Şərur" ansamblının ifa etdiyi yallı rəqslərinin böyük əksəriyyəti kürdlərə məxsusdur. Məsələn, "Sareyi" rəqsi kimi təqdim olunan yallı əslində rəqs növü deyil,

kürdlərin qədimdən "qovənd" mahnılarından biri kimi oxuduğu "Sare" mahnısının təhrif edilmiş adıdır.

Kürd "qovənd"i başqa qonşu xalqların *(azərbaycanlı, erməni, türk və s.)* yallısından iki cəhəti ilə fərqlənir. Birincisi odur ki "qovənd"in yüzdən çox növü , daha doğrusu ifa tərzi mövcuddur. Hər bir "qovənd" bir deyil, bir neçə xalq mahnısının müşaiyəti ilə ifa olunur. "Qovənd" mahnılarının sayı isə minlərlədir.

"Qovənd"i fərqləndirən ikinci cəhət isə ondan ibarətdir ki, ən qədim zamanlardan hal-hazıra kimi o, musiqi alətlərinin müşaiyəti altında deyil, xorla ifa olunan yallı mahnıları əsasında yerinə yetirilir. Bu isə o deməkdir ki, hələ musiqi alətləri kəşv olunmamışdan əvvəl kürdlər "qovənd"i müvafiq mahnıları oxuya-oxuya ifa etmişlər.

Kürdlərin ən geniş yayılmış milli musiqi alətlərindən blur *(tütək)*, fiq, *(neyə bənzəyir)*, zurna, tənbur, tulumb, dihol, *(nağara)*, ud və s. misal göstərmək olar.

Kürd folkloru haqqında çoxsaylı əsərlər müxtəlif dillərdə mövcud olduğu üçün burada yuxarıdakı qısa qeydlərlə kifayətlənirik (Bax: 129;‘146-176;185;188;192).

"Kürdfobiya "çıların kürd mədəniyyətinə yaxdığı ləkələrdən biri guya bu qədim xalqın yazılı ədəbiyyatının yox dərəcədə olmasıdır. Halbuki, hələ VIII əsrdə kürd yazılı ədəbiyyatının yarandığı dövrdə həmin "Kürdfobiya"çıların mənsub olduğu xalqların heç ədəbi dili formalaşmamışdı. Görkəmli rus alimi V.Dittel Qafqaza səyahəti zamanı kürdlərin ədəbiyyatı ilə tanış olduqdan sonra yazırdı: "Mən heç bir halda gözləmirdim ki, şərqşünasların az öyrəndiyi kürdlərin dili şifahi ədəbiyyatdan başqa bir qədər **geniş yazılı ədəbiyyatına da** malik ola bilər.... KÜrdlərin öz ədəbiyyatı mövcuddur...... " (177,8-9).

Yuxarıda qeyd etdiyimiz kimi kürd dilində ilk yazılı ədəbiyyat nümunəsi VII əsrə aid olub, "Kürdüstanın ərəblər tərəfindən dağıdılması haqqında ağı" adlanır (36,50, 184,432). Bu poemanın bəzi fraqmentləri XX əsrin 20-ci illərində Cənubi Kürdüstanın Süleymaniyyə şəhərində tapılmış və görkəmli kürd alimi Rəşid Yasəmi tərəfindən çap edilmişdir.

Poemada Kürdüstanın şəhərlərinin, o cümlədən Şəhrizorun ərəblər tərəfindən talanması, atəşpərəstlərin məbədgahlarının dağıdılması təsvir olunur:

Məbədgahlar dağıdılıb, odlar söndürülüb,

Böyüklər və zəiflər qaçıb gizlənib.

Zalım ərəblər kəndləri yandırıb,

Şəhrizora qədər yalnız meyitlər qalıb.

Qadınlar, qızlar əsir alınıb,

Qəhrəman kişilər qan içərisindədir.

**Zərdüştün dini** tərk edilib, unudulub,

Ahuramazda xalqın harayına gəlmir.

X əsrdən başlayaraq klassik poeziya nümunələri yaradan kürd şairlərindən Pire Şariar *(Şəhriyar),* Baba Tahir Həmədani, Əli Tərəmahi *(X-XI əsrlər),* Əli Hərizi *(1009-1079),* Məlae Cəziri *(1101-1169),* Fəkie Təyran *(1302-1375),* Maləe Bate *(1417-1491),* Səlim Sleman *(XVII-XVIII)*-və bir çox başqaları orta əsrlərin şərq ədəbiyyatı tarixində özlərinə möhkəm yer tutmuşlar.

Burada bir məsələni də qeyd etmək lazımdır ki, orta əsrlərdə kürd dilində yazıb yaradan şairlər təkcə yuxarıda adlarını qeyd etdiklərimizdən ibarət deyil. Onlarla belə şairin həyatı və yaradıcılığı hələlik öyrənilməyib; orta əsrlər kürd ədəbiyyatı tarixində "ağ ləkələr" çoxdur.

Orta əsrlərin klasikkürd şairlərindən ikisinin adını xüsusi qeyd etmək vacibdir. Məlae Cəziri və Əhməde Xani. M. Cəziri kürd ədəbiyyatı tarixinin ilk ədəbi məktəbin yaradıcısıdır (178,90-91). Əhmədi Xani özünün yaratdığı ölməz "Məm və Zin" poeması ilə Şərq poeziyasının ən parlaq səhifələrindən birini yazmışdır. Görkəmli şərqşünas, akademi U.A.Orbeli *(1887-1961)* Ə.Xaninin şərq ədəbiyyatı tarixində yerini çox yüksək qiymətləndirmiş, onu dahi İran şairi Firdovsi ilə müqayisə etmişdir: "Şairin xəlqiliyi haqqında, şairin onu yetirən xalqa qovuşması barədə fikirləşərkən istər-istəməz Şərqin **üç böyük** şairinin müqayisəsi yada düşür.. İranlı **Firdovsi,** gürcü **Rustaveli** və kürdlərdən başqa hamı tərəfindən unudulmuş, daha doğrusu kürdlərdən başqa heç kimə məlumolmayan,lakin öz xalqı arasında mübahisəsiz "xalq şairi" adını qazanmış **kürd Əhmədi Xani** " *(179,57).*

Görkəmli alimin bu qənaətinin doğruluğuna sübut üçün qeyd edək ki, Ə.Xani "Mən və Zin" poemasından başqa doğma vətənində *(Bəyazid mahalında)* kürd balalarına ana dilini öyrətmiş, bu məqsədlə "Nubar" adlı ərəbcə-kürdcə **ilk mənzum lüğət** yaratmış kürd dilində qəzəllərdən ibarət divan, fəlsəfəyə aid bir neçə traktat yazmışdır (180,5).

Dahi şair “Mən və Zin” poemasını o dövrün ənənələrinə fars və ərəb dilində yazmaq zidd olaraq məhz doğma kürd dilində yazmış və bunun səbəbini belə izah etmişdir:

İçdi xam şərabdan dürrü, cövhəri,

Doğma kürd dilini-incini zəri.

Nizam intizamla sıraya düzdü,

Şair xalq yolunda cəfaya dözdü-

Deməsinlər: “Hanı kürdün qüdrəti,

Əsli, nəcabəti, mədəniyyəti?!”

(181,10)

Əhməd Xaninin xəlqiliyini görkəmli ədəbiyyatşünas alim Qasım Qasımzadə də çox yüksək qiymətləndirərək, onun “Məm və Zin” poemasını *(həmin poemanın Azərbaycan dilində tərcüməsinin redaktoru Q. Qasımzadədir)* “Xəlqiliyin maraqlı nümunəsi” adlandıraraq yazır: İtiqlaliyyət uğrunda və ictimai ədalətsizliyə qarşı mübarizədə Əhməd Xaninin adı əbəs yerə milli azadlıq hərəkatının rəmzi sayılmır. Əsərin “Əhvalımız” hissəsi xalqın **siyasi manifesti** təsiri bağışlayır. Müasir oxucu əsərlə, onun müəllifi ilə tanış olmadan həmin hissəni ayrıca mütaliə etsəydi bunun düz yüz il əvvəl deyil məhz bizim günlərdə xarici ölkələrdə yaşayan kürdlərin vəziyyəti haqqında yazıldığı qənaətinə gələrdi

Biri öz əliylə sərvət yaratdı,

Başqası qəsb edib dövlət yaratdı...

Məni çaşbaş salıb xuda hikməti-

Kürdün aşıb-daşır varı-dövləti,

Yaşayır asılı, yaşayır məhkum”

(182,4-5).

Onu da qeyd edək ki, təkcə U.A. Orbeli deyil, bir çox şərqşünaslar *(P.Lerx, V. Minorski, V.Nikitin, R.Leski, N.Rudenko, M. Bozarslan, Q.Kuptayev vəs.)* "Mən və Zin" poemasını Fizulinin "Leyli və Məcnun", Şeksprin "Romeya və Culyetdası" və s. əsərlərlə müqayisə edərə, müəllifinin adını Firdovsi, Sədi, Rustaveli, Fizuli, Rumi və s. kimi dahi şairlərlə bir sırada çəkmişlər. Məsələn, V. Nikitin yazır: "görünür ki, Əhməd Xani öz yaradıcılığında Cəlaləddin Ruminin nümunəsini davam etdirmişdir" (51,389).

XVIII əsrdən sonrakı dövrdə də adını Şərq ədəbiyyatı tarixinə yazdıran kürd şairləri və yazıçıları az deyil. Onlardan bir neçəsinin adını qeyd edək: Nali *(1800-1856),* Ə. Səlim *(1805-1869),* M. Kurdi *(1812-1850),* Mah Şərəf-xanımın Kürdüstani-Məsturə *(1805-1847),* Hacı Kadir Koyi *(1816-1894),* Mir Şəkər əli Dinavərvand *(1825-1865),*R. Tələbani *(1842-1910),* Abbas xan Azadi *(1858-1899),* Abdulla bəy Ədəbi *(1859-1916),* Zivər *(1875-1948),* Pirəmerd *(1868-1959),* Behud *(1878-1955),* Səlam *(1892-1959),* Nuri Şeyx Saleh *(1898-1958),* Qani Muxtar *(1898-1960),* Faiq Bekəs *(1905-1948),* Ş.Ciyərxun *(1903-1984),* A. Qaran *(1904-1962),* O, Səbri *(1905-1993),* Ə.Həjar*(1920-1991),* Əmine Əvdal *(1906-1964),* Ərəb Şamilova *(1879-1978),* Vəzire Nadiri *(1911-1946),* Haciye Cındi *(1908-1999),* Caume Cəlil *(1908-1999),* Əli Əbdülrəhman *(1920-1994),* Mikiaile Rəşid *(1925-1984),* Yılmaz Güney *(1937-1984),* Kaçaxe Mırad *(1914-1979),* Şıkoye Həsən *(1928-1971),* Şamil Əsgər *(1929-2007),* Hüseyn Kürdoğlu *(     )* və s.

Yuxarıda qeyd edilən ədiblər arasında sağlığında klasikləşən, 20 kitabın, o cümlədən səkkiz divanın və kürdüstan tarixinə aid iki dəyərli monoqrafiyanın müəllifi Şeyxmus Ciyərxunu xüsusi qeyd etməyi mənəvi borcumuz sayırıq. S. Ciyərxunun hələ sağlığında onun yaradıcılığına bir neçə dissertasiya işi həsr olunmuş və müvafiq monoqrafiyalar nəşr edilmişdir. Həmin monoqrafiyalardan Ş. Əsgərovun "Xalqın şairi" və Ordixane Cəlilin "Ciyərxunun vətənpərvərlik poeziyası" adlı kitablarını xüsusi qeyd etmək lazımdır. Birinci kitab Bakıda azərbaycanca, ikinci isə Yerevanda kürdcə nəşr olunub (186,187).

Hər iki kitabın adından göründüyü kimi müəlliflər hələ sağlığında (şair 1984- cü ildə vəfat edib, əsərləri isə 1966 və 1968-ci illərdə nəşr olunub) klasikləşən dahi Ciyərxunun poeziyasında Xəlqiliyin və vətənpərvərlik ideyalarının başlıca yer tutduğuna diqqəti cəlb etmişlər. Onu da qeyd edək ki, hələ 1959-cu ildə Bakıda Azərbaycan dilində nəşr olunan "Kürd ədəbiyyatı almanaxı "nda ölməz şairin "Nə vaxtacan" və "Antantika İttifaqı" adlı iki şeiri (hər iki şeiri Ş. Əsgərov tərcümə etmişdir) verilmişdir (189,23-24).

"Nə vaxtacan" şeiri xalq milli-azadlıq mübarizəsinə səsləyən milli marşa bənzəyir. Belə ki, burada şair öz xalqına müraciətlə: " Nə vaxtadək qul kimi-belə rüsvay ola biz?! Nə vaxtadək yadların əlaltısı olaq biz?! və s. kimi suallar verdikdən sonra onu ayağa qalxmağa səsləyir:"

Tanıyıram mən sizi-döyüşdə nəhəg kimi,

Qoca Şərqə səs salın şir kimi, pələng kimi!

Vuruşlardan qorxmayın, tərpənməyin ləng kimi.

Gözünüzü tutmasın pərdə qara rəng kimi.

Dəmdir, qalxın ayağa-hər yandan bölük-bölük,

Nə vaxtadək daşıyaq çiynimizdə ağır yük?!

Nə vaxtadək itlərin öznündə önündə olaq sümük?!

Dahi şairin şeirlərinin demək olar ki, 80-90 faizi belə "milli marşlardan" ibarətdir. Həm yaradıcılıq xüsusiyyətlərinə,həm də doğma xalqı arasındakı böyük nüfuzuna görə Ş.Ciyərxunu cəsarətlə Azərbaycanın XX əsr dahi şairləri Səməd Vurğunla (şeirləri doğma xalqı arasında dillər əzbəri olması baxımından) və Xəlil Rza Ulutürklə (bütün həyatın və yaradıcılığını milli azadlıq uğrunda mübarizəyə həsr etdiyi üçün) müqayisə etmək olar.

Almanaxda verilmiş "Atlantika İttifaqı" adlı ikinci şeirdə milliyətçi olduğu qədər də beynəlmiləlçi (X.R. Ulutürk kimi) olan Şeyxmus Ciyərxun NATO-nun müharibə planlarını nifrətlə pisləyir, həmin hərbi ittifaqı ədalətə, sülhə səsləyir:

Sizdə vicdan hanı, ədalət hanı?!

Deyin, niyə qırsın insan-insanı?..

... Qan-qırğın salmağa etməyin niyyət!

Vaxtdır, ibrət alın, tarixdən ibrət!

(189,24-25).

Dahi şairin Kürdüstan tarixinə aid iki monoqrafiyası da elmi dəyərinə milli ruhu ilə diqqəti cəlb edir (190,191).

Müasir dövrdə də çoxsaylı kürd şairləri və yazıçıları öz sələflərinin ədəbi irsini daha da inkişaf etdirmək və yeni dövrün tələblərindən irəli gələn ideyalarla zənginləşdirmək üçün dəyərli əsərlər yaratmaqdadırlar. Belə kürd yazarlarından aşağıdakılarımisal göstərmək olar: Karlene Çaçani, əmərike Sərdar, Əsgəre Boyik, Çərkəze Rəş, Hərəme Rəş, Əhməde Həpo, Babaye Kələş, Temure Xəlil, Saleh Sayadi, Tosine Rəşid, Şerko Bekəs, Mehmet Əmin Bozarslan, Fərhad Şakəli, Mahmud Baksi, Naci Kutlay, Orxan Kotan, Kamal Burkay, Rəşo Zilan, Malmisanij, Mahvur Mayi, Məmməd Uzun, Fırat Cəvari, Xəlil Dihoki, Kərim Husami və s.

Bir məsələni də xüsusilə qeyd etmək lazımdır ki, yuxarıda adları çəkilən kürd ədəbiyyatının görkəmli nümayəndələri sırasına fars, türk, ərəb dillərində sanballı əsərlər yaratmaqla həmin xalqların ədəbiyyatını zənginləşdirən yazar lar (belələrinin sayı yüzlərlədir) salınmamışdır. Məlum həqiqətdir ki, Türk ədəbiyyatının ən görkəmli nümayəndələrinin xeyli hissəsi kürd mənşəli yazarlardır. Kürd mənşəli ziyalılar təkcə türk əədəbiyyatının deyil, türk incəsənətinin, xüsusilə, musiqi və kino sənətinin inkişafında böyük rol oynamış və oynamaqdadır. Türk hökumətinin yeritdiyi "tək millət, tək bayraq, tək dil" siyasətindən irəli gələn tızyiq və təqiblərdən qorxan bəzi: kürd ziyalıları və sənətkarları ya milli kimliyini danır, ya doğma ana dilində yazmaqdan və oxumaqdan çəkinir (İbrahim Tatlısəs, Mahsun Qırmızıgül və s. kimi), ya da ölkəni tərk etmək məcburiyyətində qalırlar.

Öz milli mənliyini heç nədən qorxmayaraq şərəflə qoruyan kürd ziyalıları isə "PKK-çı yanlışı" damğası ilə həbsə atılır, ya da dövlətin əli ilə gizli terorun qurbanı olur. Məsələn, türk kino sənətinin inkişafında ölməz xidmətləri olan Yılmaz Güney öz milli mənliyini biruzə verənkimi həbs edildi. Mənəvi təzyiq və təqiblərə, həbsxanada verilən amansız işgəncələrə tab gətirməyən dahi kinorejissor, dramaturq və aktyor Fransaya qaçmağa məcbur oldu. Lakin burada da onu dinc buraxmadılar. Məruz qaldığı mənəvi teror onun ağır xəstəliyə düçar olmasına səbəb oldu, 47 yaşında qürbətdə vəfat etdi.

Təkcə onu qeyd etmək kifayətdir ki, 26 illik yaradıcılıq həyatının 15 ildən çoxunu türmədə, sürgündə və müharicətdə keçirən Y. Güney 110 bədii filmə aktyor kimi çəkilmiş, rejissor kimi 17 film yaratmış, 53 kino ssenarisi, dörd sanballı roman və yüzlərlə hekayə yazmışdır. 1971-ci ildə Adana şəhərində keçirilən kino festivalında yeddi mükafatdan altısını (!) Y. Güney qazanmışdır. Türk mədəniyyətinə göstərdiyi bütün bu xidmətlərə görə Türk hökuməti ona 11 illik türmə həyatı "bağışladı".

Türk estradasının ən parlaq ulduzu Əhməd Qayanın taleyi də Y. Güneyin aqibəti ilə eynidir. Belə misalların sayı tək-tək deyil, onlarladır.

Kürd ədəbiyyatının qədimliyinə və zənginliyinə baxmayaraq, kürd ədəbiyyatı tarixi və kifayət qədər öyrənilməmiş və kürd ədəbiyyatşünaslığı zəif inkişaf etmişdir. Bu sahədə yazılmış kitabların (178,184,186,187,193-201) sayı kifayət qədər deyildir.

"Kürd fobiya" çıların kürd xalqına yaxdığı ləkələrdən biri də budur ki, guya bu qədər qədim və zəngin mədəniyyətə malik olan xalqın övladları istedadsız olub elmə, təhsilə maraq göstərmirlər. **Əvvəla,** kürd xalqının özünəməxsus etnoqrafik xüsusiyyətlərini tətqiq və müşahidə edən xarici ölkə alimlərinin və misionerlərinin bir çoxu (akad. Marr N. , akad. Minorskiy V., akad. Orbrli U., Lerx P., İbn Bətutə, Riç, Qrant, Riqler, Barb, Hammer, Sonthgate, F. Şinnavi və s.) məhz kürdlərin elmlərə dərin marağını, bu qədimxalqın bir çox övladlarının dünya elminə verdiyi töhfəsini xüsusi qeyd etmişlər. Fikrimizi sübut etmək üçün bir neçə konkret faktı misal göstərək.

İngilis alimi Southgate kürdlərin elmi qabiliyyətini çox yüksək qiymətləndirərək yazır: "Bir xalq kimi **Kürdlər** Şərqin hər hansı digər xalqından **yüksəkdə dayanır**" (25,32). Başqa misal: P. Lerx kürdlərin etnoqrafik xüsusiyyətlərini öz kitabında (25) ayrıca səciyyələndirmiş və burada onların elmə böyük marağını xüsusi qeyd etmişdir: "Müsəlman xalqları içərisində kürdlər, gələcəyə inam baxımından şərəfli yer tutur.... Riç onlarda **biliklərdə yiyələnmək cəhdinin farslar və türklərə nisbətən daha yüksək** olduğunu qeyd etmişdir... Bunu Qrant və Riqler də təsdiqləyir Axırıncı deyir: Kürdlər yüksək inkişaf üçün qabiliyyətə və **böyük istedada** malikdir" (Yenə orada)

Hələ XIV əsrdə ərəb alimi İbn Bətutə, XVIII əsrdə türk alimi Əbdürrəhman Əşrəf kürd alimlərinin dəyərli əsərlər yaratmasını qeyd etmişlər (Yenə orada).

P.Lerx göstərilən əsərində görkəmli kürd alimlərindən ərəb və ədəbiyyatşünaslığında tanınmış simalardan olan Əbülfidanı (O, Səlahəddin Əyyubinin yaxın qohumu olmuşdur) misal göstərir.

Onu da qeyd edək ki, Əbul-Fida həm görkəmli tarixçi, həm də məşhur tarixşünas olmuşdur. Onun haqqında təkcə P. Lerx deyil, bir çox mənbələr geniş məlumat vermiş və onu orta əsrlərin ən görkəmli alimləri sırasında qeyd etmişlər. Hətta, ASE-nin IV cildində onun barəsində verilən məlumatda Əbül Fidanın Əyyubilər sülaləsindən olduğu etiraf edilmişdir-hərçənd ki yuxarıda qeyd etdiyimiz kimi, ASE Əyyubilərin, o cümlədən Səlahəddin və onun yaxın qohumu olan Əbül-Fidanın milli mənsubiyyəti haqqında susmağa üstünlük vermişdir. Qəribə burasıdır ki, o, ərəb (?!) alimi kimi təqdim edilmişdir.

ASE-də bu dahi kürd alimi haqqında yazılan qısa məlumat belədir: "**Əbül Fida**-İmadədin əl-Məlik əl-Müəyyəd İsmayıl ibn Əli əl-**Əyyubi** (1273, Dəməşq -27.10. 1331, Həma)-ərəb(?!) tarixçisi, coğrafiyaşünası **Əyyubilər** nəslindən olan Ə. Bir çox hərbi səfərdə iştirak etmiş və nəhayət, 1320-ci ildən ata mülkü olan Həma şəhərinin əmiri

olmuşdu. 5 cilddən ibarət “Müxtəsər tarixi əl-bəşər (Bəşəriyyətin müxtəsər tarixi”) əsərində ən qədim dövrdən 1329-cu ilə qədərki hadisələr təsvir olunur. Əsərin 4-cü cildində Azərbaycanda Xarəzmşah Cəlaləd-din dövründə baş verən hadisələrdən də bəhs edilir.

1321-ci ildə tamamladığı “Təqvim əl-büldan” (“Ölkələr arasında coğrafi məlumat”) əsərində Azərbaycanın coğrafi mövqeyi , ticarət yolları, Xəzər dənizi, Kür çayı, Şirvan, Muğan, həmçinin, Bakı, Dərbənd, Ərdəbil və digər şəhərləri haqqında da məlumat var” (40,131). Bu məlumatlar İ. Kraçkovskiy və Z. M. Bünyadovun əsərlərindən (203;204) götürülmüşdür.

F. Şinnavi isə kürdlərin  müsəlman dünyasına ttəkcə qəhrəmanlıqları ilə deyil, eyni zamanda elm xadimləri ilə xüsusi xidmət etdiklərinə diqqəti yönəldir: “Səhahəddin Əyybi, İbn əl-Əsir, İbn əl-Halkan, İbn Təymiyə, Şeyx Səid ənnursi, bunlar islam tarixinin bəzi önəmli alimləridirlər. Əslində kürdlər sırf savaşçı deyildir. Kürdlərin arasından **filosof, tarixçi, siyasətçi**  və **din alimləri çıxmışdır**” (22,71).

Kürdlərin dünya elminə verdiyi töhvələri görə bilməyən (və ya bilərəkdən özlərini “korluğa” qoyan) bədxahlarımıza **ikinci**  xatırlatmamız budur ki, müstəqil dövlət qurumuna malik olmadıqları üçün fars, ərəb, türk, Azərbaycan və s. Dillərdə elmi əsərlər yaradan onlarla kürd övladı kürd alimi kimi deyil, fars, türk,ərəb, Azərbaycan və s. Xalqların elm xadimləri kimi tarixə düşmüşlər. Məsələn çoxları bilmir kiŞ yuxarıda qeyd olunan alimlərdən başqa, adları dünyada məşhur olan Əbül-Fida, Əbu Hənifə, Suriya Elmlər Akademiyasının yaradıcısı və ilk prezidenti, çoxcildlik “Suriya tarixi”  kitabının müəllifi Məhəmməd Fərid-Kürd Əli; bir çox yaxın şərq xalqlarının tarixinə dair geniş elmi məlumatlarla zəngin olan “Şərəf-namə” kitabının müəllifi Şərəfxan Bidlisi; dünya miqyasında tanınan geoloq-alim, SSRİ Elmlər Akademiyasının müxbir üzvü olmuş  Əli Əmiraslanov və onlarla beləlləri kürd əsilli elm xadimləridir.

Beləliklə, göstərilən konkret faktlar bir daha sübut edir ki, bu qədim xalqın təkcə Şərq mədəniyyətinə deyil, Dünya mədəniyyətinə, elminə verdiyi töhvələri “görməyən” (əslində isə görmək istəməyən) “kürdfobiya”çıların yuxarıda qeyd olunan fikirləri boşboğazlıqdan, zehni korluqdan və məqsədli uydurmadan başqa bir şey  deyildir. Belələrinə kürd olmayan , lakin bu xalqı dərindən tanıya görkəmli ədəbiyyatşünas alim q.Qasımzadənin həqiqəti əks etdirən bu sözlərini bir daha xatırladırıq: “Mərdliyi, rəşadəti ilə tarixdə şöhrət qazanan kürd xalqı həm də **qədim və qiymətli mədəniyyət abidələrinin** varisidir. Şərqin  zəngin bədii xəzinəsində yazılı kürd ədəbiyyatını təmsil edən 11-ci ərsin görkəmli siması Əli Həzirinin və onun davamçıları Cizirinin, Teyranın, Batenin,Xaninin irsi **dünya bədii klasikasının qiymətli nümunələri** sırasındadır” (182,3).

Fikrimizcə.,bu sozlərioxuduqdan sonra kurd mədəniyyətinə ləkə yaxanlar az da olsa xəcalət hissi kecirəcəklər.Əlbətdə,əgər onlarda zərrə qədər “vicdan” və “ziyalılıq” varsa. Hərçənd ki, beləlări özlərini millətin “vicdanlı ziyalıları” adlandırırlar.

## I.V. İSLAM DİNİNİN İNKİŞAFI VƏ QORUNMASINDA KÜRDLƏRİN TARİXİ ROLU

Yuxarıda artıq qeyd edildiyi kimi, qədim kürdlər Zərdüşt dininə (atəşpərəstliyə) sitayiş etmişlər. Bu barədə kürdlərin tərkibindən bəhs edən əsərlər yazan tətqiqatçıların demək olar ki, hamısı öz fikrini bildirmiş və onu da qeyd etmişlər ki, Zərdüştün özü milliyətcə kürd olmuşdur.

"Kürdlərin mənşəyi" adlı dəyərli kitabın müəllifi İhsan Nuri Paşa tarixi-coğrafi, etnoqrafik və leksik fakt və materialların təhlili əsasında Medlərin (Madların, midiyalıların) kürdlərlə eyni mənşəyə malik olduğunu sübut etməklə yanaşı, onların peyğəmbəri Zərdüştün də bu xalqın övladı olması və atəşpərəstlərin əsas dini kitabı olan "Avesta"nın da kürd dilinə ən yaxın olan bir dildə yazılması fikrini əsaslandırmağa çalışmışdır.

Müəllif, bu fikrini *(Zərdüştün kürd mənşəli olmasını)* əsaslandırmaq üçün yazır: "Zərdüştün əsil adı nəisə onlar (yəni midiyalılar) ona "Zərdüşt raspi tmə" demişlər. Bunun mənası "Bəyaz (təmiz) soylu Zərdüşt" deməkdir. Zərdüştün millətinin dili, yəni Mad dili ilə söylənən bu sözlər əslində bügunki Kürd dilindən fərqli deyildir. "Zər tuş ra spi tme" – Kürd dilində "Sarı şüalı günəşin bəyaz əlaməti" şəklində izah oluna bilir:

| Madca | Kürdcə | Farsca | Türkcə |
|---|---|---|---|
| (Med dili) | zər | Zərd | sarı |
| zər | tiş(tij) | Şid (şüa) | ışın |
| Təş | ra (ro) | afitab | günəş |
| ra | spi | səfid | bəyaz |
| spi | tim | dəstə, tim | takım,qrup, |
| tim (tmə) | | | sürü, mənsubiyyət |

Zərdüştlərin günəşə sitayiş etdiklərini göz önünə gətirsək, bu səbəbdən peyğəm bərlərinə sarı şüalı günəş ləqəbi vermələri ağlabatandır" (81,93-95).

Tarixindən yaxşı məlumdur ki, Zərdüşt dini (atəşpərəstlik) I Daranın dövründə (e.ə.522-486) dövlət dini olmuşdur. Yuxarıda qeyd etdiyimiz kimi Zərdüştün vətəni Kürdüstan ərazisində *(Urmiya gölünün qərb hövzəsində)* yerləşir. İhsan Nuri paşa qeyd olunan kitabında göstərir ki, Zərdüştlərin inancına görə Muhabad *(İran Kürdüstanındakı*

*Mehabad onun adını daşıyır)* I Zərdüşt; odda yandırılan Huşəng II Zərdüşt; İbrahim peyğəmbər isə III Zərdüştdür. Yuxatıda qeyd etdiyimiz kimi İbrahim peyğəmbərin də vətəni Urfa Kürdüstandadır *(Kürdlər bu qədim şəhərə Rıha deyirlər ki, bunun da mənası "müqəddəs ruhların yaşadığı yer deməkdir).*

Atəşpərəstliyin vətəninin Kürdüstan olması, bu dinin qədim Kürdlər /Medlər arasında daha geniş yayılması fikrini əsaslandırmaq istəyən İ. N. Paşa və bir çox digər tətqiqatçıların arqumentlərindən biri də budur ki, İslam dinini qəbul etməyən dinlərinin bəzi ayin və adətlərini icra edirlər (günəşə and içmək ölülərini üzü gündoğana tərəf basdırmaq və s.)

V. F. Minarskiy və N. Y. Marrin fikrinə görə Ezid *(bu sözü çox vaxt səhv olaraq Yezid ilə eyniləşdirirlər)* sözü qədim fars dilində "Allah" deməkdir (41,143;21;23) Əslində isə bu söz kürd dilində "Məni yaradan" deməkdir. Həm akad. Marr, həm də akad. Minorskiy ezidizmi kürdlərin bütpərəstlik dini hesab edirlər (Yenə orada). Ezidi dininin banisi Şeyx Hadi hesab olunur. O, 1073 (bəzi mənbələrə görə 1078; üçüncü qrup alimlərin fikrinə görə IX əsrdə; P. Lerxin verdiyi məlumata görə isə 1275-ci ildə) anadan olmuşdur. Ezidlər vahid allaha (Xwədê, Xödê) inanır və belə hesab edirlər ki, allahın Yerlə başlıca təzahürləri günəşin rəmzi sayılan Mələk Tovus *(Tovuz quşu)*, Şeyx Hadi *(peğəmbər)* və cavan adam obrazında təsvir olunan Eziddir.

P. Lerx bir çox xarici tətqiqatçıların fikirlərini təhlil edərək göstərir ki, Ezidizmlə qədim assuriyalıların dini arasında sıx əlaqə mövcuddur. Belə ki, onlarda qədim assariyalılar kimi tovuz quşunu *(Mələk Taus)* müqəddəs sayır; günəşə və oda sitayiş edir; bir çox dini simvolları oxşarlıq təşkil edir; şir, ilan və balta və s. kimi assuriyalıların simvollarına hörmətlə yanaşır; kişilər və qadınlar qədim assiriyalıların bəzək əşyalarından istifadə edir; nəhayət, Ezdilərin böyük əksəriyyəti qədim Ninəvanın yaxınlığında yaşayır və onların müqəddəs məbədgahı assuriyalıların xalq məbədgahının yaxınlığında yerləşir (25,51). R. Lerxin bu fikri bir daha təsdiqləyir ki, Ezid kürd sözü olan Əzdan / Ezdan sözündəndir və "Məni yaradan" yəni "Böyük yaradan" (Allah) deməkdir.

Qədim Ezdilər Mesopotomiya ovalığının cənubunda yerləşən Laləş ş*(Assuriya mənbələrində Laqaş)* əhərində yaşayırdılar. Həmin şəhər müasir Bəsrə şəhərinin ərazisində yerləşirdi. Assuriyalıların zülmünə dözməyən Ezidilər şimala doğru hərəkət edərək Mosul yaxınlığında yeni Laləş şəhərini salaraq burada məskunlaşmışlar.

Bəs bu qədim kürdlərin adının *(Ezidi)* Yəzid sözündən olan yezidlər *(yəzid (yezid))* formasına düşməsinin səbəbi nədir. Tarixi mənbələrdən, xüsusilə, ərəb tarixçilərinin əsərlərindən məlum olur ki, Ərəb xilafəti şərqə doğru genişlənən zaman, konkret olaraq, 838-ci ildə Mosul kürdləri *(onların xeyli hissəsini Ezidilər təşkil edirdi)* Dasni kürd

tayfasının lideri Cəfər ibn Fəhərcasın rəhbərliyi altında üsyan qaldıraraq, ərəblərə ciddi müqavimət göstərmişdir.

Kürdlərin müqavimətini qırmaq üçün onları parçalamaq siyasətinə əl atan Xəlifə əl-Mütəsim Dasni kürdlərinin arasında gizli təbliğat aparmaq üçün Şeyx Hadi ibn Müsafiri göndərdi. O, Dasni kürdlərinə özünü Xəlifə əl-Mütəsimin və abbasilər sülaləsinin qatı düşməni, kürdlərin canıyananı kimi təqdim etdi. Kürd şeyxləri və sərkərdələrinin bir qismini pul ilə ələ alanj Şeyx Hadi onları Müaviyənin oğlu Yəzidin *(Yəzid ibn Müaviyyə)* ətrafında birləşməyə sövq etdi. Beləliklə, Dasni Kürdləri arasında nüfuz qazanan Şeyx Hadi onlar tərəfindən müqəddəsləşdirildi.

Yəzid ibn Müaviyə isə Peğəmbərlərin *(Məhəmməd s.a.s-in)* nəvəsi Imam Hüseynin KərbəLa çölündə qətlini həyata keçirən sərkərdədir. Şeyx Hadinin təhriki ilə Yəzidin tərəfinə keçən kürdlər yəzidilər adlanmağa başladılar. Halbu ki, qədim Ezdi *(Əzdi)* tərəfdarı olan Ezdilər yuxarıda qeyd etdiyimiz kimi bütpərəst, daha doğrusu atəşpərəst *(onlar atəşpərəstliyi digər kürdlər kimi Böyük Midya dövründə etmişlər)* idilər. Şeyx Hadi özünün peyğəmbər kimi qələmə verdikdən sonra Ezdiləri Yezidilər adlanmasına və onların qədim dinlərdən əl çəkib onun yaratdığı təriqətə sitayiş etmələrinə nail oldu. Bəzi alimlərə görə Ezdilər də VII əsrdə müsəlmanlığı qəbul etmişlər. Lakin Şeyx Hadi onları bu dindən ayıraraq yeni təriqətə cəlb etməklə kürdlərin parçalanmasına nail olmuşdur.

1224 peyğəmbərin mövcudluğunu qəbul edən Ezdilə *(Yezidilər)* onların arasında Şeyx Hadini hamıdan üstün hesab edirlər. Hal-hazırda Ezidilərin yeganə məbədgahı Mosal yaxınlığındakı Laləşdə yerləşən Şeyx Hadinin qəbri və məbədidir. Onların başlıca dini kitabları “Kitaba rəş” *(“Qara kitab”)* və “Kitėba cilvə” *(“Kəşvlər kitabı”)*-dır. Hər iki kitab Şeyx Hadi tərəfindən gizli şifrələrlə yazılmışdır.

1925-ci ildə xarici ölkə nümayəndələrindən ibarət nümayəndə heyəti Sincar rayonunda (ilçəsində) yaşayan Ezidilər arasında tətqiqat apardıqdan sonra yazırdı: “Ezidilər cənnətdə kürd dilində danışılacağına inanırlar. Tanrı Qurani Kərimim kürd dilində göndərdiyi halda, Məhəmməd s.a.s onu Ərəb dilində yazmışdır. Bu topluluq ibadətlərini də kürd dilində yerinə yetirir”(81,64-65).

Dünyada yaşayan 50 mln kürdün 99%-i müsəlman, 1%-ə yaxını Ezidi, cüzi bir hissəsi isə xristiandır. Kürdlər ərəblərlə bir başa qonşu olduqları üçün İslam dinini ilk qəbul edən (ərəblərdən sonra) xalqlardan biridir. İslam dininin və mədəniyyətinin inkişafında, qorunub saxlanılmasında kürdlərin böyük tarixi rolu olmuşdur. Onların bu xidmətini demək olar ki, kürdşünasların hamısı etiraf etmişdir. Yuxarıda Əyyubilər sülaləsindən bəhs edərkən Səlahəddin Əyyubinin İslam dünyasını Səlibçilərin (Xaçpərəstlərin) yürüşündən necə xilas etməsini qeyd etmişik. Onun bu tarixi rolunu bir çox tətqiqatçılar, dinşünas alimlər və görkəmli din xadimləri çox yüksək

qiymətləndirmişlər. Məsələn, görkəmli dinşünas alim dr. Fəhmi Şinnavi yuxarıda adı çəkilən əsəridə yazır:

“Kürdlərin qazandığı savaş təkcə Səlahəddinin xaçpərəstləri məğlub etməsi ilə məhdudlaşmır. Kürdlər xəçpərəstlərlə amansız mübarizəyə girişərkən, ərəblər xaçpərəstlərlə işbirliyinə girib İslam tarixinin köklərini qazdılar. Kürdlərin rolları sadəcə Səlahəddinin  müvəfəqiyyəti ilə məhdudlaşmır. Çünki onlar İslamın bütün fəthlərinə qatıldılar. Hindistanın şərqindən Orta Avropanın qərbinədək  **Kürdlər savaşlarda** arxa sırada olmayıb, **ölümdən qorxmadan**  həmişə **ön sırada** idilər.

Qafqazı fəth etməklə,  **Çini Rusiyanı və Monqolustanı**  onlar məğlub etdilər. Kürdlər tarixlərinə kəsinliklə ləkə yaxan bir xalq deyildir. Onlar şər güclərə qarşı boyun əyməyib hər zsaman şərəflə mücadilə etmişlər” (22,71).

Daha sonra müəllif Kürdləri İslam dini uğrunda həyatını qurban vermiş “şəhidlər”, onların vətənini “Şəhidlər yurdu” adlandırır: “Yaşadıqları bölgənin adını Kürdüstan qoymuşlar. Qərbli yazarlar isə buranı “qəhrəmanlar diyarı” adlandırmışlar. Doğru olanı isə “Şəhitlər diyarıdır ”.  Çünki onlar tarix boyunca şəhidliyi bütümn nəsillərə öyrətmişlər”. (Yenə orada, səh. 72). Göstərilən əsərin bir neçə yerində müəllif kürdləri dönə-dönə “İslam mizrağının başı adlandırır.

Görkəmli başqırd (başkürd) alimi S. Qallyamov da kürdlərin İslam dünyası qarşısında xidmətlərini çox yüksək qiymətləndirərək bir sıra tarixi faktları sadalayır: “Kürdlərin yeni dinin yaranmasındakı bir başa iştirakını iki çox mühüm hadisə təsdiqləyir. Belə ki, Parsan vilayətindən olan  **Kürd Salman,** Salman əl-Farisi, keçmiş atəşpərəst kahini, sonralar yeni dinin yaradıcısı-Məhəmməd və onun ailə üzvlərinin yaxın dostuna çevrildi. Peyğəmbərin ölümündən sonra Salman əl- Farisi **ilk dəfə**  öz hafizəsi əsasında **Quranı yazdı** və redaktə etdi...

......Başqa kürd alim-hüquqşünası kürd şəhəri Dinavərdən olan **Əbu Hənifə** (699-767) islam dünyasında ilahiyyat elmində yazılı ənənənin yaradıcısı hesab olunur, belə ki, **islam doqmatizminə aid ilk yazılı əsər-** “Əl-Fiqh əl-Əkbər”-ona məxsusdur (23,322-323).

Onu da  qeyd edək ki, bu görkəmli kürd alimi və hüquqşünasının xidmətlərini təkcə S. Qallyamov deyil, bir çox tətqiqatçılar yüksək qiymətləndirmişlər. Məsələn, Q. Kolb onun haqqında belə yazır: “Tacir Əbu Hənifə, öz xalqının böyük hüquqşünası, bir nüçə yüz il öz müasirlərini hümanizmdə, xüsusilə, cinayət hüququ sahəsində qabaqlamışdır. Onun məktəbi ölümündən az sonra bütün ölkədə hakim mövqeyə malik olmuş və müsəlmanlar indiyədək onu müdafiə edirlər” (202. 131).

ASE-nin IV cildində bu görkəmli din xadimi və alimi haqqında verilən qısa məlumatda oxuyuruq: **Əbu Hənifə** fars (31) mütəfəkkiri; hənifəliyin banisi və rəhbəri Ə.H. islam dinini qəbul etmiş, fiqh elmini öyrənmişdir. Ə.H. fiqh elmini bölmələr və fəsillər üzrə tərtib edərək ona daha da təkminləşdirmiş, islam aləmində fiqh və məntiq alimi kimi tanınmışdır. Əsərlərində ağıl və mühakimə məsələlərinə daha çox meyl etmişdir.

Ə.H. "Kitab əl-fiqh əl-əkbər" ("Böyük fiqh kitabı"), "Risalə ər-rədd əla əl-qədriyyə və-elm bərrəm və böhrən, şərqən və qərbən bədən və qurban" ("Qədriyyə nəzəriyyəsinin rədd edilməsinə dair, quru və dəniz, Şərq və Qərb, uzaq və yaxın elmlər haqqında risalə"), "Kitab əl alim və əl-mütəəlim" ("Alim və təlim alanlar kitabı") və s. əsərlərin müəllifidir"(40,131).

Göründüyü kimi, bu kürd alimi də yuxarıda qeyd etdiyimiz bir çox elm və mədəniyyət xadimləri kimi başqa xalqa aid edilmişdir.

S.Əyyubidən başqa bir çox kürd hökmdarlar Yaxın Şərqdə İslam dininin və mədəniyyətinin inkişafı üçün dövlət səviyyəsində böyük işlər görmüşlər. Məsələn, yuxarıda qeyd edilən Həsənvayhilər dövlətinin banisi Həsənvayh İbn əl-Kürdi hakimiyyətə gələn kimi ölkədə əzəmətli məscidlər tikməyə başlayır. Onun ölümündən sonra hakimiyyət başına keçən oğlu Bədir nəinki məscid və məbədlərin sayını artırır, o, eyni zamanda islam dininin inkişafı və təbliği üçün külli miqdarda pul vəsaiti xərcləyir. Həmin xərclər haqqında bəzi faktlar yuxarıda qeyd olunmuşdur. Burada onu da əlavə edək ki, Bədir Həsənvayhi təkcə yolların, Məkkə və Mədəniyyətinin mühafizəsinə hər il 100.000 dirhəm xərcləyirdi.

Əlbəttə, kürdlərin İslam dininin inkişafı və qorunması yolunda göstərdikləri misilsiz xidmətlərə dair tarixi faktlar təkcə yuxarıda qeyd olunanlardan ibarət deyildir. Belə faktların sayı "kifayət qədər"dən də çoxdur. Bu faktları sadalamaqdan daha çox bizi belə bir sualın cavabı maraqlandırır: "İslam dininə və mədəniyyətinə misilsiz xidmətləri müqabilində İslam dünyası, xüsusilə, yaxın qonşu olan "müsəlman qardaşlarımız" (ərəblər, türklər, farslar) kürdlərə nə vermişdir?!"

Çox təəssüflər olsun ki, bu sualın cavabı acı bir həqiqətdən ibarətdir: "müsəlman qardaşlarımız" kürdlərin tarixi xidmətləri (həm İslam dünyası qarşısında, həm də İran, Ərəb, Türk dövlətlərinin qurulması və inkişafında) müqabilində onların layiq olduqları milli haqlarını özlərinə qaytarmaq əvəzinə əsrlər boyu və günü-bugün mənəvi təzyiq və təqiblər, günahsız həbslər və sürgünlər; "Hələbcə", "Dersim" və s. qətliamlar; dinc əhalinin "uşaq, qadın, qoca", -deyilmədən bombardman edilməsi, doğma ana dilində təhsil almaq hüququndan məhrumetmə; öz balalarına doğma dildə ad verməni̇n qadağan edilməsi və s. və i.a kimi çoxsaylı "hədiyyələr" bəxş etmişlər.

Bütün bunlar ürək ağrısı ilə diqqəti yönəldən dr. F.Şinnavi çox haqlı olaraq qeyd edir ki, İran, Türkiyə, İraq və Suriya dövlətləri yuxarıda qeyd olunan “hədiyyələr” əvəzinə kürdlərin milli haqlarını özlərinə qaytarsalar, kürdlər bu ölkələrin bərabərhüquqlu vətəndaşları kimi məmnun olar, “kürd məsələsi” sülh yolu asanlıqla həll edilər. Müəllif kimi haqları uğrunda mübarizə aparan kürdləri günahlandıran “müsəlman qardaşlarımıza” belə cavab verir:

“Ümumilikdə kürd məsələsi, özəldə isə İraqdakı ayaqlanma kürdlərdən qaynaqlanan bir məsələ deyildir. Bu məsələ Kürdləri atəşə tutan üç ölkədən qaynaqlanan bir durumdur. Belə ki, bu hökumətlər ölkələrində yaşayan Kürdlərə təhlükəsiz, rahat, rifahlı bir həyat bəxş edən hökumətlər olsaydı, Kürdlər özəl haqlarını unudub onların cənnətlərindən faydalanmaya başlayacaqdılar ” (22,52).

Əsərin başqa bir yerində dr. F. Şinnavi qeyd edir ki, müsəlman qardaşlarımız avropalı ağalarının (xaçpərəstləri darmadağın edən S. Əyyubiyə görə kürdlərə qarşı bu gün də kin bəsləyənlərin) təhriki və dəstəyi ilə kürdlərə milli haqlarını qaytarmaq əvəzinə, onlara qarşı inkarçılıq, təzyiq və təqib siyasəti yeridirlər: “Siyanist və xaçpərəstlər dünyası Səlahəddin Əyyubinin bütün Avropaya ağır zərbə vurduğunu heç bir zaman unutmadılar... Siyonistlər kürdlərə qarşı kinlərini I Dünya müharibəsindən sonra Kürdləri beş hissəyə böldülər. Bir qismini iRana Suriyaya, bir qismini İraqa, bir qismini Türkiyəyə, digər bir qismini isə Rusiyaya verdilər.

Xaşpərəstlər, Kürdlərə olan kinlərini daha da artırmış, Kürdlərin siyasətlərini, həyatlarını gələcəklərini müasir ölkələrə buraxmışlar. Beləliklə bu məzluminsanlar böyük dağın arasına sıxışdırılmışdır. Önlərində qızmar bir səhra, arxalarında qan qusan düşmən”(Yenə orada, səh73).

“Kürd məsələsi yalnız Kürdlərin məsələsi deyil, bütün dünya müsəlmanlarını məsələsidir”,-deyən dr. F. Şinnavi bu müşkül məsələnin həlli yolunu da “müsəlman qardaşlarımıza” göstərir: “Son çarə isə: Kürdləri öz idarəçiliyi altında saxlayan, onları məmnun edən, yaxşı həyat yaşamalarını təmin edən, bir quruluşun təzyiq üsulu ilə deyil, islahat üsulu ilə həm İraqda, həm İranda və həm də Türkiyədə yaradılmasıdır. Belə bir durumda Kürdlər bu ölkələrdən ayrılmağı özləri istəməyəcəkdir” (Yenə orada, səh52).

Dr. F. Şinnavininaxırıncı sözlərindəki həqiqəti “müsəlman qardaşlarımızdan” ərəblərin İraqda kürdlərin milli haqqlarını, tam olmasa belə, tanıdıqdan sonra burada yaranan sabitlik (ərəblərlə kürdlər arasında uzun sürən müharibələrə son qoyulması və İraq kürdlərinin müstəqil Kürdüstan dövləti qurmaq uğrunda minlərlə şəhid verdiklərinə baxmayaraq, bu dövlət çərçivəsində razı olmaları sübut etdi. İndi növbə digər “ müsəlman qardaşlarımızındır ”: kürdlər və farslar da kürd qardaşlarının qanını tökmək, dinc əhalini bombardman etmək, polisə daş atan kürd balalarını həbə saldırmaq əvəzinə onların milli

haqlarını tanısalar , Türkiyə və İran kimi böyük müsəlman ölkələrində də sabitlik və inkişaf şəraiti yaranar, bu isəmüsəlman dünyasının parçalayıb dağıtmaq istəyən xaçpərəstlərin əzəli və bugünkü arzusu gözlərində qalar.

“Kürd məsələsi”nin həlli bütün Yaxın və Orta Şərq regionunda möhkəm sülhün əldə edilməsi üçün mühüm şərtlərdən biridir. Türk və Fars “qardaşlarımız bu həqiqəti nə qədər tez anlasalar onları İslam dünyasındakı itmiş nüfuzu ( “müsəlman qardaşlarına” zülm etdikləri üçün bu nüfuz çox aşağı düşüb) bir o qədər tez yüksəklər.

## I.VI. MÜSTƏQİL KÜRDÜSTAN DÖVLƏTİNİN YARANMASINA MANE OLAN SƏBƏBLƏR

Kürdlərin və Kürdüstanın tarixinə qısa nəzər göstərdi ki, qədim və geniş, təbii sərvətlərlə zəngin, məskunlaşma ərazisinə, doğma dilə, sayılıb-seçilən etnoqrafik xüsusiyyətlərə, zəngin mədəniyyətə malik olna bir çox qüdrətli dövlət xadimləri yetirən, İran, Türkiyə, İraq, Rusiya, Azərbaycan və s. dövlətlərinin qurulması və inkişafında, həmçinin, bütün İslam dünyasının qorunmasında misilsiz xidmətlər göstərən bu qəhrəman xalq indiyədək milyonlarla şəhid verdiyinə baxmayaraq, öz müstəqil dövlətini qura bilməmişdir.

Bütün kürdlərin tarix boyu ən yüksək amalı olan müstəqil Kürdüstan dövlətinin yaranmasına mane olan obyektiv və subyektiv, tarixi və müasir səbəblər çoxdurş Kürdüstan tarixinin siyasi təhlili həmin səbəbləri aşağıdakı kimi qruplaşdırmağa imkan verir.

İ. Kürdüstan ərazisinin ən qədim zamanlardan yeni dövrədək **nəhəng imperiyalar** *(İran, Roma, Bizans, Ərəb Xilafəti, Osmanlı və s.)* **arasında yerləşməsi.** Hər tərəfdən "ayılar" və "şirlər" lə əhatə olunan kürdlər əsrlər boyu onların hücumlarına *(çox vaxt "əlbir olub bir ayı bir şir ilə" hikmətinə əsaslanan birgə hücumlarına)* məruz qalmış, Kürdüstanın ərazisi saysız-hesabsız müharibələr meydanına çevrilmiş, minlərlə yaşayış məntəqələri, maddi və mənəvi mədəniyyət abidələri məhv edilmişdir. Əlbir olan "ayılar" və "şirlər"in hücumlarından qorxmayan kürdlər onlara qarşı pələng kimi qəhrəmancasına vuruşduqları üçün minilliklər ərzində milyonlarla şəhid vermiş, dovşan kimi qaçıb gizlənənlərdən fərqli olaraq öz milli varlığını, milli mənliyini bugünədək qoruyub saxlamışlar.

2. Kürdüstan ərazisinin **mühüm geostrateji mövqeyə** və **zəngin təbii sərvətlərə** malik olması. Xalq hikmətində deyildiyi kimi, "gözəlin başı həmişə bəlalı" olur. Kürdüstanın da başına gələn bəlaların çoxuna səbəb onun yuxarıda qeyd etdiyimiz gözəlliyi, zənginliyi və müasir dövrdə çox mühüm olan geostrateji mövqeyidir. Tarix boyu Kürdüstanın qonşuları, hətta, qonşu olmayan yadelli işğalçılar da ona "yağlı tikə" kimi baxmış və onu ələ keçirmək üçün qanlı müharibələr aparmışlar.

3. Kürd cəmiyyətində **hərbi-tayfa quruluşunun** öz nüfuzu yeni dövrədək saxlaması; ayrı-ayrı tayfa ittifaqları arasında **milli birliyin olmaması.** Yuxarıda qeyd etdiyimiz müstəqil və yarımmüstəqil kürd əmirlikləri vahid kürd xalqını deyil, ayrı-ayrı tayfa ittifaqlarını təmsil edirdi. Həmin əmirliklər arasında milli birlik yox idi. Digər tərəfdən qonşu dövlətlər həmin əmirlikləri, daha doğrusu onlara rəhbərlik edən tayfa başçılarını *(kürd əmirlərini)* müxtəlif vasitələrlə ələ alır və onları bir-birinə düşmən edirdi.

Kürd xalqının böyük mütəfəkkiri oğlu Əhməd Xani müstəqil Kürdüstan dövlətinin hələ XVII əsrdə yaranmasına mane olan başlıca səbəb milli birliyin olmamasından görərək, məşhur "Mən və Zin" poemasında yazırdı:

Qəhrəmanlıq, qüdrət, mərdlik, səxavət,

Əmirlik, rəşadət, igidlik, qüvvət-

Xasdır kürdün hər bir qəbiləsinə,

Burda hamı girər qılınc bəhsinə.

Kürddə nə ölçüdə varsa cəsarət-

O qədər nifrətə eyləyər nifrət.

Qeyrətə boğulub ömrün dar günü

Boynuna götürməz minnət yükünü.

Tayfalar tayfaya düşməndir ancaq,

Odur ki, ortada yoxdur ittifaq.

Əgər birlik nəsib olsaydı bizə,

Arxa dayansaydıq bir-birimizə,Kürdə baş əyərdi ərəblə əcəm,

Cümlə dərdimizə olardı əncam (181,10).

Fikrimizcə, dahi mütəfəkkir şairin tarixi həqiqəti bu dərəcədə aydın və lakonik ifadə edən hikmətli sözlərinin heç bir izaha ehtiyacı yoxdur.

4. Kürd xalqının yetirdiyi tarixi şəxsiyyətlərin *(S. Əyyubi, Məhəmməd İbn Ər-Rəvvad, Əhməd İbn Mərvan, Məhəmməd İbn Şəddad əl- Kürdi, Kərimxan Zənd, Bəkir Sidqi, Turqut Özal və s.)* əksəriyyətinin **şəxsi və ya tayfa mənafeyini milli mənafedən,** dini hissləri milli hisslərdən **üstün tutması**. Bu səbəbə (xalqın vahid liderinin olmaması) xüsusi önəm verən dahi Əhməd Xani yazır:

Bir kərəm sahibi, ürəyi təmiz

Əzəldən olsaydı **başbilənimiz,**

Əsla yer qalmazdı şəkkə-şübhəyə,

Sikkə basılardı bizim külçəyə.....

Meydana çıxsaydı **padişahımız**

**Ləyaqətli, nəcib qibləgahımız...**

Qoysaydıq başına şərafətli tac,

Ad-sanda olmazdıq kimsəyə möhtac.

**Dərdimizə qalıb öndə gedərdi,**

Bizim namərdlərdən xilas edərdi.

O vaxt baş tutmazdı Rum istilası,

Yurdumuz olmazdı bayquş yuvası (181,8-9).

Göründüyü kimi dahi mütəfəkkir şair müstəqil dövlətin qurulmasının başlıca amillərindən birini ləyaqətli, xalqın “dərdin qalıb öndə” gedən liderin olmasında görür. Kürd xalqının qeydinə qalmaq, ona liderlik etmək əvəzinə başqa xalqlara rəhbərlik etmiş və bunu özlərinə “şərəf-şan” bilmişlər.

Dr. F.Şinnavi də kürdlərin bir sıra görkəmli tarixi şəxsiyyətlərinin bu cəhətinə xüsusi diqqət çəkərək yazır: “.... Səlahəddin Əyyubi xaçpərəstlərin səfərlərinə qarşı özünə tabe olan Kürdlərlə və Türk əsillilərin köməyi ilə qələbə çaldı. Fəqət, doğma vətəni lan Kürdütanı buraxıb Misirdə yerləşib özünə bir qala inşa etdirdi. Doğulduğu yeri İslam qalası halına gətirməyə qadir olduğuna rəğmən bunu etmədi Səlahəddin Səlibçiləri 12.000 Kürd əsgəri ilə məğlub etdi. Bu qədər az saylarına rəğmən sərt təbiətləri, cəsur və mərd olmaları və savaş texnikasını yaxşı bilmələri və uzun yolçuluğa dayanma gücünə sahib olmaları sayəsində avropalıları darmadağın etdi. Xaçpərəstləri qovan kürdlərsəlahəddinin Misirə yerləşməsi ilə avropalaşmaya başladı. Səlahəddin avropalaşma hərəkatında başarılı ola bilmədi. Fəqət, Səddam vəhşi bir şəkildə Kürdləri zorla ərəbləşdirmə əməliyyatına başladı və bunda başarılı oldu” (22, 46).

Müəllif daha sonra İran şahı olmuş Kərimxan Zəndin, İraqın baş naziri və ali hərbi rəhbəri olmuş Bəkir Sidqinin, Türkiyəni iqtisadi böhran bataqlığından çıxarmış Turqut

Özalın da öz xalqları üçün heç nə etmədiklərini qeyd edir və onları buna görə qınayır (Yenə orada, səh.47).

5. Yeni dövrdə, xüsusilə, yaşadığımız zamanda böyük dövlətlərin **iqtisadi maraqları ilə** müstəqil Kürdüstan dövləti qurmaq istəyən **Kürdlərin milli maraqlarının bir-birinə zidd olması.** Xatırladaq ki,XX əsrin 20-ci illərində müstəqil Kürdüstanın yaranması üçün şərait yarandığına baxmayaraq, Mosul və Kərkük neftinə yiyələnmək istəyən ingilislərin səyi nəticəsində Sevr müqaviləsi *(10 avqust 1920-ci ildə Paris ətrafındakı Sevr məntəqəsində Türkiyə ilə imzalanmış bu müqavilədə bir ildən sonra Mosal vilayətində əhatə edəcək müstəqil Kürdüstan dövlətinin yaradılması nəzərdə tutulmuşdur)* kağız üzərində qaldı.

XXI əsrin əvvəllərində də müstəqil Kürdüstanın yaranmasına tarixi şərait yarandı. Lakin bu dəfə də ABŞ hərbi iqtisadi maraqlarını *(netflə zəngin Ərəb ölkələri və NATO üzvü olan Türkiyə ilə sıx əməkdaşlıq əlaqələrini)* kürdlərin milli du *( Halbuki ABŞ kürdlərə milli dövlət quruculuğunda kömək edəcəyinə söz vermişdi)*. Nəticədə İraq kürdləri yuxarıda qeyd etdiyimiz kimi Muxtar Kürdüstanın qurulmasına razı olmaq məcburiyyətində qaldılar.